Taleh MİRZƏYEV

# Pedaqoji Universitetin Qəhrəmanları

(ensiklopedik toplu)

Bakı - 2021



*“Azərbaycan Dövlət Pedaqoji İnstitutu böyük və çətin yol keçmişdir. Onun kollektivi Azərbaycan ümumtəhsil məktəbinin inkişafında böyük xidmət göstərmiş, institut xalq maarifi üçün yüksəkixtisaslı kadrlar ocağına çevrilmişdir. Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır. İndiyə qədər yaranmış təməlin üzərində dayanan Azərbaycan təhsili bundan sonra daha da təkmilləşəcəkdir. Azərbaycan müəllimləri ən yüksək mənəviyyata, vətəndaşlıq hislərinə malik olan insanlardır”.*

**Heydər Əliyev**

**Azərbaycan xalqının ümummilli lideri**



*“İxtisaslaşmış ali təhsil müəssisəsi kimi Azərbaycan Dövlət Pedaqoji Universiteti müəllim hazırlığı sahəsində və pedaqoji təhsilin inkişafı naminə bu gün də uğurlu fəaliyyəti ilə müstəqil Azərbaycanın inkişafına töhfələrini əsirgəmir. Universitetdə qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından faydalanmaqla ali təhsilin məzmun və keyfiyyət göstəricilərinin təkmilləşdirilməsi istiqamətində zəruri addımlar atılır”.*

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Layihə rəhbəri:**
*ADPU-nun rektoru, tarix elmləri doktoru, professor Cəfər CƏFƏROV*
**İdeya müəllifləri:**
*Filologiya elmləri doktoru, professor Fikrət RZAYEV,*
*Cavid HÜSEYNOV, Taleh MİRZƏYEV*
**Layihənin icraçısı:**
*ADPU-nun Tələbələrlə iş və ictimaiyyətlə əlaqələr şöbəsi*
**Elmi redaktor:**
*Filologiya elmləri doktoru, professor Fikrət RZAYEV*
**Tərtibçi:**
*Taleh MİRZƏYEV*

**Mirzəyev T.Ə. "Azərbaycan Dövlət Pedaqoji Universitetinin Qəhrəmanları (ensiklopedik toplu)". Bakı, ADPU, 2021, 304 səh.**

Pedaqoji Universitetin yarandığı gündən bu günə qədər yetişdirdiyi 160 mindən çox yüksəkixtisaslı məzunları respublikamızın ümumtəhsil tarixində həlledici rola malik olmaqla ölkə təhsilinin əsas dayaqlarından birinə çevrilmişdir. Eyni zamanda universitetin məzunları arasında onlarla görkəmli elm, mədəniyyət və ictimai xadimlərin adlarını çəkmək olar.

Ensiklopedik topluda həmin tələbə və məzunların, o cümlədən ali təhsil müəssisəsinə rəhbərlik edənlərin xüsusi bir qrupu, canlarını və qanlarını Vətən yolunda fəda edən qəhrəmanlarla tanış olacaqsınız.

Kitab ADPU-nun 100 illik yubileyi münasibətilə Vətən yolunda canını fəda etmiş əziz şəhidlərimiz və qazilərimizin həmişəyaşar xatirələrinə həsr olunur.

***ISBN 9 7 8 – 9 9 5 2 – 8 4 2 – 7 7 – 7***

9 789952 842777

**© Mirzəyev T.Ə. – 2021**

# XÜSUSİ TƏŞƏKKÜR

*Layihənin icra komandası sistemli və dəqiq müəyyən olunmuş iş bölgüsünə, işgüzar mühitə, əsl vətəndaş həssaslığına görə komandanın rəhbəri, ADPU-nun Tələbələrlə iş və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri **Turan Kərimliyə** xüsusi minnətdarlığını bildirir.*

***

*Bu nəşrin ərsəyə gəlməsində tərtibçi ilə bərabər misilsiz xidmətlər göstərmiş tələbələrimiz **Rəqsanə Ələsgərli**, **Əlikram Xankişiyev və Təhmasib İmaməliyevə** layihənin icra komandası öz minnətdarlığını bildirir. Onlar kitabın əhəmiyyətli hissələrinin ərsəyə gəlməsində könüllü olaraq şəxsi əmək sərf edərək xeyli sayda məzunlar haqqında məlumatlar hazırlayaraq komandaya təqdim ediblər. Bu baxımdan Rəqsanə, Əlikram və Təhmasibi bir növ bu toplunun həmmüəllifləri də saymaq olar.*

# MÜNDƏRİCAT

**VƏTƏN EŞQİ MƏKTƏBİNİN MÜƏLLİMLƏRİ ........................................17**

**ELMİ REDAKTORDAN: GÜNƏŞİN DOĞMASINA QƏDƏR .................22**

**II Dünya Müharibəsi iştirakçıları. Sovet İttifaqı Qəhrəmanları .................25**

1. Hüseynzadə Mehdi Hənifə oğlu *(leytenant)* .......................................27
2. Kazımov Səlahəddin Həsən oğlu *(general-mayor)* ...............................29
3. Mustafayev Xıdır Həsən oğlu *(mayor)* ...............................................31
4. Səfərov Fariz Məcid oğlu *(mayor)* .....................................................32

**II Dünya Müharibəsi iştirakçıları. Döyüşən rektorlarımız ...........................33**

1. Ələsgərov Cəbrayıl Ağaəli oğlu *(mayor)* ............................................35
2. Əliyev Mehdi Sadıq oğlu ......................................................................38
3. Hacıyev Cəfər Zeynal oğlu (Cəfər Xəndan) ..........................................40
4. Mehdizadə Mehdi Məmməd oğlu ...........................................................43

**Azərbaycanın Milli Qəhrəmanları ..........................................................47**

1. İbrahimov Mirələkbər Mirələsgər oğlu *(kapitan)* .................................49
2. Quliyev Mətləb Kamran oğlu *(leytenant)* ............................................50
3. Salahov Şakir Şamil oğlu .....................................................................52

**"Zəfər" Ordeni ilə təltif edilənlər .........................................................53**

Nağıyev Əli Nağı oğlu *(general-polkovnik)* ...............................................55

**"Azərbaycan Bayrağı" Ordeni ilə təltif edilənlər ......................................57**

1. Bayramov Malik Yaşa oğlu *(baş leytenant)* ..........................................59
2. Nəbiyev Orxan Rza oğlu *(leytenant)* ...................................................60
3. Tahirov Firdovsi Balaxan oğlu ..............................................................61

**I Qarabağ Müharibəsi Şəhidləri ..............................................................63**

1. Baxışov Rəşid Hacıağa oğlu .................................................................65
2. Cəfərov Firuzəddin Tapdıq oğlu ...........................................................66
3. Ələkbərov Hilal Hilal oğlu ....................................................................67
4. Hüseynov Ehtiram Aydın oğlu ..............................................................68
5. Qəhrəmanov Elman İxtiyar oğlu ...........................................................69
6. Məmmədov Mürşüd Ağa oğlu *(mayor)* ................................................70

7. Rəhimov İntizam Əhməd oğlu *(baş leytenant)* ....................................71
8. Şahverdiyev Əlövsət Kərim oğlu ........................................................72
9. Zülfiyev Hicran Əliş oğlu *(leytenant)* ..................................................73
10. ADPU şəhidlərindən haqqında məlumat olmayanlar ...........................74
11. ADPU nəzdində Pedaqoji Kollecin şəhidlərindən haqqında məlumat olmayanlar..........................................................................................75

**Vətən Müharibəsi Şəhidləri ....................................................................77**

1. Abbasov Ağaqardaş İlham oğlu *(baş leytenant)* ..................................79
2. Ağaquliyev İlkin Saməddin oğlu *(MAHHXQ)* .....................................81
3. Baxışova Arəstə Kərim qızı *(çavuş)* ....................................................82
4. Əzizov Elgün Elman oğlu *(baş leytenant)* ..........................................84
5. Hüseynli Etiram Həsən oğlu *(leytenant)* ............................................85
6. Lətifov Rəvan Ömür oğlu ......................................................................87
7. Nəbiyev Cilingir Azad oğlu *(gizir)* ......................................................88
8. Nüsrətli Ceyhun Aqil oğlu .....................................................................90
9. Ömərov Qoşqar Səxavət oğlu ...............................................................91
10. Zakirov Elvin Ağasəlim oğlu *(baş leytenant)* ....................................92

**I Qarabağ Müharibəsi iştirakçıları .........................................................95**

1. Abbasov Əziz Kamran oğlu *(kapitan)* ..................................................97
2. Abdullayev Eyvaz İsmayıl oğlu *(leytenant)* ........................................98
3. Abdullayev Cavanşir Qalib oğlu *(kapitan)* ..........................................99
4. Atakişiyev Kamaləddin Ənvər oğlu ......................................................100
5. Balayev Elman Burhanəddin oğlu ........................................................101
6. Əmirov İlqar İsax oğlu *(leytenant)*.......................................................102
7. Əsgərov Kazım İslam oğlu ....................................................................103
8. Həsənov Əkbər Səyad oğlu *(baş leytenant)*.........................................104
9. İsmayılov Sahəddin Qiyas oğlu *(mayor)* ............................................105
10. Quliyev Mehman Burhanəddin oğlu ...................................................106
11. Mehraliyev Qalib Nəriman oğlu *(leytenant)*......................................107
12. Musayev Azər Hüseyin oğlu ................................................................108
13. Musayev Rasim İslam oğlu (*polis general-mayoru)*.............................109
14. Nağıyev Vəli Nağı oğlu *(general-leytenant)* .......................................110
15. Rəsulov Rahib Sərdiyar oğlu ...............................................................111
16. Sadıqov Arzu Sadıq oğlu *(baş leytenant)*............................................112

**Aprel döyüşləri iştirakçıları .................................................................113**

1. Cəfərov Samir Rüfət oğlu .....................................................................115

2. Quliyev Qubad İftixar oğlu ....................116

**Vətən Müharibəsi iştirakçıları ....................117**

1. Abbasov Azər Məhəmmədəli oğlu *(baş leytenant)*....................119
2. Abdinov Cavid Vahid oğlu....................120
3. Abuşov Ağahəsən Abdulla oğlu ....................121
4. Abdullayev Kamal Seyfəddin oğlu ....................122
5. Abdullayev Kənan Mahir oğlu ....................123
6. Abdullayev Həsən Mustafa oğlu ....................124
7. Abdullayev Mustafa Mirzə oğlu ....................125
8. Abdusalamov Rüfət Xaqani oğlu ....................126
9. Abışov Dəyanət Rəfail oğlu....................127
10. Adıgözəlzadə Elmin Vahid oğlu ....................128
11. Ağamaliyev Xəyal Niyaməddin oğlu ....................129
12. Ağayev Elməddin Adil oğlu *(MAHHXQ)* ....................130
13. Ağayev Elsevər Sarvan oğlu *(baş leytenant)* ....................131
14. Ağazadə Ağabəy Ehtiram oğlu ....................132
15. Alıyev Anar Yadigar oğlu *(gizir)* ....................133
16. Alıyev Azər Habil oğlu ....................134
17. Alıyev Sənan Rövşən oğlu ....................135
18. Alyarov Tahir Mikayıl oğlu ....................136
19. Aslanov Rəşad Elşad oğlu ....................137
20. Astanov Saxavət Aqif oğlu ....................138
21. Atamoğlanov Elşən Şahlar oğlu ....................140
22. Aydınlı Əziz Yaşar oğlu ....................141
23. Babayev Rail Fazil oğlu *(baş leytenant)*....................142
24. Babayev Murad Nadir oğlu ....................143
25. Babayev Zahir Tahar oğlu *(baş leytenant)* ....................144
26. Babayev Elnur Hüseynoviç ....................145
27. Baxışlı Zəka Aqil oğlu *(leytenant)* ....................146
28. Baxşəliyev Nadir Elçin oğlu ....................147
29. Bayraməliyev Şirxan İzzət oğlu ....................148
30. Bədəlov Novruz Bəylər oğlu ....................149
31. Beydullayev Vurğun Ərzuman oğlu ....................150
32. Cabbarlı İlham Ramiz oğlu ....................151
33. Cahangirov Məmmədağa Yusif oğlu *(baş leytenant)* ....................152
34. Cahangirov Vüsal Cahangir oğlu ....................153
35. Cavadlı Gəray Xanlar oğlu ....................154
36. Cavadzadə Təbriz Şərif oğlu ....................155
37. Cəbrayılov Namiq Vaqif oğlu *(baş leytenant)* ....................156

38. Cəfərli Vüsal Yasin oğlu ....157
39. Cəfərov Aslan İlham oğlu ....158
40. Cəfərov Elşən Balaşirin oğlu *(baş leytenant)* ....159
41. Cəfərov Fərman Mustafa oğlu ....160
42. Cəfərov Rəhman İlqar oğlu ....161
43. Dadaşov Ağadadaş Emin oğlu *(kiçik çavuş)* ....162
44. Dünyamalıyev Röyal Adil oğlu *(baş gizir)* ....163
45. Əhədli Xəlil Mirzəbala oğlu ....164
46. Əhmədov İsmət Kamal oğlu ....165
47. Əhmədov Orxan İbadət oğlu ....166
48. Əhmədsoy Atilla Əhməd oğlu ....167
49. Əkbərov Muxtar Azad oğlu ....168
50. Əkbərov Rəşad Şahin oğlu ....170
51. Əkbərov Sübhan Elman oğlu ....171
52. Ələsgərov Ruslan Aydın oğlu *(kiçik çavuş)* ....172
53. Əlibalayev Məmmədbağır Əlibala oğlu ....173
54. Əliyev Əli İntiqam oğlu ....174
55. Əliyev Haldun Naib oğlu ....175
56. Əliyev Rasim Məmmədəli oğlu *(general-mayor)* ....176
57. Əliyev Şamil Məmmədsaleh oğlu ....177
58. Əliyev Tale Nazim oğlu ....178
59. Əsgərov Əli Yolçu oğlu *(polkovnik-leytenant)* ....179
60. Əsgərov Əsgər Vüqar oğlu ....181
61. Əzimov Əmrah Ağamirzə oğlu....182
62. Əzizov Rəhman Şahid oğlu ....183
63. Fərəcov Ülvi İmran oğlu ....184
64. Fərəczadə Zahir Əbdülrza oğlu ....185
65. Hacıyev Orxan Oqtay oğlu ....186
66. Hacızadə Nicat Azər oğlu ....187
67. Haqverdiyev Şərvan Nazim oğlu ....188
68. Həsənli Nihat Fariz oğlu *(gizir)* ....189
69. Həsənzadə Cavid Hüseyn oğlu ....190
70. Hümbətəliyev Şahin Oruc oğlu ....191
71. Hüseynəliyev Faiq Bəhruz oğlu *(kiçik çavuş)*....192
72. Hüseynov Fərid İskəndər oğlu ....193
73. Hüseynov İbrahim Mansur oğlu ....194
74. Hüseynov Qeybulla Baloğlan oğlu ....195
75. Hüseynov Murad Fizuli oğlu ....196
76. Hüseynli Orxan Raqif oğlu ....197
77. Hüseynzadə Elçin Xaliq oğlu ....198

78. Hüseynzadə Rasim Raqib oğlu ....................199
79. Xancanov Riad Ruslan oğlu ....................200
80. Xanışlı Səddarxan Əflatun oğlu ....................201
81. Xankişiyev Samir Balakişi oğlu ....................202
82. Xəlilov Cəfər Sadıq oğlu ....................203
83. Xəlilzadə Bəxtiyar Lətif oğlu ....................204
84. Xəlilzadə Xeybər Şahin oğlu ....................205
85. İbişov Bayram Zöhrab oğlu ....................206
86. İxtiyarlı İxtiyar Səftər oğlu ....................207
87. İmanlı Əlpənah Zakir oğlu ....................208
88. İmanov İmaməli İmanverdi oğlu....................209
89. İsaqzadə Yusif Yasər oğlu ....................210
90. İsmayılov İlkin Koroğlu oğlu ....................211
91. İsmayılov Müşfiq Elçin oğlu ....................212
92. Kazımov Mədət İlham oğlu ....................213
93. Kərimov Ağahüseyn Teymur oğlu ....................214
94. Kərimov Heydər Eyvaz oğlu ....................215
95. Qasımov Eltac Nazim oğlu ....................216
96. Qasımov Ramiq Zamiq oğlu ....................217
97. Qəhrəmanlı Hatəm Zöhrab oğlu ....................218
98. Qəhrəmanlı Rauf Özübəy oğlu ....................219
99. Qəhrəmanov Əli Nazim oğlu *(baş leytenant)*....................220
100. Qənbərov İsaq Vidadi oğlu ....................221
101. Qəribov Musa Ağamusa oğlu ....................222
102. Qubadov Turan Arif oğlu ....................223
103. Quliyev İlyas Mahir oğlu ....................224
104. Quliyev Süleyman Xasay oğlu *(baş leytenant)* ....................225
105. Quliyev Taleh Vaqif oğlu *(leytenant)* ....................226
106. Qurbanlı Şadoğlan Mirələm oğlu ....................227
107. Qurbanov Ceyhun Qürbət oğlu *(leytenant)* ....................228
108. Qocayev Ümid Sakit oğlu ....................229
109. Mahmudov Xəyal İnşallah oğlu ....................230
110. Mehdiyev Seyidşah İlham oğlu ....................231
111. Məcidov Ramiz Zeynal oğlu ....................232
112. Məhəmmədov Lətif Elmar oğlu....................233
113. Məmmədli Əhməd Fəxrəddin oğlu ....................234
114. Məmmədov Əhəd Rizvan oğlu ....................235
115. Məmmədov Həsən Mübariz oğlu ....................236
116. Məmmədov Nicat Nizami oğlu ....................237
117. Məmmədov Nizami Asif oğlu ....................238

118. Məmmədov Ümid Rauf oğlu ....................239
119. Məmmədov Seyidmiri Şirin oğlu *(baş əsgər)*....................240
120. Məmmədzadə Zöhrab Rövşən oğlu ....................241
121. Mənəfov Fətəli Soltan oğlu *(leytenant)*....................242
122. Mərdanov Ruslan Yavər oğlu ....................243
123. Mərdanov Səfa Hafiz oğlu ....................244
124. Möhbalıyev Mahmud Məhəmməd oğlu *(baş leytenant)*....................245
125. Muradov İbrahim Rəhman oğlu....................246
126. Musabəyov Azad Rəhim oğlu ....................247
127. Musayev İlkin Tahir oğlu....................248
128. Musayev Nadir Dəmir oğlu *(polkovnik-leytenant)* ....................249
129. Mustafayev Əmrah Tərlan oğlu *(kiçik çavuş)* ....................251
130. Mustafayev İsmayıl Qasım oğlu *(leytenant)* ....................252
131. Mustafayev Nəimi Fizuli oğlu ....................253
132. Mürsəlov Qurban Şakir oğlu ....................254
133. Mürsəlov Rauf Həmid oğlu *(gizir)* ....................255
134. Nağıyev Namiq Duman oğlu *(baş leytenant)* ....................256
135. Nəbiyev Əmirxan Rza oğlu ....................257
136. Nərimanov Mövlan Asim oğlu ....................258
137. Nuriyev Murad Sənan oğlu ....................259
138. Nuriyev Ramiz Əliyar oğlu ....................260
139. Lazımov Məhəmməd Elşən oğlu ....................261
140. Orucov Məhəbbət Məhəmməd oğlu *(leytenant)* ....................262
141. Oruczadə Tural Nazim oğlu ....................263
142. Paşayev Söhrab Sərxan oğlu ....................264
143. Ramizov Ramil Ramiz oğlu ....................265
144. Ramazanov Həzrət Şahin oğlu ....................266
145. Rəcəbov Fuad Qaraxan oğlu ....................267
146. Rəhimli Pərvin Kamil oğlu ....................268
147. Rəhimov Ələddin Əli oğlu ....................269
148. Rəsulov Elvin Qubad oğlu ....................270
149. Rəsulov Hüseyn Namiq oğlu ....................271
150. Rəsulov Ümüd Etibar oğlu ....................272
151. Rzayev Sübhan Şahid oğlu ....................273
152. Sadıqov Əlyar Heydər oğlu ....................274
153. Sadıqzadə Savalan Nemət oğlu ....................275
154. Salmanov Coşqun Yusif oğlu ....................276
155. Seyfəddinov Elvin Elsevər oğlu ....................277
156. Səlimli Pünhan Məmmədkərim oğlu ....................278
157. Səlimzadə Toğrul Ələkbər oğlu ....................279

158. Sərdarov Alı Şahin oğlu ....................280
159. Surxayev Ruslan Faiq oğlu ....................281
160. Süleymanov Elvin Elşən oğlu ....................282
161. Şahverdiyev Elnur Ələkbər oğlu ....................283
162. Şəfayətli Nurlan Rəhman oğlu ....................284
163. Şirəliyev Kamran Mirağa oğlu *(çavuş)* ....................285
164. Şükürov Anar Aydın oğlu ....................286
165. Talıbov Samir Məhərrəm oğlu ....................287
166. Tahirov Ayaz Nizaməddin oğlu ....................288
167. Vəlizadə Vəli Vasif oğlu ....................289
168. Yaqublu Anar Mirzə oğlu ....................290
169. Yusifzadə Yusif Cavanşir oğlu ....................291
170. Zeynalov Babək Asəf oğlu ....................292
**QAYNAQLAR ....................293**

***Azərbaycan Dövlət Pedaqoji Universitetinin çoxminli professor-müəllim və tələbə heyətindən Vətən yolunda canını fəda etmiş əziz şəhidlərimiz və qazilərimizə hörmətlə...***

## AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİNİN 100 İLLİK YUBİLEYİNİN QEYD EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2021-ci ildə respublikamızın ilk ali pedaqoji təhsil ocağının – Azərbaycan Dövlət Pedaqoji Universitetinin fəaliyyətə başlamasının 100 illiyi tamam olur.

Azərbaycan Dövlət Pedaqoji Universiteti ölkəmizin təhsil tarixində xüsusi yer tutan, zəngin ənənələrə malik ali təhsil müəssisələrindəndir. Yarandığı vaxtdan etibarən Universitet üzərinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirmiş, respublikamızla yanaşı, bir sıra digər ölkələr üçün elmi-pedaqoji kadr hazırlanması işini müvəffəqiyyətlə həyata keçirmişdir. Azərbaycanın tanınmış ictimai, elm və mədəniyyət xadimləri arasında Universitetin çox sayda məzunları vardır.

İxtisaslaşmış ali təhsil müəssisəsi kimi Azərbaycan Dövlət Pedaqoji Universiteti müəllim hazırlığı sahəsində və pedaqoji təhsilin inkişafı naminə bu gün də uğurlu fəaliyyəti ilə müstəqil Azərbaycanın inkişafına töhfələrini əsirgəmir. Universitetdə qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından faydalanmaqla ali təhsilin məzmun və keyfiyyət göstəricilərinin təkmilləşdirilməsi istiqamətində zəruri addımlar atılır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə yüksək ixtisaslı pedaqoji və elmi-pedaqoji kadr yetişdirilməsi sahəsində mühüm xidmətlərini nəzərə alaraq, Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 17 aprel 2021-ci il**

# MİNNƏTDARLIQ

*Dama-dama göl olar...*
***Atalar məsəli***

*Kitabın ərsəyə gəlməsində universitetin şəhid və qazi tələbə və məzunları haqqında məlumatlar toplayaraq bizə təqdim edən aşağıda adları çəkilən tələbələrimiz, müəllimlərimiz, alimlərimiz, müvafiq struktur və ictimai təşkilatlarımıza, habelə şəhid və qazi yaxınlarına, sıravi vətəndaşlarımıza dərin minnətdarlığımızı bildiririk:*

**Strukturlarımız və təşkilatlarımız:** *ADPU-nun bütün struktur bölmələrinin rəhbərliyi və əməkdaşları, həmçinin Universitetin filialları və tərkibindəki Dövlət Pedaqoji Kollecinin rəhbərliyi və müvafiq strukturları, müəllimlərimiz, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi, YAP Gənclər Birliyi, Təhsil Könüllüləri İctimai Birliyi və onların könüllüləri.*

**Tələbələrimiz:** *Marina Mirzəyeva, Çinarə Zülfüqarova, İlahə Fərzəliyeva, Piyalə Quliyeva, Rizvan Mahmudov, Mehriban Piriyeva, Bikəxanım Qulaməddinova, Aysu Əhmədli, Məlahət Həsənova, Babək Nəzərli (şəhid Ceyhun Nüsrətlinin tələbə yoldaşı), Samir Şirinbəyzadə (şəhid Firdovsi Tahirovun tələbə yoldaşı), Arzu Haqverdiyeva (şəhid Elgün Əzizovun qohumu) və Hilal Mürsəlov.*

**Magistrantlarımız:** *Xədicə Rüstəmova və Gülər Nuriyeva.*

**Məzunlarımız:** *Namiq Cəbrayılov (I Qarabağ müharibəsi iştirakçısı), İkram Məmmədov (şəhid Mürşüd Məmmədovun qardaşı), Orxan İbrahimov, İntiqam Mərdanlı, Şahsənəm Həmzəyeva və Nahid Ələkbərzadə (Vətən müharibəsi iştirakçıları Ramil Ramizov və Sübhan Əkbərovun tələbə yoldaşları), Nəzrin İbrahimova və Azər Ağayev.*

**Vətəndaşlar:** *Kəlbəcər rayonu şəhid Mürşüd Məmmədov adına 42 nömrəli tam orta məktəbin direktoru Hikmət Mamedov, Bakı şəhəri 95 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Zümrüd Hüseynova, Alim Nüsrətli (şəhid Ceyhun Nüsrətlinin qardaşı), Süməni Ramizov (Vətən müharibəsi iştirakçısı Ramil Ramizovun qohumu), Zəminə Bayramova, Leyla Həsənova, Nurəli Çələbiyev və Ləman Abdullayeva.*

***Bu əsər sizlərin zəhmətinizin ümumi nəticəsidir!***

# VƏTƏN EŞQİ MƏKTƏBİNİN MÜƏLLİMLƏRİ

*Vətən eşqi məktəbində can verməyi öyrənmişik,*
*Ustadımız deyib heçdir vətənsiz can, Azərbaycan!*
***Məhəmmədhüseyn Şəhriyar***

Bu il Azərbaycan təhsil tarixinin canlı əfsanələrindən, xalqımızın milli sərvəti olan Azərbaycan Dövlət Pedaqoji Universitetinin yaradılmasından bir əsr ötür. Universitetimiz özünün 100 illik yubileyini böyük fərəh hissi ilə qeyd edir.

Pedaqoji Universitetin fəaliyyəti və əldə etdiyi nəticələr daim Azərbaycan dövlətinin diqqətində olmuş, ali təhsil müəssisəsi dövlətin qayğısını və etimadını həmişə hiss etmişdir. Bu qayğının təməli isə, məhz ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründən başlayır. Təsadüfi deyil ki, H.Əliyev AzSSR KP MK-nın I katibi olduğu dövrdə 5 dəfə (1971, 1973, 1977, 1981, 1982) universiteti ziyarət etmiş, onun 50 və 60 illik yubileylərində şəxsən iştirak edərək möhtəşəm elm və təhsil ocağının fəaliyyətinə yüksək qiymət vermiş, universitetə yüksək dövlət təltiflərini təqdim etmişdir.

Ulu öndər yolunun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də təhsilə həmişə önəm vermişdir və bu sahə dövlətin əsas hədəflərindən birini təşkil edir.

Cənab Prezident İlham Əliyevin 2021-ci il aprelin 17-də “Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncamı bir əsr ərzində əldə olunan nailiyyətlərə verilən ən yüksək qiymətdir. Sərəncamda universitetin ölkəmizin inkişafındakı xüsusi rolu vurğulanaraq qeyd olunur:

*“İxtisaslaşmış ali təhsil müəssisəsi kimi Azərbaycan Dövlət Pedaqoji Universiteti müəllim hazırlığı sahəsində və pedaqoji təhsilin inkişafı naminə bu gün də uğurlu fəaliyyəti ilə müstəqil Azərbaycanın inkişafına töhfələrini əsirgəmir. Universitetdə qabaqcıl elmi nailiyyətlərdən, innovativ təlim-tədris texnologiyalarından faydalanmaqla ali təhsilin məzmun və keyfiyyət göstəricilərinin təkmilləşdirilməsi istiqamətində zəruri addımlar atılır”.*

1921-ci ilin 26 avqustunda Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun imzaladığı dekret əsasında cəmisi 8 müəllim və 6 tələbə ilə fəaliyyətə başlayan ali təhsil müəssisəsi ötən dövr ərzində 160 mindən çox yüksəkixtisaslı pedaqoji kadrlar hazırlamışdır. Həmçinin, o, təkcə, respublikamız üçün deyil, Gürcüstan, Mərkəzi Asiya respublikaları, Bolqarıstan

və digər ölkələr üçün də yüksək səviyyəli müəllim və elmi kadr hazırlığı işini uğurla həyata keçirmişdir.

Pedaqoji Universitet Azərbaycanda elm və təhsilin inkişafına sanballı töhfələr verən tanınmış alimlər yetişdirmiş, paralel olaraq, həm də elmi mərkəz kimi formalaşıb inkişaf etmişdir. Xalqımızın fəxri olan yüzlərlə görkəmli alim, yaradıcı ziyalı, ictimai və dövlət xadimi bu universitetdə təhsil almışdır. Universitetin məşhur məzunları sırasında Məmməd Arif Dadaşzadə, Həmid Araslı, Mehdi Mehdizadə, Budaq Budaqov, Mikayıl Müşfiq, Süleyman Rəhimov, Mehdi Hüseyn, Şıxəli Qurbanov, İsmayıl Şıxlı, İlyas Əfəndiyev və bir məqalədə adını çəkə bilmədiyimiz onlarla digər ziyalını göstərmək olar. Böyük fəxrlə deyə bilərik ki, Azərbaycan Milli Elmlər Akademiyasının 11 prezidentindən üçü – Yusif Məmmədəliyev (2 dəfə), Zahid Xəlilov və Həsən Abdullayev, 5 vitse-prezidenti – Heydər Hüseynov, Səməd Vurğun, Zahid Xəlilov, Əlisöhbət Sumbatzadə və İsa Həbibbəyli məhz bizim universitetin məzunlarıdır. Sovet İttifaqı Qəhrəmanları Mehdi Hüseynzadə, Xıdır Mustafayev, Fariz Səfərov, Səlahəddin Kazımov, Sosialist Əməyi Qəhrəmanları Səfa İmanov, Zərbəli Səmədov, Rüstəm Səfərəliyev, Vətənin ərazi bütövlüyü uğrunda mənfur düşmənlə mübarizə aparmış Azərbaycanın Milli Qəhrəmanları Mirələkbər İbrahimov, Mətləb Quliyev, Şakir Salahov, “Zəfər” ordenli general-polkovnik Əli Nağıyev, “Azərbaycan Bayrağı” ordenli Malik Bayramov, Orxan Nəbiyev, Firdovsi Tahirov, böyük qələbə çaldığımız 44 günlük Vətən müharibəsində torpaqlarımızın mənfur düşmədən azad olunması yolunda canlarından keçmiş şəhidlərimizdən 12 nəfəri – Ağaqardaş Abbasov, İlkin Ağaquliyev, Elgün Əzizov, Ehtiram Hüseynli, Rəvan Lətifov, Cilingir Nəbiyev, Orxan Nəbiyev, Ceyhun Nüsrətli, Qoşqar Ömərov, Firdovsi Tahirov, Elvin Zakirov və yeganə xanım şəhidimiz Arəstə Baxışova müxtəlif illərdə Pedaqoji Universiteti bitirmişlər.

Sizə təqdim olunan nəşrdə də məhz universitetin bir əsrlik fəaliyyəti dövründə öz canları və qanlarını bu cənnət Vətənin bütövlüyü uğrunda fəda edən qəhrəman tələbə və məzunlarından söz açılır.

Universitetin 100 illik yubileyi həm də Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün tam bərpa olunduğu bir dövrə təsadüf edir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi, xalqın “dəmir yumruq” kimi birliyi, rəşadətli Azərbaycan Ordusunun qələbə əzmi ilə 30 ildir mənfur erməni işğalı altında olan doğma torpaqlarımız 2020-ci ilin tarixə 44 günlük müharibə kimi keçmiş Vətən müharibəsində azad olundu. Artıq bu gün Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağa həyat yenidən qayıdıb.

Şübhəsiz, bu proseslərdə Azərbaycan Dövlət Pedaqoji Universiteti də özünəməxsus yer tutur. Belə ki, həm universitetin tələbə və məzunları bilavasitə

90-cı illərdə I Qarabağ müharibəsində və 2020-ci ilin Vətən müharibəsində iştirak etmiş, həm də onun yetirdiyi minlərlə müəllimdən tərbiyə alan şagirdlər bu günün cəsur əsgərləri kimi öz müəllimləri ilə çiyin-çiyinə savaşaraq Vətənin bütövlüyünü təmin ediblər.

Bundan əlavə qeyd etmək lazımdır ki, universitetin məzunları hələ II Dünya müharibəsində də böyük qəhrəmanlıqlar göstərmişlər və yuxarıda da deyildiyi kimi onların arasından 4 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Universitetin rektoru olmuş 4 nəfər II Dünya müharibəsinin iştirakçısı olub.

Bunlarla yanaşı universitet kollektivi həmişə dövlət və xalqla həmrəylik nümayiş etdirmişdir. Belə ki, ADPU kollektivi II Dünya müharibəsi zamanı orduya 50.000 manatlıq istiqraz və 45.000 manat nağd pul yardımı edib. O cümlədən universitet əməkdaşları Vətən müharibəsi günlərində 2020-ci ilin oktyabrında könüllü olaraq Azərbaycan Ordusuna 100.000 manat, filialların əməkdaşları isə 38.742 manat (ümumilikdə 138.742 manat) pul vəsaiti ianə edib. ADPU-nun Şamaxı Filialı Vətən müharibəsində arxa cəbhədəki xüsusi xidmətlərinə görə Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi tərəfindən "Fəxri Fərman"la təltif edilib.

Digər yandan Pedaqoji Universitet I Qarabağ müharibəsinin sırf içərisində olmuş, müharibə universitetin fəaliyyətinə xeyli təsir etmişdir. Belə ki, Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan bölməsinin əməkdaş və tələbələri 80-ci illərin sonlarından davamlı olaraq erməni separatçılarının təhdidləri və hücümları ilə üzləşirdilər. İngilis tədqiqatçısı və jurnalisti Tomas De Vaal özünün məhşur "Qara Bağ: Ermənistan və Azərbaycan sülh və savaş yollarında" kitabında qeyd edir ki, Qarabağda 1988-ci ildə ermənilərin mitinqlərinin başladığı andan qısa müddət sonra Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan bölməsinin iki qız tələbəsi separatçılar tərəfindən təhqirlərə məruz qalmış, zorlanmışdılar. Onlar ağır vəziyyətdə Bakıdakı Respublika Xəstəxanasına çatdırılmışdılar.

Artıq institutun Azərbaycan bölməsi öz fəaliyyətini davam etdirə bilməyəndə qərar qəbul olunur ki, Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan bölməsi Şuşa şəhərinə köçürülsün və bölmə burada əvvəlcə ADPU-nun fakültəsi, sonra isə filialı kimi fəaliyyət göstərir. Lakin bu da çox çəkmir və işğal səbəbi ilə filial Ağcabədiyə köçürülür.

Şuşa filialının hansı çətinliklərlə fəaliyyət göstərməsi haqqında təhsil tədqiqatçısı professor Fərrux Rüstəmovun aşağıdakı qeydləri daha aydın təsəvvür yaradır:

*“Müəllimlərin əksəriyyəti günlərlə Ağdam aeroportunda qalmalı olurdu. Erməni təxribatı, demək olar ki, hər gün genişlənirdi. Erməni qəsbkarlarının açdığı atəş nəticəsində filialın iki müəllimi – Böyük Vətən Müharibəsi veteranı Mürşüd Dünyamalıyev və gənc alman dili müəllimi Sara Əliyeva, filialın iki tələbəsi Elsevər və İldırım şəhid oldular. Xeyli tələbə müxtəlif dərəcəli xəsarət almışdı. Xocalı faciəsi erməniləri daha da azğınlaşdırmışdı.”*

Eyni zamanda filialın tələbələrindən Şakir Salahov Şuşanın müdafiəsi uğrunda şəhid olaraq ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür.

Yuxarıda da deyildiyi kimi, universitetin tələbə və məzunları I Qarabağ savaşında da, Vətən müharibəsində də əsgər libası geyinərək o günə qədər qələmin dediyi sözün davamını silahla gətirmək üçün əllərinə silah alıb torpaqlarımızın müdafiəsinə qalxdılar. Bu müəllim adının əsl mahiyyət və məna təzahürünün nümunəsidir. Onlar sözün əsl mənasında “Vətən eşqi məktəbinin müəllimləri”dirlər.

Pedaqoji Universitet kollektivi bu dəyərli irsə sahib olduğuna görə daim qürur duyur və şəhid və qazilərimiz həmişə universitet rəhbərliyinin və kollektivinin diqqətindədir. Belə ki, zəfər günündən ötən müddətdə universitetin Tələbələrlə iş və ictimaiyyətlə əlaqələr şöbəsi onların təbliği istiqamətində silsilə iş aparır. Şəhid və qazilərimiz haqqında xəbərlər, məqalələr, müsahibələr hazırlanaraq kütləvi informasiya vasitələrində, universitetin qəzeti və elektron resurslarında yayımlanır, şəhid ailələri ziyarət olunur. Həmçinin Məzun koordinasiya və karyera bölməsi, o cümlədən tələbə təşkilatları tərəfindən şəhidlərimizin ailələri ziyarət olunub, Təhsil Könüllüləri İctimai Birliyinin könüllüləri tərəfindən onlar haqqında vikipediya məqalələri yaradılıb. Ali təhsil müəssisəsinin, fakültələrin (xüsusən Filologiya və Tarix və coğrafiya fakültələri) filialların və kollecin rəhbərliyi şəhid məzunların ailələri və qazilərlə silsilə görüşlər keçirir. Universitetin 100 illik yubileyinin tamam olduğu gün – 26 avqust 2021-ci il tarixində şəhid məzunlar ziyarət olunaraq məzarları önününə gül dəstələri qoyulub, 27 sentyabr – Anım günündə universitet rəhbərliyi Vətən müharibəsi şəhidlərinin xatirəsini yad edib. ADPK-da şəhid məzunların xatirəsinə “Qəhrəmanlıq Zirvəsi” auditoriyası yaradılıb, müxtəlif struktur bölmələri və ictimai təşkilatlar tərəfindən çeşidli tədbirlər icra olunub.

Özünün 100 illik yubileyində bu şərəfli tarixinə və xalqımızın böyük zəfərinə az da olsa qatqı vermək istəyən universitetimiz yuxarıda sadalanan fəaliyyətlərin məntiqi yekunu olaraq bu ensklopedik toplu ilə də öz qəhrəman oğullarına ehtiramını ifadə edir. Eyni zamanda bu toplu şəhidlərimiz haqqında məlumatların sistemləşdirilməsi və əlçatanlığı, kültəvi təbliği baxımından da önəmli bir təşəbbüs rolunda çıxış edir.

Diqqətinizə çatdırırıq ki, əlinizə aldığınız bu kitabda müxtəlif dövrlərdə ADPU-nun, onun filialları və tərkibindəki Pedaqoji Kollecin tələbə və məzunları olmuş, habelə universitetə rəhbərlik etmiş ümumilikdə 238 nəfər haqqında məlumat təqdim edilir. Onlardan 8 nəfəri İkinci Dünya müharibəsi iştirakçısı (4 nəfəri Sovet İttifaqı Qəhrəmanı, 4 nəfəri ADPU-nun rektoru (onların 2-i həm də ADPU-nun məzunudur)), 3 nəfəri Azərbaycanın Milli Qəhrəmanı, 1 nəfəri "Zəfər" Ordeni ilə, 4 nəfəri "Azərbaycan Bayrağı" Ordeni ilə təltif edilmiş, 29 nəfəri (onlardan 7 nəfəri ADPK-nın tələbə və məzunlarıdır) Birinci Qarabağ müharibəsi şəhidi, 12 nəfəri (onlardan 2 nəfəri Şamaxı Filialının, 1 nəfəri Ağcabədi Filialının, 3 nəfəri ADPK-nın tələbə və məzunlarıdır) Vətən müharibəsi şəhidi, 46 nəfəri Birinci Qarabağ müharibəsi iştirakçısı, 10 nəfəri Aprel döyüşləri iştirakçısı (onlardan 8 nəfəri həmçinin Vətən müharibəsi iştirakçısıdır) və 183 nəfəri isə Vətən müharibəsi iştirakçısıdır.

***Cəfər Cəfərov***
***ADPU-nun rektoru,***
***tarix elmləri doktoru, professor***

## ELMİ REDAKTORDAN: GÜNƏŞİN DOĞMASINA QƏDƏR...

*Günəş altındakı heç bir şey təsadüfi deyildir...*
**Karl Lessinq**

Möhtərəm oxucu!

Diqqətinizə təqdim olunan ensiklopedik toplu Azərbaycan Dövlət Pedaqoji Universiteti rəhbərliyi, onun çoxminli professor-müəllim və tələbə heyəti adından universitetin 100 illik yubileyində Vətənimizin bütövlüyü uğrunda canları və qanları ilə dönmədən mübarizə aparan cəsur şəhid və qazi tələbə və məzunlarımız, o cümlədən "döyüşən rektorlarımız" haqqındadır.

Bu toplunun yaradılması ideyası 2020-ci ilin sonlarından etibarən meydana gəldi. Aparılan ilkin müzakirələrdən sonra məlum oldu ki, tələbə şəhidlər və qazilər haqqında vahid informasiya toplusu demək olar ki, mövcud deyil və ayrı-ayrı informasiya bankları ilə işləmək həm zaman baxımından, həm də mövcud koronavirus pandemiyası ilə bağlı fiziki baxımdan olduqca müşkül məsələdir. Bu səbəbdən əvvəlcə, 2021-ci ilin 17 yanvar – 28 fevral tarixləri aralığında xəbər saytları, sosial media və universitetin informasiya və kommunikasiya resursları vasitəsi ilə universitetin əməkdaşları, tələbələri, məzunları və əhaliyə müraciət edilməsi qərara alındı.

Mart ayının ortalarından etibarən müxtəlif elektron vasitələrlə vətəndaşlar, universitet əməkdaşları, tələbə və məzunları tərəfindən komandaya daxil olan informasiyaların təhlili və müvafiq bankın yaradılmasına başlanıldı. Daha sonra uzun müddət toplanan məlumat bazası üzərində sistemləşdirmə, dəqiqləşdirmə və yoxlama, o cümlədən redaktə və korrektə işləri aparıldı.

Komanda öz işində çoxlu çətinliklərlə üzləşdi. Bəzən hər hansı bir şəhid məzunumuz haqqında məlumatları dəqiqləşdirmək üçün bir neçə mənbə üzərində dəqiqləşdirmə araşdırmaları aparılaraq bioqrafiq məlumatların maksimum dolğun və səhih olması xüsusi diqqətdə saxlanıldı.

Digər yandan qeyd edək ki, təqdim olunan nəşr müəyyən məntiqi struktura və sistematikaya uyğun ardıcıllıqla tərtib edilmişdir. Belə ki, toplu "İkinci Dünya müharibəsi iştirakçıları. Sovet İttifaqı Qəhrəmanları", "İkinci Dünya müharibəsi iştirakçıları. Döyüşən rektorlarımız", "Azərbaycanın Milli Qəhrəmanları", ""Zəfər" Ordeni ilə təltif edilənlər", ""Azərbaycan Bayrağı" Ordeni ilə təltif edilənlər", "Birinci Qarabağ müharibəsi şəhidləri", "Vətən müharibəsi şəhidləri", "Birinci Qarabağ müharibəsi iştirakçıları", "Aprel döyüşləri iştirakçıları" və "Vətən müharibəsi iştirakçıları" kimi 10 məntiqi ardıcıl bölməyə ayrılır. Hər bir bölmə daxilində yer alan şəxslər haqqında məlumatlar adların soyad üzrə əlifba sırası ardıcıllığı ilə verilmişdir. Bundan

əlavə, haqqında məlumat verilən şəxslərin hərbi rütbəsi (əgər varsa) həm mündəricat siyahısında, həm də əsas mətnin başlanğıcında qeyd olunur. Həmçinin hər bir şəxsin haqqında məlumatın başlığında adı və soyadından sonra təvəllüd və vəfat tarixləri (şəhid olub, yaxud vəfat edibsə) göstərilir. Məlumatların həcm, əhatəlilik və üslubi baxımdan maksimum oxşarlığı diqqətdə saxlanılmışdır.

Belə bir incə yanaşma və təsnifatın aparılması topluya Pedaqoji Universitetin şəhid və qazi tələbə və məzunları haqqında elmi ensiklopediya deməyimizə əsas yaradır.

Toplunun hazırlanması prosesində layihəni icra edən Pedaqoji Universitetin Tələbələrlə iş və ictimaiyyətlə əlaqələr şöbəsinin müvafiq komandası şöbənin müdiri Turan Kərimlinin rəhbərliyi altında indiyə qədərki nəşrlərdə yer almayan bir çox yeni faktları aşkara çıxartdı və bu bilgilər ilk dəfə olaraq məhz bu topluda sistemli şəkildə işıq üzü görür. Bunlara misal olaraq universitet məzunları arasında Birinci Qarabağ müharibəsində, Aprel döyüşlərində və Vətən müharibəsində iştirak edənlər və şəhid olanların sayı ilə bağlı nisbətən dəqiq vahid rəqəmin əldə olunması, onların həyatı haqqında ilk sistemli məlumatların toplanması və təqdim olunması, müxtəlif fəxri adlar, orden və medallar alan şəhid və qazi tələbə və məzunlar haqqında dəqiq məlumatların tapılaraq müəyyən yanlışlıqların düzəldilməsini, ADPU-nun İkinci Dünya müharibəsinə qatılan rektorları haqqında xüsusi bölmədə məlumat verilməsini və s. misal göstərmək olar.

Lakin bütün bunlarla belə prosesin olduqca əhatəli olduğunu, o cümlədən məlumatların elektron və üçüncü şəxslərdən əldə olunmasını, məhdudiyyətlərə və faktiki olaraq sabit baza üzərində işlənilmədiyinə görə öncədən siz dəyərli oxucuların diqqətinə çatdırmalıyıq ki, topluda yer alan məlumatlar içərisində müəyyən nöqsanlara rast gəlinə bilər. Digər yandan, təbii ki, yuxarıda deyilən səbəblərdən də aydın olduğu kimi bu toplu heç də "Pedaqoji Universitetinin qəhrəmanları"nı tam əhatə etmir və bu nəşr sonrakı daha dəqiq və əhatəli tədqiqatların aparılmasına əsas verəcək ilk təşəbbüsdür. Komanda gələcəkdə bu amilləri nəzərə alaraq toplunu düzəliş və əlavələrlə yenidən nəşr etməyi nəzərdə saxlayır.

***Fikrət Rzayev***
***ADPU-nun sosial və humanitar məsələlər üzrə prorektoru,***
***filologiya elmləri doktoru, professor***

***Əziz oxucu!***

***Sizdən xahiş edirik ki, yuxarıda deyilənləri nəzərə alaraq yol verdiyimiz qüsurları anlayışla qarşılayasınız və əlavələriniz və düzəlişlərinizlə bağlı mütləq kitabın sonunda göstərilən əlaqə vasitələri, həmçinin rəsmi sosial media resursları vasitəsilə bizə məlumat verəsiniz. Bu işimizin mükəmməlliyi üçün olduqca vacibdir. Öncədən hər birinizə dərin minnətdarlığımızı bildiririk.***

# II Dünya Müharibəsi iştirakçıları



# Sovet İttifaqı Qəhrəmanları

# Hüseynzadə Mehdi Hənifə oğlu (1918 – 1944)



Leytenant Mehdi Hənifə oğlu Hüseynzadə 22 dekabr 1918-ci ildə Bakıda dünyaya göz açıb. Onun vaxtilə yaşadığı ev hazırkı "Nizami" metro stansiyasının yaxınlığında yerləşir. Evin önünə qəhrəmanın xatirə lövhəsi vurulub. Kiçik yaşlarında atasını itirən Mehdi əvvəl anasının, sonra bibisinin himayəsində böyüyür. 1925-ci ildə 77 saylı yeddi illik məktəbə (hazırda 19 saylı məktəb) daxil olur. İlk müəllimləri görkəmli yazıçı S.S. Axundov və xalq artisti, tanınmış bəstəkar S.Rüstəmov olub. Gənc yaşlarından rəsmə, musiqiyə böyük həvəs göstərən Mehdi yeddi illik məktəbi bitirdikdən sonra təhsilini Bakı rəssamlıq texnikumunda davam etdirir. 1936-cı ilin yayında Rəssamlıq Akademiyasında oxumaq üçün Moskvaya gedir, lakin istəyinə çata bilmir. Növbəti il Leninqrad Xarici Dillər İnstitutunun fransız dili fakültəsinə daxil olur. Dördüncü kursda oxuyan Mehdi təhsilini Bakıda davam etdirmək üçün 1940-cı ildə Pedaqoji İnstitutun (indiki ADPU) dil və ədəbiyyat fakültəsinin ikinci kursuna keçirilir.

1941-ci il üçüncü kurs tələbəsi Mehdi cəbhəyə yollanır. Əvvəlcə Bakı və Qusarda təlimlər keçir. Sonra Tiflisdəki hərbi-piyada məktəbinə göndərilir. ...1942-ci ilin yayında qvardiya leytenantı Hüseynzadə Stalinqrad cəbhəsinə göndərilir. O, Stalinqrad yaxınlığındakı Kalaç rayonunda vuruşurdu. Həmin döyüşlərdə ağır yaralanan Mehdi əsir alınır. İki dəfə qaçıb partizanlarla görüşməyə cəhd etsə də, uğursuz alınır. Almanlar Ukraynada fəhlə batalyonu yaradır. Burada gələcək komandiri, Cavad Həkimli ilə tanış olur və hər ikisi alman dilini bildiyindən yük qatarı ilə Berlinə, Dolerits rayonunun dördüncü tərcüməçilər birləşməsinə göndərilir. Burada üç ay təhsil aldıqdan sonra onlar 162-ci Türküstan alman diviziyasına qəbul edilir. Diviziyanın 314-cü alayı Azərbaycan legionu idi. Mehdi fransız dilini təmiz bildiyindən burada ondan daha çox istifadə edirdilər. M.Hüseynzadə, C.Həkimli və digər hərbi əsirlərlə birlikdə necə olursa-olsun, partizanlara qoşulmaq, əsirləri düşərgələrdən çıxartmaq üçün yollar axtarırdılar. Onlar Sovet əsirlərindən ibarət gizli təşkilat – rus bölüyü yaradır, düşərgədəki 23 min əsir arasında möhkəm təbliğat aparırlar. Təşkilatın rəhbəri Mehdi "Qürbətzadə Mixaylo" imzası ilə Azərbaycan

dilində “Hüququnu itirmiş dostuma” sərlövhəli vərəqələri çap edərək onları qrup rəhbərləri və üzvləri vasitəsilə əsirlər arasında yayırdı.

1943-cü ilin noyabrı... Mehdi Triyest şəhəri yaxınlığındakı Villi Opçina qəsəbəsinə gətirilir. Fürsəti əldən verməyən Mehdi Aleksandr adlı sloveniyalının tanış etdiyi bacısı Savva adlı kəşfiyyatçı qızın köməyi ilə (Savva “Uzaq sahillərdə” filmindəki Anjelikanın prototipidir) partizanlarla əlaqə yaratmağa nail olur. Mehdi Cavadla birlikdə legiondan qaçaraq İtalyan-Yuqoslav 9-cu partizan korpusuna qoşulur. Korpusun tərkibində legionlardan qaçmış keçmiş Sovet əsirlərindən ibarət “Ruska-Çeta” adlı bölük yaradılır. Bölüyə C.Həkimli komandir, M.Hüseynzadə isə kəşfiyyatçı və komandir köməkçisi təyin olunur. “Mixaylo” ağlı, təmkini və əsl kəşfiyyatçı məharəti ilə bütün gərgin vəziyyətlərdən qalib çıxırdı. Ələkeçməz Mixaylonun tutulması və ölümü üçün alman komandanlığı 300 min marka mükafat vəd etmişdi. Tədqiqatçıların rəyinə görə, o, əksəriyyəti zabit olmaqla 1000-ə qədər faşist öldürülüb.

1944-cü ilin noyabrın 2-də növbəti uğurlu tapşırıqdan qayıdarkən Vitovlye kəndində düşmənlə üz-üzə gəlir. Qeyri-bərabər döyüşdə Mixaylo qəhrəmancasına həlak olur. Cəsur kəşfiyyatçının yoldaşları onu müsəlman adət-ənənəsinə uyğun keçmiş Yuqoslaviyanın Çepovani kəndində dəfn edirlər. Məzarı üzərində bu sözlər yazılıb: *“Azərbaycan xalqının qəhrəman oğlu, əziz dostumuz Mehdi, rahat yat. Sənin azadlıq uğrunda göstərdiyin ölməz qəhrəmanlıq dostlarının qəlbində daim yaşayacaqdır.”*

Onun qəhrəmanlığı, həlak olması haqda məlumatı ilk dəfə müharibədən sonra doğmalarına çatdıran yaxın silahdaşı C.Həkimli olur. M.Hüseynzadənin Yuqoslaviya Xalq Azadlıq Ordusu cərgələrində rolu və fəaliyyəti uzun müddət Sovet İttifaqının geniş ictimaiyyətinə məlum deyildi. 1956-cı ilin 31 mayında “Krasnaya Zvezda” (“Qızmızı Ulduz”) qəzeti keçmiş partizan V.Sokolovun xatirələrinə əsaslanaraq Mixaylonun (M.hüseynzadənin ləqəbi) hünərlərinə həsr olunmuş “Partizan igidliyi” məqaləsini dərc etdi. Sonralar, həmin ilin oktyabrında başqa bir keçmiş partizan – Q.A.Jilyayev “Mehdi Hüseynzadə (Mixaylo) haqqında xatirələr” adı altında xatirələrini yazaraq əlyazmanı Azərbaycan SSR EA-nın Tarix İnstitutuna verdi. İnstitut tərəfindən əhəmiyyətli miqdarda materiallar toplandı və Azərbaycan KP MK-nın I katibi İ.Mustafayev SSRİ KP MK-ya gizli məktubla müraciət etdi. Azərbaycan SSR DTK və diplomatik korpusun axtarışları nəticə verdi və SSRİ Ali Soveti Rəyasət Heyətinin 11 aprel 1957-ci il tarixli fərmanı ilə Mehdi Hüseynzadəyə “Sovet İttifaqı Qəhrəmanı” adı verildi (ölümündən sonra). Haqqında şeirlər, poemalar, roman və povestlər yazılıb, bədii filmlər çəkilib. “Uzaq sahillərdə”, “9-cu korpus”, “Təxəllüsü Mixaylo” filmləri Mehdi Hüseynzadənin qəhrəmanlıq dolu həyatından bəhs edir. Xalq şairi S.Rüstəm “El oğluma” şeirini onun xatirəsinə həsr edib.

## Kazımov Səlahəddin Həsən oğlu
## (1920 – 1978)



General-mayor Səlahəddin Həsən oğlu Kazımov 22 dekabr 1920-ci ildə Zaqatalada müəllim ailəsində anadan olub. Müəllim olmaq arzusu ilə yaşayırdı. Ona görə də orta məktəbi bitirdikdən sonra Zaqataladan Bakıya gələn Səlahəddin qəbul imtahanlarını müvəffəqiyyətlə verib Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) fizika-riyaziyyat fakültəsinə daxil olmuşdu. Arzularının gerçəkləşdiyi bir vaxtda təhsilini başa vurduqdan sonra 1941-ci ildə Böyük Vətən Müharibəsi başlananda o, sinif otaqlarına deyil, konüllü olaraq cəbhəyə yola düşür. Ali təhsilli olduğunu nəzərə alaraq onu 1941-ci ildə Tiflis Hərbi Artilleriya məktəbinə göndərirlər. Bir il ərzində bu məktəbdə hərb elmini öyrəndikdən sonra Kazımov zabit rütbəsində cəbhədə xidmətə başlayıb. Qısa zamanda döyüşlərdə fərqlənən, peşəkar hərbçi kimi tanınan Səlahəddinə artıq 1943-cü ildə artilleriya divizionu komandiri vəzifəsi həvalə edilib. Komandanlıq tərəfindən tapşırılan döyüş əməliyyatlarını uğurla həyata keçirən baş leytenant Kazımov təkcə 1943-cü ildə bir neçə dəfə düşmənə ağır zərbələr yetirərək əhəmiyyətli mövqeləri ələ keçirməyə nail olub.

1943-cü ilin sentyabr ayında S.Kazımov komandiri olduğu bölmə ilə Kiyev ətrafında gedən döyüşlərdə sözün əsl mənasında qəhrəmanlıq nümayiş etdirib. 12 gün davam edən döyüşlərdə düşmən qüvvələri ilə müqayisədə canlı qüvvə və texnika baxımından az olsalar da, geri çəkilməyən bölmə Dnepr çayını keçərək sağ sahilə, Kiyevin şimalına çıxaraq düşmənin mövqelərini məhv etməklə hücüm əməliyyatının Çerniqov və Qomel istiqamətlərində genişlənməsini təmin ediblər. Bu döyüşlərdə 200-dən artıq alman əsgəri və zabiti, düşmənin 16 tankı, 20-dən artıq digər zirehli texnikası məhv edilib. Bu uğurlu əməliyyatdan sonra döyüş yoldaşları ona qeyri-rəsmi ad da verib: *Ukrayna cəbhələrinin cəngavəri.*

Səlahəddinin göstərdiyi şücaət və qəhrəmanlıqlar komandanlıq tərəfindən daima qiymətləndirilib. SSRİ Ali Soveti Rəyasət heyətinin 16 oktyabr 1943-cü il tarixli fərmanı ilə Səlahəddin Həsən oğlu Kazımov "Sovet İttifaqı Qəhrəmanı" fəxri adına layiq görülüb.

Ukrayna cəbhələrindən sonra S.Kazımov döyüşlərini Polşada davam etdirib. Daha sonra isə Çexoslovakiyanın azadlığı uğrunda ən ağır hərbi

əməliyyatlarda iştirak edib. Sonuncu döyüşü də elə Çexoslovakiyada olub. Müharibənin sonuncu günü, 9 may 1945-ci ildə Səlahəddin Kazımov döyüşlərdə ağır yaralanaraq hərbi hospitala göndərilib.

Müharibənin acı-ağrısını görmüş Səlahəddin cəbhədən qayıtdıqdan sonra hərbi mundirini dəyişməyib, xidmətini Azərbaycanın daxili işlər orqanlarında davam etdirib. General-mayor rütbəsində olan qəhrəman döyüşçü daxili işlər nazirinin müavini vəzifəsinə qədər yüksəlib, cinayətkarlığa qarşı amansız mübarizə aparıb.

Səlahəddin Kazımov 2 iyul 1978-ci ildə xidməti vəzifəsini icra edərkən həlak olub.

Bakıda, Fəxri Xiyabanda dəfn edilib.

## Mustafayev Xıdır Həsən oğlu
## (1905 – 1976)



Mayor Xıdır Həsən oğlu Mustafayev 1905-ci ildə Ermənistanın Kirovokan rayonunun Gözəldərə (Xancikas) kəndində anadan olmuşdur. Azərbaycan Pedaqoji İnstitutunda (indiki ADPU) ali təhsil almışdır. 1937-ci ildə Kirovokan RHK-dan orduya çağırılmışdır. 1937-1941-ci illərdə əsgərlik dostu Xankişi Şükür oğlu İsmayılovla birlikdə Tiflis Ali Piyadalar Məktəbində hərbi təhsil almışdır. Müharibənin ilk günlərində motoatıcı batalyonun komandiri olmuşdur. Stalinqrad, Kiyev, Jitomir, Kazatin, Berdiçev, Prokursov, Ternopol uğrundakı döyüşlərdə iştirak etmişdir. 1943-cü ilin payızında Ukraynanın paytaxtı Kiyev şəhərinin azad edilməsi uğrunda döyüşlərdə tankçılar batalyonun komandiri, mayor Xıdır Mustafayev xüsusilə fərqlənmişdir.

1943-cü ilin noyabrın 5-dən 6-na keçən gecə Xıdır Mustafayev zərbəçi tank batalyonuna komandir təyin edilir. Komandirin təklifi ilə qurulan strateji plana uyğun olaraq batalyonun qarşısına gözlənilmədən düşmənin arxasına keçib Kiyevdən 70 kilometr aralıda yerləşən Fastov şəhərini tutmaq vəzifəsi qoyulur. Ayın 6-sı axşam Mustafayevin tankçıları şəhərə daxil olaraq dəmiryol vağzalını ələ keçirirlər. 5 saata yaxın davam edən küçə döyüşləri nəticəsində sovet tankçıları alman qarnizonunu darmadağın edərək Fastov şəhərini onlardan tamamilə təmizləyir. Nəticədə düşmən döyüş meydanında 64 zenit topu, 43 tank, 16 eşalon, 40 min tona yaxın yanacaq, 5 parovoz və 40 silah anbarını qoyaraq qaçır.

1945-ci ildə Bakıya gələn Xıdır bir müddət İçərişəhərdə yerləşən Bakı Şəhəri Hərbi Kamendaturasına rəhbərlik etmiş, sonra mülki işə keçmiş, Azərbaycan SSR Avtomobil Nəqliyyatı Nazirliyində şöbə rəisi, 1 nömrəli Bakı Taksomator Parkının direktoru vəzifələrində çalışmışdır. Xıdır Mustafayev 21 may 1976-cı ildə 71 yaşında vəfat etmiş, I Fəxri Xiyabanda dəfn olunmuşdur.

2 Lenin ordeni, Qırmızı Ulduz Ordeni, birincidərəcəli Vətən müharibəsi ordeni, Qırmızı Bayraq ordeni, Qırmızı Ulduz medalı ilə təltif edilmişdir. Fastov uğrunda döyüşlərə müdrikliklə komandanlıq etdiyinə və döyüş meydanında qəhrəmanlığı ilə fərqləndiyinə görə SSRİ Ali Sovetinin 1944-cü il 10 yanvar tarixli fərmanı ilə Xıdır Həsən oğlu Mustafayevə "Sovet İttifaqı Qəhrəmanı" adı verilmişdir.



# Səfərov Fariz Məcid oğlu
# (1920 – 1964)

Mayor Fariz Məcid oğlu Səfərov 1920-ci ilin iyun ayının 20-də Ağdaş rayonunun Ləki qəsəbəsində anadan olmuşdur. Qəsəbədəki 6 nömrəli orta məktəbin VII sinifini bitirdikdən sonra Bakı şəhəri, Biləcəri qəsəbəsindəki 5 nömrəli rus dilli məktəbin hazırlıq kursunu bitirmişdir. Az bir müddət Kürdəmir rayonunda rus dili müəllimi işləmişdir. Azərbaycan Pedaqoji İnstitutunda (indiki ADPU) ali təhsil almışdır. 1939-cu ildə Bakı şəhər Hərbi Komissarlığından hərbi xidmətə çağrılmış, Litvada, daha sonra Minsk şəhərində Hərbi Hava Qüvvələri hissəsində xidmət etmişdir.

On günlük məzuniyyətə gedən baş çavuş Fariz Səfərov müharibə başladığından Minskdəki hərbi hissəyə geri dönməli olur, yolda olduğu qatarı alman təyyarələri bombalayır, çox sayda insan ölsə də, Fariz sağ qalır və 416-cı Taqanroq diviziyasının hissələrindən birinə qoşulur. 1943-cü ildə Zaporojye ətrafında Qızıl Ordu birləşmələri qanlı döyüşlərlə düşməni sıxışdıraraq Dnepr sahillərinə yaxınlaşdığı bir vaxt baş çavuş Səfərov gecənin qaranlığında bir qrup döyüşçü ilə birlikdə qayıqlarla düşmən sahilə yön alır. Düşmənlər sahilə yaxınlaşmağa 10-15 metr qalmış qayıqlarını görsələr də, sahilə çıxa bilirlər. Ağır döyüşlərə baxmayaraq, almanlar sahil zolağını yenidən ələ keçirə bilmir. Fariz Səfərovun rəhbərliyi altında əməliyyat müvəffəqiyyətlə tamamlanır. Alman ordusuna məxsus xeyli döyüş sursatı, texnikası ələ keçirilir. Tezliklə sovet ordu hissələri Dnepr çayını keçərək hücuma başlayır.

19 mart 1944-cü il tarixində SSRİ Ali Sovetinin fərmanı ilə Səfərov Fariz Məcid oğlu "Sovet İttifaqı Qəhrəmanı" adı alır (medal № 3452).

Fariz Səfərov müharibədən sonra da ordudan ayrılmamış və 1957-ci ildə mayor rütbəsində ehtiyata göndərilmişdir. O, 27 avqust 1964-cü ildə vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ləki qəsəbəsində Fariz Səfərovun ev muzeyi açılmış, Ağdaş Tarix-Diyarşünaslıq muzeyində xatirəsinə guşə yaradılmışdır.

# II Dünya Müharibəsi iştirakçıları




# Döyüşən rektorlarımız

## Ələsgərov Cəbrayıl Ağaəli oğlu (1907-1969)



Mayor, pedaqoji elmlər namizədi, dosent Cəbrayıl Ağaəli oğlu Ələsgərov 1907-ci ildə Şamaxıda dünyaya gəlib. 1917-1918-ci ildə erməni daşnakların törətdiyi soyqırımını gözləri ilə görmüşdür. Ermənilərin Şamaxıda törətdiyi qətliamdan sonra bir çoxları kimi Cəbrayılgilin də ailəsi didərgin düşür və onlar Ağdaşda məskunlaşırlar. Atasının vəfat etməsindən sonra onun vəsiyyətinə görə Bakıya gələn Cəbrayıl Azərbaycan Xalq Cümhuriyyəti dövründə xüsusi mətbəələrdən birində usta köməkçisi işləyərək mürəttiblik *(mətbəədə hərfyığan, düzücü – tərt.)* peşəsinə yiyələnmişdir. Sovet hakimiyyətinin əvvəllərində dövlət mətbəəsində cildçi işləmişdir.

Bakıda I dərəcəli 76 №-li məktəbi bitirib Sənaye texnikumuna daxil olub. 1928-ci ildə texnikumu əla qiymətlə bitirdiyinə görə M.Əzizbəyov adına Politexnik İnstitutuna (indiki ADNSU) qəbul olunmuşdur. 1932-1935-ci illərdə V.V.Kuybışev adına Azərbaycan Elmi-Tədqiqat Neft İnstitutunda (AETNİ) elmi işçi vəzifəsində çalışmışdır. C.Ələsgərov 1924-cü ildə komsomol, 1931-ci ildə partiyaya daxil olub.

O, 1936-cı ildə fəaliyyət sahəsini dəyişərək təhsil sahəsinə keçir. 1936-cı ildə Neft Texnikumunda müəllim və direktor müavini işləyir. 1937-ci ildə həmin texnikumda direktor vəzifəsinə təyin olunur. Bununla yanaşı həmin müddətdə geoloji-kəşfiyyat texnikumunda da dərs deyir.

1937-ci ilin noyabrında Mir Cəfər Bağırov C.Ələsgərovu şəxsən qəbul edərək onunla ətraflı söhbət edir və onu Azərbaycan KP MK Bürosunun qərarı ilə Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsinə təyin edir (noyabr, 1937 – 21 iyun 1941).

1941-ci ildə Böyük Vətən müharibəsi başlayanda hər kəs müsəlləh əsgərə çevrildi. Müharibənin birinci günü, 1941-ci il iyun ayının 22-də ADU-nun rektoru C.Ələsgərov o vaxt indiki İstiqlaliyyət küçəsində yerləşən universitet binasının qarşısında müəllim və tələbələrin mitinqini təşkil edir. Rektor mitinq iştirakçılarına bildirir ki, mitinq bitər-bitməz yaxınlıqdakı hərbi komissarlığa gedib, könüllü cəbhəyə göndərilmək üçün müraciət etsinlər və özü də həmin gün rektor vəzifəsini təhvil verərək səhəri gün cəbhəyə yola düşür.

Rektorun bu addımı müəllim və tələbələrə çox təsirli bir çağırış idi. Müharibənin ilk dövründə universitetdən 1385 nəfər orduya yollanır. Onlardan 159 nəfəri müəllim, 23 nəfəri aspirant, 1141 nəfəri isə tələbə idi ki, onların içində də 200 nəfəri qadın idi. Bu proses bütün ali və orta ixtisas məktəblərində həyata keçirilirdi.

Zaqafqaziya Hərbi Dairəsində siyasi şöbədə xidmətə başlayan C.Ələsgərov 44-cü Ordunun tərkibində Krım uğrunda döyüşlərdə iştirak edir. 1943-cü ilin fevralında mayor Ələsgərov Şimali Qafqaz cəbhəsində döyüşən qardaşları Ağabala və Mikayılın döyüşlərdə ölməsi xəbərini alır. Həmin gün ona həm də təcili olaraq Bakıya – Mərkəzi Komitəyə çağırılması haqqında teleqram verilir. M.C.Bağırovun qəbulunda onun əsas xahişi qardaşlarının intiqamını alması üçün ön cəbhəyə göndərilməsi olur. Respublika rəhbəri ona deyir: *"- Hissə qapılaraq düşməndən intiqam almazlar, ağılla, səbrlə və siyasətlə hərəkət etmək lazımdır: Odur ki, sənin mübarizə yerin də, iş yerin də Mərkəzi Komitə olacaqdır."*

1943-cü il avqustun 23-də C.Ələsgərov Azərbaycan K(b)P MK-nın partiya kadrları şöbəsinin bölmə müdiri – ikinci müavin vəzifəsinə təyin edilir. Sonra bir müddət MK-da məktəb və elm şöbəsində çalışır. 1944-cü ilin yanvarında Azərbaycan maarif komissarının müavini vəzifəsinə təyin olunur.

C.Ələsgərov 1944-cü ilin aprelində Təbriz şəhərinə ezam olunur, Cənubi Azərbaycanda təhsil quruculuğunda mühüm xidmətlər göstərir. Bakıya qayıtdıqdan sonra Azərbaycan KP MK-da kadrlar üzrə iş şöbəsinin müdir müavini təyin olunur, daha sonra yenidən xalq maarif komissarının müavini (1947 – 1951) təyin olunur. Təhsil təşkilatçılığı sahəsindəki uğurlu fəaliyyətini nəzərə alaraq 1951-ci il may ayının 14-də yenidən Azərbaycan KP MK-ya dəvət olunur və M.C.Bağırovun tövsiyəsi ilə MK-nın məktəblər şöbəsinin müdiri təyin edilir (1951 – 1952). O, həm də ADPİ-də (indiki ADPU) Cənubi Azərbaycandakı milli məktəblərin təşəkkülü və inkişafı ilə bağlı tədqiqatlarını davam etdirir. Təbrizdəki üçillik fəaliyyətini ümumiləşdirərək namizədlik dissertasiyasını müdafiə edir (23 fevral 1952).

Həmin dövrdə Azərbaycandan böyük bir müəllim kollektivi Bolqarıstana, türklərin daha çox yaşadığı yerlərdə yeni məktəblər təşkil etmək, mövcud məktəbləri təkmilləşdirmək, tədris resursları hazırlamaq üçün ezam olunur. Nümayəndə heyətinə rəhbərlik C.Ələsgərova həvalə olunur. O, bir müddət Bolqaristan Xalq Respublikasında maarif nazirinin müşaviri vəzifəsində çalışır (16 mart 1952 - mart 1954), məktəb quruculuğunda yaxından iştirak edir. Bakıya qayıdan C.Ələsgərov 23 iyun 1954-cü ildə ADPİ-nin direktoru təyin olunur və 1 yanvar 1957-ci ilə kimi bu vəzifədə ləyaqətlə çalışır. Bu illərdə institutda müəllim hazırlığında xeyli nailiyyətlər əldə edilir. İldən-ilə tələbə qəbulunun, elmi dərəcəsi və adı olan əməkdaşların sayı artırılır,

tədris və elmi-tədqiqatların səviyyəsi yüksəldilir. Elmi işlər üzrə direktor müavini vəzifəsi yaradılır. Aspirantura yolu ilə yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına xüsusi diqqət yetirilir. İldən-ilə tələbə kontingentinin artması auditoriya problemi yaratmışdı. Məhz onun instituta rəhbərliyi dövründə böyük çətinliklərlə institutun əsas binasına bitişik dördmərtəbəli tədris korpusunun tikintisinə başlanır. 1956-cı ildə 6267 kv.m. sahəsi olan həmin bina istifadəyə verilir. Binanı şəxsi əlaqələri və nüfuzu hesabına tikdirən rektor tikinti üçün zəruri olan materialların bir hissəsini dost-tanışları vasitəsilə əldə edərmiş.

1956-cı ilin dekabrında Cəbrayıl Ələsgərov V.İ.Lenin adına ADPİ-nin direktoru vəzifəsindən azad olunur. C.Ələsgərovun ADPİ-nin direktoru vəzifəsindən çıxarılması ilə əlaqədar olaraq fevralın 14-də Moskvaya, Sov. İKP MK-ya məktub göndərilmişdir. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində saxlanılan həmin məktubu tanınmış araşdırmaçı Teyyub Qurban ilk dəfə ictimaiyyətə təqdim edib. Professor Fərrux Rüstəmov qeyd edir ki, məktubun yazılmasına səbəb, çox güman, Sov. İKP MK-nın Azərbaycan KP MK-dan tanınmış təhsil təşkilatçısı və partiya işçisi C.Ələsgərovun vəzifədən azad edilməsi ilə bağlı izahat istəməsi ilə bağlı olub. Professor qeyd edir ki, araşdırmalar zamanı tələsik yazılan məktubda vurğulandığı kimi heç də C.Ələsgərovun adına yazılan nöqsanlar öz təsdiqini tapmır. Bəs Birinci katib İ. Mustafayevin onu vəzifədən azad etməsinin əsas səbəbi nə idi? O, Azərbaycan KP MK-da vaxtı ilə İ.Mustafayevlə birlikdə işləmişdi, Bolqarıstanda bir yerdə olmuşdular. İnstitutda qısa bir vaxtda xeyli iş görülmüşdü, yeni bir tədris korpusu tikilmişdi. Ona qarşı yuxarı dairələrdə münasibətin birdən-birə kəskinləşməsinin səbəbi yuxarıda adını çəkdiyimiz tədqiqatçı T.Qurbanın araşdırmalarında öz əksini tapır. O, qeyd edir ki, 1956-cı ildə bəzi partiya və dövlət rəhbərlərindən fərqli olaraq "Şamaxı qaçqını" kişiliyi mənsəbdən üstün tutdu, M.C.Bağırovun əleyhinə təşkil edilən təbliğat kampaniyalarından imtina etdi. O, 1957-1958-ci illərdə Azərbaycan SSR "Bilik" Cəmiyyətinin məsul katibi vəzifəsində çalışır, daha sonra ADU-ya qayıdır və ömrünün sonunadək burada dosent vəzifəsində çalışır.

Xalqın ziyalı oğlu Cəbrayıl Ağaəli oğlu Ələsgərov 1969-cu ilin yanvarında qəflətən dünyasını dəyişir. Əllinci illərdə onunla MK-da işləmiş Azərbaycan KP MK-nın katibi C.H.Cəfərovun səyi ilə onu II Fəxri Xiyabanda dəfn edirlər.

C.Ələsgərov "Qırmızı Əmək Bayrağı", "Şərəf Nişanı" ordenləri, "Qafqazın müdafiəsinə görə", "Böyük Vətən müharibəsində şərəfli əməyinə görə", "Almaniya üzərindəki qələbəyə görə" medalları ilə təltif olunmuşdur.

Onun övladı olmasa da, həyat yoldaşı "Şərəf Nişanı" ordeni ilə təltif olunmuş Z.Ələsgərova ilə müharibədə şəhid olan iki qardaşının 7 uşağını onlar böyüdüb boya-başa çatdırmışdır.



## Əliyev Mehdi Sadıq oğlu
## (1907-1972)

Professor, Əməkdar elm xadimi Mehdi Sadıq oğlu Əliyev 1907-ci il dekabr ayının 21-də Gəncə şəhərində ziyalı ailəsində dünyaya gəlib. O, 1920-1924-cü illərdə Gəncə Müəllimlər Seminariyasını bitirərək bir müddət Gəncədə müəllim işləmişdir. 17 yaşlı müəllim öz savadını artırmağa ehtiyac duyur və Bakıya gələrək 1925-1930-cu illərdə Azərbaycan dilində yenicə tədrisə başlamış Azərbaycan Dövlət Universitetinin (ADU, indiki BDU) fizika-riyaziyyat fakültəsində təhsil alır. M.Əliyev yenidən təşkil edilən V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunda (indiki ADPU) 1931-1935 illərdə Fizika-riyaziyyat fakültəsinin dekanı vəzifəsində çalışmışdır. 1935-ci ildə 5 il əvvəl ləğv edilmiş ADU yenidən fəaliyyətini bərpa edəndə M.Əliyev də doğma universitetinə qayıdaraq elmi-pedaqoji fəaliyyətini orada davam etdirmişdir. Bacarıqlı təşkilatçı və fizika müəllimi kimi M.Əliyev ADU-da Fizika-riyaziyyat fakültəsinin dekanı seçilir.

Böyük Vətən müharibəsi başladığından 1941-ci ilin iyununda ADU-nun rektoru Cəbrayıl Ələsgərov kimi o da yüksək vəzifə tutmasına baxmayaraq tələbələrlə birgə könüllü olaraq ön cəbhəyə yollanır. O, NKVD-nin (Xalq Daxili İşlər Komissarlığı) 30-cu polkunda əsgər kimi Donbasın müdafiəsində iştirak edir. Döyüşlərin birində düşmən gülləsinə tuş gələrək ağır yaralanmışdır. 1942-ci ilin may ayında ordudan tərxis olunaraq yenidən universitet həyatına qayıdır. 1944-cü ildə ADU-nin Fizika-riyaziyyat fakültəsinə dekan vəzifəsinə seçilmiş və müharibənin ağır zərbələrinə məruz qalmış Azərbaycanda ali təhsil sisteminin yenidən formalaşması və inkişafı üçün mühüm işlər görmüşdür.

M.Əliyev 1952-ci ildə ADU-nun prorektoru kimi daha məsul vəzifəyə təyin edilmişdir. O, bu vəzifənin öhdəsindən də layiqincə gələrək elmi-pedaqoji ictimaiyyət arasında sayılıb-seçilən şəxsiyyətə çevrilmişdir. Vəzifələrinin məsuliyyəti artdıqca, Mehdi müəllimin elm, təhsil və idarəçilik sahələrində praktiki istifadəsinə ciddi ehtiyac duyulan daha geniş spektrli imkanları üzə çıxmış və ADU-da ali təhsilin inkişafında çox yararlı olmuşdur.

1962-ci ildə tanınmış alim-pedaqoq Mehdi Əliyev Azərbaycan Dövlət Pedaqoji İnstitutuna rektor təyin edilir. 1965-ci ilə qədər o burada ali pedaqoji kadrların hazırlanmasında, elmi-tədqiqat işlərinin aparılmasında, kollektiv

arasında əhvali-ruhiyyənin sağlamlaşmasında ciddi dönüş yaratmış və öz nüfuzunu daha da artırmışdır. Onun ADPİ-yə rəhbərliyi zamanı institutda axşam şöbəsi yaradılır, yeni fakültə, şöbə və kafedralar təşkil olunur. Xarici dillərin müntəzəm tədrisinə başlanılır, Pedaqogika və psixologiya kafedrası iki müstəqil kafedra kimi yenidən təşkil olunur. Qoşa ixtisaslar ləğv olunur və təhsil müddəti 5 ildən 4 ilə endirilir. İlk dəfə ixtisaslaşdırılmış Müdafiə Şuraları yaradılır.

Fədakarlığı, bilik və bacarığı, insani keyfiyyətləri Mehdi Əliyevi ali dövlət orqanlarında diqqət mərkəzində saxlamış və ali təhsilimizin inkişafında ehtiyac duyulan anda yenidən ona müraciət edilərək 1965-ci ildə ADU-nun rektoru təyin edilmiş və bu vəzifəni 1970-ci ilə kimi böyük uğurla icra etmişdir.

M.Əliyev Universitetin məzunları arasında xüsusi istedadı və bacarığı ilə seçilənlərin keçmiş SSRİ-nin müxtəlif şəhərlərinə, dünya miqyaslı elm mərkəzlərinə aspiranturaya göndərilməsinin təşəbbüskarı olmuş və onların Bakı şəhərində işə qəbul olunmasına, mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi qayğı göstərmişdir. Hazırda da BDU-nun elmi-pedaqoji heyəti arasında M.Əliyevin qayğılarından bəhrələnən alimlər onu minnətdarlıqla yad edirlər.

Mehdi müəllim respublikada təhsil, elm sahəsində təşkilati işlərlə yanaşı, pedaqoji fəaliyyətlə də ciddi məşğul olmuşdur. O ADU və ADPİ ilə yanaşı, Azərbaycan Tibb İnstitutunda, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda, Azərbaycan Sənaye İnstitutunda (indiki ADNSU), Tiflisdəki Zaqafqaziya Dəmir Yolları İnstitutunda da mühazirələr oxumuşdur. Mehdi müəllim özünəməxsus qeyri-adi pedaqoji istedada malik idi.

Mehdi Əliyev bacarıqlı elm-təhsil təşkilatçısı olmaqla yanaşı, həm də nüfuzlu alim idi. O, 1933-cü ildə dövrünün yüksək elmi adına – dosent adına layiq görülmüşdür. Bəzi torpaq elementlərinin fiziki xassələrinin tədqiqinə aid böyük praktik əhəmiyyətə malik elmi-tədqiqat işləri ilə məşğul olmuşdur. O, 1949-cu ildə “Bərk cisimlərin bərkliyinin rəqs üsulu ilə təyini” mövzusunda dissertasiya müdafiə etmişdir. Onun elmi məqalələri müntəzəm olaraq nüfuzlu respublika və xarici jurnallarda dərc olunmuş və məruzələri elmi konfranslarda dinlənilmişdir. M.Əliyev Azərbaycan dilində dərslik, dərs vəsaitlərinin hazırlanması, fizika üzrə terminologiyanın tərtibi kimi işlərə xüsusi əhəmiyyət vermişdir. O, tələbələr üçün bir çox vacib dərslikləri (A.F.İoffenin “Molekulyar fizika kursu” və s.) rus dilindən Azərbaycan dilinə tərcümə etmiş və ali məktəblər üçün “Optika” kursundan Azərbaycan dilində yazılmış ilk dərsliyin professor N.Quliyevlə birgə həmmüəllifi olmuşdur.

Professor Mehdi Əliyev 4 may 1972-ci ildə Bakı şəhərində vəfat etmiş və Fəxri Xiyabanda dəfn edilmişdir. O, “Azərbaycan Respublikasının Əməkdar elm xadimi”, “Azərbaycan Respublikasının Əməkdar müəllimi” fəxri adlarına, “Qırmızı Əmək Bayrağı” ordeni və digər orden və medallara layiq görülmüşdür. 2007-ci ildə BDU-da alimin 100 illik yubileyi təntəli mərasimlə qeyd olunub.



# Hacıyev Cəfər Zeynal oğlu
# (1910-1961)

Filologiya elmləri doktoru, professor Cəfər Zeynal oğlu Hacıyev (Cəfər Xəndan) 1910-cu ilin may ayının 8-də İrəvan şəhərində müəllim ailəsində dünyaya göz açıb. 1918-ci ildə ailəsi Gəncəyə köçmüş, ata-anası burada öldüyündən kimsəsiz qalan kiçik qardaş və bacısı ilə Gəncə uşaq evində yaşamışdır (1922-ci ilədək).

1925-ci ildə Gəncə Pedaqoji Texnikumunu bitirmişdir. Azərbaycan Dövlət Pedaqoji İnstitutuna (indiki ADPU) daxil olmuş, həm də fəhlə fakültəsində müəllimlik (1925-1929) etmişdir. İnstitutun Dil və ədəbiyyat fakültəsini bitirdikdən sonra aspiranturaya daxil olmuş, eyni zamanda institutun ədəbiyyat kafedrasında I, müəllim, dosent və kafedra müdiri kimi fəaliyyət göstərmişdir (1932-1941).

M.F.Axundov adına Azərbaycan Müəllimlər İnstitutunun Dil və ədəbiyyat fakültəsinin dekanı, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun kafedra müdiri, Azərbaycan SSR Elmlər Akademiyasının (indiki AMEA) Dil və Ədəbiyyat İnstitutunda şöbə müdiri, həm də 1938-ci ildə həqiqi üzv qəbul olunduğu Azərbaycan Yazıçılar İttifaqında təşkilat katibi, "Ədəbiyyat qəzeti"nin məsul katibi, "Gənc işçi" qəzetinin redaksiyasında ədəbiyyat şöbəsinin müdiri vəzifələrində işləmişdir.

Bu dövrdə məhsuldar elmi və bədii yaradıcılıqla məşğul olan Cəfər Xəndan dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır (1939).

1941-ci ildə Böyük Vətən Müharibəsinin başlanması ilə səfərbərliyə alınmış, sovet ordusu tərkibində siyasi rəhbər və jurnalist kimi alman işğalçılarına qarşı vuruşmuşdur. O, Cənub-Qərb, Şimali Qafqaz, Zaqafqaziya cəbhələrində siyasi şöbənin baş təlimatçısı, cəbhə qəzetlərində ("Vo slavu Rodinı", "Vpered k pobede", "Boets RKKA", "Vətən yolunda") məsul redaktorun müavini olmuşdur (1944-1946).

Ordu sıralarından tərxis olunandan sonra Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Azərbaycan ədəbiyyatı kafedrasında dosent, eyni zamanda "Kommunist" qəzetində Mədəniyyət və məişət şöbəsinin müdiri (1946-1947) işləmişdir.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun direktoru (1948-1950), sonra isə dörd il Azərbaycan Dövlət Universitetinin rektoru (1950-1954) olmuşdur. 1952-1961-ci illərdə Universitetin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Cəfər Xəndan XX əsr Cənubi Azərbaycan ədəbiyyatının ən görkəmli tədqiqatçılarından biri olub. O, 1947-ci ildə "1906-1946-cı illərdə Cənubi Azərbaycan xalqının milli azadlıq mübarizəsi və onun bədii ədəbiyyatda inikası" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsi almışdır. Tanınmış şair, tənqidçi və ədəbiyyatşünas kimi Cəfər Xəndana 1949-cu ildə elmi-pedaqoji fəaliyyətinə görə professor elmi adı verilib.

Alimin çox zəngin elmi və bədii yaradıcılığı var. Onun "XX əsr Azərbaycan ədəbiyyatı" (1951), "Sovet ədəbiyyatı" (iki hissədə, 1952), "Cəfər Cabbarlının həyat və yaradıcılığı" (1954), "XX əsr Azərbaycan ədəbiyyatı tarixi oçerkləri" (1955), "Mikayıl Müşfiq" (1956), "Molla Nəsrəddin" (1956), "Mir Cəlal" (1958), "M.Ə.Sabir haqqında" (1958), "Şairin həyatı" (1961), "Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri" (1962) kitabları nəşr edilib. Eyni zamanda 1957-ci ildə nəşr edilən "Azərbaycan ədəbiyyatı tarixi" üçcildliyinin III cildinin müəlliflərindən biri professor C.Xəndandır. O, əsərlərində Azərbaycan ədəbiyyatı tarixinin bütün dövrlərini sistemli araşdıraraq hər bir dövrün klassiklərinin yaradıcılığında müasir həyata xidmət edəcək məqamları aşkarlamağa çalışıb.

C.Xəndan şair, tərcüməçi və tənqidçi kimi də məhsuldar yaradıcılığa malikdir. Onun müxtəlif ədəbi-elmi növ və janrlarda 30-a qədər kitabı çap olunub. Bunlardan birincisi 1936-cı ildə "Azərnəşr"in buraxdığı "Bəyaz gecələr" adlı şeir kitabıdır. Bu kitabın redaktoru Cəfər Xəndanın qələm dostu, istedadlı şairimiz Mikayıl Müşfiq olub. Repressiya qurbanı olan Müşfiqə bəraət verildiyi 1956-cı ildə onun haqqında çap edilmiş ilk kitabın müəllifi isə professor Cəfər Xəndan oldu. Eyni zamanda "Cəbhə şeirləri" (1942), "Qafqaz" (1942), "İki ayrılıq" (1944), "Mübarizə yollarında" (1946) kimi kitablarında toplanmış şeir və poemaları insanların mənəvi dünyasının yetkinləşməsinə xidmət edən dəyərli xəzinədir. Alimin fars dilindən yüksəksəviyyəli poetik tərcümələrinin əks olunduğu N.Gəncəvinin "Lirika" (1940), M.F.Axundovun "A.S.Puşkinin ölümünə Şərq poeması" (1962), Heyran Xanımın "Qəzəllər" (1975) kitabları geniş oxucu kütləsi və professional elmi-ədəbi mühit tərəfindən böyük maraqla qarşılanmaqla tərcümə tariximizdə önəmli yer tuturlar.

Cəfər Xəndanın ictimai-siyasi, hərbi, elmi-pedaqoji fəaliyyəti və yaradıcılığı yüksək qiymətləndirilib. O, "Qırmızı ulduz" (1942) ordeni, "Qırmızı Əmək Bayrağı" (1946) ordeni, "Qafqazın müdafiəsinə görə" medalı, "Almaniya üzərində qələbəyə görə" medalı, Fəxri fərman və hədiyyələrlə mükafatlandırılmışdır.

1961-ci il avqustun 10-da Bakıda vəfat etmişdir. Bakı şəhərinin küçələrindən biri onun adını daşıyır.

Anadan olmasının 100 illiyi dövlət səviyyəsində qeyd edilib, BDU və ADPU-da yubiley tədbirləri keçirilib, hər iki universitetdə "Cəfər Xəndan auditoriyası" açılıb.

Cəfər Xəndan Azərbaycan elminin inkişafında olduğu kimi, elmi kadrların hazırlanmasında da böyük xidmətlər göstərib. Onun rəhbərliyi altında 30 nəfər elmlər doktoru və namizədi yetişib.

C.Xəndanın tələbələrindən xalq şairi Hüseyn Arifin "Ustad Cəfər Xəndana" adlı şeirində böyük alim və müəllim "həmişə xoş sifət, açıq, mehriban, qaynar baxışları gülümsəyən", "şirin səsli, təmiz gülüşlü, hafizəsi ağlı heyran qoyan, qeyri-adi təsir gücünə malik bir insan" kimi yad olunur.

## Mehdizadə Mehdi Məmməd oğlu (1903-1984)



SSRİ PEA-nın həqiqi üzvü, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi Mehdi Məmməd oğlu Mehdizadə 5 yanvar 1903-cü ildə Cəbrayıl qəzasının Daşkəsən kəndində anadan olub. 1914-cü ildə təlim rus dilində olan ibtidai məktəbdə oxuyub. 1920-ci ildə Daşkəsən kənd qiraət komasının müdiri kimi fəaliyyət göstərib. Cəbrayıldakı pedaqoji kursu bitirdikdən sonra doğma kəndində çalışıb.

1923-cü ildə M.Mehdizadənin müdir olduğu I dərəcəli məktəbdə Azərbaycan Xalq Maarifi Komissarlığı tərəfindən yoxlama aparılıb. Bir qədər sonra səmərəli fəaliyyətlərinə görə qəzanın 6 nəfər müəllimi mükafatlandırılıb ki, onlardan biri də gənc pedaqoq Mehdi Mehdizadə olub.

1923-cü ildə M.Mehdizadə qəza xalq maarifi şöbəsinin icazəsi ilə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin hazırlıq kursuna daxil olub, sonra fizika-riyaziyyat fakültəsində oxuyub. Ali təhsilli fizika-riyaziyyat müəllimi kimi Cəbrayıl qəzasının Qaryagin (indiki Füzuli) şəhərindəki II dərəcəli məktəbdə pedaqoji fəaliyyətini davam etdirib. Qəza metodbürosuna sədrlik ona tapşırılıb. Məktəblərdə ümumpedaqoji və metodik istiqamətlərdə iş aparıb, müəllimlərin fəaliyyətinin səmərəliliyini artırmaq üçün bilik və bacarığını əsirgəməyib.

1930-cu ilin martında Azərbaycan SSR Xalq Maarifi Komissarlığı İctimai Tərbiyə Baş İdarəsinin elmi katibi, daha sonra xalq maarifi komissarının birinci müavini Ayna Sultanovanın köməkçisi təyin edilən M.Mehdizadə Azərbaycan Dövlət Elmi Tədqiqat Məktəblər İnstitutunun aspiranturasına daxil olub. Elə həmin vaxtdan ali məktəbdə - Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (ADPİ, indiki ADPU) elmi-pedaqoji fəaliyyətə başlayıb, pedaqogika tarixinə, müasir təlim-tərbiyə məsələlərinə aid məqalələrlə dövri mətbuatda çıxış edib. 1934-cü ildə ADPİ-də yeni təşkil edilmiş Pedaqoji fakültənin dekanı təyin edilir. Bu vəzifədə bir illik uğurlu fəaliyyəti nəticəsində institutun elmi işlər üzrə direktor müavini təyin olunur və 1934-1937-ci illərdə bu vəzifədə çətin repressiya şəraitində əlindən gələni əsirgəmədən çalışır. 1941-ci ildə “Azərbaycan məktəblərində savad təlimi tarixi” mövzusunda namizədlik dissertasiyası müdafiə edir (ondan əvvəl pedaqogika ixtisası üzrə Əhməd Seyidov 1937-ci ildə ilk dəfə namizədlik dissertasiyası müdafiə etmişdi).

Müdafiədən sonra ADPİ-də tədris işləri üzrə direktor müavini təyin olunur. 1941-ci ilin mayından 1942-ci ilin sentyabrına qədər instituta rəhbərlik edən M.Mehdizadə Böyük Vətən müharibəsinin başlaması ilə əlaqədar olaraq institutun onlarla müəllim və tələbəsi ilə birgə cəbhəyə yollanır. İnstitut özü isə maliyyə və kadr probleminə görə müvəqqəti ADU-ya birləşdirilir.

1942-ci ilin sentyabrından 1946-cı ilin iyununa qədər ordu sıralarında – İkinci Dünya müharibəsində qanlı döyüşlərdə iştirak edir. Müharibədən qayıtdıqdan sonra 1946–1950-ci illərdə ADPİ-də elmi-pedaqoji fəaliyyətini davam etdirərək pedaqogika kafedrasının müdiri, fakültə dekanı, elmi işlər üzrə direktor müavini vəzifələrində çalışır. 1950–1951-ci illərdə ölkənin ən nüfuzlu ali məktəblərindən biri olan ADPİ-nin rektoru vəzifəsində çalışır.

1951-ci ildə Dəstəfur seçki dairəsindən Azərbaycan SSR Ali Sovetinə deputat seçilir. Həmin ilin noyabrında isə Bakı Şəhər Soveti İcraiyyə Komitəsi sədrinin müavini vəzifəsinə təyin olunur. M.Mehdizadə 1952-ci ilin mart ayında Azərbaycan SSR-nin maarif naziri (təhsil naziri) vəzifəsinə təyin edilir və 25 ilə yaxın müddətdə (1952–1954; 1960–1980) respublikanın xalq maarifinə rəhbərlik edir. 1954-cü ildə yenidən Pedaqoji İnstituta göndərilən alim 1959-cu ilə qədər burada müntəzəm elmi-pedaqoji fəaliyyətlə məşğul olur. 1956-cı ildə “Azərbaycan sovet məktəbinin tarixinə dair xülasələr” mövzusunda yazdığı doktorluq dissertasiyasını Moskvada müdafiə edir. Pedaqoji elmlər doktoru M.Mehdizadə 1957-ci ildə ADPİ-nin professoru vəzifəsinə seçilir. İki ildən sonra 1959-cu ilin sentyabrında o, Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Komitəsi sədrinin birinci müavini vəzifəsinə təyin edilir. Görkəmli alim və təhsil təşkilatçısı 1960-cı ildə Azərbaycan Kommunist Partiyasının XXIV qurultayında Azərbaycan KP MK üzvlüyünə namizəd seçilmiş, həmin ilin mart ayında yenidən Azərbaycan SSR maarif naziri vəzifəsinə təyin edilmişdir. SSRİ Pedaqoji Elmlər Akademiyasının (PEA) həqiqi üzvü seçilən ilk və yeganə azərbaycanlıdır (9 avqust 1967-ci il). M.Mehdizadə öz ərizəsinə əsasən, 24 fevral 1980-ci ildə Azərbaycan SSR maarif naziri vəzifəsindən azad edilmiş, ömrünün sonunadək indiki Təhsil İnstitutunda elmi məsləhətçisi olmuşdur.

Akademik M.Mehdizadə 10 cildlik “Azərbaycan Sovet Ensiklopediyası”nın, Moskvada nəşr olunan 4 cildlik “Pedaqoji Ensiklopediya”nın, 2 cildlik “Pedaqoji lüğət”in, “SSRİ xalqlarının məktəb və pedaqoji fikir tarixi” çoxcildliyinin müəllifləri sırasındadır. Həyatının son illərində tamamladığı “Məktəb və məktəbli şəxsiyyətinin hərtərəfli inkişafı”, “Azərbaycanda məktəb təhsilinin və pedaqoji fikrin inkişafı” adlı əsərləri görkəmli alimlər tərəfindən yüksək qiymətləndirilmişdir. Onun ən böyük xidmətlərindən biri Azərbaycanda məktəb tarixinin 1920-ci ildən sonrakı dövrünün öyrənilməsi ilə bağlıdır. Xüsusilə ötən əsrin 20-30-cu illərindəki təhsil quruculuğu axtarışları, I və II dərəcəli məktəblərdən vahid əmək politexnik

məktəblərə doğru inkişaf, müxtəlif təlim metodlarının tətbiqi, kompleks proqramlar və digər mühüm pedaqoji məsələlərin həlli onun tədqiqatlarının əsasını təşkil edir.

Azərbaycan müəllimlərinin qurultaylarının üçünün (VII, VIII və IX) keçirilməsi Mehdi Mehdizadənin xalq maarifi komissarı və xalq maarifi naziri olduğu illərə təsadüf edir. Həmin qurultaylar nazir və alim kimi onun pedaqoji sahədə dərin bilik və təhlil qabiliyyətini bird aha sübuta yetirir.

M.Mehdizadənin fəaliyyətində beynəlxalq əlaqələr, beynəlxalq təşkilatların təşkil etdikləri tədbirlərdə fəal iştirak, bu tədbirlərdə dərin məzmunlu elmi pedaqoji məruzə və çıxışlar əsas yer tutur. O, 1961–1965-ci illərdə YUNESKO-nun Yaşlıların Təhsili üzrə Məsləhət Komitəsinin daimi üzvü seçilmiş, Sovet hökumətinin maarif məsələləri üzrə tapşırıqlarını yerinə yetirmək məqsədi ilə Sovet nümayəndə heyətinin tərkibində Polşa, Hollandiya, Fransa, Afrika qitəsində və digər ölkələrdə rəsmi səfərlərdə olmuşdur. 1961-ci ildə “Zaqafqaziyada yaşlı əhali arasında savadsızlığın ləğvi təcrübəsindən” adlı məqaləsi YUNESKO-nun Şərq ölkələri üzrə mətbuat orqanında çap olunmuşdur. Akademikin 1961-ci ilin iyun ayında YUNESKO yanında Yaşlıların Təhsili Üzrə Beynəlxalq Komissiyanın sessiyasında iştirakı, orada “Afrika ölkələrində yaşlı əhalinin təhsilinin əsas məsələləri” mövzusunda məruzəsi YUNESKO-nun sənədlərində ingilis, fransız və ispan dillərində çap olunmuşdur. Q.Əliyev. A.Atakişiyev və E.İsmayılovla birgə yazdığı “Xalq maarifinin inkişafında sovet Azərbaycanının təcrübəsi” kitabı vəfatından sonra YUNESKO tərəfindən ingilis və fransız dillərində kütləvi tirajla nəşr olunub.

M.Mehdizadənin əməyi yüksək qiymətləndirilib. O, “Lenin” ordeni, üç dəfə “Qırmızı Əmək Bayrağı” ordeni (1966, 1972, 1976), dörd dəfə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilib, beş dəfə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilib, “Azərbaycan Respublikasının Əməkdar elm xadimi” fəxri adına (1981), “Əmək veteranı” medalına layiq görülüb. SSRİ PEA-nın təsis etdiyi “N.K.Krupskaya” medalı ilə də təltif edilib. Bakı şəhərinin küçələrindən birinə, Gəncə şəhərindəki 4 nömrəli tam orta məktəbə, Cəbrayıl rayonundakı 1 nömrəli şəhər orta məktəbinə, Beyləqan rayonundakı 3 nömrəli şəhər orta məktəbinə akademik Mehdi Mehdizadənin adı verilmiş və məktəbin həyətində onun büstü ucaldılmışdır. Azərbaycan Müəllimlərinin Yaradıcı İttifaqı 1995-ci ildə akademik Mehdi Mehdizadə adına mükafat təsis etmişdir.  Haqqında 2002-ci ildə “Əsrə bərabər ömür” filmi və 2007-ci ildə “Yaşamaq yanmaqdır…” (Portret) sənədli filmi çəkilib.

Akademik Mehdi Mehdizadə 1 may 1984-cü ildə Bakı şəhərində vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.



# Azərbaycanın Milli Qəhrəmanları

# İbrahimov Mirələkbər Mirələsgər oğlu (1961 – 1994)



Kapitan Mirələkbər Mirələsgər oğlu İbrahimov 30 sentyabr 1961-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalının Xalisa kəndində doğulmuşdur. Birinci sinifə burada getmiş, sonra ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüşdür.

1978-ci ildə Bakı şəhərindəki 158 saylı orta məktəbi bitirən Mirələkbər hərbi xidmətə yollanır. 1980-ci ildə hərbi xidmətini başa vurub, Azərbaycan Dövlət Pedaqoji Universitetinin İdman və hərbi hazırlıq fakültəsinə daxil olmuşdur. Təyinatı Lənkərana idi. O, üç il burada müəllim işləyir. Sonra isə Bakıya qayıdır və 153 saylı orta məktəbdə ibtidai hərbi hazırlıq müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirir.

Qarabağda ermənilərin törətdikləri ağılasığmaz vəhşiliklər Mirələkbəri bərk narahat edirdi. Daşaltı, Malıbəyli, Kərkicahan qırğınlarından sonra cəbhəyə getməyi qərara alır. Bu məqsədlə o,Yasamal rayon Hərbi Komissarlığına müraciət edir. 1993-cü ildə onu yenicə yaradılmış 5-ci Yasamal taboruna komandir təyin edirlər. Mirələkbər öz taboru ilə Füzuli rayonunun Alxanlı, Kürdmahmudlu, Aşağı Seyidəhmədli kəndləri uğrunda gedən döyüşlərdə iştirak edərək mərdliklə vuruşur.

Onun son döyüşü 5 mart 1994-cü il tarixində olur. Mənfur erməni quldurları iki kəndi işğal etmişdilər. Döyüşçülərimiz Qorqan kəndini erməni işğalçılarından azad edib, bir az dincəlməyi qərara almışdılar. Elə bu vaxt kəşfiyyatçı xəbər gətirdi ki, yaraqlılar iki kəndi işğal ediblər. İgid komandir öz döyüşçüləri ilə silaha sarıldı. Ağır döyüş başlandı. Döyüşçülərimiz yorulmağına baxmayaraq fədakarlıqla düşmənə müqavimət göstərirdi. Nəhayət hücum öz bəhrəsini verdi. Hər iki kənd geri qaytarıldı. Lakin düşmən gülləsi Mirələkbərdən yan ötmədi. O, Füzuli döyüş bölgəsində gözlərini əbədi yumdu.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı fərmanı ilə kapitan İbrahimov Mirələkbər Mirələsgər oğlu ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülmüşdür.
Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Evli idi. Bir övladı yadigar qalıb. Vaxtilə dərs dediyi 153 saylı orta məktəb qəhrəmanımızın adını daşıyır.



## Quliyev Mətləb Kamran oğlu
## (1959 – 1992)

Leytenant Mətləb Kamran oğlu Quliyev 1959-cu ilin yanvar ayının 9-da Beyləqan rayonunda anadan olmuşdur. İbtidai təhsilini 3 saylı pambıqçılıq sovxozundakı orta məktəbdə almışdır. Sonra ailəsi Sumqayıt şəhərinə köçmüşdür. O, təhsilini səkkizinci sinifə qədər buradakı 13 saylı orta məktəbdə davam etdirmişdir.

Hərbçi olmaq həvəsi onu C.Naxçıvanski adına hərbi məktəbə gətirir. Burada oxuyarkən o, hərb elminin sirlərinə yiyələnməklə, verilən bütün tapşırıqları vaxtında yerinə yetirməyə çalışırdı. O hərbi məktəbi müvəffəqiyyətlə bitirir, əvvəlcə Giləzi Quşçuluq fabrikində, sonra isə Ceyranbatan Avtomobil Nəqliyyatı Trestində çilingər işləyir. Az keçmir ki, ordu sıralarına çağırılır. Hərbi xidməti Ukrayna Respublikasında keçir. Ordudan tərxis olunan il Azərbaycan Dövlət Pedaqoji İnstitutuna (indiki ADPU) daxil olur. İnstitutda «Təhsil əlaçısı» döş nişanı ilə təltif edilir. 1985-ci ildə leytenant rütbəsi ilə ali məktəbi bitirib Sumqayıt şəhəri 3 saylı orta məktəbdə hərbi hazırlıq müəllimi kimi çalışmağa başlayır.

1992-ci ildə Daxili İşlər Orqanlarında işə qəbul edilir. O, bir zabit kimi Daxili Qoşunlara qəbul edilən gənclərin təlim-tərbiyəsi ilə mükəmməl məşğul olurdu. O, yaxşı bilirdi ki, Vətəni qorumaq, işğal olunmuş torpaqları erməni tapdağından azad etmək üçün əl- ələ, ürək-ürəyə vermək lazımdır. O, tez-tez cəbhə bölgələrinə gedir, döyüş yoldaşlarına dayaq olurdu.

Müharibə isə səngimək bilmirdi.

1992-ci ilin avqustun 31-də Ağdam bölgəsində ağır döyüşlər gedirdi. Strateji əhəmiyyətli yüksəkliklər ermənilərin əlində idi. Əsgərlərdə ruh yüksəkliyi oyatmaq lazım idi. Mətləb pulemyotu əlinə götürüb düşmən üstünə şığıyır. Onlarla erməni yaraqlısı yerə sərilir. Erməni quldurları onun pulemyotunun darağında güllənin qurtardığını hiss edərək, hər tərəfdən hücuma keçirlər. Yanında kapitan yoldaşı həlak olur. Mətləb isə dolu darağı yenidən pulemyota qoşur və yenidən erməni faşistlərini biçməyə başlayır. Lakin özü də qəhrəmancasına həlak olur.

Ailəli idi. Bir oğlu, bir qızı yadigar qalıb.

Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı fərmanı ilə baş leytenant Quliyev Mətləb Kamran oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.

Sumqayıt şəhər 3 saylı orta məktəb onun adını daşıyır. Məktəbin önündə büstü qoyulmuşdur. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulmuş, adına bulaq tikilmişdir.



## Salahov Şakir Şamil oğlu
## (1966 – 1992)

Şakir Şamil oğlu Salahov 1966-cı ilin iyun ayının 15-də Xocalı rayonunun Cəmilli kəndində anadan olmuşdur. 1981-ci ildə Cəmilli kənd səkkizillik məktəbini bitirdikdən sonra, təhsilini həmin kənddəki qiyabi orta məktəbdə davam etdirmişdir.

1984-cü ildə Ş.Salahov hərbi xidmətə çağırılmışdır. 1986-cı ildə hərbi xidmətini müvəffəqiyyətlə başa vurub Xankəndi şəhər Daxili İşlər idarəsinin mühafizə şöbəsinə işə qəbul edilir.

1990-cı ildə Yuxarı Qarabağda yaşayan azərbaycanlıların təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Daxili İşlər Nazirliyi Cəmilli kəndində polis bölməsi yaradır. Ş. Salahov ilk gündən bölmədə fəaliyyətə başlayır. 1991-ci ildə Ş.Salahov Azərbaycan Dövlət Pedaqoji Universiteti Şuşa şəhər filialının fizika-riyaziyyat fakültəsinin qiyabi şöbəsinə daxil olur.

Cəmilli kəndində yaradılmış bölmə, əsasən Kosalar və Cəmilli kəndlərini mühafizə edirdi. Bu kənd Xankəndindən cəmi 3 kilometr aralıda idi.

Ş.Salahov ermənilər tərəfindən hücumların qarşısının alınmasında əsl hünər göstərirdi. 1991-ci il fevral ayının 26-da ermənilər üç tərəfdən – Ballıca, Xənəzək və Xankəndi istiqamətlərindən Cəmilli kəndinə güclü hücuma keçdilər. Həmin döyüşdə Ş.Salahov neçə-neçə erməni quldurunu məhv etdi. 1991-ci il avqust ayının 23-də erməni quldurları Kosalar-Cəmilli kəndləri arasındakı “Darlı” adlanan yerdə, içərisində 21 nəfər sərnişin olan “UAZ” markalı maşını atəşə tutdular. Nəticədə üç nəfər şəhid oldu. Şakir şəhidlərin qanını yerdə qoymadı. Cəmilli kəndi işğal olunanda Ş.Salahov Kosalar kəndinin müdafiəsinə göndərildi. Bu zaman ermənilərlə döyüşdə Ş.Salahov düşmənin çoxlu sayda canlı qüvvəsini məhv etdi. 1992-ci ilin yanvar ayının 28-də Ağdam-Şuşa marşrutu ilə uçan vertolyotumuz ermənilər tərəfindən raketlə vuruldu. Həlak olanlar içərisində Ş.Salahov da vardı.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Şakir Şamil oğlu Salahova (ölümündən sonra) “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir.

Subay idi.

Şakir Salahov Bərdə şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.



# “Zəfər” Ordeni ilə təltif edilənlər

## Nağıyev Əli Nağı oğlu
## (1958)



Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağı oğlu Nağıyev 1958-ci il noyabrın 8-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunda anadan olmuşdur. 1981-ci ildə Azərbaycan Pedaqoji İnstitutunda (indiki ADPU) ali təhsil almışdır.

Əmək fəaliyyətinə 1975-ci ildə başlamışdır.

1986-cı ildə SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Ali kurslarını bitirdikdən sonra Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin və Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin əməliyyat strukturlarında məsul vəzifələrdə xidmət etmişdir.

Əli Nağıyev Azərbaycan təhlükəsizlik orqanlarının yüksək peşəkarlığa malik əməkdaşı olaraq xüsusi təyinatlı kimi 1990-cı illərdə Qarabağda erməni quldurlarına qarşı bir çox uğurlu hərbi əməliyyatlarda iştirak edib. Xüsusən, "Çaykənd əməliyyatı"nda və 1991-ci ildə Goranboy rayonu ərazisindəki Manaşit, Buzluq, Erkəc kəndlərinin erməni vandallarından azad edilməsi əməliyyatlarında böyük igidliklər göstərib. Bu barədə keçmiş Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşı, təhlükəsizlik üzrə ekspert İlham İsmayıl müsahibələrinin birində qeyd edir.

Azərbaycan Respublikası Prezidentinin 16 mart 2005-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası milli təhlükəsizlik nazirinin müavini təyin olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 27 mart 2006-cı il tarixli Sərəncamı ilə Əli Nağıyevə general-mayor ali hərbi rütbəsi verilmişdir.

2011-2019-cu illərdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini vəzifəsində işləmişdir.

Azərbaycan Respublikası Prezidentinin 5 avqust 2014-cü il tarixli Sərəncamı ilə Əli Nağıyevə III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 20 iyun 2019-cu il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi təyin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 27 iyun 2019-cu il tarixli Sərəncamı ilə Əli Nağıyevə general-leytenant ali hərbi rütbəsi verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Əli Nağıyevə general-polkovnik ali hərbi rütbəsi verilmişdir.

**Mükafatlar**

Təhlükəsizlik orqanlarında xidmət etdiyi müddət ərzində çoxsaylı dövlət təltiflərinə və digər mükafatlara layiq görülmüşdür;

- Azərbaycan Respublikası Prezidentinin 24 dekabr 1998-ci il tarixli 40 nömrəli Fərmanı ilə "Hərbi xidmətlərə görə" medalı;
- Azərbaycan Respublikası Prezidentinin 27 mart 2002-ci il tarixli 680 nömrəli Fərmanı ilə göstərdiyi yüksək peşəkarlığa, cəsarətə və igidliyə görə "Azərbaycan Bayrağı" ordeni;
- Azərbaycan Respublikası Prezidentinin 25 mart 2004-cü il tarixli 140 nömrəli Sərəncamı ilə "Vətən uğrunda" medalı;
- Azərbaycan Respublikası Prezidentinin 16 mart 2005-ci il tarixli 672 nömrəli Sərəncamı ilə "İgidliyə görə" medalı;
- Azərbaycan Respublikası Prezidentinin 28 sentyabr 2018-ci il tarixli 514 nömrəli Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni;
- Azərbaycan Respublikası Prezidentinin 27 mart 2020-ci il tarixli 1952 nömrəli Sərəncamı ilə birincidərəcəli "Vətənə xidmətə görə" ordeni;
- Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli Sərəncamı ilə Vətən müharibəsindəki tarixi qələbənin əldə olunmasındakı xüsusi roluna görə "Zəfər" ordeni.



# “Azərbaycan Bayrağı” Ordeni ilə təltif edilənlər

PEDAQOJİ UNİVERSİTETİN QƏHRƏMANLARI Taleh MİRZƏYEV

## Bayramov Malik Yaşa oğlu
## (1964 – 1994)



Baş leytenant Malik Yaşa oğlu Bayramov 1964-cü il martın 15-də Şamaxının Bağırlı kəndində anadan olub.

Malik Bayramov 1990-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Hərbi hazırlıq və bədən tərbiyəsi (İncəsənət və fiziki tərbiyə) fakültəsini bitirib. 1992-ci ildən Azərbaycan torpaqlarının azadlığı uğrunda gedən döyüşlərə qatılıb. O, Cəbrayıl, Füzuli və Tərtər rayonu istiqamətlərində gedən döyüşlərin iştirakçısı olub. M.Bayramov 1994-cü ilin mayın 8-də Tərtər rayonunun Çaylı-Talış istiqamətlərində gedən gərgin döyüşlərdə qəhrəmancasına şəhid olub.

Malik Yaşa oğlu Bayramov ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən 15 yanvar 1995-ci il tarixli 292 nömrəli fərmanla "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunub.

Şəhid zabit Malik Bayramov Şamaxı şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub.




# Nəbiyev Orxan Rza oğlu
# (1995 – 2020)

Leytenant Orxan Rza oğlu Nəbiyev 1995-ci il yanvar ayının 20-də Şamaxı rayonunun Qurdtəpə kəndində anadan olub. 2001-2012-ci illərdə Qurtəpə kənd orta məktəbində təhsil alıb. 2012-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı Filialının (indiki ADPU-nun Şamaxı Filialı) "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına daxil olub və 2016-cı ildə həmin universiteti bitirib. Tələbəlik illərində sakit təbiətliliyi və məsuliyyətli tələbə olması ilə fərqlənmişdir.

Orxan Nəbiyev təhsilini başa vurduqdan sonra 2016-2017-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Cəlilabad rayonunda yerləşən "N" saylı hərbi hissəsində kəşfiyyatçı kimi müddətli həqiqi hərbi xidmət keçib. Onun ən böyük arzusu hərbçi olmaq idi. Odur ki, 2017-ci ildə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində üç aylıq kurslara qatılır. Kursu bitirərək Azərbaycan Silahlı Qüvvələrinin Mingəçevir şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlayır. Nümunəvi xidmətinə görə "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilib.

Azərbaycan Ordusunun leytenantı olan Orxan Nəbiyev 2020-ci ilin sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Suqovuşan istiqamətində gedən döyüşlərə qatılır. O, dörd əsgəri ilə birgə "Teleqüllə" adlandırılan ərazini işğaldan azad edir. Döyüşlər zamanı 30-dan çox erməni hərbçisini və hərbi sursatını məhv edən, qardaşı Əmirxanla bərabər onlarla silah yoldaşını ölümdən xilas edən Orxan Nəbiyev silah yoldaşları tərəfindən "Qorxmaz leytenant" ləqəbini qazanıb.

Orxan oktyabrın 14-ü Suqovuşan yüksəkliklərində gedən döyüşlərdə snayperlə başından vurularaq şəhadətə qovuşur. Noyabrın 3-də Şamaxı rayonunda dəfn olunub.

Orxan Rza oğlu Nəbiyev göstərdiyi igidlik və qəhrəmanlıqlara görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

## Tahirov Firdovsi Balaxan oğlu
## (1997 – 2020)



Firdovsi Balaxan oğlu Tahirov 1997-ci ilin fevral ayının 18-də Lerik rayonunun Dico kəndində anadan olub. 2003-2007-ci illərdə Dico kənd tam orta məktəbində, 2008-2015-ci illərdə isə N.Hacıyev adına Tikəband kənd tam orta məktəbində təhsil alıb. 2015-2019-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində "tarix müəllimliyi" ixtisası üzrə ali təhsil alıb. Subay idi.

Firdovsi Tahirov 2019-cu ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lerik rayon bölməsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Əvvəlcə Azərbaycan Silahlı Qüvvələrinin Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsində, sonra isə Xüsusi Təyinatlı Qüvvələrin Cəlilabad rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət edib.

2020-ci ilin sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə cəsarətlə savaşan Firdovsi Tahirov elə sentyabrın 27-də Murovdağ döyüşləri zamanı şəhid olub.

Lerik rayonunun Dico kəndində dəfn olunub.

Subay idi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Firdovsi Balaxan oğlu Tahirov göstərdiyi igidlik və qəhrəmanlıqlarına görə ölümündən "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.



# I Qarabağ Müharibəsi Şəhidləri

# Baxışov Rəşid Hacıağa oğlu (1968 – 1992)



Rəşid Hacıağa oğlu Baxışov 1968-ci ilin sentyabr ayının 13-də Kəlbəcər rayonunda anadan olub.

O, balaca olarkən ailəsi Bakı şəhərinə köçüb. Bakı şəhərində yerləşən 218 nömrəli natamam orta məktəbdə təhsil almağa başlayıb. Daha sonra 136 nömrəli tam orta məktəbdə təhsilini davam etdirib.

1986-cı ildə orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb.

Hərbi xidmətdən tərxis olunduqdan sonra Bakı Sənaye Texnikumuna (indiki ADPU nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci) daxil olub. Rəşid Baxışov texnikumda oxuduğu müddətdə könüllü şəkildə Qarabağda gedən döyüşlərdə iştirak etmək üçün ərizə yazır. 3 ay Göytəpədə yerləşən hərbi hissədə təlim keçdikdən sonra cəbhə bölgəsinə göndərilən Rəşid Laçın istiqamətində gedən döyüşlərdə iştirak edir.

5 avqust 1992-ci ildə yaralı yoldaşını döyüş meydanından çıxararkən başından yaralanaraq qəhrəmancasına şəhid olub.

Rəşid Baxışov subay idi.

Bakı şəhəri üzrə Təhsil idarəsinin tabeliyindəki 218 nömrəli tam orta məktəb Rəşid Baxışovun adını daşıyır.



## Cəfərov Firuzəddin Tapdıq oğlu (1960 – 1992)

Firuzəddin Tapdıq oğlu Cəfərov 1960-cı ilin dekabr ayının 12-də Laçın rayonunda anadan olmuşdur.

İndiki Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində orta ixtisas təhsili alıb.

Canından çox sevdiyi Vətəni uğrunda igidliklə döyüşmüş, mübarizə aparmışdır.

Firuzəddin Tapdıq oğlu Cəfərov şiddətli döyüşlərin gedişində 1992-ci ilin oktyabr ayının 7-də şəhid olmuşdur.

## Ələkbərov Hilal Hilal oğlu
## (1968 – 1992)



Hilal Hilal oğlu Ələkbərov 1968-ci ildə anadan olub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Hərbi hazırlıq və fiziki tərbiyə (İncəsənət və fiziki tərbiyə) fakültəsinin III kurs, 306-cı qrupunda təhsil alırdı.

Bir tələbə kimi təhsilini yarımçıq qoyub vətəni müdafiəyə getməyə bilərdi. Lakin, Hilal getdi. Vətənin dar günündə təhsilinin qayğısına qalmağı özünə ar bilən Hilal bir sıra tələbələrlə birlikdə könüllülərdən yaradılmış batalyona qoşulur. Ən gərgin bölgələrdən olan Füzuli rayonuna yollanır.

Hilal hərbi hazırlıq keçdiyinə görə bütün silah növlərinin istifadəsini yaxşı bilirdi. Buna görə də ən ağır silahlardan istifadəni öz üzərinə götürür. Cəsarətlə döyüşə girişən gənc döyüşçü cəbhə həyatının üçüncü günü hücum edən düşmən tanklarından birini sıradan çıxardır. Bir neçə gün sonra isə iki erməni quldurunu məhv edir.

Bütün döyüşlərdə şücaətlə irəli atılan Hilal döyüşlər zamanı güllə yarası alaraq şəhid olur.

1992-ci ilin sonlarında şəhid olan Hilal Hilal oğlu Ələkbərov Şəhidlər Xiyabanında dəfn edilib.



## Hüseynov Ehtiram Aydın oğlu (1972 – 1992)

Ehtiram Aydın oğlu Hüseynov 1972-ci ildə anadan olmuşdur.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Hərbi hazırlıq və fiziki tərbiyə fakültəsinin (İncəsənət və fiziki tərbiyə) I kurs, 101-ci qrupunda təhsil alırdı.

Döyüş silahları ilə az-çox dil tapa bilirdi. Buna görə də vətənin dar günündə təhsilinin qayğısına qalmağı lazım bilməyərək cəbhəyə getməyə hazırlaşan tələbə dostlarına qoşulur. O, Ağdarəyə gedəcək könüllülərdən ibarət batalyona yazılır.

Ehtiram qanlı-qadalı döyüş yolunda əsl şücaət göstərdi. Onun azğın düşmənə qarşı nifrət hissi o qədər güclü idi ki, ölümdən də qorxub-çəkinmirdi. Fələk iyirmi yaşı yenicə tamam olmuş belə bir döyüşçüyə qıyır və Ehtiram 1992-ci ilin sonlarındakı döyüşlərin birində ağır yaralanır. Onu təcili olaraq hərbi hospitala aparsalar da, həyatını xilas etmək mümkün olmur və şəhid olur.

# Qəhrəmanov Elman İxtiyar oğlu
# (1971 – 1992)



Elman İxtiyar oğlu Qəhrəmanov 1971-ci ilin fevral ayının 10-da Qubadlı rayonunun Əyin kəndində anadan olmuşdur. Elman, Əyin kənd 8 illik məktəbini bitirmiş,1989-1991-ci illərdə Sovet Ordusunda xidmət etmişdir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya və biologiya fakültəsinin I kurs tələbəsi idi. Tələbəlik vəsiqəsi almamışdan əvvəl könüllülərə qoşulmuş, Qubadlı rayonunun Ermənistanla sərhəd kəndlərinin müdafiəsi uğrunda gedən döyüşlərdə mərdliklə vuruşmuşdur. O ikinci batalyonun topçusu idi. Universitetə qəbul olunduqdan sonra Elman Bakıda çox qala bilmədi. Təhsili arxa plana çəkərək yenidən döyüş meydanına qayıtdı.

1992-ci il dekabrın 10-da, erməni quldurları hücuma keçərək, "Səngər" dağı yüksəkliyini və Əyin kəndini ələ keçirməyə cəhd edirlər,bu zaman ermənilər xeyli itki verib geri çəkilsələr də, bu səngər döyüşlərində Elman Qəhrəmanov qəhrəmancasına şəhid olur.

O, doğma Əyin kəndinin qəbiristanlığında dəfn edilmişdir.

Subay idi.



## Məmmədov Mürşüd Ağa oğlu (1959-1994)

Mayor Mürşüd Ağa oğlu Məmmədov 1959-cu ilin noyabr ayının 29-da Kəlbəcər rayonunun Sınıqkilsə kəndində anadan olmuşdur.

1977-ci ildə orta məktəbi bitirib və 1978-1980-ci illərdə sovet ordusu tərkibində Rusiya SSFR-nın Krasnoyarsk vilayətində həqiqi hərbi xidmətdə olmuşdur.

1985-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Hərbi hazırlıq və fiziki tərbiyə (İncəsənət və fiziki tərbiyə) fakültəsini bitirmişdir. Sonra Kəlbəcər şəhər 3 saylı orta məktəbində müəllimlik fəaliyyətinə başlamışdır.

1991-ci ildən könüllü olaraq Qarabağdakı döyüşlərdə iştirak etmiş, kamandir kimi uğurlu əməliyyatlar icra etmişdir.

1994-cü ilin 24 yanvarında Kəlbəcər rayonunun Qanlıkənd kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Kapitan rütbəsində olan Mürşüdə ölümündən 6 gün əvvəl mayor rütbəsi verilsə də, o bu rütbəni təsdiqləyən nişanları taxmadan şəhadətə yüksəlir.

1995-ci ilin yanvar ayının 15-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fərmanı ilə mayor Mürşüd Ağa oğlu Məmmədov “Hərbi xidmətlərə görə” medalı ilə təltif edilmişdir (ölümündən sonra).

1996-cı ildən etibarən Kəlbəcər rayonu 42 nömrəli tam orta məktəb Mürşüd Məmmədovun adını daşıyır.

Məzarı Yevlax rayonunun Şəhidlər xiyabanında yerləşir.

Ailəli idi. 3 övladı vardır.

## Rəhimov İntizam Əhməd oğlu (1959 – 1992)



Baş leytenant İntizam Əhməd oğlu Rəhimov 1959-cu ilin yanvar ayının 4-də Oğuz rayonunun Qumlaq kəndində kolxozçu ailəsində anadan olmuşdur. 1966-cı ildə Qumlaq kənd orta məktəbinin I sinifinə daxil olmuş, 1976-cı ildə orta təhsilini başa vurmuşdur. 1977-1979-cu illərdə həqiqi hərbi xidmətini tamamlayan İntizam 1982-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) İbtidai hərbi hazırlıq fakültəsinə (İncəsənət və fiziki tərbiyə) daxil olmuş, 1986-cı ildə ali təhsilini başa çatdırmışdır. 1986-1989-cu illərdə Oğuz rayonunun Padar, 1990-cı illərdə isə Tayıflı kənd orta məktəbində ibtidai hərbi hazırlıq müəllimi kimi əmək fəaliyyəti göstərmişdir.

Qarabağ müharibəsi başlayanda, 1992-ci ilin 14 iyununda İntizam müəllim könüllü olaraq vətənin müdafiəsinə yollanmışdır. Goranboy,Yevlax, Ağdam və Ağcabədi rayonlarında keçirilən hərbi təlimlərdə komandir kimi fəaliyyət göstərmisdir.

Baş leytenant İntizam Rəhimov 1992-ci ildə Naxçıvanik kəndi uğrunda gedən ağır döyüşlərdə vuruşmuş, 1992-ci ilin iyul ayının 5-də qəhrəmancasına şəhid olmuşdur.

Vətən uğrunda canından keçmiş İntizam Rəhimovun adı əbədiləşdirilmiş, oxuduğu Qumlaq kənd tam orta məktəbi və Oğuz şəhərindəki küçələrdən biri İntizam Rəhimovun adını daşıyır.

1989-cu ildə ailə həyatı quran şəhid müəllimin üç qız övladı var. Həyat yoldaşı Ayaz Rəhimova vəfat etmişdir. Böyük qızı Aynurə Rəhimova kimya müəllimidir, ailəlidir, Bakı şəhərində yaşayır. İkinci qızı Dünya Rəhimova tarix müəllimidir.Tayıflı kənd məktəbində işləyir. Qızlarından sonuncusu şəhidin vəfatından sonra doğulmuşdur. Atasının şərəfinə onun adı İntizamə qoyulmuşdur. İntizamə Rəhimova riyaziyyat müəlliməsidir, ailəlidir, Bakı şəhərində yaşayır.



## Şahverdiyev Əlövsət Kərim oğlu (1967 – 1993)

Əlövsət Kərim oğlu Şahverdiyev 1967-ci ildə Füzuli rayonunun Kərimbəyli kəndində anadan olub.
İndiki Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində orta ixtisas təhsili alıb.
Əlövsətin 1990-cı illərin əvvəllərində Milli Ordu sıralalarında könüllü olaraq başlayan döyüş yolu Füzuli rayonunun Qaradağlı, Korazallı, Qoçəhmədli və başqa kəndlərindən keçib.
1993-cü ilin iyul ayının 2-də Xocavənd rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.
Qeyd edək ki, Əlövsətin böyük qardaşı Şahverdiyev Saleh Kərim oğlu 18 may 1992-ci ildə Laçın rayonunun Fətəli pəyəsi kəndi yaxınlığında qohumları ilə birlikdə ermənilər tərəfindən girov götürülüb.

## Zülfiyev Hicran Əliş oğlu
## (1960 – 1992)



Leytenant Hicran Əliş oğlu Zülfiyev 1960-cı ilin noyabr ayının 15-də Bakının Binəqədi qəsəbəsində anadan olmuşdur. Dörd yaşında ikən ailəsi ilə birgə Ermənistanın Sisyan rayonunun Ağudi kəndinə köçmüşdür. Orta təhsilini yaşadığı Ağudi kənd orta məktəbində başa vurmuşdur. 1978-ci ildə Sisyan rayonunda rəssamlıq məktəbinə daxil olmuş və oranı müvəffəqiyyətlə bitirmişdir.




Hicran Zülfiyev daha sonra ailəsi ilə birlikdə Sumqayıt şəhərinə köçmüş və burada yaşamışdır. 1978-1979-cu illərdə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Bədii qrafika fakültəsinə daxil olmuşdur. Ali təhsilini uğurla başa vurduqdan sonra 1984-cü ildə hərbi xidmətə çağırılmış, Belorusiyanın Smolin, Brest şəhərlərində hərbi qulluq etmiş, leytenant rütbəsi alaraq geri qayıtmışdır. Ordu sıralarından tərxis olunduqdan sonra yenidən Bakıya qayıtmışdır. 1986-cı ildə Bakının Müşfiq qəsəbəsindəki Quşçuluq fabrikində işə girmiş və orada şöbə rəisi vəzifəsində çalışmışdır. 1989-cu ildə Binəqədi rayonunda yerləşən 4 saylı Ev Tikmə Kombinatında çalışmışdır.

1993-cü ilin martın 13-də döyüşə getmiş, 1993- cü ilin mayın 23-də cəbhənin Füzuli rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Ailəli idi, 2 oğlu var.

Bakı şəhərində, Şəhidlər Xiyabanında dəfn olunub.

2017-ci ilin may ayının 23-də, qəhrəman döyüşçünün xatirə günündə İsrafil Xanlarovun Hicranın döyüş yolundan bəhs edən “Cəsur kəşfiyyatçı” filminin təqdimatı keçirilib.

# ADPU şəhidlərindən haqqında məlumat olmayanlar

***Aşağıda I Qarabağ savaşlarında şəhid olan ADPU tələbələrindən haqqında məlumat tapmaq mümkün olmayan 12 nəfərin ad və soyadı, o cümlədən, onlardan 8 nəfərinin fotosu da yer alır.***



Abbasov S.S. (1966-1992)



İsmayılov V.M. (1968-1993)



Rzayev A.M. (1968-1993)



Əsədov İ.M. (1967-1992)



Qasımov N.T. (1961-1992)



Salıfov İ.N. (1967-1992)



İsmayılov İ.D. (1967-1995)



Qədirov E.A. (1961-1994)

Abdullayev N.V. (1967-1995)
Allahyarov İ.N. (1961-1994)
Bünyadov V.F. (1959-1992)
Kərimov M. (1967-1992)

# ADPU nəzdində Pedaqoji Kollecin şəhidlərindən haqqında məlumat olmayanlar

***Aşağıda I Qarabağ savaşlarında şəhid olan ADPK tələbələrindən haqqında məlumat tapmaq mümkün olmayan 4 nəfərin ad, soyadı və fotosu yer alır.***



Balakişiyev Müşfiq



Məmmədov Tağı



Nurullayev Qismət



Səfərov İdris

# Vətən Müharibəsi Şəhidləri

## Abbasov Ağaqardaş İlham oğlu (1992 – 2020)



Baş leytenant Ağaqardaş İlham oğlu Abbasov 28 sentyabr 1992-ci ildə Zərdab rayonunun Hüseynxanlı kəndində anadan olub. 1998-ci ildə Hüseynxanlı kənd orta məktəbinə daxil olmuş, 2009-cu ildə həmin məktəbdən məzun olub.

2009-cu ildə Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi Filialının (hazırkı ADPU-nun Ağcabədi Filialı) "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunub. Universiteti bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanan Ağaqardaş elə gələcək həyatını da Azərbaycan Ordusu ilə bağlayır. Azərbaycan Ordusunun baş leytenantı olan Ağaqardaş Abbasov 2020-ci ilin sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Ağaqardaş Abbasov sentyabrın 28-də Füzuli döyüşləri zamanı şəhid olub. Zərdab rayonunda dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Ağaqardaş İlham oğlu Abbasov ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda", "İgidliyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Ailəli idi. Uzun illər yolunu gözlədiyi İlknur adlı qızının göz açmasına bir neçə ay qalmış şəhid olmuşdur.

### *"Ağaqardaşdan İlknura"*

*Ağaqardaş və onun 5 il həsrətlə gözlədiyi, Şəhid olandan sonra dünyaya göz açan övladı İlknura Taleh Mirzəyevin (HunObaNurlu) həsr etdiyi şeir*

Ağaqardaş dedi adına atan,
Sanki böyük qardaş, sanki, dayaqdın!
Göstərib, doğmaya, yadına atan,
Fəxarət keçirdi, - qızılsayaqdın!

Böyüdün, elmlə qardaşlaşdın Sən,
Müəllim eşqinə yoldaşlaşdın Sən,
Dilin əsrarına sirdaşlaşdın Sən,
Ay elmin Şəhidi, elin Şəhidi!
Dünyada ən şirin dilin Şəhidi!

Olsa da hər şeyin fövqündə elm,
Bir vaxt ki Yurdunun qövründə elin...
Onda qalxar Vətən şövqüylə əlin,
Qələmli, silahlı əlin Şəhidi!
Xarıbülbül - əsir gülün Şəhidi!

Vətən çağıranda ruh cana gəldi,
Öz doğum günündə rizvana gəldi!
Beş il gözlədiyi nişanə gəldi:
Haqq naümüd qoymaz, bilin, Şəhidi!
Yadigarı daşır sirrin Şəhidin!

Cənnətə ucalıb nurdan pay verdin,
İlknurum dediyin, parlaq Ay verdin,
İlahi, çox şükür, ona hay verdin,
İllahi vüsalı görən Şəhidim!
Canın İlknuruna verən Şəhidim!

***25.02.2021***

## Ağaquliyev İlkin Saməddin oğlu (2000 – 2020)



Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu (MAHHXQ) İlkin Saməddin oğlu Ağaquliyev evin tək oğlu olub. 4 oktyabr 2000-ci ildə Şabran şəhərin də anadan olub. 2017-ci ildə Şabran şəhəri Tofiq Abbasov adına 1 saylı tam orta məktəbi bitirib və Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "Fiziki tərbiyə müəllimliyi" ixtisasına qəbul olunub. Orta məktəbdə oxuduğu dövrdə Şabran musiqi məktəbində 5 illik "qarmon ixtisası" üzrə təhsil almışdır və həmin dövrlərdə cüdo idman növü ilə də məşğul olmuşdur.

8 oktyabr 2018-ci ildə həqiqi hərbi xidmətə yollanmışdır. 2020-ci ilin aprel ayında həqiqi hərbi xidmətini başa vurub. Daha sonra "Əlahiddə Həmlə Batalyonu"nda MAHHXQ kimi hərbi xidmətə başlamışdır. 27 sentyabr 2020-ci il tarixində başlayan Vətən müharibəsində iştirak etmiş və 16 oktyabr 2020-ci il tarixində Suqovuşan uğrunda gedən döyüşlərdə şücaət göstərərək qəhrəmancasına şəhidlik zirvəsinə ucalmışdır. 18 oktyabr 2020-ci ildə Şabran Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə İlkin Saməddin oğlu Ağaquliyev ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.

2021-ci ilin yanvar ayının 8-də ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində Qarabağ müharibəsində şəhid olmuş məzunların xatirəsini əbədiləşdirmək məqsədi ilə "Qəhrəmanlıq Zirvəsi" auditoriyası açılıb.



## Baxışova Arəstə Kərim qızı
## 1989 – 2020)

*Minlərlə qardaşa oldun tək bacı,*
*Vətən üzüyünün bərq vuran tacı.*
*Şəhidliyin oldu yurdun əlacı,*
*Xarı bülbülümüz, Arəstə xanım!*

Vətən müharibəsinin ilk və yeganə xanım şəhidi olan çavuş Arəstə Kərim qızı Baxışova 1989-cu ilin may ayının 4-də Xaçmaz şəhərində anadan olub. İki qardaşın tək bacısı olan Arəstənin atası, — baş leytenant Kərim Baxışov Fövqəladə Hallar Nazirliyində Mühafizə İdarəsinin rəisi vəzifəsində çalışıb və onun dörd yaşı olanda vəfat edib.

Arəstə Baxışova 1995-2004-cü illərdə Biləcəri qəsəbəsində yerləşən Şuşa şəhər 3 nömrəli tam orta məktəbdə təhsil alıb. 2004-2008-ci illərdə isə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində “ingilis dili müəllimliyi” ixtisası üzrə təhsil alıb.

A.Baxışova 2018-2019-cu illərdə Azərbaycan Silahlı Qüvvələrinin Baş Hərbi Hospitalında tibbi statist olaraq çalışıb. 2019-cu ilin iyulun 12-dən Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən N saylı hərbi hissəsində operator vəzifəsində xidmət edirdi.

Göstərdiyi nümunəvi xidmətinə görə “Qüsursuz xidmətə görə” medalı (II və III dərəcələri ilə), “Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi”, “Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi” və “Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)” yubiley medalları ilə təltif edilib.

Azərbaycan Ordusunun çavuşu olan hərbi feldşer Arəstə Baxışova 2020-ci ilin sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçilərə döyüş meydanındanca tibbi yardım göstərib.

Arəstə Baxışova oktyabrın 23-də Qubadlı döyüşləri zamanı şəhid olub.

Biləcəri qəsəbəsinin Şəhidlər Xiyabanında dəfn olunub.

Mərdan adında oğlu və Zəhra adında qızı yadigar qalıb.

Arəstə Kərim qızı Baxışova Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

2021-ci ilin yanvar ayının 8-də ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində Qarabağ müharibəsində şəhid olmuş məzunların xatirəsini əbədiləşdirmək məqsədi ilə "Qəhrəmanlıq Zirvəsi" auditoriyası açılıb.



## Əzizov Elgün Elman oğlu
## (1990 – 2020)

Baş leytenant Elgün Elman oğlu Əzizov 1990-cı ilin yanvar ayının 8-də Şamaxı rayonunun Qurdtəpə kəndində anadan olub. 1996-2007-ci illərdə Q.Baxşıyev adına Bakı şəhər 179 saylı tam orta məktəbdə, 2007-2011-ci illərdə Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı Filialında (indiki ADPU-nun Şamaxı Filialı) "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası üzrə ali təhsil alıb. Ailəli idi. Üç övladı yadigar qalıb.

Elgün Əzizov 2011-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2011-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmət edib. 2017-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissəsində leytenant rütbəsi ilə yenidən xidmətə başlayıb. Vətən müharibəsinə qədər baş leytenant rütbəsi ilə Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmət edirdi.

Elgün Əzizov 2020-ci ilin sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Xocavənd və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edərək mətanətlə döyüşüb. Oktyabrın 6-da Füzuli döyüşləri zamanı şəhid olub. Müşfiqabad qəsəbəsində torpağa tapşırılıb.

Elgün Elman oğlu Əzizov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.

## Hüseynli Etiram Həsən oğlu
## (1977 – 2020)



Leytenant Etiram Həsən oğlu Hüseynli 17 aprel 1977-ci il tarixində Lənkəran şəhərində dünyaya gəlib.

1983-1994-cü illərdə Lənkəran şəhər 6 saylı orta məktəbində təhsil alıb. N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) İlkin hərbi və fiziki təlim fakültəsinə (İncəsənət və fiziki tərbiyə) daxil olub. 1998-ci ildə institutu leytenant rütbəsi ilə başa vuraraq doğma təhsil ocağı olan 6 saylı məktəbdə hərbi hazırlıq müəllimi kimi pedaqoji fəaliyyətə başlayır.

Etiram leytenant rütbəsinin olmasına və təhsilindən dolayı hərbi xidmət etmiş hesab olunmasına baxmayaraq təxminən 2 ildən sonra hərbi komissarlığa müraciət edərək hərbi biletini təhvil verir və könüllü olaraq xidmətə yola düşür.

Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda Böyük Soyuq dağında 2 il vətənin keşiyində dayanır. Həqiqi hərbi xidmətini bitirib yenidən doğma Lənkərana və iş yerinə qayıdan Etiram 23 il Lənkəran şəhər S.Kazımbəyov adına orta məktəbdə gənclərin çağrışaqədərki hazırlığı fənnindən dərs deyərək vətəninə igid oğullar hazırlamışdır.

Etiram Hüseynli 2016-cı ildə Aprel döyüşləri başlayanda da könüllü olaraq orduya yazılır. 2020-ci ilin sentyabrın 21-dən hərbi təlimlərə qatılmaq üçün Ağcabədidə yerləşən N saylı hərbi hissəyə yollanır. Qubadlı uğrunda döyüşlərdə tabor komandiri kimi iştirak edir. Oktyabrın 21-də Qubadlıda düşmənin xeyli sayda canlı qüvvəsini məhv edərək qəhrəmancasına şəhidlik zirvəsinə ucalmışdır. Oktyabrın 23-də nəşi doğulduğu Lənkəran şəhərinə gətirilib, 24-ü Kiçik Bazar qəbiristanlığında 23 il pedaqoji fəaliyyət göstərdiyi məktəb kollektivinin, Lənkəran şəhər Təhsil şöbəsinin, Lənkəran şəhər İcra Hakimiyyətinin və şəxsən icra başçısı Taleh Qaraşovun iştirakı ilə böyük izdihamla dəfn olunub.

Etiram müəllimin dayısı oğlulları Rəvan və Sübhan Şahbazovlar da könüllü olaraq Vətən müharibəsində iştirak etmiş, Şuşanın alınmasında xüsusi şücaət göstərmişlər. Xalası oğlu Əli Musazadə isə Qubadlıda gedən döyüşlərdə qəlpə yarası alaraq ağır yaralanmış, Vətən müharibəsini qazi kimi başa vurmuşdur. Görünür ki, şəhid müəllim igidliyi və qorxmazlığı özündən yaşda kiçik olan qardaşlarına da aşılamış və daim vətəni canından çox sevməyi

vəsiyyət etmişdir. Etiram müəllim öz şagirdi ilə çiyin-çiyinə döyüşürdü. Həmişə onu qoruyurdu. Amma müəllimi şəhid olandan bir neçə gün sonra şagirdi də şəhid olur.

Ailəli idi. Bir oğlu var.

Etiram Həsən oğlu Hüseynli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə” və “İgidliyə görə” medalları ilə təltif olunub.

# Lətifov Rəvan Ömür oğlu
# (1991 – 2020)



Rəvan Ömür oğlu Lətifov 26 avqust 1991-ci ildə Oğuz rayonunun Xaçmaz kəndində dünyaya gəlmişdir.

2008-ci ildə Xaçmaz kəndinə V.İbrahimov adına tam orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin "təhsilin təşkili və idarə olunması" ixtisasına qəbul olunmuşdur.

Təhsilini müvəffəqiyyətlə başa vurduqdan sonra 2012-ci ildə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda N saylı hərbi hissədə tank əleyhinə batareyada hərbi xidmət keçmişdir. Hərbi xidməti başa vurduqdan sonra bir müddət Ə.Abdulhüseyn adına Şirvan kənd tam orta məktəbində məktəbdənkənar və sinifdənxaric tərbiyə işi üzrə təşkilatçı vəzifəsində işləmişdir. Daha sonra Oğuz rayonu Sincan kənd tam orta məktəbində təşkilatçı müavin vəzifəsində çalışmışdır.

Rəvan müəllim Vətən müharibəsi başlananda 29 sentyabr 2020-ci ildə Milli Ordu sıralarına qoşulmuşdur. Bir ay ərzində Gəncə şəhərinin N saylı hərbi hissəsində təşkil edilən intensiv hərbi təlimlərdə iştirak etdikdən sonra Qarabağ uğrunda gedən aktiv hərbi əməliyyatlara qoşulmuşdur. 29 oktyabr tarixində tank əleyhinə batareyanın əsgəri kimi Füzuli rayonunun İkinci Mahmudlu kəndinin düşmən işğalından azad edilməsində iştirak etmişdir. 2020-ci ilin 6 noyabr tarixində Şuşa şəhərinin işğaldan azad olunması əməliyatında fəal iştirak edərək döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş, düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə qoşunlarımızın döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqlənmişdir.

6 noyabr tarixində Rəvan Lətifovun batareyası Daşaltı-Şuşa istiqamətində hücuma keçir. Bu onun son döyüşü olur. Şuşa istiqamətində gedən qanlı döyüşlərdə Rəvan müəllim qəhrəmancasına şəhid olur. O, 15 noyabr tarixində Xaçmaz kənd Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Rəvan Ömür oğlu Lətifov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



## Nəbiyev Cilingir Azad oğlu (1996 – 2020)

Gizir Cilingir Azad oğlu Nəbiyev 1996-cı ilin yanvar ayının 18-də Tovuz rayonunun dağlar qoynunda yerləşən Şıxheybət kəndində anadan olmuşdur.

Atası Birinci Qarabağ müharibəsində döyüşlərdə fəal iştirak etmiş, qazi olmuşdur. Qardaşı Nəbiyev İbrahim Azad oğlu Silahlı Qüvvələrimizin zabitidir və cəbhə bölgəsində xidmət göstərir.

Cilingir Hacılar kənd orta məktəbində 9 illik təhsil aldıqdan sonra imtahan verərək Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində “texnologiya müəllimliyi” ixtisası üzrə təhsil almışdır. 2015-ci ildə Ədliyyə Nazirliyində müddətli həqiqi hərbi xidmət keçib. Xidmət dövründə “Fəxri fərman”larla təltif olunub. Ailəsinə “Təşəkkür məktubu” göndərilib.

Cilingir hərbi xidmətdən təxris olunduqdan sonra, 2017-ci ildə Müdafiə Nazirliyi sistemində müddətdən artıq hərbi xidmət etmək üçün müraciət edib. Gizirlik kursunu uğurla bitirdikdən sonra isə “N” saylı hərbi hissədə tank komandiri vəzifəsində xidmət göstərib.

Vətən müharibəsi başlayınca ön cəbhəyə yollanan Cilingir Füzulinin, Cəbrayılın azad edilməsi uğrunda döyüşlərdə qəhrəmancasına iştirak edib. Zəngin Azərbaycan tankçılıq məktəbinə özünəməxsus töhfələr verən yeni nəsil hərbiçilərimizdən biri olub. O, döyüşlərin bir ayı tamam olan gün, 27 oktyabrda Qubadlı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Tovuz rayonunda dəfn olunub.

Vətən uğrunda canından keçən qəhrəmanımız ailəli olub, 2 yaşlı Ayxan adlı oğlu yadigar qalıb.

Cilingiri tanıyanlar onun hər zaman gülərüz olduğunu söyləyirdilər. Özü qazi oğlu idi. Cilingirin oğlu Ayxan isə şəhid oğlu oldu.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Cilingir Azad oğlu Nəbiyev ölümündən sonra “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə”, “Cəbrayılın azad

olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

2021-ci ilin yanvar ayının 8-də ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində Qarabağ müharibəsində şəhid olmuş məzunların xatirəsini əbədiləşdirmək məqsədi ilə "Qəhrəmanlıq Zirvəsi" auditoriyası açılıb.



## Nüsrətli Ceyhun Aqil oğlu
## (1995 – 2020)

Ceyhun Aqil oğlu Nüsrətli 8 aprel 1995-ci ildə Bakıda doğulub. Ceyhunun ailəsi Füzuli rayonunun Dilağarda kəndindəndir. Füzuli işğal olunandan sonra ailə bir müddət Beyləqandakı Xocavənd qəsəbəsində məskunlaşır.

2001-ci ildə Füzuli rayon 55 nömrəli tam orta məktəbin I sinifinə daxil olub. 2012-ci ildə XI sinifi bitirib və həmin il Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya fakültəsinə qəbul olunub. 2016-cı ildə həmin ali məktəbi bitirib.

Uşaq yaşlarından vətənpərvərliyi ilə seçilirdi. Güləş və şahmatla məşğul olurdu. Hobbisi balıq tutmaq idi.

Tələbə yoldaşı Babək Nəzərli şəhid haqqında bunları deyir:

*"Hədsiz dərəcədə vətənpərvər idi. Yaxşı səsi vardı, dəfələrlə qrup yoldaşlarını ətrafına toplayıb vətənə aid mahnılar oxuyardı. Konfranslarda, Tələbə Gənclər Təşkilatının tədbirlərində aktiv iştirak edirdi. 2 fevral "Gənclər Günü" münasibətilə Gülüstan sarayında keçirililən tədbirdə də çox aktiv idi.*

*Özü çox zəhmətkeş idi. Eyni zamanda həm oxuyub, həm də işləyirdi."*

C.Nüsrətli 2019-cu ilin oktyabrında hərbi xidmətə yollanıb. Xidmət dövründə manqa komandiri olan Ceyhun dəfələrlə fəxri fərmanla təltif olunub.

Tərxis olunmağına 1 gün qalmış Vətən müharibəsi başlayır. Ağdərə istiqamətində gedən döyüşlərə qatılan Ceyhun 2020-ci ilin sentyabrın 29-da Ağdərə uğrundakı ağır döyüşlərdə aldığı mərmi zərbələri nəticəsində şəhid olur.

Ceyhun Aqil oğlu Nüsrətli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

## Ömərov Qoşqar Səxavət oğlu (1994 – 2020)



Qoşqar Səxavət oğlu Ömərov 9 fevral 1994-cü ildə Kürdəmir rayonunun Şilyan (Qarasu) kəndində müəllim ailəsində anadan olmuşdur.

2011-ci ildə Qarasu kənd orta məktəbini yüksək qiymətlərlə bitirərək 466 balla Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat və informatika (Riyaziyyat) fakültəsinə daxil olmuşdur.

2015-ci ildə Azərbaycan Memarlıq və İnşaat Universitetinin İnformasiya texnologiyaları ixtisası üzrə magistraturasına daxil olsa da, həqiqi hərbi xidmətə yollanmışdır. 2016-2018-ci illərdə magistr təhsili almışdır. 2018-ci ildə Müəllimlərin İşə Qəbulu imtahanlarında yüksək nəticə toplayaraq Masazır kənd 5 nömrəli tam orta məktəbində riyaziyyat müəllimi kimi pedaqoji fəaliyyətə başlamışdır.

21 sentyabr 2020-ci ildə vətənin çağırışına hay verərək ordu sıralarına qatılan Qoşqar 27 sentyabrda başlanan Vətən müharibəsində Füzuli cəbhəsindən savaşa qatılmış, döyüşlərdə xüsusi fəallığı və igidliyi ilə seçilərək kəşfiyyat bölüyünə daxil edilmişdir. Bir sıra yüksəkliklər uğrunda döyüşlərdə iştirak etmişdir. Noyabrın 4-də Şuşanın Daşaltı kəndi ətrafında gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmişdir.

Qoşqar Ömərov onu tanıyanlar, dərs dediyi şagirdlər, gələcək nəsillər üçün örnək olacaq həyat nümunəsi qoyub getmişdir. Heç nədən qorxmayan, hər çətinliyinə sinə gərən, sağlam həyat, fiziki güc, intellektual cəhətdən çox əhatəli savada malik, yeniliklərin tətbiqinə açıq, öz işinə vicdanla yanaşan, vətənini sevən, ailəyə bağlı, yüksək əxlaqlı bir gənc idi.

Qoşqar Səxavət oğlu Ömərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



# Zakirov Elvin Ağasəlim oğlu (1980-2020)

Baş leytenant Elvin Ağasəlim oğlu Zakirov 1980-ci ilin 15 avqust tarixində Sumqayıt şəhərində dünyaya göz açıb.

1987-ci ildə Sumqayıt şəhər Zülfü Hacıyev adına 17 nömrəli tam orta məktəbin birinci sinifinə qəbul olunmuş, 1998-ci ildə bu məktəbi bitirmişdir.

Məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin indiki İncəsənət və fiziki tərbiyə fakültəsinin "bədən tərbiyəsi və hərbi hazırlıq" ixtisasına qəbul olunmuşdur.

2001-ci ildə ali məktəbdən məzun olaraq hərbi xidmətə yollanıb. Hərbi xidməti zamanı Goranboy rayonunda, cəbhə bölgəsində xidmət etmişdir.

Hərbi xidmətdən qayıtdıqdan sonra 2001-2002-ci illərdə Sumqayıt şəhər 14 nömrəli məktəbdə fiziki tərbiyə müəllimi kimi pedaqoji fəaliyyət göstərib.

2002-ci ildə öz ərizəsi ilə yenidən hərbi xidmətə qayıtmışdır. Qazax rayonunda cəbhə bölgəsində yerləşən postlarda tağım komandiri vəzifəsini icra etmiş və burada xidməti dövründə baş leytenant rütbəsi almışdır. Bir müddət Lənkəran və Astarada xidmət etmiş, səhətində yaranan problemlərlə bağlı 2012-ci ildə ordu sıralarından ehtiyata buraxılmışdır.

2020-ci ilin sentyabr ayının 27-də torpaqlarımızın azad olunması üçün Vətən müharibəsinin başlandığını eşidən Elvin Zakirov Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt şəhər baş idarəsinə döyüşə getmək üçün könüllü olaraq ərizə təqdim edir. Ona cəbhəyə göndəriləcəyini deyəndə idarədəki yüksək rütbəli zabitə sarılaraq təşəkkür edir və 16 oktyabrdan etibarən Füzuli istiqamətində döyüşlərə qatılır. Füzuli döyüşlərində iştirak etdikdən sonra noyabrın 6-da Xocavənd uğrunda gedən gərgin döyüşlərə qatılaraq burada da qəhrəmanlıq göstərir.

Noyabr ayının 9-da Xocavənd-Şuşa istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olan müəllim-zabit Elvin Ağasəlim oğlu Zakirov şəhadətindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Noyabr ayının 20-də Sumqayıt şəhər Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Elvin Zakirovun oğlu Toğrul Zakirov Azərbaycan Dövlət Memarlıq və İnşaat Universitetinin Nəqliyyat fakültəsinin “yer quruluşu və daşınmaz əmlak kadastrı” ixtisası üzrə II tədris ili tələbəsi, qızı Yağmur Zakirova isə VIII sinif şagirdidir.

# I Qarabağ Müharibəsi iştirakçıları

# Abbasov Əziz Kamran oğlu (1968)



Kapitan Əziz Kamran oğlu Abbasov 1968-ci ildə Kəlbəcər rayonunun Cəmilli kəndində anadan olub.

1975- ci ildə Cəmilli kənd 8 illik məktəbinin birinci sinifinə daxil olub, 1985-ci ildə Seyidlər kənd orta məktəbini bitirib.

1986-1988 ci illərdə Əfqanıstan Respublikasında həqiqi hərbi xidmət keçib. Xidməti dövründə "Döyüşdə fərqlənməyə görə", "SSRİ-nin 70 illiyinə görə", "Əfqanıstan xalqının təşəkkür medalı" və "Sülhməramlı" medalları ilə təltif olunub.

1989-cu ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinə daxil olub. 1992-ci ildə Kəlbəcər özünümüdafiə 844 saylı hərbi hissəsində torpaqlarımızın bütövlüyü uğrunda döyüşüb, 1993-cü ildə ADPU-nun Çağırışaqədər hərbi və fiziki tərbiyə fakültəsini (İncəsənət və fiziki tərbiyə) bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələri sıralarında 701 saylı hərbi hissədə leytenant rütbəsində tağım komandiri vəzifəsində xidmətə başlayıb. Xidməti dövründə Murovdağ, Kəlbəcər, Horadiz, Ağdam, Tərtər rayonları uğrunda gedən döyüşlərdə iştirak edib.

Döyüş müddəti ərzində "Azərbaycan Silahlı Qüvvələrinin 10 illiyi" və "Azərbaycan Ordusunun 90 illiyi" medalları ilə təltif olunub. 1999-cu ilin oktyabr ayında kapitan rütbəsində ordu sıralarından ehtiyata buraxılıb.

Əziz müəllim 2000-ci ildən Göygöl şəhər Tapdıq Əmiraslanov adına 2 saylı tam orta məktəbdə gənclərin çağırışaqədərki hazırlığı və fiziki tərbiyə müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirir.



## Abdullayev Eyvaz İsmayıl oğlu (1971)

Leytenant Eyvaz İsmayıl oğlu Abdullayev 1971-ci ilin may ayının 5-də Gədəbəy rayonunun Hacılar kəndindən anadan olmuşdur.

Orta təhsilini 1978-1988-ci illərdə Hacılar kənd tam orta məktəbində alan Eyvaz 1989-1991-ci illərdə sovet ordusunda xidmət etmişdir və 1991-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Çağırışaqədər hərbi və fiziki tərbiyə fakültəsinə (İncəsənət və fiziki tərbiyə) daxil olmuşdur.

1992-ci ildə Könüllü Tələbə Taborunun tərkibində komandir Sabir Məmmədovun rəhbərliyi ilə cəbhəyə yollanmış, Gədəbəy rayonunun müdafiəsi və Başkənd kəndinin azad olunmasına görə gedən döyüşlərdə iştirak etmişdir.

Eyvaz döyüşlərdən qayıtdıqdan sonra 1996-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetindən məzun olmuşdur.

## Abdullayev Cavanşir Qalib oğlu (1968)



Kapitan Cavanşir Qalib oğlu Abdullayev 8 aprel 1968-ci ildə Gədəbəy rayonunun Şınıx zonasının Sonalar kəndində anadan olmuşdur. Orta təhsilini Gədəbəy rayonu Hacılar kənd tam orta məktəbində almış və 1986-1990-cı illərdə Moskva Sərhəd Qoşunları məktəbini bitirmişdir.

Cavanşir Qarabağ bölgəsində ermənilərin separatçılığı ilə əlaqədar 1990-cı ildə Azərbaycana qayıtmış və elə həmin ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Çağırışaqədər hərbi və fiziki tərbiyə fakültəsinə (İncəsənət və fiziki tərbiyə) daxil olmuşdur.

1992-ci ildə Könüllü Tələbə Taborunun tərkibində Gədəbəy rayonunun müdafiəsi uğrunda gedən döyüşlərə qatılmışdır. 1992-ci ilin sentyabr ayının 24-də könüllü tələbə taborunun təhsilə qayıtması ilə əlaqədar olaraq Müdafiə Nazirliyi tərəfindən bölgü aparılan zaman Cavanşir zabit olduğu üçün Ağdərə rayonunda yerləşən “N” saylı hərbi hissənin tərkibində bölük komandiri kimi xidmətə göndərilmişdir. O, Ağdərə, Ağdam və Füzuli rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmiş və 1995-ci ildə Milli Təhlükəsizlik Nazirliyinin tərkibində olan Sərhəd Qoşunlarında xidmətə qəbul olunmuş və burada sərhəd zastavası rəisi, komendant müavini, sərhəd dəstəsinin kəşfiyyat rəisinin müavini vəzifələrində xidmət etmişdir.

Cavanşir 2002-ci ildə xidmətdən istefa vermiş və ədəbi fəaliyyətlə məşğul olmağa başlamışdır. İlk şeiri 1995-ci ildə Milli Təhlükəsizlik Nazirliyinin orqanı olan “Sərhədçi” qəzetində çap olunmuşdur. 1997-ci ildə “Özümü dünyada qonaq bilmişəm”, 1999-cu ildə “Bəlkə görüşdük” adlı kitabları çap olunmuşdur. Onun şeirləri bir çox qəzet və jurnallarda dərc edilmişdir və ədəbi mühitdə Cavanşir Qənbər imzası ilə tanınır.



# Atakişiyev Kamaləddin Ənvər oğlu (1968)

Kamaləddin Ənvər oğlu Atakişiyev 30 noyabr 1968-ci ildə Kəlbəcər rayonunun Zülfüqarlı kəndində anadan olub.

1976-cı ildə Kəlbəcər rayonu Zülfüqarlı kənd orta məktəbinə daxil olub. 1986-cı ildə Zülfüqarlı kənd orta məktəbini bitirib və 1987-ci ildə həqiqi hərbi xidmətə çağrılıb. SSRİ-nin Əfqanstandakı 40-cı ordusunda xidmət edib. Həqiqi hərbi xidmət dövründə "Əfqanıstanda xidmətə görə" medalla və "SSRİ Nazirlər Sovetinin döş nişanı" ilə təltif olunub. 1989-cu ildə ordudan ehtiyata buraxılıb.

1990-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Çağırışaqədər hərbi və fiziki tərbiyə fakültəsinə (İncəsənət və fiziki tərbiyə) daxil olub.

1992-ci ilin mart ayından etibarən könülü olaraq Qarabağ müharibəsində iştirak edib. 701-ci briqadanın tərkibində "N" saylı hərbi hissədə xidmət edən Kamaləddinin döyüş yolu Kəlbəcər və Ağdərə ərazilərindən keçib.

1992-ci ilin sentyabrından cəbhədən qayıdaraq ali təhsilini davam etdirib. 1995-ci ildə universitetdən məzun olub.

Kamaləddin Atakişiyevin atası Ənvər Atakişiyev də İkinci Dünya müharibəsinin iştirakçısıdır.

K.Atakişiyev hazırda Rusiya Fedarasiyasının Tatarıstan Respublikasının Leninaqorsk şəhərində yaşayır. Tatarıstanda iş adamı kimi fəaliyyət göstərir. Eyni zamanda Leninaqorsk Əfqanıstan döyüşçüləri Veteranlar Birliyinin sədr müavinidir.

## Balayev Elman Burhanəddin oğlu (1952)



Elman Burhanəddin oğlu Balayev 1952-ci ildə Cəbrayıl rayonunun İsaxlı kəndində anadan olub. 1970-1977-ci illərdə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (indiki ADPU) ali təhsil alıb.

1971-73-cü illərdə həqiqi hərbi xidmətdə olub. 1974-2006-cı illərdə polis orqanlarında müxtəlif vəzifələrdə çalışıb.

11 aprel 1980-ci il tarixində Bakıda, N.Nərimanov metrostansiyasında şübhəli şəxs görmüş, cəldliyi və şücaəti sayəsində şübhəli şəxsi tutmuş və onun üzərində odlu silah olduğu üçün aidiyyəti üzrə polis orqanlarına təhvil vermişdir. Bu şücaətinə görə ona DİN-in “Milis əlaçısı” döş nişanı verilmişdir.

1991-ci ildə yaxşı işlədiyinə görə şəkli Bakı şəhəri Baş Polis İdarəsində şərəf lövhəsində asılmışdır.

Birinci Qarabağ müharibəsində dəfələrlə erməni qəsbkarlarına qarşı döyüşmüşdür. Hal-hazırda Birinci Qarabağ müharibəsi veteranıdır.

1997-ci ildən 2006-cı ilə qədər Qaradağ, Sabunçu və Binəqədi rayon mühafizə şöbələrində rəis vəzifəsində çalışmışdır. Hazırda dövlət təqaüdündədir.



## Əmirov İlqar İsax oğlu
## (1966)

Leytenant İlqar İsax oğlu Əmirov 16 sentyabr 1966-cı ildə Kəlbəcər rayonunda anadan olmuşdur. Orta təhsilini Kəlbəcər rayonunun Milli kənd tam orta məktəbində alan İlqar 1984-cü ildə Sovet ordusu sıralarına həqiqi hərbi xidmətə çağırılmış və hərbi xidmətini Gürcüstanda yerləşən "N" saylı hərbi hissədə dağ atıcıları korpusunda çavuş rütbəsində bölük komandiri kimi yerinə yetirmişdir.

1986-cı ildə ordudan tərxis olunandan sonra 1987-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Çağırışaqədər hərbi və fiziki tərbiyə fakültəsinə (İncəsənət və fiziki tərbiyə) daxil olmuşdur.

İlqar 1992-ci ilin mart ayında könüllü tələbə taborunun tərkibində Birinci Qarabağ müharibəsinə qatılmışdır. İlqarın Qarabağ savaşında 701-ci briqadanın tərkibində 844 saylı hərbi hissədə Kəlbəcər, Ağdərə və Laçın rayonları uğrunda gedən döyüşlərdə tağım komandiri olaraq iştirak etmişdir. Gərgin döyüşlərdə iki dəfə başından və ayağından yaralanan İlqar 1992-ci ildə 844 saylı hərbi hissə ləğv olunduğundan və yaralandığı üçün ehtiyata buraxılmışdır. 1999-cu ildə ona Müdafiə Nazirliyi tərəfindən Birinci Qarabağ müharibəsi veteranı (qazisi) adı verilib.

İlqar müəllim 1994-cü ildən Bakı şəhəri, Nərimanov rayonunda yerləşən 207 saylı tam orta məktəbdə fiziki tərbiyə müəllimi kimi pedaqoji fəaliyyət göstərir.

# Əsgərov Kazım İslam oğlu
# (1968 – 1997)



Kazım İslam oğlu Əsgərov 1968-ci ildə Gədəbəy rayonunun Qızılqaya (Yenikənd) kəndində anadan olmuşdur. Orta təhsilini Bilal Qəhrəmanov adına Qızılqaya (Yenikənd) kənd tam orta məktəbində almışdır.

Kazım 1989-cu ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Çağırışaqədər hərbi və fiziki tərbiyə fakültəsinə (İncəsənət və fiziki tərbiyə) daxil olmuşdur.

1992-ci ilin 19 mart tarixində Könüllü Tələbə Taborunun tərkibində komandir Sabir Məmmədlinin rəhbərliyi ilə cəbhəyə yollanmışdır. Kazım bir çox döyüşlərdə, o cümlədən Hörük daşı, Şorax döyüşlərində və Başkənd əməliyyatlarında iştirak etmişdir.

O, 1994-cü ildə universiteti bitirmiş və Daxili Qoşunlarda yenidən hərbi xidmətə başlamışdır.

Kazım Əsgərov 19 yanvar 1997-ci ildə dünyasını dəyişib.



## Həsənov Əkbər Səyad oğlu (1966)

Baş leytenant Əkbər Səyad oğlu Həsənov 25 yanvar 1966-cı ildə Gədəbəy rayonunun Cəfərli kəndində anadan olmuşdur. Orta təhsilini 1973-1983-cü illərdə Arzu Qasımov adına Alnabat (Əli İsmayıl) kənd tam orta məktəbində almışdır.

1990-cı ildə Nəsirəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin (indiki ADPU) Gənclərin çağırışaqədərki hazırlığı və fiziki tərbiyə fakültəsinə daxil olmuş, 1995-ci ildə universitetdən məzun olmuşdur.

Əkbər tələbə olduğu dövrdə, 1992-ci ildə Könüllü Tələbə Taborunun tərkibində Gədəbəy rayonunun müdafiəsi və Başkənd kəndinin azad olunması uğurunda gedən döyüşlərdə iştirak etmişdir.

Əkbər müəllim hazırda Birinci Qarabağ müharibəsi veteranıdır (qazi) və Bakı şəhəri, Nərimanov rayonunda yerləşən 207 nömrəli tam orta məktəbdə gənclərin çağırışaqədərki hazırlığı fənnini tədris edir.

# İsmayılov Sahəddin Qiyas oğlu (1968)



Mayor Sahəddin Qiyas oğlu İsmayılov 11 iyun 1968-ci ildə Gədəbəy rayonunun Çiçəkli (Arabaçı) kəndində anadan olmuşdur. 1974-cü ildə Siyavuş Qasımov adına Çiçəkli kənd tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. Sahəddin məktəbdə müəllimləri və şagird yoldaşları tərəfindən sevilən nümunəvi bir şagird olmuş və 1985-ci ildə məktəbi bitirmişdir.

1986-cı ildə həqiqi hərbi xidmətə yollanmışdır. Sahəddin xidmətinə Polşada yerləşən "N" saylı hərbi hissədə başlamış və 1988-ci xidmətini başa vurmuşdur. 1989-cu ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Çağırışaqədər hərbi və fiziki tərbiyə fakültəsinə (İncəsənət və fiziki tərbiyə) daxil olmuşdur.

Sahəddin 1992-ci ildə Könüllü Tələbə Taborunun tərkibində Gədəbəy rayonununda yerləşən Başkənd kəndinin azad olunması əməliyyatında yaxından iştirak etmişdir. Bundan sonra o, 1992-ci ildən etibarən Azərbaycan Respublikasının Milli Qvardiyasında xidmət etmişdir və həmin müddətdə Qubadlı, Laçın və Ağdərə rayonları uğrunda gedən döyüşlərdə savaşmış, qəhrəmanlıq göstərmişdir.



## Quliyev Mehman Burhanəddin oğlu (1960- 2007)

Mehman Burhanəddin oğlu Quliyev 23 sentyabr 1960-cı ildə Cəbrayıl rayonunun İsaxlı kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmətdəykən öz vətənpərvərliyi və şücaəti ilə seçilib.

1979-cu ildə xidmətini tamamlayaraq V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) İbtidai hərbi hazırlıq fakültəsinə daxil olub. Ali təhsilini bitirdikdən sonra gənc müəllim kimi doğulub böyüdüyü Cəbrayıl rayonunda orta məktəbə təyinat alır.

1980-90-cı illərdə respublikada baş verən hadisələrdən təsirlənərək 1992-ci ildə könüllü olaraq Cəbrayılda yaranan taborlardan birinə daxil olan Mehman 1993-94-cü illərdə torpaqlarımıza erməni hücumu ilə əlaqədar ümummilli lider Heydər Əliyevin xalqa müraciətinə cavab verərək könüllü olaraq ordu sıralarına qoşulur.

Mehman müharibədən sonra ordudan tərxis olunsa da, aldığı yaralar və keçirdiyi sarsıntılar onda fəsadsız ötüşmür. Və beləliklə, Mehman 2007-ci ilin oktyabr ayının 4-də, 47 yaşında dünyasını dəyişir.

# Mehraliyev Qalib Nəriman oğlu (1967)



Leytenant Qalib Nəriman oğlu Mehraliyev 1967-ci ildə Gədəbəy rayonunun İsalı kəndində anadan olub. 1974-cü ildə İsalı kənd orta məktəbinin birinci sinifinə daxil olan Qalib 1985-ci ildə orta təhsilini başa vuraraq Kuba Respublikasına həqiqi hərbi xidmətə yollanıb.

1988-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutuna (indiki ADPU) qəbul olunub. İbtidai hərbi hazırlıq və fiziki tərbiyə fakültəsini (İncəsənət və fiziki tərbiyə) 1992-ci ildə bitirib.

1992-ci ilin mart 2-də universitetin IV kursunda oxuduğu vaxt Sabir Məmmədlinin rəhbərliyi ilə könüllü olaraq Gədəbəyin Novasaratovka kəndində xidmət edib, həmçinin Başkənd və Mutudərə kəndlərinin işğaldan azad edilməsində fəal iştirak edib. 1994-cü ilə qədər Gədəbəy rayonunun Novasaratovka kəndində motoatıcı bölük komandiri vəzifəsində çalışıb.

1994-cü ildə Gədəbəyin Mormor kəndində Krasnoselski kəndi ilə üzbəüz Azərbaycanın Milli Qəhrəmanı İsgəndər Aznaurovun adını daşıyan ən yüksək İsgəndər qalasında xidmət edib. Hərbi xidmətlərinə görə "Şah İsmayıl Xətai" Fəxri Fərmanı ilə təltif edilib. 1997-ci ildə ordudan ehtiyyata buraxılıb.



# Musayev Azər Hüseyin oğlu
# (1967)

Azər Hüseyin oğlu Musayev 29 noyabr 1967-ci ildə Gədəbəy rayonunun Şahdağ (Sovetabad) kəndində anadan olmuşdur. 1975-ci ildə Siyavuş Qasımov adına Çiçəkli (Arabaçı) kənd tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. 1985-ci ildə orta məktəbi bitirərək həqiqi hərbi xidmətə yollanmışdır.

Azər 1985-1987-ci illərdə Sovet ordusunun "N" saylı hərbi hissəsində xidmətini başa vurmuş və 1988-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Çağırışaqədər hərbi və fiziki tərbiyə fakültəsinə (İncəsənət və fiziki tərbiyə) daxil olmuşdur.

1992-ci ildə Birinci Qarabağ müharibəsi ərəfəsində Könüllü Tələbə Taborunun tərkibində Gədəbəy rayonu uğurunda gedən döyüşlərdə iştirak etmiş və elə 1992-ci ildə universiteti bitirdikdən sonra zabit kimi Gədəbəy rayonunda yerləşən "N" saylı hərbi hissədə tağım komandiri vəzifəsində xidmətə başlamışdır. O, artilleriya komandiri kimi ordu sıralarından tərxis olunmuş və döyüşlərdə nümayiş etdirdiyi qəhrəmanlığa və şücaətinə görə bir neçə orden və medallarla təltif edilmişdir.

Hal-hazırda təqaüddədir və Bakı şəhərində yaşayır.

# Musayev Rasim İslam oğlu
# (1960-2015)



Polis general-mayoru Rasim İslam oğlu Musayev 10 iyun 1960-cı ildə Tərtər rayonunununda anadan olub. Əslən Göyçə mahalının Kiçik Məzrə kəndindəndir.

Azərbaycan Dövlət Pedaqoji Universitetində ali təhsil alıb. Binəqədi Rayon Polis İdarəsi rəisinin birinci müavini, Binəqədi Rayon Polis İdarəsinin 5-ci polis bölməsinin rəisi, Daxili İşlər Nazirliyi İctimai Təhlükəsizlik İdarəsinin şöbə rəisi, Sabunçu Rayon Polis İdarəsinin 15-ci Polis bölməsinin rəisi, 2005-2007-ci illərdə Cəlilabad Rayon Polis şöbəsinin rəisi, 2007-2013-cü illərdə isə Gəncə Şəhər Polis İdarəsinin (2011-ci ildə Gəncə şəhər Polis İdarəsi Baş Polis İdarəsinə çevrilib) rəisi vəzifələrində çalışıb.

Birinci Qarabağ müharibəsi dövründə cəbhəyə yollanan Rasim Musayev Tərtər batalyonunun tərkibində mətanətlə savaşmış, Vətənin dar günündə nizami ordu hissələrinin olmadığı bir şəraitdə əsgərlərin təşkilatlandırılması, döyüşçülərin ruh yüksəkliyinin artırılması və düşmənə qarşı mütəşəkkil mübarizədə önəmli rol oynamışdır.

2011-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə ona polis general-mayoru ali xüsusi rütbəsi verilmişdir.

Rasim Musayev öz xahişi ilə 2013-cü ilin yanvar ayının 21-də Daxili İşlər nazirinin əmri ilə Gəncə Şəhər Baş Polis İdarəsinin rəisi vəzifəsindən azad edilib. 2013-cü ilin fevral ayının 2-də Daxili İşlər Nazirliyinin Daxili Təhqiqatlar İdarəsinin rəisi təyin edilib.

3 sentyabr 2015-ci ildə Bakı şəhərində ürəktutmasından vəfat etmişdir. Mehdiabad qəbiristanlığında dəfn edilib. Dəfn mərasimində daxili işlər naziri, nazir müavinləri, idarə, şöbə və bölmə rəisləri iştirak ediblər.

Peşəkar polis işçisi kimi general-mayor Rasim Musayev uzun illər Daxili İşlər Orqanlarında xidmət edib. O, təcrübəli polis əməkdaşı olmaqla yanaşı, cinayətkarlığa qarşı mübarizədə prinsipiallığı, həmçinin, polis əməkdaşları arasındakı şəxsi nüfuzuna görə həmişə diqqəti çəkib. Həmkarları və ictimaiyyət arasında böyük nüfuz sahibi olan general çoxsaylı cinayətlərin üstünün açılması və təqsirkarların məsuliyyətə cəlb edilməsində xüsusi xidmətlər göstərmişdir.

Ailəli idi. Üç övladı var.



# Nağıyev Vəli Nağı oğlu
# (1964)

General-leytenant Vəli Nağı oğlu Nağıyev 2 iyul 1964-cü ildə Naxçıvan Muxtar Respublikasının Naxçıvan rayonunda (indiki Babək rayonu) anadan olmuşdur.

1992-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) ibtidai hərbi hazırlıq və bədən tərbiyəsi (indiki İncəsənət və fiziki tərbiyə) fakültəsini bitirmişdir.

1981-1993-cü illərdə müxtəlif sahələrdə çalışmışdır.

1993-2007-ci illərdə peşəkar zabit kimi Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi orqanlarında xidmət etmişdir.

Vəli Nağıyev Azərbaycan təhlükəsizlik orqanlarının peşəkar əməkdaşı olaraq xüsusi təyinatlı dəstənin tərkibində 1990-cı illərdə Qarabağda erməni quldurlarına qarşı hərbi əməliyyatlara qatılıb. Xüsusilə Laçın istiqamətində gedən döyüşlərdə böyük hünər göstərib.

2015-ci ilin avqust-sentyabr aylarında Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Vətəndaşlıq məsələləri baş idarəsinin rəis müavini - Vətəndaşlıq məsələlərinin həlli idarəsinin rəisi, həmin ilin sentyabr-dekabr aylarında isə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Vətəndaşlıq məsələləri baş idarəsinin rəisi vəzifələrində çalışmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 dekabr 2015-ci il tarixli 1627 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin birinci müavini vəzifəsinə təyin edilmişdir.

General-leytenant Vəli Nağıyevə Azərbaycan Respublikası Prezidentinin 16 mart 2016-cı il tarixli 1898 nömrəli Sərəncamı ilə III dərəcəli dövlət miqrasiya xidməti müşaviri, 16 mart 2018-ci il tarixli 3789 nömrəli Sərəncamı ilə II dərəcəli dövlət miqrasiya xidməti müşaviri ali xüsusi rütbəsi verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 16 mart 2017-ci il tarixli 2747 nömrəli Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 17 mart 2021-ci il tarixli 2538 nömrəli Sərəncamı ilə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdir. General xidmət illərində ümumilikdə 2 orden və 33 medalla təltif edilmişdir.

Ailəlidir. Üç övladı var.

## Rəsulov Rahib Sərdiyar oğlu (1974)



Rahib Sərdiyar oğlu Rəsulov 1974-cü ilin iyul ayının 29-da Ucar rayonunun Qazıqumlaq kəndində anadan olub.

1981-ci ildə Qazıqumlaq kənd 1 nömrəli orta məktəbinin birinci sinifinə daxil olub və 1991-ci ildə həmin məktəbin X sinifini bitirib.

1992-ci ilin sentyabr ayında Azərbaycan Milli Ordusu sıralarında hərbi xidmətə çağırılıb. 1993-cü ilin fevral ayında Ağdərə istiqamətində gedən döyüşlərə qatılıb. Həmin ilin aprel ayından Tərtər rayonu uğrunda gedən döyüşlərdə, oktyabr ayından isə Füzuli rayonu uğrunda gedən döyüşlərdə iştirak edərək 22 kəndin düşməndən təmizlənməsi əməliyyatlarında igidlik göstərib.

1994-cü ilin mart ayının 25-də Füzuli rayonunun Şükürbəyli kəndi uğrunda gedən döyüşlərdə güllə yarası alıb. Bundan sonra ona II dərəcəli Qarabağ müharibəsi əlili statusu verilib və hazırda ömürlük əlillik statusundadır.

1995-ci ildə Ucar şəhəri 5 nömrəli tam orta məktəbində hərbi rəhbər təyin olunub.

1999-2003-cü illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı Filialında (2000-2015-ci illərdə keçmiş AMİ-nin Şamaxı Filialı) "tarix müəllimliyi" ixtisası üzrə ali təhsil alıb.

2001-ci ildən etibarən Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Ucar rayon şöbəsinin sədridir.

2003-cü ildən Ucar şəhəri 5 nömrəli tam orta məktəbdə tarix müəllimi, 2006-2010-cu illərdə isə direktorun təşkilati işlər üzrə müavini kimi pedaqoji fəaliyyət göstərib. 2010-cu ilin aprel ayından irəli çəkilərək Ucar rayonu Rəstəcə kənd tam orta məktəbinə direktor təyin olunub və hal-hazırda bu vəzifəni icra edir.

2016-cı ildə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fəal iştirakına görə Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin təsis etdiyi "Fədai" medalı ilə təltif edilib.

Ailəlidir. İki oğlu var.



## Sadıqov Arzu Sadıq oğlu
## (1971 – 2015)

Baş leytenant Arzu Sadıq oğlu Sadıqov 28 aprel 1971-ci ildə Gədəbəy rayonun Şahdağ kəndində anadan olmuşdur. Orta təhsilini Maarif Əsgərov adına Şahdağ kənd tam orta məktəbində almışdır.

Arzu 1989-cu ildə Sovet ordusu sıralarına çağırılmış və Leninqrad (indiki Sankt-Peterburq) və Arxangelsk vilayətindəki "N" saylı hərbi hissələrdə daxili qoşunlarda xidmət keçmişdir. Həqiqi hərbi xidmətini 1991-ci ildə çavuş rütbəsində təşəkkürnamə ilə başa vurmuşdur.

1991-ci ildə V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Çağırışaqədər hərbi və fiziki tərbiyə fakültəsinə (İncəsənət və fiziki tərbiyə) daxil olmuşdur.

Arzu 1992-ci ildə Könüllü Tələbə Taborunun tərkibində komandir Sabir Məmmədlinin rəhbərliyi ilə Gədəbəy rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə və Başkənd kəndinin azad olunmasına görəkı döyüşlərdə iştirak etmiş və Birinci Qarabağ müharibəsi veteranı adı almışdır.

1996-cı ildə universitetdən məzun olan Arzu elə həmin il leytenant rütbəsi ilə Naxçıvan Muxtar Respublikasında yerləşən "N" saylı hərbi hissəyə xidmətə çağırılmış və zabit kimi yenidən hərbi xidmətə başlamışdır. 1 il sonra baş leytenant rütbəsi almış və həmin rütbə ilə 3 il ordu sıralarında xidmət etmişdir. Bir müddət sonra Arzu ehtiyatda olan zabit kimi ordudan tərxis olunmuşdur. 2015-ci ildə dünyasını dəyişmişdir.

# Aprel döyüşləri
# (4 günlük müharibə) iştirakçıları

# Cəfərov Samir Rüfət oğlu (1997)



Samir Rüfət oğlu Cəfərov 19 may 1997-ci il tarixində Cəlilabad rayonunun Qarazəncir kəndində dünyaya gəlib.

2003-cü ildə Şahin Soltanov adına tam orta məktəbdə təhsil almağa başlayıb.

2012-ci ildə Maliyyə İqtisad Kollecinə daxil olan Samir 2015-ci ildə orta ixtisas təhsilini tamamlayaraq iyul ayının 7-də həqiqi hərbi xidmətə yollanıb.

Xidməti dövründə 2016-cı ilin Aprel döyüşlərində iştirak edən Samir şanlı zəfərimizin başlanğıcı olan tarixə "dörd günlük müharibə" adı ilə də düşmüş bu savaşda böyük cəsurluq və igidlik nümayiş etdirib.

2 yanvar 2017-ci ilə həqiqi hərbi xidmətini tamamlayıb.

2018-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin "tarix müəllimliyi" ixtisasına daxil olub. Samir Cəfərov universitetdə ilk gündən özünün təşkilatçılıq qabiliyyəti, nizam-intizamı və ictimai fəallığı ilə seçilib. Hazırda IV tədris ilinin tələbəsi olan Samir eyni zamanda Pedaqoji Universitetin Tələbə Gənclər Təşkilatının sədr köməkçisidir.

Qeyd edək ki, Samirgil ailədə iki qardaşdırlar. Onlar hələ kiçik yaşlarında atalarını itiriblər. Bundan sonra əmiləri Şahin Cəfərovun himayəsində böyüyən Samir və qardaşı əsl vətənpərvər övladlar kimi yetişiblər.



# Quliyev Qubad İftixar oğlu (1997)

Qubad İftixar oğlu Quliyev 16 mart 1997-ci il tarixində Sabirabad rayonunun Muradbəyli kəndində anadan olub.

2003-cü ildə Maqsud Daşdiyev adına tam orta məktəbin birinci sinifinə daxil olub.

Orta məktəbi bitirdikdən sonra, 10 iyul 2015-ci ildə həqiqi hərbi xidmətə yollanıb.

Əsgəri xidməti dövründə 2016-cı ilin məşhur Aprel döyüşlərinin iştirakçısı olub və savaşlarda böyük şücaət göstərib.

27 aprel 2017-ci ildə həqiqi hərbi xidmətini tamamlayan Qubad 2018-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika fakültəsinin "fizika müəllimliyi" ixtisasına qəbul olunub.

Hazırda IV tədris ilinin tələbəsidir.

# Vətən Müharibəsi iştirakçıları

PEDAQOJİ UNİVERSİTETİN QƏHRƏMANLARI Taleh MİRZƏYEV

## Abbasov Azər Məhəmmədəli oğlu (1977)



Baş leytenant Azər Məhəmmədəli oğlu Abbasov 1977-ci ildə Kəlbəcər rayonunun Mollabayramlı kəndində anadan olub. 1983-cü ildə birinci sinifə gedib. Erməni qəsbkarları Kəlbəcəri işğal etdiyindən təhsilini Zərdab rayonunun Çallı kənd Lomonosov adına orta məktəbində davam etdirir. 1995-ci ildə orta məktəbi bitirir və Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai hərbi hazırlıq və fiziki tərbiyə fakültəsinə (İncəsənət və fiziki tərbiyə) daxil olur. 1999-cu ildə universiteti bitirib pedaqoji mühitə atılır və elə həmin ilin sentyabr ayında Kəlbəcər rayonu 108 saylı orta məktəbdə hərbi hazırlıq müəllimi kimi işə başlayır.

2002-ci ildə həqiqi hərbi xidmətə yolanır, leytenant rütbəsində motoatıcı tağım komandiri vəzifəsini icra edir. 2004-cü ildə baş leytenant rütbəsində ehtiyyata buraxılır.

Hərbi xidmətdən sonra 2007-ci ilə qədər Kəlbəcər rayonu 108 saylı orta məktəbdə hərbi hazırlıq fənni üzrə müəllim işləyir. 2007-ci ildən Bakı şəhəri 312 saylı tam orta məktəbdə fiziki tərbiyə müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirir.

Azər müəllim Vətən müharibəsi zamanı (28 oktyabr 2020-ci il) bir zabit olaraq ordu sıralarına çağrılır və cəbhəyə yollanır. Motoatıcı tağım komandiri kimi öz doğma torpaqları uğrunda cəsarətlə savaşır.

Vətənin işğaldan azad edilməsi uğrunda mübarizədə aktiv iştirak etdiyi üçün Azər Məhəmmədəli oğlu Abbasov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən "Laçının azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.




# Abdinov Cavid Vahid oğlu (2001)

Kəşfiyyatçı əsgər Cavid Vahid oğlu Abdinov 27 iyun 2001-ci il tarixində Siyəzən rayonunda anadan olub.

2007-ci ildə Siyəzən rayonu Mikayıl Müşfiq adına 2 saylı tam orta məktəbinin birinci sinifinə daxil olub. Orta məktəbi bitirdikdən sonra təhsilini "Zəfər" hazırlıq kursunda davam etdirib.

2019-cu ildə həqiqi hərbi xidmətə çağırılmışdır. Xidmətini Xüsusi Təyinatlı Qüvvələrin tərkibində keçmişdir.

2020-ci ilin 27 sentyabr tarixində Vətən müharibəsi başladığı gündən etibarən döyüşlərdə aktiv iştirak etmişdir. Murovdağ, Kəlbəcər, Füzuli və Cəbrayıl rayonları uğrunda gedən döyüşlərdə xüsusi igidlik gösdərmişdir.

Oktyabrın 3-də Cəbrayıl uğrunda gedən gərgin döyüşlərdə yaralanmışdır. Partlayış nəticəsində sağ gözünü itirmiş, sol gözündə çoxsaylı qəlpə yarası ilə görmə beş faizə qədər azalıb. Sol qulaq seyvanı cırılmış, qulaqda eşitmə itirilmiş, sol ətrafdan yüzdən çox kor qəlpə yarası almışdır.

Döyüşlərdə fərqləndiyinə görə Cavid Vahid oğlu Abdinov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Şücaətə görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

Bunlardan başqa Xüsusi Təyinatlı Qüvvələrin rəhbərliyi tərəfindən xüsusi "Mənim Sədaqətim Mənim Şərəfimdir" medalı ilə təltif olunmuşdur.

## Abuşov Ağahəsən Abdulla oğlu (1994)



Ağahəsən Abdulla oğlu Abuşov 5 sentyabr 1994-cü ildə Masallı rayonunun Böyük Xocavar kəndində anadan olmuşdur. 2000-ci ildə Bəyalı Məmmədov adına Böyük Xocavar kənd tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. O, məktəbdə həm müəllimləri, həm də şagird yoldaşları tərəfindən sevilən bir şagird olmuşdur. Eyni zamanda məktəbdə keçirilən bütün yarışlarda və tədbirlərdə yaxından iştirak etmiş və məktəbi əla qiymətlərlə başa vurmuşdur.

2011-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya və biologiya fakültəsinin "biologiya müəllimliyi" ixtisasına qəbul olunmuşdur. O, universitetin ictimai həyatında da fəal iştirak etmiş və Tələbə Gənclər Təşkilatının aktiv üzvlərindən olmuşdur.

2015-ci ildə universitetdən məzun olaraq həqiqi hərbi xidmətə yollanır və Ağstafa rayonunda xidmətə başlayır. 2016-ci ilin Aprel döyüşlərində Qazax rayonunun Köçəsgər kəndi istiqamətində gedən döyüşlərdə istehkamçı-kəşfiyyatçı olaraq iştirak etmişdir. Eyni zaman da o, ərazilərin minadan təmizlənməsində, həmçinin tank və piyada əleyhinə minaların basdırılmasında xidmət edib.

Ağahəsən müəllim Vətən müharibəsində səfərbərliyə cəlb olunur və Ağcəbədi və Laçın rayonları istiqamətində gedən döyüşlərdə kəşfiyyatçı kimi qəhrəmanlıq nümayiş etdirmişdir.

Hal-hazırda Ağahəsən Abuşov Masallı rayonunun Güllütəpə kənd tam orta məktəbində biologiya müəllimi kimi pedaqoji fəaliyyət göstərir.



# Abdullayev Kamal Seyfəddin oğlu (1998)

Kamal Seyfəddin oğlu Abdullayev 4 dekabr 1998-ci ildə Sumqayıt şəhərində dünyaya gəlib. 2005-ci ildə Sumqayıt şəhər 3 nömrəli tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. Kamal məktəbdə həm müəllimləri, həm də şagird yoldaşları tərəfindən sevilən nümunəvi bir şagird olub.

İdmanla məşğul olan Kamal 2016-cı ilin yayında keçirilmiş idman üzrə beynəlxalq turnirdə diplomla təltif edilmiş, həmçinin respublika açıq turnirinin də qalibi olmuşdur.

2016-cı ildə orta məktəbdən yüksək nəticə ilə məzun olaraq Azərbaycan Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Dövlət Pedaqoji Kollecinin idman şöbəsinin "fiziki tərbiyə müəllimliyi" ixtisasına qəbul olmuşdur.

2017-2018-ci illərdə həqiqi hərbi xidmət keçən Kamal sonra yenidən təhsilini davam etdirmişdir.

O da bir çox gənclərimiz kimi 2020-ci ilin iyul döyüşlərindən sonra əfsanəvi şəhid general Polad Həşimovun qisasını almaq üçün səfərbərlik xidmətində qeydiyyata düşmüş və 21 sentyabr 2020-ci il tarixində könüllü olaraq təlimlərə qatılmışdır.

Vətən müharibəsində Füzuli, Cəbrayıl, Zəngilan və Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə iştirak eləmiş, Xocavənd rayonunun Qırmızıbazar adlanan ərazisində döyüşərkən həm mərmi partlaması, həm də snayper atəşi nəticəsində yaralanmışdır.

Qazi Kamal Abdullayev evin tək övladıdır.

Hal-hazırda ADPK-da təhsilini davam etdirir.

Kamal Seyfəddin oğlu Abdullayev torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərdə göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad oıunmasına görə" medalları ilə tərtif edilmişdir.

## Abdullayev Kənan Mahir oğlu (1999)



Kənan Mahir oğlu Abdullyev 19 sentyabr 1999-cu ildə Bakı şəhərində anadan olmuşdur. 2005-2016-cı illərdə A.S.Xəlilov adına 263 saylı tam orta məktəbdə təhsil almışdır. Kənan məktəbdə müəllimləri və şagird yoldaşları tərəfindən sevilən nümunəvi şagird olmuşdur.

2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin İncəsənət və fiziki tərbiyə fakültəsinin "fiziki tərbiyə və gənclərin çağırışaqədərki hərbi hazırlığı müəllimliyi" ixtsasına qəbul olunmuşdur. Kənan universitetdə ictimai aktiv tələbə kimi seçilmiş, həmçinin təhsil illərində Pedaqoji Universitetin Tələbə Gənclər Təşkilatının fakültə üzrə sədri olaraq məhsuldar fəaliyyət göstərmiş, bir çox  tədbirlərdə iştirak etmiş, dəfələrlə diplom və sertifkatlarla təltif olunmuşdur.

2020-ci ildə ali məktəbdən məzun olduqdan sonra iyul ayında həqiqi hərbi xidmətə yolanmış və xidmətinə Gəncə şəhərində başlamışdır.

2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsində aktiv iştirak edən Kənan Cəbrayıl, Qubadlı və Laçın rayonu istiqamətində gedən döyüşlərdə şücaət göstərmiş, eyni zamanda Kəlbəcər rayonunun müdafiəsində yaxından iştrak etmişdır.

Kənan Mahir oğlu Abdullayev torpaqlarımızın azad olunması uğrunda gedən döyüşlərdə göstərdiyi igidliyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə tərtif edilmişdir.



## Abdullayev Həsən Mustafa oğlu (1996)

Həsən Mustafa oğlu Abdullayev 25 avqust 1996-cı ildə Ağdaş rayonunun Şıxlı kəndində anadan olmuşdur. 2013-cü ildə Bakı şəhəri Ə.Şıxlinski adına 135 nömrəli tam orta məktəbi bitirmişdir.

2014-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialı) "təhsildə sosial-psixoloji xidmət" ixtisasına qəbul olunmuşdur. 2017-2018-ci tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək universitetdən məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə fəal olmuşdur.

Vətən müharibəsində torpaqlarımızın işğaldan azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

## Abdullayev Mustafa Mirzə oğlu (1997)



Mustafa Mirzə oğlu Abdullayev 5 dekabr 1997-ci ildə Biləsuvar rayonunun Nərimankənd kəndində anadan olub.

2004-cü ildə Nərimankənd kənd Şirin Yolçuoğlu adına tam orta məktəbin birinci sinifinə daxil olub. 2015-ci ildə həmin məktəbdən məzun olub.

Elə həmin il Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat və informatika (Riyaziyyat) fakültəsinə qəbul olunub. 2019-cu ildə universitetdən məzun olub.

2019-2020-ci illərdə həqiqi hərbi xidmət keçən Mustafa 2020-ci ilin sentyabr ayının 29-da səfərbərliklə Vətən müharibəsinə qatılıb. Füzuli və Xocavənd rayonlarının işğaldan azad olunması uğrunda gedən şiddətli döyüşlərdə düşmənlə savaşıb.

Mustafa Mirzə oğlu Abdullayev Vətən torpaqlarının azadlığı uğrunda igidlik və şücaət göstərib.



## Abdusalamov Rüfət Xaqani oğlu (2000)

Rüfət Xaqani oğlu Abdusalamov 11 mart 2000-ci il tarixində Qəbələ rayonunun Tola kəndində dünyaya gəlib.

2005-2017-ci illərdə Eldar Məmmədov adına Tola kənd tam orta məktəbində təhsil alan Rüfət Abdusalamov məktəbi bitirdikdən sonra 2017-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "fiziki tərbiyə müəllimliyi" ixtisasına qəbul olunub. Hazırda IV tədris ili tələbəsidir.

2018-2019-cu illərdə təhsilini dondúraraq həqiqi hərbi xidmətini yerinə yetirən Rüfət eyni zamanda 2020-ci ilin Vətən müharibəsinə də könüllü qatılıb. Füzuli, Zəngilan, Cəbrayıl və Qubadlı rayonları istiqamətində gedən döyüşlərdə iştirak edib.

Azərbaycan Respulikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Rüfət Xaqani oğlu Abdusalamov torpaqlarımızın işğaldan azad olunmasında göstərdiyi igidliyə görə "Zəngilanın azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub.

# Abışov Dəyanət Rafil oğlu (1999)



Dəyanət Rafil oğlu Abışov 8 avqust 1999-cu il tarixində Masallı rayonunun Xırmandalı kəndində anadan olub.

2005-ci ildə Xıdır Məmmədov adına Xırmandalı kənd orta məktəbinin birinci sinifinə daxil olub.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və Coğrafiya fakültəsinin "coğrafiya müəllimliyi" ixtisasına qəbul olunan Dəyanət 2020-ci ildə ali təhsilini tamamlayıb.

2020-ci ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon bölməsindən həqiqi hərbi xidmətə çağırılan Dəyanət Abışov Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarında xidmətə başlayıb.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsinin başladığı gündən Sərhəd Qoşunlarının "N" saylı sərhəd dəstəsinə könüllü olaraq ön cəbhədə xidmət etmək istədiyini bildirib. 2020-ci ilin oktyabr ayından Cəbrayıl rayonu istiqamətində aktiv döyüşlərə qatılıb.

Dəyanət Cəbrayılın Xələfli və Xudafərin kəndləri istiqamətində döyüşlərdə xüsusi hünər göstərib.

Döyüşlərdə fərqləndiyinə görə Dəyanət Rafil oğlu Abışov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilib.



## Adıgözəlzadə Elmin Vahid oğlu (1994)

Elmin Vahid oğlu Adıgözəlzadə 25 sentyabr 1994-cü il tarixində Bərdə rayonunun Otuzikilər kəndində dünyaya gəlib.

2001-2012-ci illərdə Şəhid Telman Qurbanov adına Xanqaraqoyunlu kənd tam orta məktəbində təhsil alan Elmin Adıgözəlzadə məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin Peşə təlimi şöbəsinin “informasiya texnologiyaları və sistemləri” ixtisasına qəbul olunub.

Elə 2012-ci ildə həqiqi hərbi xidmətə yollanan Elmin 2014-cü ildə xidmətini başa vuraraq təhsilini davam etdirib və 2018-ci ildə ADPK-dan məzun olub.

2020-ci ilin sentyabrında başlayan Vətən müharibəsində könüllü olaraq səfərbərliyə alınan Elmin Kəlbəcər rayonu istiqamətində gedən döyüşlərdə mərdliklə vuruşub.

Azərbaycan Respulikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Elmin Vahid oğlu Adıgözəlzadə torpaqlarımızın işğaldan azad olunmasında göstərdiyi igidliyə görə “Kəlbəcərin azad olunmasına görə” medalı ilə təltif olunub.

# Ağamaliyev Xəyal Niyaməddin oğlu (1997)



Xəyal Niyaməddin oğlu Ağamaliyev 2 fevral 1997-ci ildə Saatlı rayonunun Şirinbəy kəndində anadan olmuşdur.

2014-cü ildə Xocavənd rayon 3 nömrəli tam orta məktəbi əla və yaxşı qiymətlərlə bitirərək Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialı) "tarix və coğrafiya müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2018-2019-cu tədris ilində həmin ixtisas üzrə tam kursu bitirmişdir.

Hal-hazırda müddətli həqiqi hərbi xidmətdədir.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə, ictimai işlərdə fəal olmuşdur.

Xəyal Niyaməddin oğlu Ağamaliyev 44 günlük Vətən müharibəsində mərdliklə vuruşmuş və torpaqlarımızın azadlığı uğrunda savaşda şücaət göstərmişdir.



## Ağayev Elməddin Adil oğlu (1995)

Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu (MAHHXQ) Elməddin Adil oğlu Ağayev 2 sentyabr 1995-ci ildə Cəlilabad rayonunun Ocaqlı kəndində anadan olmuşdur.

2002-ci ildə Ocaqlı kənd 1 saylı tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. Elməddin məktəbdə müəllimləri və şagird yoldaşları tərəfindən sevilən nümunəvi şagird olmuşdur.

2013-cü ildə məktəbi yüksək qiymətlərlə bitirmiş və Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin “informatika müəllimliyi” ixtisasına qəbul olunmuşdur.

Elməddin 2017-ci ildə kollecdən məzun olduqdan sonra həqiqi hərbi xidmətə yollanmışdır. Xidmətə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının “N” saylı hərbi hissəsində başlamışdır. 2019-cu ildə xidmət müddəti bitdikdən sonra öz istəyi ilə Daxili Qoşunların “N” saylı hərbi hissəsindəMAHHXQ kimi xidmət etməyə başlamışdır.

Elməddin Ağayev Vətən müharibəsində Tərtər, Füzuli, Cəbrayıl, Xocavənd və Hadrut istiqamətində gedən döyüşlərdə mərdliklə savaşmış, qəhrəmanlıq və şücaət göstərmişdir.

## Ağayev Elsevər Sarvan oğlu (1992)



Baş leytenant Elsevər Sarvan oğlu Ağayev 17 dekabr 1992-ci ildə Zərdab rayonunun Sehtahal kəndində anadan olub. 1999-cu ildə Sehtahal kənd məktəbinin birinci sinifinə daxil olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat və informatika fakültəsinin "informakita müəllimliyi" ixtisasına qəbul olunan Elsevər 2014-cü ildə ali təhsilini müvəffəqiyyətlə tamamlayıb.

2014-cü ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Zərdab rayon bölməsindən həqiqi hərbi xidmətə çağırılan Elsevər 24 avqust 2014-cü ildə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Təlim-Tədris Mərkəzinin ehtiyat zabit kursuna daxil olub və minaatan tağım komandiri ixtisasını bitirərək leytenant hərbi rütbəsi alıb.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başladığı gün Daşkəsən rayonu istiqamətində aktiv döyüş əməliyyatlarına qatılıb. Daşkəsən rayonu istiqamətində gedən döyüşlərdə 20-yə yaxın şəhidimizin nəşini 10 nəfər döyüş yoldaşları ilə birlikdə döyüş zonasından çıxaran Elsevər oktyabr ayının 1-dən Cəbrayıl, ardınca Hadrut və Xocavənd rayonu uğrunda gedən döyüşlərə qatılır.

Oktyabrın 20-si səhər saatlarında Xocavənd rayonunun Tuğ kəndi istiqamətində gedən döyüşlərdə düşmənin istifadə etdiyi kasetli bomba zərbəsindən Elsevər sağ baldırından çoxqəlpəli sınıq yarası alır. Yaralanmağına baxmayaraq özünü itirməyən leytenant düşmən gülləsi və artilleriya atəşi altında özünə ilk tibbi yardım göstərib və 20-30 metr sürünərək atəş altından çıxmağa müvəffəq olur. Döyüş yoldaşları onu bir neçə kilometr məsafədə atəş altında irəliləyərək ərazidən uzaqlaşdırır, axşam saatlarında Füzuli rayonunda yerləşən hospitala çatdırırlar. Füzuli, Ağcabədi və Bakıda müxtəlif əməliyyatlar keçirən qazimizin hazırda ev şəraitində müalicəsi davam etdirilir və yaxın bir neçə il ərzində ediləcək əməliyyatlarla sağlamlığına tam qovuşa biləcək.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda aparılan döyüşlərdə fərqləndiyinə görə Elsevər Sarvan oğlu Ağayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Hərbi xidmətlərə görə", "İgidliyə görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.



# Ağazadə Ağabəy Ehtiram oğlu (1995)

Ağabəy Ehtiram oğlu Ağazadə 21 yanvar 1995-ci ildə Saatlı şəhərində anadan olub.

2001-ci ildə Saatlı şəhər 2 nömrəli tam orta məktəbin birinci sinifinə daxil olub. 2012-ci ildə orta məktəbi bitirərək Bakı Sənaye Pedaqoji Kollecinin (indiki ADPU nəzdində ADPK) "fiziki tərbiyə" ixtisasına qəbul olunub.

2013-cü ildə təhsilini yarımçıq qoyaraq həqiqi hərbi xidmətə yollanıb. Xidmətini cəbhə bölgəsində yerləşən hərbi hissələrin birində yerinə yetirib. 2014-cü ildə ordu sıralarından tərxis olunub.

Hərbi xidmətini tamamladıqdan sonra təhsilini davam etdirən Ağabəy 2017-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecini bitirib.

2017-ci ildə Müəllimlərin İşə Qəbulu imtahanlarında iştirak edərək Saatlı rayonunun Mollavaizli kənd ümumi orta məktəbində fiziki tərbiyə müəllimi olaraq pedaqoji fəaliyyətə başlayıb.

Ağabəy müəllim 2020-ci ilin sentyabrın 21-i hərbi təlimlərə cəlb edilib. 27 sentyabrda başlayan Vətən müharibəsində kəşfiyyatçı kimi döyüşlərdə iştirak edib. Füzuli istiqamətindən döyüşə başlayan Ağabəy daha sonra Cəbrayıl, Xocavənd və Şuşa istiqamətində gedən savaşlara qatılıb.

Hadrut qəsəbəsində gedən döyüş əməliyyatları zamanı yaralanıb. 6 gün hospitalda müalicə olunduqdan sonra yenidən döyüş meydanına qayıdıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Ağabəy Ehtiram oğlu Ağazadə "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilib.

# Alıyev Anar Yadigar oğlu
# (1993)



Gizir Anar Yadigar oğlu Alıyev 20 aprel 1993-cü ildə Tovuz rayonunun Sarıtala kəndində dünyaya göz açıb.

Orta məktəbi bitirdikdən sonra 2011-2012-ci illərdə həqiqi hərbi xidmətdə olan Anar xidmət müddəti bitdikdən bir müddət sonra yenidən ordu sıralarına qayıdır və həyatını Azərbaycan Ordusu ilə bağlayır.

2013-cü ildən etibarən Dövlət Sərhəd Xidmətində çalışan gizir Anar Alıyev hazırda Azərbaycan sərhədlərinin keşiyində dayanır.

Hərbi qulluqçu olmaqla yanaşı təhsilini davam etdirməyi də vacib sayan Anar 2020-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin Peşə təlimi şöbəsinin “informasiya sistemləri texnologiyaları” ixtisasına qəbul olunur. Hazırda qiyabi əsaslarla həmin şöbənin II tədris ili tələbəsidir.

Anar 44 günlük Vətən müharibəsi zamanı böyük bir döyüş yolu keçmiş, yaralanmış, bir müddət xəstəxanada müalicə aldıqdan sonra yenidən cəbhəyə yollanmışdır. Suqovuşan və Zəngilan istiqamətindəki gərgin döyüşlərdə iştirak edib.

Döyüşdə göstərdiyi şücaətlərə görə qazi Anar Yadigar oğlu Alıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə “Cəsur döyüşçü”, “Zəngilanın azad olunmasına görə” və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif edilmişdir.



# Alıyev Azər Habil oğlu (1989)

Azər Habil oğlu Alıyev 25 noyabr 1989-cu ildə Gədəbəy rayonunun Dördlər kəndində anadan olmuşdur. Orta təhsilini Gədəbəy rayonu Dördlər kənd tam orta məktəbində almışdır.

Orta məktəbi bitirdikdən sonra, 2007-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kimya və biologiya fakültəsinin "Kimya müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2011-ci ildə universitetdən məzun olan Azər həqiqi hərbi xidmətə yollanır. Xidmətini Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə yerinə yetirir.

Hərbi xidmətdən qayıtdıqdan sonra Gədəbəy rayonunun Dördlər kənd tam orta məktəbində kimya müəllimi kimi pedaqoji fəaliyyətə başlamışdır və hal-hazırda da müəllim olaraq fəaliyyətini davam etdirir.

Azər müəllim 2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsində Qazax rayonu istiqamətində gedən döyüşlərdə iştirak etmişdir.

# Alıyev Sənan Rövşən oğlu (1996)



Sənan Rövşən oğlu Alıyev 1996-cı ildə Gədəbəy rayonunun Çalburun kəndində anadan olmuşdur.

2002-ci ildə Çalburun kənd tam orta məktəbinin birinci sinifinə daxil olmuş, 2013-cü ildə həmin məktəbin on birinci sinifini bitirmişdir. Orta məktəbdə oxuduğu illərdə səmimi və mehriban rəftarı, ünsiyyətcilliyi ona rəğbət və hörmət qazandırmışdır.

Orta məktəbi bitirdiyi il ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak edərək yüksək nəticə ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

Məsuliyyətli tələbə hər zaman müəllimlərinin yaddaşında hörmətlə xatırlanır. Sənan da ali məktəb müəllimlərinin yaddaşlarında məhz ciddi, bacarıqlı, istedadlı tələbə kimi qalmışdır.

2017-ci ildə ali məktəbdən məzun olaraq həqiqi hərbi xidmətə yollanmışdır. Hərbi xidmətini Goranboy və Ağcabədi rayonlarında yerləşən "N" saylı hərbi hissədə yerinə yetirmişdir. Hərbi xidmətdə olduğu müddətdə özünü nizam-intizamlı, bacarıqlı bir əsgər kimi göstərmişdir. Nümunəvi davranışına görə valideynlərinə dəfələrlə hərbi hissə rəhbərliyi tərəfindən təşəkkürnamə göndərilmişdir. 2018-ci ildə hərbi xidmətini başa vurmuşdur.

27 sentyabr 2020-ci il tarixində başlanan Vətən müharibəsi və 28 sentyabrda ölkədə qismən səfərbərlik elan edilməsi ilə Sənan da könüllü olaraq cəbhəyə yollanmışdır.

Müharibə zamanı N saylı hərbi hissənin 2-ci artilleriya divizionunda hesablayıcı manqa komandiri kimi Kəlbəcər, Murovdağı istiqamətlərində, Füzuli, Cəbrayıl və Zəngilan, Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmiş, düşmənə qarşı igidliklə döyüşmüşdür.

Azərbaycan Respulikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Sənan Rövşən oğlu Alıyev "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.



## Alyarov Tahir Mikayıl oğlu
## (1996)

Tahir Mikayıl oğlu Alyarov 24 iyul 1996-cı ildə Qəbələr rayonunun Bum qəsəbəsində anadan olmuşdur.

2002-2013-cü illərdə Qəbələ rayonu İkram Umurov adına 2 nömrəli tam orta məktəbdə təhsil almışdır.

2014-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin (Tarix və coğrafiya) "tarix və coğrafiya müəllimliyi" ixtisasına qəbul olunmuşdur. 2019-cu ildə ali təhsilini uğurla başa vurmuşdur.

2019-2020-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

Vətən müharibəsi dövründə 10 oktyabr 2020-ci il tarixindən döyüşlərə qoşulan Tahir müəllim Xocavənd-Hadrut-Şuşa istiqamətində gedən hərbi əməliyyatlarda fəal iştirak etmişdir.

Döyüşlər zamanı minaatan partlayışı nəticəsində kəllə-beyin travması almışdır. Kəlbəcər rayonunun düşmənlərdən təhvil alınmasında iştirak etmişdir.

Vətən müharibəsi qazisi Tahir Alyarov hazırda doğulduğu Qəbələ rayonunun Bum qəsəbəsində yaşayır.

## Aslanov Rəşad Elşad oğlu (2000)




Rəşad Elşad oğlu Aslanov 12 yanvar 2000-ci ildə Şabran rayonunun Gəndov kəndində anadan olmuşdur.

Orta təhsilini Şabran rayonu Gəndov kənd tam orta məktəbində almışdır. Rəşad məktəbdə müəllimləri və şagird yoldaşları tərəfindən sevilən nümunəvi bir şagird olmuşdur.

2017-ci ildə orta məktəbi bitirmiş və Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "fiziki tərbiyə müəllimliyi" ixtisasına qəbul olunmuşdur. Hazırda IV tədris ili tələbəsidir.

2020-ci ilin 27 sentyabr tarixində başlayan Vətən müharibəsi zamanı Rəşad da bütün gənclərimiz kimi könüllü olaraq cəbhəyə yollanır.

Müharibənin qızğın vaxtında, oktyabr ayının 29-da ordu sıralarına daxil olaraq Dövlət Sərhəd Xidmətinin Xudat sərhəd dəstəsinin əsgəri kimi təlimlərdə iştirak etmiş, daha sonra isə 63 gün manqa komandiri vəzifəsində xidmət etmişdir.

Rəşad Elşad oğlu Aslanov müharibədə göstərdiyi qəhrəmanlığına və şücaətinə görə ADPU nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin rəhbərliyi tərəfindən "Fəxri Fərman"la təltif edilmişdir.



## Astanov Saxavət Aqif oğlu
## (1993)

Saxavət Aqif oğlu Astanov 21 may 1993-cü ildə Neftçala rayonunun Abasallı kəndində dünyaya gəlmişdir.

1999-cu ildə Neftçala rayon Həsən Əliyev adına Abasallı kənd tam orta məktəbinin birinci sinifinə qəbul olunmuş, 2010-cu ildə on birinci sinifi bitirərək Azərbaycan Müəllimlər İnstitutunun (AMİ) Salyan Filialının (indiki ADPU) "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

9 oktyabr 2014-cü il tarixində həqiqi hərbi xidmətə çağırılan Saxavət Müdafiə Nazirliyinin Qusar şəhərində yerləşən "N" saylı hərbi hissədə xidmət etmişdir. Hərbi xidmətdə özünü nizam-intizamlı, qorxmaz, fəal əsgər kimi aparmış, xidmətdə olduğu müddətdə hərbi hissənin qərargahı tərəfindən valideynlərinə dəfələrlə təşəkkür məktubu göndərilmişdir.

Həqiqi hərbi xidmətdə olduğu müddətdə 2016-cı ilin Aprel döyüşləri zamanı Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər istiqamətində döyüşlərdə qəhrəmanlıq göstərmişdir. Döyüşlərdə göstərdiyi şücaət və qəhrəmanlığa görə hərbi hissənin qərargahı tərəfindən fəxri fərman və təşəkkürnaməyə layiq görülmüşdür.

17 aprel 2016-cı ildə hərbi xidmətini başa vuraraq yaşadığı Neftçala rayonunun Abasallı kəndinə qayıtmışdır.

Hərbi xidmətdən qayıtdıqdan sonra AMİ Azərbaycan Dövlət Pedaqoji Universitetinə birləşdirildiyindən təhsilini burada davam etdirmişdir.

Ali məktəbdə oxuduğu müddətdə ictimai işlərdə yaxından iştirak etmiş, Filologiya fakültəsinin fəal tələbələrindən biri olmuşdur. Ali məktəbdə 4 il ona dərs deyən f.ü.f.d. Təranə Nağıyeva onun tələbəlik illərini belə xatırlayır: *"Saxavət çox səmimi və mehriban oğlan idi. Ona verilən tapşırıqların öhdəsindən gəlməyə çalışardı. Valideynləri də çox təmiz və sadə insanlar idi. Təhsili ilə yanaşı vətənpərvərliklə bağlı tədbir və konfranslara can atırdı.*

*Dərsini öyrənməyəndə onu danlayardım. Deyərdi: "Müəllim hər kəs yaxşı oxuya bilməz ki, amma hər kəs yaxşı insan olmalıdır". Bu gün onun dediklərini düşünəndə haqlı olduğunu görürəm. O, doğurdan da, vətənə, xalqa, millətə yaxşı oğuldur. Dünən dərslə bağlı danladığım tələbəm bu gün təkcə mənim deyil, bütün Azərbaycanın qürur duyduğu qəhrəmandır."*

2020-ci ilin sentyabrında Vətən müharibəsi başlanarkən Saxavət də könüllü olaraq SHXÇDX-nin Neftçala rayon şöbəsinə müraciət etmiş və onun istəyi nəzərə alınaraq sentyabrın 30-da döyüş bölgəsinə yola salınmışdır.

Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın uğrunda gedən döyüşlərdə şücaət göstərmiş, düşmənə qarşı əks-hücumda qəhrəmanlıq nümayiş etdirmişdir.

27 oktyabr 2020-ci il tarixində Qubadlının Sarı Yataq kəndi istiqamətində gedən döyüşlərdə sol döş qəfəsini dəlib keçən odlu silahla (snayperlə) vurulmuş, hərbi hospitalda müalicə olunduqdan sonra ehtiyyata buraxılmışdır.

Azərbaycan Respulikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Saxavət Aqif oğlu Astanov "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.



## Atamoğlanov Elşən Şahlar oğlu (1997)

Elşən Şahlar oğlu Atamoğlanov 23 mart 1997-ci ildə Hacıqabul rayonunda anadan olmuşdur.

Orta məktəbə 2003-cü ildə getmişdir. Oxuduğu illərdə məktəbin fəal şagirdlərindən olmuş və musiqi olimpiadalarında nailiyyətləri ilə fərqlənmişdir.

2012-ci ildə Bakı Texniki Kollecində "yol hərəkətinin təşkili" ixtisası üzrə təhsil almışdır.

2016-cı ildə kollecdən müvəffəqiyyətlə məzun olmuş və həmin ildə də Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsil fakültəsinin "təhsildə sosial psixoloji xidmət" ixtisasına qəbul olunmuşdur. Universitet illərində fəal tələbələrdən biri olmuş, müxtəlif tədbirlərdə iştirak etmişdir.

2020-ci ildə ali təhsilini bitirərək Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinə həqiqi hərbi xidmətə yollanmışdır. Vətən müharibəsinə oktyabr ayının 3-də qatılaraq Füzuli, Cəbrayıl və Xocavənd rayonları uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir.

Elşən Şahlar oğlu Atamoğlanov torpaqlarımızın azad olunmasında göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Laçının azad olunmasına görə" medalı ilə təltif edilib.

Hazırda hərbi xidmətini Laçın rayonunda davam etdirir.

# Aydınlı Əziz Yaşar oğlu (1998)



Əziz Yaşar oğlu Aydınlı 4 may 1998-ci il tarixində Ağdaş şəhərində dünyaya gəlib.

Orta məktəbi tamamladıqdan sonra 2015-ci ildə ali məktəblərə qəbul imtahanlarında iştirak edərək 368 bal toplayıb və ödənişli əsaslarla Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya və ÇQH fakültəsinin (Tarix və coğrafiya) "coğrafiya müəllimliyi" ixtisasına daxil olub. 2019-cu ildə ali təhsilini müvəffəqiyyətlə tamamlayıb.

Magistraturaya qəbul olunsa da, təhsilini yarımçıq saxlayaraq həqiqi hərbi xidmətə yollanıb.

Xüsusi Təyinatlı Qüvvələrin tərkibində xidmət edən Əziz 2020-ci ilin sentyabr ayının 27-dən etibarən Vətən müharibəsinin sonuna qədər döyüşlərdə könüllü iştirak edib. Döyüş yolu Kəlbəcər, Cəbrayıl, Füzuli, Xocavənd və Şuşa istiqamətlərindən keçib.

Əziz Yaşar oğlu Aydınlı torpaqlarımızın azad olunmasında göstərdiyi igidliyə və nümunəvi xidmətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.



## Babayev Rail Fazil oğlu (1977)

Baş leytenant Rail Fazil oğlu Babayev 1977-ci ildə Füzuli rayonunun Yuxarı Seyidəhmədli kəndində anadan olub.

1983-cü ildə Yuxarı Seyidəhmədli kənd tam orta məktəbinin birinci sinifinə daxil olub. 1993-cü ildə rayonları ermənilər tərəfindən işğal olunduğuna görə orta təhsilini Bakı şəhəri Yasamal rayonunda yerləşən 5 saylı orta məktəbdə davam etdirib.

1995-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Hərbi və fiziki hazırlıq fakültəsinə (İncəsənət və fiziki tərbiyə) daxil olub. 1999-cu ildə universitetdən məzun olub.

21 sentyabr 2020-ci ildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Füzuli rayon şöbəsi tərəfindən təlimlərə çağırılıb. Vətən müharibəsinə qatılan Rail müəllim 27 sentyabrdan etibarən Füzuli rayonunun Alıxanlı kəndi istiqamətindən döyüşə başlayıb. Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətindən başlayaraq Qubadlı, Hadrut, Tuğ və başqa istiqamətlərdə düşmənlərin vətənimizindən çıxarılmasında mərdliklə vuruşaraq Şuşa şəhərinin düşmənlərdən azad edilməsi əməliyyatlarında da iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Rail Fazil oğlu Babayev "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Hal-hazırda ADPU-nun Riyaziyyat fakültəsinin "İnformatika müəllimliyi" ixtisasında təhsilini davam etdirir.

Ailəlidir, 3 qızı var.

# Babayev Murad Nadir oğlu (1999)



Murad Nadir oğlu Babayev 1999-cu ildə Astara rayonunun Kijəbə qəsəbəsində anadan olub.

2005-ci ildə N.Həsənov adına Kijəbə qəsəbə tam orta məktəbinin birinci sinifinə daxil olub. 2016-cı ildə orta məktəbi bitirib və elə həmin il Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat və informatika fakültəsinin "riyaziyyat müəllimliyi" ixtisasına qəbul olunub.

2020-ci ildə universitetdən məzun olduqdan sonra həqiqi hərbi xidmətə yollanıb.

44 günlük Vətən müharibəsində Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissənin tərkibində ön cəbhədə müharibəyə qatılıb.

Murad Nadir oğlu Babayev döyüşlərdə göstərdiyi şücaətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunub.



## Babayev Zahir Tahar oğlu (1971)

Baş leytenant Zahir Tahar oğlu Babayev 16 iyun 1971-ci ildə Gədəbəy rayonunun Şahdağ (Sovetabad) kəndində anadan olmuşdur.

Orta təhsilini Maarif Əsgərov adına Şahdağ kənd tam orta məktəbində alan Zahir 1992-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai hərbi hazırlıq və fiziki tərbiyə fakültəsinə (İncəsənət və fiziki tərbiyə) daxil olmuşdur.

Universitetdən məzun olduqdan sonar hərbi xidmətə yollanan Zahir 1996-cı ildə baş leytenant rütbəsi almışdır (əvvəl komandir vəzifəsində xidmət edib).

2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsi zamanı əmisi oğlu gizir Babayev Nazir Xıdır oğlu ilə birlikdə könüllü olaraq cəbhəyə yollanmışdır.

Zahir müəllim Tovuz rayonu istiqamətində gedən döyüşlərdə iştirak etmişlər.

## Babayev Elnur Hüseynoviç (1998)



Elnur Hüseynoviç Babayev 1998-ci ildə Rusiya Federasiyasının Saratov vilayətində anadan olmuşdur.

Ailəsi 2007-ci ildə Azərbaycana, Sumqayıt şəhərinə köçmüş və Elnur burada təhsil almağa başlamışdır.

Elnur 2016-cı ildə orta məktəbi bitirərək Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat və informatika fakültəsinin (Riyaziyyat) "riyaziyyat müəllimliyi" ixtisasına daxil olmuşdur.

2020-ci ildə ali məktəbi bitirdikdən sonra həmin ilin iyul ayının 2-də həqiqi hərbi xidmətə yollanmışdır. O, müddətli həqiqi hərbi xidmətdə olan qardaşı Babayev Pərvinlə birgə xidmət edirdi.

Sentyabr ayının 27-si Vətən müharibəsi başlayan zaman iki qardaş ayrı istiqamətlərdən döyüşlərə qatılıblar.

Elnurun qardaşı Pərvin oktyabr ayının 5-i şəhidlik zirvəsinə ucalıb və həmin ayın 7-si Sumqayıt şəhər Şəhidlər xiyabanında dəfn edilib.

Qardaşının şəhid olmasından xəbərsiz olan Elnur döyüşdə olduğu vaxt ona dəfn mərasimində iştirak etmək üçün icazə verilir. O, qardaşının dəfnində iştirak etdikdən sonra yenidən müharibəyə yollanır. Döyüşlərdə manqa komandiri vəzifəsini icra etmişdir.

Elnur Hüseynoviç Babayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən göstərdiyi cəsarət və igidliyə görə "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



# Baxışlı Zəka Aqil oğlu
# (1992)

Leytenant Zəka Aqil oğlu Baxışlı 23 iyul 1992-ci ildə Oğuz rayonunun Xaçmaz kəndində anadan olub.

2000-ci ildə Xaçmaz kənd Mirzə Fətəli Axundzadə adına tam orta məktəbə daxil olub. 2011-ci ildə həmin məktəbi bitirərək Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki Filialının (keçmiş AMİ-nin Şəki Filialı) Psixologiya fakültəsinə qəbul olunub.

2015-ci ildə universitetdən məzun olub və 2015-2016-cı illərdə "N" saylı hərbi hissədə vətənə borcunu yerinə yetirib.

Zəka müəllim 2016-2019-cu illərdə Oğuz rayonu Xaçmaz kənd Zülfiqar Abışov adına məktəbdə psixoloq vəzifəsində çalışıb.

2019-cu ilin aprel ayında Müdafiə NazirliyininTəlim-tədris Mərkəzində kurs keçərək iyul ayının 12-dən zabit kimi yenidən ordu sıralarına qayıdıb. Hal-hazırda "N" saylı hərbi hissədə xidmətini davam etdirir.

Vətən müharibəsində 2020-ci ilin sentyabr ayının 27-dən etibarən Füzuli, Xocavənd və Şuşa uğrunda gedən döyüşlərdə iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Zəka Aqil oğlu Baxışlı "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Baxşəliyev Nadir Elçin oğlu (1998)



Nadir Elçin oğlu Baxşəliyev 1 yanvar 1998-ci ildə Saatlı rayonunun Mircəlal kəndində anadan olmuşdur.

2013-cü ildə T.İsmayılov adına Mircəlal kənd tam orta məktəbini əla və yaxşı qiymətlərlə bitirmiş və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialı) "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2016/2017-ci tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə, ictimai işlərdə fəal olmuşdur.

Vətən müharibəsində iştirak edərək torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir.



# Bayraməliyev Şirxan İzzət oğlu (2001)

Şirxan İzzət oğlu Bayraməliyev 2001-ci ilin yanvar ayının 9-da Oğuz rayonunun Bayan kəndində anadan olmuşdur.

2019-cu ildə orta məktəbi bitirərək Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "fiziki tərbiyə müəllimliyi" ixtisasına qəbul olunmuşdur. Hazırda III tədris ilinin tələbəsidir.

Şirxan təhsilini dondurараq 16 yanvar 2020-ci ildə həqiqi hərbi xidmətə yollanmışdır. Xidmətinə Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissədə başlamış, 2 ay sonra xidmətini Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə davam etdirmişdir.

Şirxan 2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsində Cəbrayıl, Qubadlı və Laçın rayonları istiqamətində gedən döyüşlərdə "Faqot" tank əleyhinə idarə olunan raket kompleksi bölüyündə operator heyət nəfəri vəzifəsində xidmət etmişdir.

Şirxan İzzət oğlu Bayraməliyev döyüşlərdə göstərdiyi qəhrəmanlığına və şücaətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə, həmçinin Azərbaycan Dövlət Pedaqoji Kollecinin rəhbərliyi tərəfindən "Fəxri Fərman"la təltif edilmişdir.



## Bədəlov Novruz Bəylər oğlu
## (1996)

Novruz Bəylər oğlu Bədəlov 13 mart 1996-cı il tarixində Masallı rayonunun Viləş kəndində dünyaya gəlib.

Viləş kənd tam orta məktəbində təhsil alan Novruz məktəbi bitirdikdən sonra 2013-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin Peşə təlimi şöbəsinin "yol hərəkətinin təşkili" ixtisasına qəbul olunub. 2017-ci ildə həmin ixtisasdan məzun olub. Təhsil aldığı müddətdə fəallığı və ünsiyyətcilliyi ilə seçilib.

22 iyul 2019-cu ildə həqiqi hərbi xidmətə yollanıb.

Hərbi xidmətdə olduğu dövrdə Vətən müharibəsinin ilk günlərindən torpaqlarımızın azad olunması uğrunda döyüşlərdə iştirak edib. Zəngilan, Cəbrayıl və Qubadlı rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərib.

2021-ci ilin iyun ayında ordu sıralardan tərxis olunub.

Novruz Bəylər oğlu Bədəlov Vətən müharibəsindəki şücaətinə görə Azərbaycan Dövlət Pedaqoji Kollecinin rəhbərliyi tərəfindən "Fəxri Fərman"la təltif olunub.



# Beydullayev Vurğun Ərzuman oğlu (1998)

Vurğun Ərzuman oğlu Beydullayev 22 iyun 1998-cı ildə Quba rayonunun Xaltan kəndində anadan olmuşdur.

2015-ci ildə Xaltan kənd tam orta məktəbini əla qiymətlərlə bitirmiş və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialı) “tarix və coğrafiya müəllimliyi” ixtisasına qəbul olunmuşdur.

2019/2020-ci tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək universitetdən məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə, ictimai işlərdə fəallıq göstərmişdir.

Vurğun Beydullayev Vətən müharibəsində iştirak edərək torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir.

## Cabbarlı İlham Ramiz oğlu
## (1999)



İlham Ramiz oğlu Cabbarlı 1999-cu ilin fevral ayının 9-da İsmayıllı rayonunda anadan olmuşdur.

2005-ci ildə Laçın rayon Pirdinar kənd tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur.

Orta təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunmuşdur. Universitet illərində istər elmi-pedaqoji həyatında, istərsə də ictimai fəaliyyətlərində yüksək göstəriciləri ilə fərqlənmişdir. Onlarla layihə və tədbirlərin ərsəyə gəlməsində yaxından iştirak etmişdir.

2020-ci ildə ali təhsilini müvəffəqiyyətlə tamamladıqdan sonra Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Laçın rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılan İlham həmin ilin 7 iyul tarixində xidmətə yollanmışdır.

Xidmətinə Kürdəxanıda yerləşən hərbi hissədə başlasa da, Vətən müharibəsi zamanı Hadrut rayonuna yollanmışdır. Oktyabr ayının ilk günlərini Hadrutda keçirən İlham və döyüş yoldaşları, daha sonra Səngəçal ərazisinə yollanmışdır. Hərbi Hava Qüvvələrində xidmət etdiyi üçün İlhamın 44 günlük müharibə dövründə ən mühüm vəzifəsi Səngəçal ərazisində yerləşən terminalların hava hücümundan müdafiəsi və mühafizəsi idi. O, bu şərəfli vəzifəsini 4 ay boyunca davam etdirmişdir.



# Cahangirov Məmmədağa Yusif oğlu (1992)

Baş leytenant Məmmədağa Yusif oğlu Cahangirov 22 dekabr 1992-ci ildə Quba rayonunun Alpan kəndində anadan olmuşdur. 2010-cu ildə Alpan kənd E.Bayramov adına tam orta məktəbini əla və yaxşı qiymətlərlə bitirmişdir.

Həmin il Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialı) "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2013/2014-cü tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir.

Ümumrayon və filialdaxili tədbirlərdə, ictimai işlərdə fəal olmuşdur.

Vətən müharibəsində iştirak edərək torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir.

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən cəsarət və fədakarlıq göstərdiyinə görə Məmmədağa Yusif oğlu Cahangirov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Döyüşdə fərqlənməyə görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Məmmədağa Vətən müharibəsinin qazisidir.

# Cahangirov Vüsal Cahangir oğlu (1999)



Vüsal Cahangir oğlu Cahangirov 12 yanvar 1999-cu il tarixində Bakı şəhərində anadan olmuşdur.

Tam orta təhsilinu Bakı şəhəri 132-134 nömrəli təhsil kompleksində almışdır.

Orta təhsilini başa vurduqdan sonra 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinə qəbul olunmuşdur. Vüsal ali təhsil aldığı illərdə universitetin ən fəal tələbələrindən biri kimi ictimai həyatda xüsusilə fərqlənmişdir.

İctimai fəaliyyəti ilə hər zaman fərqlənən Vüsal Tələbə Gənclər Təşkilatının Debat klubuna rəhbərlik etmişdir.

2019-cu ildən isə ADPU YAP Gənclər Birliyinin Natiqlik klubunun sədri olmuşdur.

2020 ci ildə Azərbaycan Dövlət Pedoqoji Universitetindən məzun olan Vüsal 3 iyun tarixində hərbi xidmətə yola düşüb. Vüsal Cahangirov hərbi xidmətə Füzuli rayonunda başlamışdır.

Vətən müharibəsinin başlanması və rəşadətli ordumuzun Cəbrayıl şəhərini azad etməsindən sonra o, Cəbrayılda xidmətini davam etdirib. Bir müddət sonra təkrar Füzuli rayonuna qayıdan gənc əsgər Zəngilan rayonu azad ediləndən sonra Zəngilana hərbi xidmətə göndərilib.

Döyüşlərdə fərqləndiyinə görə Vüsal Cahangir oğlu Cahangirov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Vüsal Cahangirov hazırda Zəngilan rayonunda sərhədçi kimi öz xidməti vəzifəsini şərəflə yerinə yetirir.



## Cavadlı Gəray Xanlar oğlu (1992)

Gəray Xanlar oğlu Cavadlı 15 avqust 1992-ci ildə Beyləqan rayonunun Dünyamalılar kəndində anadan olmuşdur. 2009-cu ildə Beyləqan rayonu R.Ağamalıyev adına Soltanbud kənd tam orta məktəbini bitirmişdir.

Elə həmin il Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialı) "tarix və coğrafiya müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2012/2013-cü tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək universitetdən məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə, ictimai işlərdə fəal olmuşdur.

Vətən müharibəsində iştirak edərək torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir.

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirərkən cəsarət və fədakarlıq göstərdiyinə görə Gəray Xanlar oğlu Cavadlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

## Cavadzadə Təbriz Şərif oğlu (1995)



Təbriz Şərif oğlu Cavadzadə 1995-ci il oktyabr ayının 22-də Qax rayonunun Marsan kəndində anadan olmuşdur. 2002-2013-cü illərdə Qax rayonunun Marsan kənd tam orta məktəbində təhsil almışdır.

2013-cü ildə təhsilini başa vuraraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin indiki Tarix və coğrafiya fakültəsinə qəbul olunub.

Təhsilini uğurla başa vuran Təbriz daha sonra müəllim kimi fəaliyyət göstərib.

2020-ci ilin 27 sentyabrında 44 günlük Vətən müharibəsində döyüşlər başlanandan 2 gün sonra Təbriz müəllim könüllü olaraq hərbi xidmətə yollanmış və döyüşlərdə iştirak etmişdir.

T.Cavadzadə Murovdağ istiqamətində və Kəlbəcər uğrunda gedən qanlı döyüşlərdə iştirak edib. Təbriz və silah yoldaşları Şuşa döyüşlərində də şücaət göstəriblər.

Şuşanın azad olunması zamanı qrad mərmisinin yaxınlığına düşməsi nəticəsində dərəyə yuvarlanan Təbriz hərbi travma alıb və sol qulağında eşitmə qüsuru yaranıb. Hazırda qazi müəllimin müalicəsi davam edir. Şuşada postda silahdalarını tək qoyub getməyə razı olmayan Təbriz müəllim yalnız 24 gün sonra hospitala yerləşdirilib. Buna görə də aldığı travmada qalıcılıq yaranıb.

Göstərdiyi şücaətə görə Təbriz Şərif oğlu Cavadzadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Şuşanın azad olunmasına görə" medalı ilə təltif olunub.



# Cəbrayılov Namiq Vaqif oğlu (1980)

Baş leytenant Namiq Vaqif oglu Cəbrayılov 27 sentyabr 1980-cı ildə Bakı şəhərində anadan olmuşdur.

1986-1996-cı illərdə 183 nömrəli orta məktəbdə tam orta təhsil almışdır.

1997-ci ildə Nəsrəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin (indiki ADPU) İlkin hərbi və fiziki təlim (İncəsənət və fiziki tərbiyə) fakültəsinə qəbul olunub.

Universitetdən məzun olandan sonra, 2003-2005-ci illərdə ön xəttdə yerləşən 157 saylı hərbi hissədə tağım komandiri kimi qulluq etmiş, 2005-ci ildə baş leytenant rütbəsilə ehtiyyata buraxılmışdır.

2005-ci ildən Süleyman Rüstəm adına xarici dillər təmayüllü gimnaziyada fiziki tərbiyə müəllimi vəzifəsində çalışır.

Ehtiyyatda olan zabit kimi Namiq Cəbrayılov könüllü olaraq Vətən müharibəsi zamanı gərgin döyüşlərdə fəal iştirak etmiş, torpaqlarımızın azad olunmasında xüsusi şücaət göstərmişdir.

Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə baş leytenant Namiq Vaqif oğlu Cəbrayılov “Laçının azad olunmasına görə” medalı ilə təltif edilmişdir.

## Cəfərli Vüsal Yasin oğlu
## (2000)



Vüsal Yasin oğlu Cəfərli 28 iyun 2000-ci il tarixində Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Tənnət kəndində anadan olub.

Birinci və ikinci sinifləri Tənnət kənd məktəbində təhsil alan Vüsal sonra təhsilini Ordubad rayonunda davam etdirib.

2017-ci ildə orta təhsilini tamamlayaraq Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "fiziki tərbiyə müəllimliyi" ixtisasına qəbul olunub. Hazırda IV tədris ilinin tələbəsidir.

2018-2019-cu illərdə təhsilini donduraraq həqiqi hərbi xidmət keçib.

2020-ci ilin 44 günlük Vətən müharibəsinə Naxçıvan Muxtar Respublikasından qatılan Vüsal Yasin oğlu Cəfərli yüksək döyüş hazırlığı nümayiş etdirmiş, cəsarətlə savaşmışdır.



## Cəfərov Aslan İlham oğlu
## (1999)

Aslan İlham oğlu Cəfərov 6 avqust 1999-cu ildə Bakı şəhərində anadan olmuşdur.

2005-ci ildə Bakı şəhəri 1 nömrəli Humanitar liseyin birinci sinifinə daxil olmuşdur.

Orta məktəbi bitirdikdən sonra 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin "tarix müəllimliyi" ixtisasına qəbul olmuşdur. 2020-ci ildə ali təhsilini başa vurub.

2020-ci ilin iyulunda həqiqi hərbi xidmətə yollanıb. Hərbi xidmət dövrü Vətən müharibəsinə təsadüf edən Aslan aktiv hərbi əməliyyatlarda iştirak edir.

Döyüşlərdə fərqləndiyinə görə Aslan İlham oğlu Cəfərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilib.

## Cəfərov Elşən Balaşirin oğlu (1976)



Baş leytenant Elşən Balaşirin oğlu Cəfərov 2 avqust 1976-cı ildə Cəlilabad rayonunda anadan olub.

1994-cü ildə N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin Hərbi hazırlıq və fiziki tərbiyə fakültəsinə (İncəsənət və fikizi tərbiyə) daxil olub və 1999-cu ildə universitetdən məzun olub.

1999-cu ildə müəllim olaraq pedaqoji fəaliyyətə başlayan Elşən 2002-2004-cü illərdə həqiqi hərbi xidmətdə olub. 2004-cü ildən etibarən yenidən müəllim işləyir.

2020-ci ilin sentyabr ayının 28-dən Vətən müharibəsinə qatılıb. 44 günlük savaşda Cəbrayıl və Qubadlı uğrundakı döyüşlərdə fərqləndiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə baş leytenant Elşən Balaşirin oğlu Cəfərov "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Elşən Cəfərov hazırda Bakı şəhəri 278 nömrəli tam orta məktəbdə fiziki tərbiyə fənn müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirir.



## Cəfərov Fərman Mustafa oğlu (1993)

Fərman Mustafa oğlu Cəfərov 1 mart 1993-cü il tarixində Saatlı rayonunun Orta Muğan kəndində anadan olmuşdur.

1999-cu ildə Orta Muğan kənd məktəbinin birinci sinifinə qəbul olunmuşdur.

2010-cu ildə həmin məktəbi bitirdikdən sonra, 2011-2012-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

2015-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin "coğrafiya müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2016- ci ildə Aprel döyüşlərində iştirak etmişdir.

2020-ci ilin oktyabr ayının 9-da Vətən müharibəsinə qatılaraq torpaqlarımızın işğqaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda iştirak etmişdir.

# Cəfərov Rəhman İlqar oğlu
# (1998)



Rəhman İlqar oğlu Cəfərov 6 avqust 1998-ci ildə Tovuz rayonunda anadan olmuşdur.

2005-ci ildə Eyvaz Bayramov adına Əyyublu kənd tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. Rəhman məktəbdə nümunəvi bir şagird olmuşdur.

2013-cü ildə IX sinifi bitirdikdən sonra Bakı Sənaye Pedaqoji Kollecinin (indiki ADPU nəzdində ADPK) "yol hərəkətinin təşkili" ixtisasına qəbul olunmuşdur. Rəhman kollecdə aktiv bir tələbə olmuş, həmçinin kollecin Tələbə Gənclər Təşkilatının sədri kimi bir çox tədbirlərdə yaxından iştirak etmiş, dəfələrlə diplom və sertifikatla təltif olunmuş, eyni zamanda 2016-cı ildə "İlin ən aktiv tələbəsi" seçilmişdir.

Kollecdən məzun olduqdan sonra 2017-ci ilin iyul ayında həqiqi hərbi xidmətə yollanan Rəhman xidmətinə Ağdam rayonunda başlamış və 2019-cu ilin yanvar ayında xidmətini başa vurmuşdur.

Rəhman 2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Xocavənd rayonundan Şuşa istiqamətinə qədər gedən döyüşlərdə şücaət göstərmiş, eyni zamanda Qubadlı və Cəbrayıl rayonlarının müdafiəsində də yaxından iştirak etmişdir.

Azərbaycan Respublikasının Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Rəhman İlqar oğlu Cəfərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.



## Dadaşov Ağadadaş Emin oğlu (1994)

Kiçik çavuş Ağadadaş Emin oğlu Dadaşov 1994-cü ilin yanvar ayının 27-də Quba rayonun Alpan kəndində anadan olub. 2000-ci ildə Elşad Bayramov adına Alpan kənd tam orta məktəbinin birinci sinifinə daxil olub.

Orta məktəbi müvəffəqiyyətlə bitirərək 2011-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya və çağırışaqədər hazırlıq fakültəsinin (Tarix və coğrafiya) "Coğrafiya müəllimliyi" ixtisasına qəbul olunub. 2015-ci ildə universitetdən məzun olaraq həqiqi hərbi xidmətə yollanır. Goranboy rayonunun Tapqaraqoyunlu kəndində motoatıcı manqa komandiri kimi xidmət edən Ağadadaş 2016-cı ilin Aprel döyüşlərində ön cəbhədə vuruşaraq xüsusilə Tərtər rayonunun Talış kəndi istiqamətində gedən döyüşlərdə fəal iştirak edib.

2016-cı ilin iyul ayında ordudan tərxis olunur. Həmin il Müəllimlərin İşə Qəbulu üzrə müsabiqədə iştirak edərək Qubanın rayon mərkəzindən 70 km məsafədə yerləşən ucqar (dəniz səviyyəsindən 1200 m yüksəklikdə) dağ kəndi olan Xaltan kəndində Teymur Şahbazov adına Xaltan kənd tam orta məktəbində coğrafiya müəllimi olaraq pedaqoji fəaliyyətə başlayır. 3 il bu kənddə fəaliyyətini davam etdirir, sonra ailə vəziyyətini nəzərə alaraq Müəllimlərin İş Yerinin Dəyişdirilməsi müsabiqəsindən uğurla keçərək Elşad Bayramov adına Alpan kənd tam orta məktəbində pedaqoji fəaliyyətini davam etdirir.

Vətən müharibəsi zamanı (14 oktyabr 2020-ci ildən etibarən) Ağadadaş müəllim könüllü olaraq cəbhəyə yollanır və döyüşlərdə snayper tağım komandiri vəzifəsini icra edir. Xocavənd, Cəbrayıl, Füzuli istiqamətlərində gedən döyüşlərdə iştirak edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Ağadadaş Emin oğlu Dadaşov "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub. Komandanlıq tərəfindən ailəsinə "Təşəkkür məktubu" göndərilib.

## Dünyamalıyev Röyal Adil oğlu (1992)



Baş gizir Röyal Adil oğlu Dünyamalıyev 22 sentyabr 1992-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur.

2000-ci ildə Sumqayıt şəhəri 18 nömrəli tam orta məktəbin birinci sinifinə daxil olmuşdur.

2011-ci ildə orta məktəbi bitirərək Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya və GÇH fakültəsinin (İncəsənət və fiziki tərbiyə) "idman müəllimliyi" ixtisasına qəbul olunmuş və 2015-ci ildə ali təhsil müəssisəsindən məzun olmuşdur. Ali təhsil aldığı müddətdə müxtəlif yarışlarda iştirak edərək uğur qazanmışdır. (4 dəfə universitetlərarası cüdo idman növü üzrə)

Həmçinin Cüdo və sambo idman növü üzrə bir çox nailiyyətləri olmuşdur. Sambo üzrə yeniyetmələr arasında Avropa çempionu, dünya ikincisi, dəfələrlə respublika çempionu, Dünya və Avropa, həmçinin Azərbaycan kubokunun sahibi olmuşdur.

Röyal bir sərhədçi kimi 2020-ci ildə Vətən müharibəsi ərəfəsində hərbi təlimlərə qatılıb. Savaş başlayanda Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin Xüsusi Təyinatlı Qoşunlarının Çevik Hərəkət Dəstəsinin tərkibində Daşkəsən istiqamətində döyüşlərə qoşulmuş, daha sonra Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Laçın istiqamətlərində mərdliklə döyüşmüş, güllə və qəlpə yarası almışdır.

Dünyamalıyev Röyal Adil oğlu 44 günlük Vətən müharibəsi zamanı döyüşlərdə xüsusi şücaət göstərmişdir.

Döyüşdə fərqləndiyinə görə Royal Adil oğlu Dünyamalıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib.



## Əhədli Xəlil Mirzəbala oğlu
## (1996)

Xəlil Mirzəbala oğlu Əhədli 1996-cı ilin fevral ayının 1-də Yardımlı rayonunun Vərgədüz kəndində anadan olub.

Hazırda Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "fiziki tərbiyə müəllimliyi" ixtisasının IV tədris ili tələbəsidir.

Vətən müharibəsində Beyləqan rayonu istiqamətində döyüşlərdə iştirak edib.

Xəlil Mirzəbala oğlu Əhədli döyüşlərdə iştirak edərək şəxsi igidlik və şücaət göstərmişdir.

# Əhmədov İsmət Kamal oğlu (1996)



İsmət Kamal oğlu Əhmədov 17 noyabr 1996-cı ildə Quba rayonunun Xınalıq kəndində anadan olmuşdur.

2014-ci ildə Xınalıq kənd internat məktəbini bitirərək Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialı) "təhsildə sosial-psixoloji xidmət" ixtisasına qəbul olunmuşdur.

2017/2018-ci tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək ali təhsilini tamamlamışdır.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir.

Ümumrayon və filialdaxili tədbirlərdə, ictimai işlərdə fəal olmuşdur.

Vətən müharibəsində iştirak edərək torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə İsmət Kamal oğlu Əhmədov göstərdiyi cəsarətə görə "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.



# Əhmədov Orxan İbadət oğlu (1994)

Orxan İbadət oğlu Əhmədov 1994-cü ilin yanvar ayının 1-də Bərdə şəhərində anadan olmuşdur. 2000-ci ildə Laçın rayonu Bozlu kənd 11 saylı tam orta məktəbinin birinci sinifinə getmişdir.

Orta məktəbi bitirdikdən sonra 2011-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin (Tarix və coğrafiya) "tarix müəllimliyi" ixtisasına qəbul olunan Orxan 2015-ci ildə ali təhsilini müvəffəqiyyətlə tamamlayıb.

2015-2016-cı illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

21 sentyabr 2020-ci ildə ordu sıralarına qatılan Orxan Əhmədov Vətən müharibəsi başladığı gündən etibarən Füzuli-Cəbrayıl rayonları istiqamətində gedən aktiv döyüş əməliyyatlarına qatılmış, döyüşlərdə xüsusi şücaət göstərmişdir. O, 31 dekabr 2020-ci ildə zəfərdən sonra ordudan tərxis olunmuşdur.

Torpaqlarımızın azad olunması uğrundakı döyüşlərdə fərqləndiyinə görə Orxan İbadət oğlu Əhmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

## Əhmədsoy Atilla Əhməd oğlu (1994)



Əslən Cəbrayıl rayonun Şahvəli kəndindən olan Atilla Əhməd oğlu Əhmədsoy 18 fevral 1994-cü ildə Sabirabad rayonunda anadan olmuşdur. 2000-ci ildə Cəbrayıl rayonunun 11 saylı tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. Məktəbdə müəllimləri və şagird yoldaşları tərəfindən sevilən bir şagird olmuş, yarış və tədbirlərdə yaxından iştirak edərək bir neçə dəfə fəxri fərmanlarla təltif olunmuşdur.

Atilla 2011-ci ildə məktəbi yüksək qiymətlərlə bitirərək Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin "tarix müəllimliyi" ixtisasına qəbul olunmuşdur. Universitetin ictimai həyatında da fəal iştirak edərək Tələbə Həmkarlar İttifaqı Komitəsinin fakültə nümayəndəsi, Tarix fakültəsinin Elmi Şura üzvü, Tələbə Gənclər Təşkilatının qrup nümayəndəsi olmuşdur. Təhsil müddətində dəfələrlə diplom və sertifikatla təltif edilmişdir.

2015-ci ildə ADPU-dan məzun olduqdan sonra həqiqi hərbi xidmətə çağırılmış və xidməti vəzifəsini maddi-texniki təminat tağımında mexanik olaraq icra etmişdir. 2016-cı ildə Aprel döyüşləri başlayan zaman Tərtər rayonu istiqamətində döyüşlərə qatılmışdır.

2016-cı ildə xidmətini tamamlayaraq tarix müəllimi kimi pedaqoji mühitə atılan Atilla hazırda da müəllim kimi fəaliyyət göstərir.

2019-cu ildə qəbul imtahanlarında iştirak edərək Naxçıvan Dövlət Universitetinin Hüquq fakültəsinə daxil olmuşdur. Hazırda həmin universitetin II kursunda təhsil alır.

Atilla müəllim 2020-ci ildə iyul döyüşləri zamanı orduya qatılmaq üçün müdafiə nazirinə məktubla, digər qurumlara isə elektron formada müraciət etmiş və 2020-ci ilin oktyabr ayının 16-da Vətən müharibəsində iştirak etmək üçün orduya çağırılmışdır. Ağcəbədi rayonu istiqamətindən başlayaraq döyüşlərdə iştirak etmiş və eyni zamanda müəyyən müddət ərzində tağım komandiri olmuşdur.



## Əkbərov Muxtar Azad oğlu (1998)

Muxtar Azad oğlu Əkbərov 1998-ci il may ayının 29-da Cəlilabad rayonunun Privolnoye kəndində anadan olmuşdur. Orta məktəbi burada bitirmişdir.

2015-ci ildə Azərbaycan Dövlət Pedaqoji Univetsitetinin Tarix və coğrafiya fakültəsinə qəbul olunmuşdur. Tələbəlik illərində universitetin "İstiqlal" intellektual klubunda fəal iştirak etmiş və dəfələrlə mükafatlara layiq görülmüşdür.

2019-cu ildə universiteti bitirib hərbi xidmətə yollanmışdır. 2019-2020-ci illərdə Azərbaycan Ordusunun Quru Qoşunlarının "N" saylı hərbi hissəsində xidmət etmişdir.

20 iyul 2020-ci il tarixində həqiqi hərbi xidməti başa vurduqdan sonra ehtiyyata buraxılmış, tərxis olunduqdan qısa müddət sonra İyul döyüşləri ilə əlaqədar səfərbərlik xidmətinə könüllü kimi müraciət etmişdir. 21 sentyabr 2020-ci ildə könüllü olaraq təlimlərə qatılmışdır.

Vətən müharibəsi başlananda cəbhəyə yollanan Muxtar Füzuli, Cəbrayıl istiqamətində gedən ağır döyüşlərdə iştirak edib. Oktyabrın 12-də axşam saatlarında Hadrutda yaralanıb. Mətbuata verdiyi müsahibədə baş verənləri belə xatırlayır: *"Oktyabrın 6-dək Füzuli istiqamətində döyüşdük. Sonra Xocavənd istiqamətinə keçdik. Axşam təxminən saat 6 olardı. Qarşıda hərəkət müşahidə elədik. Döyüşçü yoldaşım ilə bərabər getdik ki, nə baş verdiyini müəyyənləşdirək. Düşmənlər idi. Mühasirəyə düşdük. Yaxın məsafədən atışma başladı. Döyüşçü dostum şəhid oldu."*

Əsgər Əkbərov əvvəlcə qolundan, daha sonra iki ayağından, qarnından olmaqla dörd yerdən yaralanıb. Amma tək düşüncəsi nə olursa-olsun əsir düşməmək olub: *"Qan itirirdim, gözlərim qaralırdı, huşumu itirmək üzrəydim. Ermənilərin xislətinə bələdəm, ona görə də qərara aldım: dostumun meyiti ortada qalmamalıdır. Bu fikir sanki mənə güc verdi. Onlardan birini vurdum, daha birini də... Və bizimkilər gəldilər".*

Muxtar qeyd edir ki, ilk gündən qələbə əzmi və yüksək əhvali-ruhiyyə ilə döyüşə atılıblar. Yaralanacaqlarını, şəhid ola biləcəklərini gözə alıblar. "Güllə mənə dəysin, dostuma, yoldaşıma heç nə olmasın" düşüncəsi ilə bir-birilərinə dayaq olublar: *"İlk dəfə idi belə mühitə düşmüşdüm, hamı çalışırdı ki,*

*güllə ona dəysin, yoldaşına, dostuna heç nə olmasın. Son tikəmizi bölüşürdük. Döyüş bölgəsində qalan yaralıları çıxarmaq üçün canından keçən, şəhid olanlar çoxdur. Hamı inamla döyüşürdü".*

Qəhrəman döyüşçümüz nişanlıdır.

*"Ailəmdən güc alırdım. Telefonla danışanda tək sözləri bu olurdu "qələbə ilə geri dön. Şuşa uğrunda gedən döyüşlərdə iştirak etməyi arzulayırdım. Qismət olmadı, amma təəssüflənmirəm, sağalan kimi ilk gedəcəyim yer Şuşa olacaq..."*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə döyüşlərdə iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Muxtar Azad oğlu Əkbərov "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.



# Əkbərov Rəşad Şahin oğlu (1991)

Rəşad Şahin oğlu Əkbərov 5 sentyabr 1991-ci ildə Sumqayıt şəhərində anadan olmuşdur. 2009-cu ildə Sumqayıt şəhər "İstedad" Liseyini əla və yaxşı qiymətlərlə bitirmişdir.

2009-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialı) "Tarix və coğrafiya müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2012/2013-cü tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək universitetdən məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə, ictimai işlərdə fəal olmuşdur.

Vətən müharibəsində iştirak edərək torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir.

# Əkbərov Sübhan Elman oğlu (1999)



Sübhan Elman oğlu Əkbərov 1999-cu ilin may ayının 18-də Gədəbəy rayonunun Şınıx kəndində anadan olub.

2016-cı ildə Şınıx kənd tam orta məktəbini müvəffəqiyyətlə bitirərək Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin "coğrafiya müəllimliyi" ixtisasına qəbul olunub.

2020-ci ildə ali təhsilini müvəffəqiyyətlə başa vuran Sübhan vətən qarşısında borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə yollanıb.

Hərbi xidməti dövründə Vətən müharibəsi başlanan gənc əsgər Sübhan cəsarətlə döyüşlərə atılır. O, Cəbrayıl, Füzuli, Xocavənd və Şuşa ətrafında gedən döyüşlərdə iştirak edib.

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda göstərdiyi şücaət və igidliyinə görə Sübhan Elman oğlu Əkbərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilib.



## Ələsgərov Ruslan Aydın oğlu (1996)

Kiçik çavuş Ruslan Aydın oğlu Ələsgərov 26 dekabr 1996-cı ildə Gədəbəy rayonunun Şahdağ kəndində anadan olmuşdur. 2003-cü ildə Maarif Əsgərov adına Şahdağ kənd tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. O, məktəb illərində nümunəvi bir şagird kimi fərqlənmişdir. Həmçinin müəllimləri və şagird yoldaşları tərəfindən sevilmiş, eyni zamanda məktəbi əla qiymətlərlə başa vurmuşdur.

2014-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin (Tarix və coğrafiya) "tarix və coğrafiya müəllimliyi" ixtisasına qəbul olunmuşdur. O, universitet həyatında bir çox uğurlar qazanmış, eyni zamanda universitetin ictimai həyatında da fəal iştirak etmişdir. Tələbə Həmkarlar İttifaqı Komitəsində menecer və fakültə üzrə sədr kimi aktiv ictimai iş aparmışdır. İstər ictimai, istərsə də tədris həyatında fəallığı ilə daim fərqlənmişdir. Ölkəmizdə keçirilən "Bakı -2015 I Avropa Oyunları"nın təşkili və keçirilməsində fəal iştirak etdiyinə görə Prezident İlham Əliyev və xanımı Mehriban xanım Əliyeva tərəfindən təşəkkürnamə ilə təltif edilmişdir. 2019-cu ildə ADPU-dan məzun olmuşdur.

2020-ci ildə həqiqi hərbi xidmətə yollanmışdır. Ruslan Dövlət Sərhəd Xidmətində xidmətə başlamış və 6 ay ərzində hərbi kurs keçərək kiçik çavuş rütbəsi almışdır.

O, Vətən müharibəsində könüllü olaraq döyüşlərdə iştirak etmişdir.

Döyüşlərdə nümayiş etdirdiyi qəhrəmanlığa və şücaətə görə, eyni zamanda Zəngilan şəhərinin işğaldan azad edilməsində göstərdiyi hünərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Ruslan Aydın oğlu Ələsgərov "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

# Əlibalayev Məmmədbağır Əlibala oğlu (1998)



Məmmədbağır Əlibala oğlu Əlibalayev 17 aprel 1998-ci ildə Quba rayonunun Birinci Nügədi kəndində anadan olmuşdur.

2016-cı ildə Quba şəhəri Birinci Nügədi kənd 1 nömrəli tam orta məktəbini bitirərək Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının "təhsildə sosial-psixoloji xidmət" ixtisasına qəbul olunmuşdur.

2019/2020-ci tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək ali təhsilini tamamlamışdır.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə fəal olmuşdur.

Məmmədbağır Əlibala oğlu Əlibalayev 44 günlük Vətən müharibəsində mərdliklə vuruşmuş və Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.



# Əliyev Əli İntiqam oğlu (2002)

Əli İntiqam oğlu Əliyev 2002-ci ilin may ayının 21-də Bakı şəhərinin Binə qəsəbəsində dünyaya gəlmişdir.

O, Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" ixtisasının II kursunu bitirərək hərbi xidmətə yollanıb.

Vətən müharibəsinə qatılaraq Cəbrayıl-Qubadlı istiqamətində gedən döyüşlərdə cəsarətlə vuruşub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Əli İntiqam oğlu Əliyev "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.

# Əliyev Haldun Naib oğlu
# (1999)



Çavuş Haldun Naib oğlu Əliyev 30 mart 1999-cu ildə Yardımlı rayonunun Ərsilə kəndində dünyaya gəlmişdir.

2005-ci ildə A.X.İsmayilov adına Ərsilə kənd tam orta məktəbinin birinci sinfinə daxil olmuşdur.

2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fizika və texnologiya fakültəsinin (Fizika) "texnologiya müəllimliyi" ixtisasına qəbul olunmuş, 2020-ci ildə ali təhsilini müvəffəqiyyətlə tamamlamışdır.

2020-ci ilin ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yardımlı rayon bölməsindən həqiqi hərbi xidmətə çağırılmış və həmin ilin iyul ayının 3-də Vətən qarşısında olan borcu ödəmək məqsədilə Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissəyə yollanmışdır.

Gənc əsgər olaraq lazımi hərbi biliklərə yiyələndikdən sonra sentyabr ayının 16-da xidməti davam etdirmək məqsədilə Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissəyə göndərilmişdir.

Haldun 27 sentyabr 2020-ci ildə Vətən müharibəsinin başlandığı gün Tərtər-Ağdərə istiqamətində gedən aktiv döyüş əməliyyatlarına qatılmış, Suqovuşan və Talış kəndi uğrunda gedən döyüşlərdə iştirak etmişdir.

Döyüşlərdə fərqləndiyinə görə dəfələrlə fəxri fərman və digər qiymətli hədiyyələrlə mükafatlandırılmışdır.



## Əliyev Rasim Məmmədəli oğlu

General-mayor Rasim Məmmədəli oğlu Əliyev Azərbaycan Dövlət Pedaqoji Universitetinin məzunudur.

24 yanvar 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Heydər Əliyev adına Hərbi Liseyin rəisi vəzifəsinə təyin edilib. Daha sonra isə Müdafiə Nazirliyinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini olub.

Təqaüd yaşından da 3 il artıq Vətənə xidmət edən general 2021-ci ilin aprel ayından təqaüddədir.

Ölkə başçısının Sərəncamı ilə 2015-ci ilin iyunun 24-də 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 2016-cı ilin 19 aprelində Aprel döyüşlərindəki müvəffəqiyyətə görə "Vətən uğrunda" medalı ilə təltif edilib.

2020-ci ildə Vətən müharibəsində Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə general-mayor Rasim Məmmədəli oğlu Əliyev 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

# Əliyev Şamil Məmmədsaleh oğlu (1994)



Şamil Məmmədsaleh oğlu Əliyev 27 sentyabr 1994-cü ildə Salyan rayonunun Qaraçala qəsəbəsində anadan olub.

2000-ci ildə Çadırlı kənd tam orta məktəbinin birinci sinifinə daxil olub.

Orta məktəbi bitirdikdən sonra 2011-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya və GÇH fakültəsinin (Tarix və coğrafiya) “menecment” ixtisasına qəbul olunan Şamil 2015-ci ildə ali təhsilini müvəffəqiyyətlə tamamlayıb.

2015-ci ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Salyan rayon bölməsindən həqiqi hərbi xidmətə çağırılıb.

2016-cı ildə Aprel döyüşlərində Talış kəndi istiqamətində gedən döyüşlərdə fəal iştirak etmişdir.

Şamil Əliyev 2020-ci ildə Vətən müharibəsi başlandığı gündən Zəngilan, Qubadlı və Xocavənd uğurunda gedən döyüşlərə qatılıb. Müharibədə müxtəlif bədən xəsarətləri almasına baxmayaraq döyüşlərdə fəal iştirak edib.

Torpaqlarımızın işğaldan azad olunmasında fərqləndiyinə görə Şamil Məmmədsaleh oğlu Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə “Zəngilnanın azad olunmasına görə” və “Qubadlının azad olunmasına görə” medalları ilə təltif edilib.



## Əliyev Tale Nazim oğlu (1987)

Tale Nazim oğlu Əliyev 1987-ci ilin noyabr ayının 1-də Mingəçevir şəhərində anadan olub. 1994-cü ildə N.Nərimanov adına 1 saylı tam orta məktəbin birinci sinifinə daxil olub. Orta məktəbi müvəffəqiyyətlə bitirərək 2005-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat və informatika fakültəsinin "riyaziyyat müəllimliyi" ixtisasına qəbul olunub. 2009-cu ildə universitetdə təhsilini müvəffəqiyyətlə başa vurub.

Həmin ilin iyul ayında xidməti vəzifəsini yerinə yetirmək üçün həqiqi hərbi xidmətə yollanıb. Hərbi xidmətə Xocavənd rayonunun Kurapatkino kəndinin adsız yüksəkliklərində başlamışdır. Baş atıcı vəzifəsini icra etmiş, sonradan rabitəçi olaraq xidmətə davam etmişdir.

2010-cu ildə ordudan tərxis olunub. Elə həmin il Şəki Özəl Türk Liseyində, 2011-2013-cü illərdə Gəncə Özəl Türk Liseyində, 2013-2014-cü illərdə Azərbaycan Beynəlxalq Təhsil Lompleksinin Şəki Filialında, 2014-2016-cı illərdə Ağdaş İstək Liseyində, 2016-2017-ci illərdə Quba İstək Liseyində, 2017-2018-ci illərdə Şirvan İstək Liseyində, 2018-2019-cu illərdə Şamaxı Hazırlıq Mərkəzində, 2019-2020-ci illərdə isə Modern Hazırlıq Mərkəzində riyaziyyat müəllimi olaraq pedaqoji fəaliyyət göstərmişdir.

2020-ci ilin sentyabr ayında Tusi Hazırlıq Mərkəzində fəaliyyətə başlağı vaxt II Qarabağ müharibəsi (Vətən müharibəsi) başlayır və 29 sentyabrdan Tale müəllim könüllü olaraq orduya yazılıb cəbhəyə yollanır. Mühəndis-istehkam bölüyündə istehkamçı və rabitəçi vəzifəsini icra edir. Xocavənd və Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edib.

Döyüş yoldaşları arasında ziyalı kimi daim birlik yaratmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda qəhrəmanlıq göstərdiyinə görə Tale Nazim oğlu Əliyev "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" ilə təltif olunub.

2013-cü ildə ailə qurub. İki övladı var.

# Əsgərov Əli Yolçu oğlu (1979)



Polkovnik-leytenant Əli Yolçu oğlu Əsgərov 15 fevral 1979-cu ildə Gədəbəy rayonunun Şahdağ (Sovetabad) kəndində anadan olmuşdur. 1986-cı ildə Maarif Əsgərov adına Şahdağ (Sovetabad) kənd tam orta məktəbinin birinci sinifinə daxil olmuş, 1988-ci ildən təhsilini Siyavuş Qasımov adına Çiçəkli (Arabaçı) kənd tam orta məktəbində davam etdirmişdir. Əli məktəbdə müəllimləri və şagird yoldaşları tərəfindən sevilən nümunəvi bir şagird olmuşdur.

1996-cı ildə orta məktəbi yüksək qiymətlərlə bitirmiş və Nəsirəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai hərbi hazırlıq və fiziki tərbiyə fakültəsinə (İncəsənət və fiziki tərbiyə) daxil olmuşdur.

2000-ci ildə ali təhsilini tamamlayaraq sentyabr ayının 20-də həqiqi hərbi xidmətə yollanmışdır.

2000-ci ildən bəri həyatını ordu ilə bağlayan Əli müəllim 2008-ci ilin may ayına qədər Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissələrdə motoatıcı tağım komandiri, 2010-cu ilin may ayına kimi Füzuli rayonundakı "N" saylı hərbi hissədə motoatıcı taborun qərargah rəisinin şəxsi heyət üzrə köməkçisi (Q1), 2011-ci ilin noyabr ayına kimi Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissədə motoatıcı taborun qərərgah rəisinin tərbiyəvi işlər üzrə köməkçisi (Q1), 2014-cü ilin fevral ayına qədər Goranboy rayonununda yerləşən "N" saylı hərbi hissədə artilleriya divizionunun qərərgah rəisinin tərbiyəvi işlər üzrə köməkçisi, 2016-cı ilin aprel ayına qədər Goranboy rayonununda yerləşən "N" saylı hərbi hissədə artilleriya divizionu komandirinin şəxsi heyətlə iş üzrə müavini, 2020-ci ilin may ayına qədər Tərtər, Ağdam rayonları və Z.Tağıyev qəsəbəsində yerləşən "N" saylı hərbi hissələrdə komandirin şəxsi heyətlə iş üzrə müavini (Q1), bölmə rəisinin mənəvi- psixoloji təminat üzrə müavini vəzifəsində xidmət etmişdir. 14 may 2020-ci il tarixindən etibarən Ağcəbədi rayonundakı "N" saylı hərbi hissədə ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavin vəzifəsində xidmət edir və 2019-cu ildən polkovnik-leytenant rütbəsi almışdır.

Ə.Əsgərov həm Aprel döyüşlərində, həm də Vətən müharibəsində iştirak etmişdir. Vətən müharibəsində Cəbrayıldan Şuşaya qədər gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığına və şücaətinə görə Azərbaycan Respublikasının

Prezidenti İlham Əliyev tərəfindən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Polkovnik-leytenant Əli Əsgərov eyni zamanda ADPK tərəfindən Qarabağ döyüşlərində iştirakına görə "Fəxri Fərman"la təltif edilib.

# Əsgərov Əsgər Vüqar oğlu (1998)



Əsgər Vüqar oğlu Əsgərov 16 dekabr 1998-ci il tarixində Masallı rayonunun Təzə Alvadı kəndində anadan olub.

2005-ci ildə Elşad Əhədov adına Təzə Alvadı kənd orta məktəbinin birinci sinifinə daxil olub.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin "coğrafiya müəllimliyi" ixtisasına qəbul olunan Əsgər 2020-ci ildə ali təhsilini müvəffəqiyyətlə tamamlayıb.

2020-ci ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon bölməsindən həqiqi hərbi xidmətə çağırılan Əsgər Əsgərov Azərbaycan Respublikası Silahlı Qüvvələrinin artilleriya bölmələrindən birində xidmətə başlayıb.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başladığı gündən etibarən Tərtər, Ağdərə və Kəlbəcər rayonları istiqamətində aktiv döyüş əməliyyatlarına qatılıb. Tərtər rayonunun Talış kəndi istiqamətində gedən döyüşlərdə erməni komandanlığının qərargahının məhv edilməsində yaxından iştirak edib. Əsgər oktyabrın 3-dən Suqovuşan uğrunda gedən döyüşlərdə də xüsusi hünər göstərib.

Döyüşlərdə fərqləndiyinə görə Əsgər Vüqar oğlu Əsgərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.



# Əzimov Əmrah Ağamirzə oğlu (1998)

Əmrah Ağamirzə oğlu Əzimov 1 avqust 1998-ci ildə Xaçmaz rayonunun Həbibkənd kəndində anadan olmuşdur.

2015-ci ildə Xaçmaz şəhəri 8 nömrəli məktəb-liseyi bitirmişdir.

Elə həmin il Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialı) "tarix və coğrafiya müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2019/2020-ci tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək bakalavr universitetdən məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə fəal olmuşdur.

Vətən müharibəsində iştirak edərək torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir.

Torpaqlarımızın azad olunmasında göstərdiyi şücaətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Əmrah Ağamirzə oğlu Əzimov "Laçının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

# Əzizov Rəhman Şahid oğlu
# (2002)



Rəhman Şahid oğlu Əzizov 11 mart 2002-ci ildə Bakı şəhərinin Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində anadan olmuşdur.

Rəhman orta təhsilini Bakı şəhərində yerləşən 56 nömrəli tam orta məktəbdə almışdır. Müəllimləri və şagird yoldaşları tərəfindən sevilən nümunəvi şagird olmuşdur.

Məktəbi bitirdikdən sonra 2019-cu ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "fiziki tərbiyə müəllimliyi" ixtisasına qəbul olunmuşdur. Rəhman təhsilini bir müddət davam etdirdikdən (II tədris ilinin I semestrinə qədər) sonra dondurmuş və aprel ayının 1-də həqiqi hərbi xidmətə yollanmışdır. Xidmətinə Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissədə başlamışdır. Hazırda III tədris ilinin tələbəsidir.

Rəhman 2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsində Füzuli, Xocavənd, Qubadlı, Laçın rayonları və Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə 82 millimetrlik minaatan artileriyaçı vəzifəsində iştirak etmişdir.

Döyüşlərdə göstərdiyi qəhrəmanlığına və şücaətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə qazi Rəhman Şahid oğlu Əzizov "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.




## Fərəcov Ülvi İmran oğlu (1994)

Ülvi İmran oğlu Fərəcov 11 dekabr 1994-cü ildə Sabirabad rayonunun Bulaqlı kəndində anadan olmuşdur.

Orta məktəbi Bulaqlı kəndində bitirən Ülvi 2012-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı Filialının (indiki ADPU-nun Şamaxı Filialı) "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2016-cı ildə universitetdən məzun olaraq Vətən qarşısında borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə yollanıb. Ülvi əvvəlcə Goranboy rayonunda, daha sonra isə Tərtər rayonunda "N" saylı hərbi hissədə xidmət edib.

Vətən müharibəsi başlanan andan könüllü olaraq döyüşlərdə iştirak etmişdir.

Ülvi İmran oglu Fərəcov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə torpaqlarımızın azad olunması uğrunda göstərdiyi şücaətə görə "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

# Fərəczadə Zahir Əbdülrza oğlu (1997)



Zahir Əbdülrza oğlu Fərəczadə 20 iyun 1997-ci ildə Lənkəran rayonunun Günəhir kəndində anadan olmuşdur. Orta təhsilini Lənkəran rayonu Günəhir kənd tam orta məktəbində almışdır.

Zahir məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanmış və 2017-ci ildə xidmətini başa vurmuşdur.

O, hərbi xidmətini tamamladıqdan sonra Şamaxı Dövlət Regional Kollecinə qəbul olunmuş, 2020-ci ildə isə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "fiziki tərbiyə müəllimliyi" ixtisasına keçid (transfer) edərək təhsilini burada davam etdirməyə başlayıb. Hazırda IV tədris ili tələbəsidir.

Zahir 2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsi zamanı könüllü olaraq döyüşlərə qatılmışdır. O, Cəbrayıl və Qubadlı rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmiş və 20 oktyabr 2020-ci il tarixində Qubadlı rayonu istiqamətində sol qolundan qəlpə yarası almışdır.

Zahir Əbdülrza oğlu Fərəczadə döyüşlərdə göstərdiyi qəhrəmanlığına və şücaətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə, həmçinin Azərbaycan Dövlət Pedaqoji Kolleci tərəfindən "Fəxri Fərman"la təltif edilmişdir.



## Hacıyev Orxan Oqtay oğlu (1994)

Orxan Oqtay oğlu Hacıyev 3 noyabr 1994-cü ildə Gəncə şəhərində anadan olmuşdur.

2001-ci ildə Gəncə şəhəri Mir Cəlal Paşayev adına 39 nömrəli tam orta məktəbin birinci sinifinə daxil olmuşdur.

2012-ci ildə orta məktəbdə təhsilini tamamlayaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin (Tarix və coğrafiya) "tarix müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

Ali təhsilini tamamladıqdan sonra Vətənə olan borcunu vermək üçün 2016-2017-ci illərdə həqiqi hərbi xidmət keçmişdir.

Vətən müharibəsi ərəfəsində 21 sentyabr 2020-ci il tarixindən etibarən hərbi təlimlərə qatılan Orxan Kəlbəcər-Murovdağ istiqamətində gedən şiddətli döyüşlərdə xüsusi şücaət göstərmişdir.



## Hacızadə Nicat Azər oğlu (1997)

Nicat Azər oğlu Hacızadə 12 sentyabr 1997-ci ildə Tovuz rayonunun Bozalqanlı kəndində anadan olub. 2003-2014-cü illərdə Bozalqanlı kənd tam orta məktəbində təhsil alıb. Orta məktəbdən məzun olduğu il Bakı Dövlət Universitetinin Coğrafiya fakültəsinə qəbul olunub. 2018-ci ildə BDU-dan uğurla məzun olaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin Magistratura və doktorantura şöbəsinin "coğrafiyanın tədrisi metodikası və metodologiyası" ixtisasına qəbul olunub.

Magistraturanı başa vurması ilə Tovuz rayonunda Azərbaycan sərhədlərinin Ermənistanın basqınlarına məruz qalması və Vətən müharibəsinin başlanması üst-üstə düşür. 2020-ci ilin iyul ayında Nicat həqiqi hərbi xidmətə çağrılır. Vətən müharibəsi dövründə az müddət ərzində onun da xidmət etdiyi Sərhəd Qoşunlarının hərbi hissələri Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlının işğaldan azad olunmasında öz dəsti-xətti ilə yeni tarix yazmağa başlayır.

Vətən müharibəsindən sonra Cəbrayıl rayonunda xidmətini davam etdirən Nicat Hacızadə 44 günlük savaşda özünü bacarıqlı bir sərhədçi kimi göstərə bilmişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Nicat Azər oğlu Hacızadə "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medallarıyla təltif edilib.



## Haqverdiyev Şərvan Nazim oğlu (1996)

Şərvan Nazim oğlu Haqverdiyev 1 yanvar 1996-cı ildə İmişli rayonunda anadan olmuşdur.

2002-ci ildə İmişli rayonunda yerləşən 4 nömrəli tam orta məktəbin birinci sinifinə daxil olmuşdur. 2013-cü ildə məktəbi bitirmiş və Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinə qəbul olunmuşdur.

2017-ci ildə kollecdə təhsilini tamamlayan Şərvan həqiqi hərbi xidmətə yollanmışdır. 2019-cu ildə xidmətini başa vurmuşdur.

2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Şərvan Qubadlı, Cəbrayıl rayonları uğurunda gedən döyüşlərdə və Şuşa şəhərinin müdafiəsində iştirak etmiş, cəsarətlə vuruşmuşdur.



## Həsənli Nihat Fariz oğlu
## (1999)

Gizir Nihat Fariz oğlu Həsənli 1999-cu ilin aprel aynın 8-də Salyan rayon Çuxanlı kəndində ziyalı ailəsində anadan olub.

2004-cü ildə Ziyad Həmidov adına Çuxanlı kənd orta məktəbinin birinci sinifinə daxil olub.

Orta məktəbi bitirdikdən sonra 2015-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitətinin İncəsənət və fiziki tərbiyə fakültəsinin "gənclərin çağırışaqədərki hazırlığı müəllimliyi" ixtisasına qəbul olunmuşdur. 2019-cu ildə univeristetdən müvəffəqiyyətlə məzun olub.

2019-cu ilin iyul ayında Səfərbərlik və Hərbi xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Salyan rayon bölməsi tərəfindən həqiqi hərbi xidmətə çağırılaraq Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə manqa komandiri vəzifəsində xidmət edib. 2020-ci ilin iyul ayının 5-də həqiqi hərbi xidmətini başa vurub və ordu sıralardan ehtiyyata buraxılıb.

2020-ci ilin sentyabr ayının 21-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Salyan rayon bölməsi tərəfindən təlimlərə çağırılıb və az sonra Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən döyüşlərə könüllü qatılıb. Müdafiə Nazirliyinin Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəsinə gizir vəzifəsinə təyin olunub.

27 sentyabr 2020-ci il tarixində Azərbaycanın Respublikasının ərazi bütövlüyü uğrunda başlanan döyüşlərdə Füzuli, Cəbrayıl istiqamətində qəhrəmanlıqla vuruşub. Düşmənin əks-hücum əməliyyatını dəf edərkən düşmən tərəfindən atılan mərmi nəticəsində qol, ayaq və sinə nayihələrindən ağır yaralanıb və Silahlı Qüvvələrin Baş Klinik Hospitalına yerləşdirilib. Bir müddət orada müalicə aldıqdan sonra məzuniyyətə buraxılıb.

Hal-hazırda Hadrutda xidmət edir.



## Həsənzadə Cavid Hüseyn oğlu (1996)

Cavid Hüseyn oğlu Həsənzadə 31 dekabr 1996-cı ildə Ağdam rayonunun Quzanlı qəsəbəsində anadan olmuşdur.

2003-cü ildə şəhid Hafiz Əsgərov adına Quzanlı qəsəbə məktəbinin birinci sinifinə daxil olmuşdur.

2014-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin (Tarix və coğrafiya) "tarix müəllimliyi" ixtisasına qəbul olunmuşdur. 2018-ci ildə ali təhsilini müvəffəqiyyətlə tamamlayıb.

2018-2019-cu illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

Vətən müharibəsi dövründə 29 sentyabr 2020-ci il tarixindən etibarən Füzuli-Cəbrayıl-Xocavənd istiqamətində gedən gərgin döyüşlərdə xüsusi şücaət göstərmiş, torpaqlarımızın azadlığı uğrunda cəsarətlə savaşmışdır.

Döyüşlərdə fərqləndiyinə görə Cavid Hüseyn oğlu Həsənzadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Hümbətəliyev Şahin Oruc oğlu (1995)



Şahin Oruc oğlu Hümbətəliyev 17 mart 1995-ci il tarixində İmişli rayonunda dünyaya göz açıb.

2001-ci ildə İmişli şəhər 7 nömrəli tam orta məktəbin birinci sinifinə daxil olmuşdur.

2012-ci ildə orta təhsilini tamamlayaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin (Tarix və coğrafiya) "tarix müəllimliyi" ixtisasına qəbul olunmuşdur. 2016-cı ildə ali təhsil müəssisəsindən məzun olmuşdur.

2016-2017-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

44 günlük müharibə dövründə 29 sentyabr 2020-ci il tarixindən başlayaraq Zəngilan-Qubadlı istiqamətində gedən şiddətli döyüş əməliyyatlarına qatılmışdır. Döyüşlərdə zenit raket-artilleriya batareyasında tuşlayıcı vəzifəsini icra etmişdir.



# Hüseynəliyev Faiq Bəhruz oğlu (1999)

Kiçik çavuş Faiq Bəhruz oğlu Hüseynəliyev 29 noyabr 1999-cu ildə Qusar rayonunun Bədirqala kəndində anadan olmuşdur.

Orta təhsilini Bədirqala kənd ümumi orta məktəbində almışdır.

Faiq 2015-ci ildə IX sinifi bitirərək Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin Peşə təlimi şöbəsinin “mühasibat uçotu” ixtisasına daxil olmuşdur.

O, 2018-ci ildə həqiqi hərbi xidmətə yollanaraq Ağdam rayonunda yerləşən “N” saylı hərbi hissədə “General Aslan 21.20 igidlər postu”nda kiçik çavuş rütbəsində manqa komandiri kimi xidmət etmişdir.

Faiq 2020-ci ilin məşhur Tovuz döyüşləri zamanı könüllü olaraq orduya yazılmış və 21 sentyabr 2020-ci ildə hərbi təlimlərdə iştirak etmək üçün ordu sıralarına çağırılmışdır.

44 günlük savaşa qatılan Faiq Hüseynəliyev Füzuli, Cəbrayıl, Xocavənd və Qubadlı istiqamətlərində döyüşmüş, Qubadlı rayonu uğrunda gedən döyüşlərdə yaralanmış və bir ayağını itirmişdir. Qazimiz 2021-ci ilin iyun ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yüksək texnologiyalı protezlə təmin edilib.

Vətən uğrunda göstərdiyi igidliyə və fədakarlığına görə Faiq Bəhruz oğlu Hüseynəliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə “Döyüşdə fərqlənməyə görə”, “Füzulinin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.

## Hüseynov Fərid İskəndər oğlu (1997)



Fərid İskəndər oğlu Hüseynov 1997-ci ilin yanvar ayının 9-da Ağsu rayonunun Ağalarbəyli kəndində anadan olmuşdur.

2003-cü ildə Kürdəmir rayonu 5 nömrəli tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur.

Orta məktəbi bitirdikdən sonra 2014-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin (Tarix və coğrafiya) "tarix müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

27 sentyabr 2020-ci il tarixində başlanan 44 günlük Vətən müharibəsi zamanı Suqovuşan və Talış kəndləri istiqamətində gedən döyüşlərdə xüsusi şücaət göstərmişdir. Müharibə dövründə manqa komandiri vəzifəsində xidmət etmişdir.



## Hüseynov İbrahim Mansur oğlu (1997)

İbrahim Mansur oğlu Hüseynov 20 fevral 1997-ci il tarixində Cəlilabad rayonunun Günəşli kəndində anadan olub. 2004-2015-ci illərdə Salyan rayonu Kərimbəyli kənd tam orta məktəbində təhsil almışdır.

2015-ci ildə məktəbi bitirmiş və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsil, psixoloji xidmət və korreksiyaedici təlim fakültəsinin (Məktəbəqədər təhsil) "korreksiyaedici təlim" ixtisasına qəbul olunmuş, 2019-cu ildə isə universitetdən məzun olmuşdur.

Tələbəlik illərində tədris və ictimai həyatda aktiv tələbə kimi özünü göstərib. Gitarada ifalar edib.

2019-cu ilin iyul ayında həqiqi hərbi xidmətə yollanan İbrahim nümunəvi xidmətinə görə "Fəxri Fərman" və "Təşəkkür məktubu" ilə təltif olunmuşdur. 2020-ci il iyul ayının 2-də ordudan tərxis olunmuşdur. Bu ərəfədə başlanan İyul döyüşləri zamanı könüllü kimi orduya yazılır. 29 sentyabrdan isə Vətən müharibəsinə qatılaraq Füzuli istiqamətində döyüşlərdə iştiraka başlamışdır. Cəbrayıl, Hadrut və Füzuli uğrunda gedən şiddətli döyüşlərdə iştirak etmişdir.

Oktyabrın 15-i, axşam saat 18:00 radələrində Füzuli istiqamətində gedən aramsız döyüşlərin birində əks-kəşfiyyat zamanı 60 mm-lik minaatan mərmisi ilə ağır yaralanmışdır. Təxliyə zamanı güllə yarası da almışdır. Nəticədə qazi döş qəfəsinin ön səthinin və qarının sol yarısının boşluğa nüfuz edən hər iki yuxarı ətrafın və budun çoxsaylı, iki tərəfli hemopnevmotoraksla nazik bağırsağın kəsilməsi, sağ əlin siniflərinin yanması, sağ əl barmaqlarının sınması, sol qolun 4 yerdən sınması və həddən artıq qəlpə yarası kimi ağır partlayı travması almışdır.

Hazırda qazinin sol qolu işlək vəziyyətdədir (vətər qırıqları qalıb), sağ qol isə ömürlük işlək vəziyyətini itirmişdir.

Dekabrın 8-ə qədər xəstəxanada müalicə olunan İbrahim Hüseynov 3 gün komada qalmışdır. Döyüşdə ümumilikdə 62 qəlpə yarası alan qazi müharibənin dəhşətlərindən müəyyən nevroloji problemlər də yaşamışdır.

## Hüseynov Qeybulla Baloğlan oğlu (1999)



Qeybulla Baloğlan oğlu Hüseynov 1999-cu ilin iyul ayının 16-da Sabirabad rayonunda dünyaya göz açıb.

2005-2016-cı illərdə Sabirabad rayonunda tam orta təhsilini tamamladıqdan sonra 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai təhsil fakültəsinə qəbul olunub.

2020-ci ildə universitetdən məzun olaraq iyul ayının 21-də həqiqi hərbi xidmətə yollanıb.

Qeybulla Vətən müharibəsinə qatılaraq Murovdağda gedən döyüşlərdə vətəninə sadiq oğul kimi doğma torpaqlarımızı qoruyub.

Döyüş yolu sərt iqlimli dağlıq ərazini əhatə etdiyinə görə ciyərində müəyyən problemlər yaranır. Bir dəfə sığınacağa girərkən Qeybulladan 2 metr məsafədə erməni minaatanının mərmisinin düşməsi nəticəsində onun qulaqları tutulur. Başqa bir döyüş günündə növbədə olduqları vaxt ermənilərin onların postuna hücumu nəticəsində Qeybullanın dizinə pulemyotun qəlpəsi dəyərək yüngül xəsarət yetirir. Onu hərbi hospitala gətirirlər və orada müalicə alaraq sağalıb Zəfərdən sonra yenidən xidmətinə qayıdır.

Qeybulla Baloğlan oğlu Hüseynov Kəlbəcər uğrunda gedən döyüşlərdə cəsurluqla iştirak etdiyinə və göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə “Kəlbəcərin azad olunmasına görə” medalı ilə təltif olunub.




## Hüseynov Murad Fizuli oğlu
## (1994)

Murad Fizuli oğlu Hüseynov 9 noyabr 1994-cü il tarixində Mingəçevir şəhərində dünyaya göz açıb. 2001-ci ildə Mingəçevir şəhəri 8 saylı tam orta məktəbinin birinci sinifinə daxil olub.

Orta məktəbi bitirdikdən sonra 2012-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin (Tarix və coğrafiya) "tarix və coğrafiya müəllimliyi" ixtisasına daxil olmuşdur.

Ali təhsilini uğurla başa vurduqdan sonra 2017-2018-ci illərdə həqiqi hərbi xidmət etmişdir. Xidmət etdiyi dövrdə NATO-nun "II dərəcəli NATO qiymətləndirməsi" təlimində iştirak etmişdir.

2020-ci ilin sentyabr ayının 29-da Vətən müharibəsinə qatılmış və Ağdam-Ağdərə istiqamətində vuruşmuşdur.

2020-ci ilin oktyabr ayının 10-da yaralıları döyüş bölgəsindən çıxaran zaman minaatan mərmisinin partlaması nəticəsində ağır xəsarət almış və hospitala yerləşdirilmişdir. Dekabr ayının 22-də ordu sıralarından tərxis olunmuşdur. Hal-hazırda III qrup müharibə əlilidir.

Murad Hüseynov ordudan tərxis olunandan sonra yenidən pedaqoji fəaliyyətini davam etdirir.



## Hüseynli Orxan Raqif oğlu
## (1998)

Orxan Hüseynli 4 fevral 1998-ci ildə Lerik rayonunda anadan olmuşdur.

2016-ci il Lerik rayonu Şivlə kənd tam orta məktəbini bitirərək Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin “Azərbaycan dili və ədəbiyyatı müəllimliyi” ixtisasına qəbul olunmuşdur.

2020-ci ildə universitetdən məzun olaraq həqiqi hərbi xidmətə yola düşür. Hərbi xidmətini Gəncədə yerinə yetirən Orxan 27 sentyabr 2020-ci ildə - Vətən müharibəsi başlanan andan döyüş yoldaşları ilə birgə Goranboy istiqamətindən düşmənə layiqli cavab verməyə başlayırlar.

Zəfərdən sonra hərbi xidmətini Goranboy rayonunda davam etdirən orxan 2021-ci ilin iyulunda vətənə borcunu tamamlayaraq ordu sıralarından ehtiyyata buraxılıb.



# Hüseynzadə Elçin Xaliq oğlu (1995)

Elçin Xaliq oğlu Hüseynzadə 10 iyul 1995-ci il tarixində Bakı şəhəri Xəzər rayonu Binə qəsəbəsində dünyaya göz açıb.

2002-2010-cu illərdə 117 saylı tam orta məktəbdə təhsil alan Elçin IX sinifi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "fiziki tərbiyə müəllimliyi" ixtisasına qəbul olunub.

2014-cu ildə kollecdən məzun olan Elçin Hüseynzadə 2014-2016-cı illərdə həqiqi hərbi xidmətini yerinə yetirib.

2020-ci ilin 27 sentyabrında başlanan 44 günlük şanlı Vətən müharibəsində könüllü iştirak edən Elçin Ağdərə və Şuşa istiqamətindəki döyüşlərdə iştirak edib.

Torpaqlarımızın azadlığı uğrunda göstərdiyi igidliyə və fədakarlığına görə qazi Elçin Xaliq oğlu Hüseynzadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

# Hüseynzadə Rasim Raqib oğlu (1997)



Rasim Raqib oğlu Hüseynzadə 1997-ci ildə Şamaxı rayonunun Muğanlı kəndində anadan olmuşdur.

Orta məktəbi Muğanlı kəndində bitirdikdən sonra 2015-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı Filialının (indiki ADPU-nun Şamaxı Filialı) "riyaziyyat və informatika müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2020-ci ildə universitetdən məzun olduqdan sonra vətən qarşısında borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə yollanıb. Rasim əvvəlcə Goranboy rayonunun Yuxarı Ağcakənd kəndində, daha sonra Tap Qaraqoyunlu kəndində xidmət edib.

Vətən müharibəsi başlayan andan silahdaşları ilə bir yerdə döyüşlərə qatılıb. Tap Qaraqoyunlu kəndindən başlayaraq Talış-Suqovuşan istiqamətindəki döyüşlərdə fəal iştirak edib.

Zəfərdən sonra xidmətini Laçın rayonunda davam etdirib.

Rasim Raqib oğlu Hüseynzadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə torpaqlarımızın düşməndən azad olunması uğrunda göstərdiyi şücaətinə görə "Laçının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.



## Xancanov Riad Ruslan oğlu (1999)

Riad Ruslan oğlu Xancanov 16 iyun 1999-cu ildə Sumqayıt şəhərində anadan olub. Sumqayıt şəhər 11 nömrəli tam orta məktəbi bitirib.

2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin İncəsənət və fiziki tərbiyə fakültəsinə daxil olub.

2020-ci ilin iyul ayında həqiqi hərbi xidmətə yollanan Riad Qarabağın azad olunmasına görə aparılan Vətən müharibəsinə artilleriyaçı, minaatan komandiri kimi qoşulub. Füzuli, Cəbrayıl, Xocavənd və Qubadlı rayonları, o cümlədən Şuşa şəhəri uğunda döyüşlərdə iştirak edib.

Hazırda Hadrutda xidmətini davam etdirir edir.

# Xanışlı Səddarxan Əflatun oğlu (1999)



Səddarxan Əflatun oğlu Xanışlı 14 oktyabr 1999-cu ildə Biləsuvar rayonunun Bəydili kəndində anadan olmuşdur.

2004-cü ildə Şəhid Kəmaləddin Ağayev adına Texniki elmlər təmaüllü internat məktəbinin birinci sinifinə daxil olmuşdur.

2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin "tarix müəllimliyi" ixtisasına qəbul olunmuşdur. 2020-ci ildə ali təhsilini müvəffəqiyyətlə başa vurmuş və həqiqi hərbi xidmətə yollanmışdır.

2020-ci ilin 21 sentyabrında hərbi təlimlərə qatılmışdır.

Səddarxan Xanışlı 44 günlük Vətən müharibəsində torpaqlarımızın düşmən tapdağı altından azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir. O, döyüşlərdə xüsusi şücaət və qəhrəmanlıq göstərmişdir.

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarını və texnikasını məhv etməklə qoşunlarımızın döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Səddarxan Əflatun oğlu Xanışlı "Cəsur döyüşçü" medalı ilə təltif edilmişdir.



# Xankişiyev Samir Balakişi oğlu (1999)

Samir Balakişi oğlu Xankişiyev 1999-cu ilin sentyabr ayının 22-də Kürdəmir rayonunun Qarasaqqal kəndində anadan olmuşdur.

2005-ci ildə Qarasaqqal kənd tam orta məktəbinin birinci sinfinə daxil olmuşdur.

Orta təhsilini başa vurduqdan sonra 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsil fakültəsinin "təhsildə sosial-psixoloji xidmət" ixtisasına qəbul olunmuşdur.

2020-ci ildə ali təhsilini başa vurduqdan sonra, iyul ayında Azərbaycan Silahlı Qüvvələrinə müddətli həqiqi hərbi xidmətə çağrılıb. Hərbi xidmətini Sumqayıt şəhərindəki "N" saylı hərbi hissədə davam etdirmişdir.

Azərbaycan ordusunun əsgəri olan Samir Xankişiyev 27 sentyabr 2020-ci ildən başlayan Vətən müharibəsində iştirak edərək Füzulinin, Cəbrayılın, Xocavəndin, Şuşanın azad edilməsi uğrundakı döyüşlərdə şücaətlə vuruşmuşdur. Döyüş əməliyyatlarının ən çətin keçdiyi yerlərdə döyüşərək rəşadət nümunəsi göstərmişdir.

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Samir Balakişi oğlu Xankişiyev "Laçının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

# Xəlilov Cəfər Sadıq oğlu (1999)



Cəfər Sadıq oğlu Xəlilov 1999-cu ilin 17 fevral tarixində dünyaya göz açıb. 2005-2016-cı illərdə Bakı şəhəri, Sabunçu rayonu, Maştağa qəsəbəsində yerləşən 255 saylı tam orta məktəbdə təhsil alıb.

2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin "tarix müəllimliyi" ixtisasına qəbul olunub.

2020-ci ildə universitetdən məzun olduqdan sonra həmin ilin iyul ayında həqiqi hərbi xidmətə yollanıb. Xidmətdə olduğu dövrdə Vətən müharibəsi başlanır və Cəfər döyüşlərdə fəal iştirak edir. Goranboy rayonunun Tapqaraqoyunlu kəndi, Talış kəndi, Suqovuşan və Ağdərədə gərgin döyüşlərə qatılaraq düşmənlə savaşıb. Zəfərdən sonra xidmətini Laçın rayonu ərazisində davam etdirib.

Cəfər Sadıq oğlu Xəlilov döyüşlərdə göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Laçının azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.



# Xəlilzadə Bəxtiyar Lətif oğlu (1990)

Bəxtiyar Lətif oğlu Xəlilzadə 1990-cı ilin iyun ayının 22-də Bakı şəhərində anadan olmuşdur.

1997-ci ildə Ankara-Bakı məktəb liseyinin birinci sinifinə qəbul olunmuşdur.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin (Tarix və coğrafiya) “tarix müəllimliyi” ixtisasına qəbul olunmuşdur. 2013-cü ildə ali təhsilini uğurla başa vurmuşdur.

2013-2014-cü illərdə həqiqi hərbi xidmətini yerinə yetirmişdir.

2020-ci ilin 27 sentyabr tarixində Vətən müharibəsi başladığı gündən aktiv döyüş əməliyyatlarında iştirak etmiş, mühəndis istehkam bölüyündə xidmət etmişdir.

Döyüşlərdə fərqləndiyinə görə Bəxtiyar Lətif oğlu Xəlilzadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə “Qubadlının azad olunmasına görə” medalı ilə təltif olunmuşdur.

## Xəlilzadə Xeybər Şahin oğlu (1999)



Xeybər Şahin oğlu Xəlilzadə 19 dekabr 1999-cu ildə Bakı şəhərində anadan olmuşdur. 2016-cı ildə Bakı şəhərində 320 nömrəli tam orta məktəbi bitirmiş və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialı) "təhsildə sosial-psixoloji xidmət" ixtisasına qəbul olunmuşdur.

2019/2020-ci tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək universitetdən məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə fəal olmuşdur.

2020-ci ildə həqiqi hərbi xidmətə yollanan Xeybər Vətən müharibəsində iştirak edərək torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir.



# İbişov Bayram Zöhrab oğlu (1999)

Bayram Zöhrab oğlu İbişov 4 mart 1999-cu il tarixində Ağsu rayonunun Bico kəndində anadan olub.

2005-ci ildə Cəbrayıl rayonu 6 nömrəli tam orta məktəbində təhsil almağa başlayıb.

Orta məktəbi bitirdikdən sonra 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin "tarix müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

Universitetdən məzun olduqdan sonra həqiqi hərbi xidmətə yollanan Bayram 2020-2021-ci illərdə hərbi xidmətdə olmuşdur. Xidməti dövründə Vətən müharibəsində aktiv iştirak etmişdir. Kəlbəcər uğrunda gedən gərgin döyüşlərdə xüsusilə fərqlənmişdir.

Vətən müharibəsi zamanı torpaqlarımızın düşmən işğalından azad olunması yolunda göstərdiyi igidliyə görə Bayram Zöhrab oğlu İbişov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilib.

## İxtiyarlı İxtiyar Səftər oğlu (1999)



İxtiyar Səftər oğlu İxtiyarlı 12 oktyabr 1999-cu ildə Ağsu rayonunda anadan olub.

2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunmuşdur. Universitetdə ilk gündən fəallığı ilə seçilən İxtiyar fakültə və universitetdaxili tədbirlərdə aktiv iştirak etmişdir. Xüsusən, 2018-ci ildə ADPU Tələbə Gənclər Təşkilatının Debat Klubunun İdarə Heyətində və Filologiya fakültəsinin "Meh Ədəbi Dərnəyi"ndəki fəaliyyətini misal göstərmək olar.

2020-ci ildə universitetdən məzun olduqdan sonra iyul ayında həqiqi hərbi xidmətə yola düşür. Goranboy rayonu ərazisində xidmətdə olsa da, 27 sentyabr 2020-ci il tarixindən – zəfər tariximizin yazıldığı ilk gündən etibarən könüllü olaraq düşmənə qan udduran igidlərin sırasına daxil olur. Onun qəhrəmanlıq salnaməsi Tapqaraqoyunlu istiqamətində başlayır. İlk günlərdən Talış kəndi və Murovdağ uğrunda gedən qızğın artilleriya döyüşlərində fəal iştirak etmiş, Talış kəndi azad edildikdən sonra Ağdərə, Suqovuşan istiqamətində döyüşlərə qatılmışdır.

İxtiyar Səftər oğlu İxtiyarlı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlıqlara görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.



# İmanlı Əlpənah Zakir oğlu (1995)

Əlpənah Zakir oğlu İmanlı 29 oktyabr 1995-ci ildə Şamaxı rayonunda anadan olmuşdur.

Orta məktəbi Şamaxı rayonu Texniki, humanitar və təbiət fənləri təmaüllü liseydə bitirib.

2013-cü ildə Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı Filialının (indiki ADPU-nun Şamaxı Filialı) "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunub.

2017-ci ildə universitetdən məzun olduqdan sonra Vətən qarşısında borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə yollanıb.

2020-ci ildə Vətən müharibəsi başlanan andan könüllü olaraq cəbhəyə yollanan Əlpənah 27 sentyabrdan Ağdam uğrunda gedən döyüşlərdə iştirak edir.

Əlpənah Zakir oğlu İmanlı göstərdiyi şücaətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərancamı ilə "Ağdamın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

## İmanov İmaməli İmanverdi oğlu (1998)



İmanov İmaməli İmanverdi oğlu 6 dekabr 1998-ci il tarixində Lerik rayonunun Hamarat kəndində anadan olub.

2005-ci ildə Sabir Abbasov adına Binə qəsəbə tam orta məktəbinin birinci sinifinə daxil olub.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin "coğrafiya müəllimliyi" ixtisasına qəbul olunan İmaməli 2020-ci ildə ali təhsilini tamamlayıb.

2020-ci ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lerik rayon bölməsindən həqiqi hərbi xidmətə çağırılan İmaməli İmanov Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Dövlət Sərhəd Xidmətinin zastavalarının birində xidmətə başlayıb.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başladığı gündən etibarən Füzuli, Cəbrayıl və Zəngilan rayonları istiqamətində aktiv döyüş əməliyyatlarına qatılıb. Zəngilan rayonunun Bartaz yüksəkliyi istiqamətində gedən döyüşlərdə yaxından iştirak edib. 20 oktyabrda Zəngilan uğurunda gedən döyüşlərdə də xüsusi hünər göstərib.

Döyüşlərdə fərqləndiyinə görə İmaməli İmanverdi oğlu İmanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif edilib.



## İsaqzadə Yusif Yasər oğlu
## (1999)

Yusif Yasər oğlu İsaqzadə 1999-cu il təvəllüdlüdür. Ədalət Abbasov adına 257 №-li məktəbdə tam orta təhsil almışdır.

Hələ məktəb illərində qorxmazlığı, cəsarəti və yüksək təşkilatçılığı ilə fərqlənən Yusif 2016–cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin "gənclərin çağırışaqədərki hazırlığı və fiziki tərbiyə müəllimliyi" ixtisasına qəbul olunur.

Ali təhsilini başa vurduqdan sonra 2020–ci ilin iyulun 1-də həqiqi hərbi xidmətə yola düşür. Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Çevik Hərəkət bölüyündə xidmətə başlayır. Xidmətə başladığı ilk günlərdən komandanlığın diqqətini çəkən əsgər snayperçi kimi təlimlərə başlayır.

2020-ci ilin 27 sentyabr tarixindən Vətən müharibəsinə qoşulan Yusif ön cəbhədə Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları və Xudafərin uğrunda döyüşlərdə iştirak edir. 44 günlük müharibədə mərdlik, cəsarət və igidliklə döyüşür.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamıyla Yusif Yasər oğlu İsaqzadə "Zəngilanın azad olunmasına görə" medalı ilə təltif olunub.

Yusif Zəfərdən sonra xidmətini Zəngilan rayonunda davam etdirib.

## İsmayılov İlkin Koroğlu oğlu (1998)



İlkin Koroğlu oğlu İsmayılov 25 yanvar 1998-ci ildə Şəki rayonunun Qaratorpaq kəndində anadan olub.

2004-cü ildə Qaratorpaq kənd tam orta məktəbinin birinci sinifinə daxil olub.

2015-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı Filialının (indiki ADPU-nun Şamaxı Filialı) "tarix və coğrafiya müəllimliyi" ixtisasına qəbul olunub. Ali məktəbdə təhsil aldığı illərdə "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması layihəsi" çərçivəsində təlimlərdə iştirak etməklə müvafiq sertifikata layiq görülüb.

2020-ci ildə universitetdən məzun olub və Dövlət Sərhəd Xidmətində (DSX) müddətli həqiqi hərbi xidmətə başlayıb.

Vətən müharibəsinin gedişində 8 oktyabr 2020-ci il tarixində döyüş əmri alaraq xidmət etdiyi DSX-nin Xüsusi Təyinatlı Dəstələrinin Çevik Hərəkət Qüvvələri tərkibində sanitar-təlimatçı əsgər vəzifəsində döyüşə başlayıb.

Əsasən Füzuli, Cəbrayıl və Zəngilan rayonları uğrunda gedən döyüş əməliyyatlarında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə torpaqlarımızın düşməndən azad olunması uğrunda göstərdiyi igidliyinə görə İlkin Koroğlu oğlu İsmayılov "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib. Medalları ona DSX rəisi general-polkovnik Elçin Quliyev təqdim edib.

2021-ci ilin iyul ayında ordu sıralarından tərxis olunub.



# İsmayılov Müşfiq Elçin oğlu (1998)

Müşfiq Elçin oğlu İsmayılov 15 mart 1998-ci ildə Xızı rayonunun Altıağac qəsəbəsində anadan olmuşdur. 2016-cı ildə Xızı şəhəri Altıağac qəsəbəsində tam orta məktəbi bitirmişdir.

2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunub.

2019/2020-ci tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə fəal olmuşdur.

2020-ci ildə həqiqi hərbi xidmətə gedən Müşfiq Vətən müharibəsində iştirak edərək torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir.

Döyüşlərdə göstərdiyi qəhrəmanlığına görə Müşfiq Elçin oğlu İsmayılov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

# Kazımov Mədət İlham oğlu
# (1996)




Mədət İlham oğlu Kazımov 13 yanvar 1996-cı ildə Tovuz rayonunun Qaradaş kəndində anadan olmuşdur.

2002-ci ildə Tovuz rayonu Qaradaş kənd tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. Mədət 2010-cu ildən təhsilini Bakı şəhəri Sabunçu rayonu, Zabrat qəsəbəsində yerləşən 307 nömrəli tam orta məktəbdə davam etdirmişdir.

2013-cü ildə orta təhsilini tamamlayaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

Mədət 2017-ci ildə həmin ixtisası bitirmiş və təhsilini elə Azərbaycan Dövlət Pedaqoji Universitetinin magistratura pilləsində davam etdirmişdir.

2019-cu ildə magistr təhsilini tamamlayaraq iyul ayında həqiqi hərbi xidmətə yollanmışdır. Xidmətinə Ağcəbədi rayonunda yerləşən "N" saylı hərbi hissədə başlamış və sanitar atıcı vəzifəsində xidmət etmişdir.

Mədət 2020-ci ilin iyul ayında xidmətini başa vurmuş və 2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsi zamanı səfərbərliklə yenidən orduya çağırılmışdır. Şuşa şəhəri və Laçın rayonu istiqamətində gedən döyüşlərdə iştirak etmişdir.

Torpaqlarımızın azad olunmasında göstərdiyi qəhrəmanlığına və şücaətinə görə Mədət İlham oğlu Kazımov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.



## Kərimov Ağahüseyin Teymur oğlu (1999)

Ağahüseyin Teymur oğlu Kərimov 15 oktyabr 1999-cu ildə Lerik rayonunun Pirasora kəndində anadan olmuşdur.

Ağahüseyin orta təhsilini Lerik rayonu Azər Təhməzov adına Pirasora kənd tam orta məktəbində almışdır.

2016-cı ildə orta məktəbi bitirmiş və Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin “texnologiya müəllimliyi” ixtisasına qəbul olunmuşdur. Hazırda IV tədris ili tələbəsidir.

Ağahüseyin həqiqi hərbi xidmətini Hərbi Hava Qüvvələri sıralarında icra edib.

2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsində Beyləqan, Füzuli və Ağcəbədi rayonları istiqamətində gedən döyüşlərdə helikopterlərin mühafizəsində baş atıcı vəzifəsində xidmət etmişdir.

Ağahüseyin Teymur oğlu Kərimov Vətən müharibəsində iştirakına görə ADPK-nın rəhbərliyi tərəfindən “Fəxri Fərman”la təltif edilmişdir.

## Kərimov Heydər Eyvaz oğlu (1999)



Heydər Eyvaz oğlu Kərimov 28 iyun 1999-cu ildə Siyəzən rayonunda anadan olub.

2005-ci ildə Siyəzən rayon 4 nömrəli tam orta məktəbinin birinci sinifinə daxil olub və 2016-cı ildə məktəbi bitirib.

Elə həmin il Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat və informatika fakultəsinin "riyaziyyat müəllimliyi" ixtisasına daxil olub.

2020-ci ildə ali məktəbi bitirdikdən sonra "N"saylı hərbi hissədə həqiqi hərbi xidmətə başlayıb.

Vətən müharibəsi başlayan gündən bütün döyüşlərdə iştirak edən Heydər torpaqlarımızın düşmən işğalından azad olunnmasında fəal iştirak etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Heydər Eyvaz oğlu Kərimov torpaqlarımızın azad olunmasında göstərdiyi qəhrəmanlıqlara görə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif olunub.

2021-ci ilin iyulunda xidmətini başa vuraraq tərxis olunub.



## Qasımov Eltac Nazim oğlu (2000)

Eltac Nazim oğlu Qasımov 15 yanvar 2000-ci ildə Gədəbəy rayonunun Qasımlı kəndində anadan olmuşdur. 2006-cı ildə Araz Musayev adına Qasımlı kənd tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. Eltac məktəbdə müəllimləri və şagird yoldaşları tərəfindən sevilən bir şagird olmuşdur.

2015-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "ibtidai sinif müəllimliyi" ixtisasına qəbul olmuşdur. Eltac 2019-cu ildə kollecden məzun olmuş və həqiqi hərbi xidmətə yollanmışdır. Xidmətinə Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə başlamış və cəmi 1 ay sonra Xüsusi Təyinatlı Qüvvələrə seçilmişdir.

2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsində yaxından iştirak etmişdir. Döyüşlərdə Xüsusi Təyinatlı Qüvvələrin snayperçi əsgəri kimi fəaliyyət göstərmişdir. O, Füzuli, Cəbrayıl, Laçın, Xocavənd rayonları, Şuşa şəhəri, Hadrut və Murovdağ istiqamətində gedən döyüşlərə qatılmış, düşmənin 20-dən çox canlı qüvvəsini məhv etmişdir.

Eltac Nazim oğlu Qasımov torpaqlarımızın azad olunmasında göstərdiyi qəhrəmanlığına və şücaətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Füzulinin azad olmasına görə" medalı ilə təltif edilmişdir.

## Qasımov Ramiq Zamiq oğlu (1988)



Ramiq Zamiq oğlu Qasımov 25 oktyabr 1988-ci ildə Beyləqan şəhərində anadan olmuşdur. 2006-cı ildə Beyləqan şəhəri 1 nömrəli tam orta məktəbini bitirmişdir.

2013-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialının) "təhsildə sosial-psixoloji xidmət" ixtisasına qəbul olunmuşdur.

2016/2017-ci tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək universitetdən məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə fəal olmuşdur.

Ramiq müəllim 44 günlük Vətən müharibəsində iştirak edərək torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir.



## Qəhrəmanlı Hatəm Zöhrab oğlu (1997)

Hatəm Zöhrab oğlu Qəhrəmanlı 19 may 1997-ci ildə Bakı şəhərində anadan olub. 1 sentyabr 2003-cü ildə Bakı şəhəri, Nizami rayonu 201 saylı tam orta məktəbə daxil olub.

2014-cü ildə həmin məktəbdən məzun olaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin (Tarix və coğrafiya) "tarix müəllimliyi" ixtisasına qəbul olunub.

2018-ci ildə ali təhsilini müvəffəqiyyətlə tamamlayan Hatəm 2018-2019-cu illərdə Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissədə həqiqi hərbi xidmətdə olub.

Vətən müharibəsi başlanan zaman 29 sentyabr 2020-ci il tarixində səfərbərliyə cəlb olunan Hatəm müəllim oktyabrın 6-dan 17-dək Füzuli istiqamətində döyüşlərdə iştirak edib. 17-22 oktabr tarixlərində Cəbrayıl istiqamətindəki döyüşlərə qatılıb.

24 oktyabr tarixində Füzuli rayonunun Qarğabazar kəndində gedən döyüşlərdə sağ əlindən və başından qəlpə yarası alaraq yaralanıb.

Vətən müharibəsində torpaqlarımızın azad olunmasına görə mərdliklə döyüşdüyünə və göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Hatəm Zöhrab oğlu Qəhrəmanlı "Laçının azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

# Qəhrəmanlı Rauf Özübəy oğlu
# (1999)



Rauf Özübəy oğlu Qəhrəmanlı 9 may 1999-cu ildə Yardımlı rayonunda anadan olmuşdur. 2016-cı ildə Yardımlı rayonu A.Ç.Bağırov adına Vərgədüz kənd tam orta məktəbini bitirmişdir.

2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2019/2020-ci tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək universitetdən məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə fəal olmuşdur.

Rauf Özübəy oğlu Qəhrəmanlı 44 günlük Vətən müharibəsində torpaqlarımızın azad olunmasına görə mərdliklə döyüşmüş və göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.



# Qəhrəmanov Əli Nazim oğlu (1980)

Baş leytenant Əli Nazim oğlu Qəhrəmanov 1 fevral 1980-ci il tarixində Bakı şəhərində anadan olmuşdur.

1986-1996-cı illərdə tam orta təhsil almışdır.

Orta məktəbi bitirdikdən sonra 1997-ci ildə Nəsrəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin (indiki ADPU) İlkin hərbi və fiziki təlim (İncəsənət və fiziki tərbiyə) fakültəsinə qəbul olunmuş və ali təhsilini müvəffəqiyyətlə tamamlamışdır.

2001-ci ildə Heydər Əliyev adına Beynəlxalq Hava Limanında əmək fəaliyyətinə başlamışdır. 2008-ci ildən gömrük brokeri vəzifəsində çalışır.

2020-ci ilin sentyabr ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Yasamal rayon idarəsindən səfərbərliyə alınan Əli 28 sentyabr 2020-ci il tarixində Vətən müharibəsinə, aktiv hərbi döyüş əməliyyatlarına qoşulmuşdur.

2020-ci ilin oktyabr ayının 6-dan dekabr ayının 31-dək Füzuli-Horadiz-Cəbrayıl, Laçın və Xocavənd istiqamətlərində gedən döyüşlərdə fəal iştirak etmişdir. Cəbrayılın Kürdlər kəndi istqamətində aparılan döyüşlərdə bölmələrimiz arasında kommunikasiyanın idarə edilməsində xüsusilə fərqlənmişdir.

Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə baş leytenant Əli Nazim oğlu Qəhrəmanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Füzulinin azad edilməsinə görə" medalı ilə təltif edilib.

## Qənbərov İsaq Vidadi oğlu (1997)



İsaq Vidadi oğlu Qənbərov 25 dekabr 1997-ci ildə Bakı şəhərinin Badamdar qəsəbəsində anadan olub.

2004-2015-ci illərdə Badamdar qəsəbəsində Tofiq Məmmədov adına 239 nömrəli tam orta məktəbdə təhsil alıb.

Orta məktəbi bitirərək 2015-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Məktəbəqədər təhsil fakültəsinin "korreksiyaedici təlim" ixtisasına qəbul olunmuşdur.

2019-cu ildə ali təhsilini başa vurub, həqiqi hərbi xidmət keçmək üçün Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsinə yollanmışdır. Murov dağında postda xidmət etdiyinə görə "Təşəkkürnamə" ilə təltif edilmişdir. 2020-ci ilin iyul ayının 23-də hərbi xidmətdən tərxis olunaraq ehtiyata buraxılmışdır.

2020-ci ilin sentyabr ayının 29-da könüllü olaraq Vətən müharibəsinə yollanmışdır. Füzuli, Xocavənd rayonlarında Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmişdir.

Torpaqlarımızın düşmən işğalından azad edilməsində göstərdiyi şücaətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Laçının azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.



## Qəribov Musa Ağamusa oğlu (1995)

Musa Ağamusa oğlu Qəribov 25 sentyabr 1995-ci il tarixində Şamaxı rayonunun Qurdtəpə kəndində anadan olmuşdur.

2002-ci ildə Qurdtəpə kənd orta məktəbində orta təhsil almağa başlamışdır.

2013-cü ildə orta məktəbi bitirərək Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı Filialının (indiki ADPU-nun Şamaxı Filialı) "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunmuşdur. 2017-ci ildə ali təhsilini tamamlayıb.

2018-2019-cu illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

2019-cu ildə Müəllimlərin İşə Qəbulu (MİQ) imtahanında iştirak edərək yüksək nəticə əldə etmiş və müəllimlik fəaliyyətinə başlamışdır.

2020-ci ilin 27 sentyabrında başlanan Vətən müharibəsinə qatılan Musa müəllim Talış və Suqovuşan istiqamətində gedən hərbi əməliyyatlarda yaxından iştirak etmişdir.

Musa Ağamusa oğlu Qəribov torpaqlarımızın düşmən işğalından azad edilməsi yolunda göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

# Qubadov Turan Arif oğlu
# (1999)



Turan Arif oğlu Qubadov 16 iyun 1999-cu ildə Bakı şəhərində anadan olmuşdur.

2005-ci ildə Bakı şəhəri 279 nömrəli tam orta məktəbin birinci sinifinə daxil olmuşdur.

Orta məktəbi bitirdikdən sonra 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin "tarix müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

Ali təhsilini tamamladıqdan sonra həqiqi hərbi xidmətə yollanan Turan 44 günlük Vətən müharibəsində Kəlbəcər-Füzuli-Xocavənd-Şuşa istiqamətlərində gedən şiddətli döyüşlərdə təxliyə təminatı vəzifəsini icra etmişdir.

Döyüşlərdə fərqləndiyinə görə Turan Arif oğlu Qubadov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilib.



# Quliyev İlyas Mahir oğlu (1995)

İlyas Mahir oğlu Quliyev 4 noyabr 1995-ci il tarixində Biləsuvar rayonunun Xırmandalı kəndində anadan olmuşdur.

2001-ci ildə Ceyhun Məmmədov adına 1 saylı tam orta məktəbin birinci sinifinə daxil olmuşdur.

2013-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya və GÇH fakültəsinin (Tarix və coğrafiya) "coğrafiya müəllimliyi" ixtisasına daxil olmuşdur.

Ali təhsilini başa vurduqdan sonra 2017-2018-ci illərdə həqiqi hərbi xidmətini yerinə yetirmişdir.

27 sentyabr 2020-ci ildə başlamış Vətən müharibəsində Zəngilan-Qubadlı istiqamətində gedən döyüşlərdə fəaliştirak etmiş, torpaqlarımızın azad olunması uğrunda igidlik göstərmişdir.

Azərbaycan Respublikasının işğal altında olan ərazilərinin azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə İlyas Mahir oğlu Quliyev "Hərbi xidmətlərə görə", "Zəngilanın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

## Quliyev Süleyman Xasay oğlu (1977)




Baş leytenant Süleyman Xasay oğlu Quliyev 1977-ci ilin oktyabr ayının 10-da Laçın rayonunun İpək kəndində anadan olub. 1984-cü ildə Laçın rayonu Bülüldüz kənd tam orta məktəbinin birinci sinifinə daxil olub. Orta məktəbi müvəffəqiyyətlə bitirərək 1995-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai hərbi hazırlıq və fiziki tərbiyə (İncəsənət və fiziki tərbiyə) fakültəsinə qəbul olunub. 1999-ci ildə universitetdə ali təhsilini başa vuraraq Şuşa rayonu Sarıbaba kənd İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyində baş mühasib vəzifəsinə təyin olunub.

2007-ci ilin oktyabr ayında xidməti vəzifəsini yerinə yetirmək üçün həqiqi hərbi xidmətə yollanıb. Hərbi xidmətə Gədəbəy rayonunun Saratovka kəndində başlamış və tank əleyhinə tağım komandiri vəzifəsində xidmət etmişdir. 2008-ci ildən baş leytenant hərbi rütbəsi alaraq 2009-cu ilə kimi qərərgah bölük komandiri vəzifəsində xidmət etmiş və iyun ayının 15-də ehtiyata buraxılmışdır.

Xidmətdən sonra Sarıbaba kənd İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyində müavin vəzifəsində çalışıb.

Süleyman Vətən müharibəsi zamanı 2020-ci ilin 5 oktyabrında könüllü olaraq orduya yazılıb cəbhəyə yollanır, tank əleyhinə batareya komandiri kimi xidmət edir. Xocavənd, Cəbrayıl, Zəngilan və Qubadlı istiqamətində gedən döyüşlərdə iştirak edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Süleyman Xasay oğlu Quliyev vətənimizin ərazi bütövlüyünün təmin edilməsində fərqləndiyinə, igidliyinə görə “Cəbrayılın azad olunmasına görə” və “Zəngilanın azad olunmasına görə” medalları ilə təltif olunub. Komandanlıq tərəfindən Fəxri fərman təqdim edilib, ailəsinə və Şuşa RİH-nə təşəkkür məktubu göndərilib.




# Quliyev Taleh Vaqif oğlu (1994)

Leytenant Taleh Vaqif oğlu Quliyev 24 iyun 1994-cü ildə Qəbələ rayonunda yerləşən Hərbi şəhərcikdə anadan olub. 2001-ci ildə Zarağan kənd 2 saylı tam orta məktəbinin birinci sinifinə daxil olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin "tarix müəllimliyi" ixtisasına qəbul olunan Taleh 2016-cı ildə ali təhsilini müvəffəqiyyətlə tamamlayıb.

2016-2017-ci illərdə həqiqi hərbi xidmətini yerinə yetirən Taleh 2018-ci ilin oktyabrında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzinin ehtiyyat zabit hazırlığı kursuna daxil olmuş, "bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini" ixtisasını bitirərək leytenant rütbəsi almışdır.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başladığı gündən döyüşlərdə aktiv iştirak etmiş, xüsusi şücaət göstərmişdir. 18 oktyabr 2020-ci il tarixində Şuşa uğrunda gedən döyüşlərdə yaralanmışdır. Partlayış nəticəsində sağ çiyin nahiyəsindən travma və 6 qəlpə yarası almışdır.

Döyüşlərdə fərqləndiyinə görə Taleh Vaqif oğlu Quliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə","Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

# Qurbanlı Şadoğlan Mirələm oğlu (2001)



Şadoğlan Mirələm oğlu Qurbanlı 2001-ci ilin oktyabr ayının 1-də Lerik rayonunun Küsəkaran kəndində dünyaya gəlib.

2007-2016-cı illərdə Küsəkaran kəndində ümumi orta təhsil alan Şadoğlan X-XI sinifləri Lerik rayonunun Veri kəndində tamamlayıb.

2018-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "texnologiya müəllimliyi" ixtisasına qəbul olunub. Hazırda II tədris ili tələbəsidir.

2019-cu ilin oktyabrında həqiqi hərbi xidmətə yollanan Şadoğlan Qurbanov 2020-ci ilin sentyabrında başlanan Vətən müharibəsində Tərtər və Ağdərərayonları istiqamətində gedən döyüşlərə qatılıb.

Torpaqlarımızın azad edilməsi uğrundakı döyüşlərdə göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Şadoğlan Mirələm oğlu Qurbanlı "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilib.



# Qurbanov Ceyhun Qürbət oğlu (1989)

Leytenant Ceyhun Qürbət oğlu Qurbanov 1989-cu ilin oktyabr ayının 9-da Bakı şəhərində anadan olmuşdur. 2007-2011-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsində (Tarix və coğrafiya) “tarix müəllimliyi” ixtisası üzrə ali təhsil almışdır.

2011-ci ildə həqiqi hərbi xidmətə yollanmış və xidməti dövründə öz cəsurluğu ilə seçilmişdir. 2011-2013-cü illərdə kəşfiyyat tağım komandiri olaraq zabit kimi xidmət etmişdir.

Bir müddət Masallı rayonunun Qaralı kəndində müəllim kimi pedaqoji fəaliyyət göstərib.

Aprel döyüşlərində də könüllü olaraq cəbhəyə yazılsa da, ona hünərini göstərmək Vətən müharibəsində nəsib olub. Masallı qeydiyyatında olan Ceyhun sentyabr ayının 27-si rayona tətilə gedir. Müharibə təzə başlayanda marşrut avtobusunda olanda bir xəbər eşidir: “Rayonun Qodman kəndinə şəhid gətirilir, kapitandır.” Bu xəbərdən çox təsirlənən gənc müəllim marşrutdan düşərək birbaşa rayon səfərbərlik xidməti idarəsinə yollanır. Cəhbəyə getmək istədiyini, zabit olduğunu deyir. Ona hazırda orduya getməyə ehtiyac olmadığını desələr də, çox israr edir. İdarənin rəhbərlərindən biri səs-küyü görüb ona yaxınlaşır və deyir:

- Döyüşə getmək istəyirsən? Nə qədər vaxta gələ bilərsən?
- 2 saata...

Beləliklə, Ceyhun müəllim evə qayıdıb ailəsi ilə, balaca qızı ilə sağollaşır. Qızı üçün bir video da çəkir ki, şəhid olsam, böyüyəndə ona göstərin ki, atan Vətən uğrunda şəhid olub.

Əsgərləri ilə birgə Qubadlı uğrunda döyüşlərdə xeyli sayda uğurlu əməliyyat icra edir.

Ceyhun Qürbət oğlu Qurbanov torpaqlarımızın azad edilməsi uğrundakı döyüşlərdə göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə “Cəsur döyüşçü”, “Qubadlının azad olunmasına görə” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilmişdir.

# Qocayev Ümid Sakit oğlu (2001)



Ümid Sakit oğlu Qocayev 22 aprel 2001-ci il tarixində İmişli rayonunda dünyaya gəlib.

İmişli rayonu İdris Səfərov adına Yalavac kənd tam orta məktəbində ümumi orta təhsil alıb.

2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "fiziki tərbiyə müəllimliyi" ixtisasına qəbul olunub.

Orta ixtisas təhsilini tamamladıqdan sonra 2020-ci ilin iyul ayının 6-da Mingəçevirdə həqiqi hərbi xidmətə başlayıb. Hazırda həqiqi hərbi xidmətini davam etdirir.

Sentyabrın 27-dən başlanan Vətən müharibəsinə qatılaraq döyüşlərdə iştirak edib. Əsasən Talış və Suqovuşanın azad olunması uğrunda gedən döyüşlərdə xüsusi fəallıq göstərib. Dörd gün mühasirədə qaldıqdan sonra "530" saylı yüksəklikdə gedən döyüşlərdə yaralanıb.

Ümid Sakit oğlu Qocayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəsur döyüşçü" medalı ilə təltif edilib.

Hərbi xidmətdə vəzifəsi baş atıcı olub. Müharibədən əvvəl hərbi xidmətdə olduğu müddətdə "N" saylı hərbi hissənin komandanlığı tərəfindən valideynlərinə "Təşəkkür məktubu" göndərilib. ADPK tərəfindən Qarabağda döyüşlərdə iştirakına görə "Fəxri Fərman"a layiq görülüb.



# Mahmudov Xəyal İnşallah oğlu (1995)

Xəyal İnşallah oğlu Mahmudov 22 avqust 1995-ci ildə Saatlı rayonunun Fətəli kəndində anadan olmuşdur.

2001-ci ildə A.Çaxoyev adına Fətəli kənd tam orta məktəbinin birinci sinifinə daxil olan Xəyal 2012-ci ildə tam orta təhsilini tamamlayıb.

2013-cü ildə Bakı Sənaye Pedaqoji Kollecinin (indiki ADPU nəzdində ADPK) "informatika müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

Xəyal təhsilini donduraraq 2013-cü ildə həqiqi hərbi xidmətə yollanır. 2014-cü ildən "N" saylı hərbi hissədə 1-ci motoatıcı taborun 3-cü motoatıcı bölüyünün 2-ci motoatıcı tağımının 1-ci motoatıcı manqasında qumbaraatan vəzifəsində xidmət edib. Xəyal Mahmudov xidməti dövründə nümunəvi əsgər kimi bir neçə dəfə "Fəxri Fərman"la təltif edilmişdir.

2015-ci ildə xidmətini başa vurduqdan sonra təhsilini davam etdirmişdir. (Lakin Xəyalın qəbul olunduğu ixtisas bağlandığı üçün o, təhsilini "texnologiya müəllimliyi" ixtisası ilə ilə əvəz edib). Xəyal 2019-cu ildə kollecdən məzun olmuşdur.

Könüllü olaraq 44 günlük Vətən müharibəsinə yollanan Xəyal döyüşlərə Goranboy rayonu istiqamətindən başlamış, Füzuli, Qubadlı, Zəngilan və Laçın rayonları istiqamətində gedən gərgin döyüşlərdə iştirak etmişdir.

Xəyal İnşallah oğlu Mahmudov Azərbaycan torpaqlarının düşməndən azad olunması uğrunda aparılan döyüşlərdəki qəhrəmanlığına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Qubadlının azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib.

# Mehdiyev Seyidşah İlham oğlu (1997)



Seyidşah İlham oğlu Mehdiyev 19 iyul 1997-cı ildə Dəvəçi (indiki Şabran) rayonunun Zeyvə kəndində anadan olmuşdur. 2015-ci ildə Şabran rayonu Zeyvə kənd tam orta məktəbini əla qiymətlərlə bitirmişdir.

2015-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialının) "tarix və coğrafiya müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2019/2020-ci tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək universitetdən məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə, ictimai işlərdə fəal olmuşdur.

Seyidşah 44 günlük Vətən müharibəsində iştirak edərək torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir.

Seyidşah İlham oğlu Mehdiyev Vətən torpaqlarının azad olunması üçün aparılan döyüşlərdəki qəhrəmanlığına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif olunub.



# Məcidov Ramiz Zeynal oğlu (1995)

Ramiz Zeynal oğlu Məcidov 31 dekabr 1995-ci ildə Qusar rayonunun Cibir kəndində anadan olmuşdur.

2013-ci ildə Qusar rayonu Cibir kənd tam orta məktəbini bitirmişdir.

Elə həmin ildə də Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialının) "riyaziyyat və informatika müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2016/2017-ci tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir.

Ramiz 44 günlük Vətən müharibəsində iştirak edərək torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Ramiz Zeynal oğlu Məcidov Vətən müharibəsindəki igidliyinə və göstərdiyi şücaətinə görə "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

## Məhəmmədov Lətif Elmar oğlu (1999)




Lətif Elmar oğlu Məhəmmədov 2 fevral 1999-cu il tarixində Bakı şəhərinin Nərimanov rayonunda dünyaya göz açmışdır.

2005-ci ildə Bakı şəhəri 304 nomrəli məktəb-liseyin birinci sinifinə daxil olunmuşdur.

2016-ci ildə orta təhsilini tamamlayaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Tarix və coğrafiya fakültəsinin "tarix müəllimliyi" ixtisasına qəbul olunmuşdur. 2020-ci ildə ali təhsilini uğurla tamamlayaraq universitetdən məzun olmuşdur.

2020-ci ilin iyul ayında həqiqi hərbi xidmətə yollanmışdır. Hərbi xidmətdə manqa komandiri - kiçik çavuş vəzifəsini icra etmişdir.

Vətən müharibəsinin ilk günündən döyüşlərə qatılaraq böyük şücaətlə vuruşmuşdur.

Lətif Elmar oğlu Məhəmmədov döyüşlərdə göstərdiyi qəhrəmanlığına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Qubadlının azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.



# Məmmədli Əhməd Fəxrəddin oğlu (2000)

Əhməd Fəxrəddin oğlu Məmmədli 12 iyun 2000-ci ildə Sabirabad rayonunun Nərimankənd kəndində anadan olmuşdur. 2006-cı ildə Mübariz Şahmurov adına Nərimankənd kənd tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. O, məktəbdə müəllimləri və şagird yoldaşları tərəfindən sevilən nümunəvi bir şagird olmuşdur. Qoçaqlığı, mərdliyi və igidliyi ilə hər zaman seçilən biri olub. Uşaqlığından idmanla məşğul olmağı çox sevən Əhməd bir çox idman yarışlarının qalibi olmuş, eyni zamanda 2012-ci ildə Gürcüstanda keçirilən idman yarışında ermeni rəqibini məğlub etmişdir.

2017-ci ildə məktəbi yüksək qiymətlərlə bitirmiş və 2018-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "fiziki tərbiyə müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

Əhməd təhsilini yarımçıq qoyaraq 2019-cu ilin iyul ayında həqiqi hərbi xidmətə yollanmışdır. Xidmətinə Cəlilabad rayonunda yerləşən "N" saylı hərbi hissədə Xüsusi Təyinatlı Qüvvələrin tərkibində başlamışdır.

Əhməd Vətən müharibəsində Murovdağ, Füzuli, Cəbrayıl, Xocavənd, Kəlbəcər, Laçın və Qubadlı rayonları, həmçinin Şuşa şəhəri istiqamətində gedən döyüşlərdə qəhrəmancasına savaşıb.

Əhməd Fəxrəddin oğlu Məmmədli döyüşlərdə göstərdiyi qəhrəmanlığına və şücaətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Hərbi xidmətlərə görə", "Kəlbəcərin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Əhməd kəşfiyyatçı olub.

# Məmmədov Əhəd Rizvan oğlu (1995)



Əhəd Rizvan oğlu Məmmədov 19 oktyabr 1995-ci ildə Qobustan rayonunda anadan olmuşdur.

2002-ci ildə Bakı şəhəri, Binəqədi rayonu 306 nömrəli tam orta məktəbin birinci sinifinə daxil olmuşdur.

Orta məktəbi bitirdikdən sonra 2013-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin (Tarix və coğrafiya) "tarix müəllimliyi" ixtisasına qəbul olunmuşdur. 2017-ci ildə universitetdən məzun olmuşdur.

2017-2018-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

44 günlük müharibə başlanan zaman 28 sentyabr 2020-ci il tarixindən etibarən Ağdam-Suqovuşan-Ağdərə istiqamətində gedən aktiv hərbi əməliyyatlara qoşulmuş, torpaqlarımızın işğaldan azad olunması yolunda şücaət göstərmişdir.

Azərbaycan Respublikasının işğal altındakı ərazilərinin azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Əhəd Rizvan oğlu Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Ağdamın azad olunmasına görə" medalı ilə təltif edilib.



## Məmmədov Həsən Mübariz oğlu (1993)

Həsən Mübariz oğlu Məmmədov 6 mart 1993-cü ildə Xaçmaz şəhərində anadan olmuşdur.

Orta təhsilini Zərifə Əliyeva adına 8 saylı liseydə almışdır.

Həsən uşaqlıqdan idmanla məşğul olmağı çox sevirdi, 4 yaşından taekvando ilə məşğul olmağa başlamışdı. O, bir çox xarici ölkələrdəki idman yarışlarında yer tutub, o cümlədən bir neçə dəfə Azərbaycan çempionu olub.

Liseyi bitirdikdən sonra 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "fiziki tərbiyə müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

Kolleci bitirdikdən sonra 22 iyul 2019-cu ildə həqiqi hərbi xidmətə yollanan Həsən Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətə başlamış və Vətən müharibəsində Ağdam, Ağdərə, Tərtər rayonları və Suqovuşan istiqamətində gedən döyüşlərdə pulemyotçu manqa komandiri vəzifəsində cəsarətlə savaşmışdır.

Həsən gərgin döyüşlərdə qol və ayağından qəlpə yaraları, boğazından yanıq yarası alaraq ağır yaralanmışdır.

# Məmmədov Nicat Nizami oğlu (1998)



Nicat Nizami oğlu Məmmədov 6 noyabr 1998-ci il tarixində Göyçay rayonunda dünyaya gəlib.

2004-2015-ci illərdə tam orta təhsil alıb.

2015-2019-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı Filialında ali təhsil alıb.

Universitetdə təhsil aldığı illərdə filialın Tələbə Gənclər Təşkilatında təşkilati məsələlər üzrə sədr müavini vəzifəsində çalışıb.

2019-2020 ci illərdə Naxşıvan Muxtar Respublikasında həqiqi hərbi xidmət keçib.

Hərbi xidmətini bitirdikdən 2 ay sonra könüllü olaraq Vətən müharibəsinə qatılıb və Suqovuşun-Ağdərə istiqamətində gedən döyüşlərdə aktiv iştirak edib.

Nicat Nizami oğlu Məmmədov göstərdiyi qəhrəmanlığına və şücaətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.



## Məmmədov Nizami Asif oğlu (1999)

Nizami Asif oğlu Məmmədov 26 iyun 1999-cu ildə Mingəçevir şəhərində anadan olmuşdur.

2005-ci ildə Mingəçevir şəhər 13 nömrəli tam orta məktəbin birinci sinifinə daxil olmuşdur.

2016-cı ildə orta məktəbi bitirərək Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin "tarix müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

Ali təhsilini tamamladıqdan sonra 2020-2021-ci illərdə hərbi xidmətdə olmuşdur. Xidmət dövrü Vətən müharibəsinə təsadüf edən gənc əsgər Nizami Məmmədov zəfərdən sonra Ağdam rayonunun minalardan təmizlənməsində xüsusilə fərqlənmiş, əsgəri vəzifəsinin icrasında şücaət göstərmişdir.

## Məmmədov Ümid Rauf oğlu (1999)



Ümid Rauf oğlu Məmmədov 11 aprel 1999-cu ildə Qəbələ rayonunda dünyaya gəlib.

2016-cı ildə Qəbələ rayonu Zalam kənd tam orta məktəbini bitirmiş, elə həmin il Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

Universitetdə təhsil aldığı müddətdə qrup yoldaşlarının, müəllim və tələbələrlə mehriban münasibəti olan Ümid həm də ictimai işlərdə də fəal olub. Belə ki o, 2019-2020-ci illərdə Pedaqoji Universitetin Tələbə Gənclər Təşkilatında qrup meneceri kimi fəaliyyət göstərmişdir.

O, 2020-ci ildə ali təhsilini tamamlayaraq iyul ayının 10-da həqiqi hərbi xidmətə yollanır.

Vətən müharibəsinin başlandığı ilk günlərdən könüllü olaraq döyüşə qatılan Ümid 2020-ci ilin sentyabr və oktyabr aylarında Füzuli, Cəbrayıl rayonlarının azad edilməsi uğrunda gedən qızğın döyüşlərdə iştirak edir.

Gənc əsgər zəfərdən sonra hərbi xidmətini Zəngilan rayonunda, sərhədlərimizi qorumaqla davam etdirib.

Ümid Rauf oğlu Məmmədov torpaqlarımızın azad olunmasında göstərdiyi qəhrəmanlığına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.



## Məmmədov Seyidmiri Şirin oğlu (1997)

Baş əsgər Seyidmiri Şirin oğlu Məmmədov 1 iyun 1997-ci ildə Göyçay rayonunun Alpout kəndində anadan olub.

2004-cü ildə Alpout kənd tam orta məktəbinin birinci sinifinə daxil olub.

2015-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı Filialının (indiki ADPU-nun Şamaxı Filialı) "tarix və coğrafiya müəllimliyi" ixtisasına qəbul olunub. Ali təhsil illərində "Müəllimlərin inklüziv təhsil sahəsində bacarıqlarının artırılması layihəsi" çərçivəsində təlimlərdə iştirak etməklə müvafiq sertifikat alıb.

2020-ci ildə universitetdən məzun olmuş və Azərbaycan Ordusunda müddətli həqiqi hərbi xidmətə başlamışdır.

2020 -ci ilin 27 sentyabrında Vətən müharibəsinin başlanması ilə döyüş əmri alaraq xidmət etdiyi Milli Ordunun tərkibində baş kəşfiyyatçı əsgər vəzifəsində 44 günlük müharibənin iştirakçısı olub.

Əsasən Tərtər rayonunun Talış və Suqovuşan kəndləri istiqamətlərində və Laçın rayonu uğrunda gedən döyüş əməliyyatlarında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Seyidmiri Şirin oğlu Məmmədov torpaqlarımızın azad olunması yolunda göstərdiyi şücaətinə görə "Laçının azad olunmasına görə" medalı ilə təltif edilib.

## Məmmədzadə Zöhrab Rövşən oğlu (1999)



Zöhrab Rövşən oğlu Məmmədzadə 24 noyabr 1999-cu ildə İsmayıllı rayonunun Sumağalı kəndində anadan olmuşdur.

Zöhrab 2006-cı ildə Sumağalı kənd tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. Məktəbdə çalışqan və nümunəvi şagird olmuşdur.

2017-ci ildə məktəbi bitirmiş və Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "fiziki tərbiyə müəllimliyi" ixtisasına qəbul olunmuşdur. Hazırda həmin ixtisasın IV tədris ilinin tələbəsidir.

Zöhrab 29 sentyabr 2020-ci ildə səfərbərliklə Vətən müharibəsinə çağırılmışdır. Füzuli və Cəbrayıl rayonları istiqamətində gedən döyüşlərdə iştirak etmiş və Cəbrayıl rayonu istiqamətində yaralı döyüş yoldaşına kömək edən zaman snayper atəşi nəticəsində yaralanmışdır.

Zöhrab Rövşən oğlu Məmmədzadə döyüşlərdə göstərdiyi şücaətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.




## Mənəfov Fətəli Soltan oğlu
## (1993)

Leytenant Fətəli Soltan oğlu Mənəfov 16 sentyabr 1993-cü il tarixində Neftçala şəhərində anadan olub.

2000-ci ildə Neftçala şəhəri 1 saylı tam orta məktəbinin birinci sinifinə daxil olub.

Orta məktəbi bitirdikdən sonra 2011-2015-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Tarix fakültəsinin (Tarix və coğrafiya) "tarix müəllimliyi" ixtisasında ali təhsil alıb.

2017-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında (NMR) həqiqi hərbi xidmət keçib.

2019-cu ilin aprel ayında Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzinin ehtiyat zabit hazırlığı kursuna daxil olmuş və "bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini" ixtisası üzrə tam kursu bitirərək leytenant rütbəsi almışdır.

27 sentyabr 2020-ci il tarixindən etibarən Vətən müharibəsinə qatılan leytenant F.Mənəfov sentyabrın 30-da, gecə saatlarında Ağdərə uğrunda gedən döyüşlərdə "Ağ Uçuq" adlanan istiqamətdə yaralanıb. Qısa müddət müalicə olunduqdan sonra yenidən döyüşə qayıdıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə torpaqlarımızın azad olunması uğrunda aparılmış döyüşlərdə xüsusi şücaət və qəhrəmanlıq göstərdiyinə görə leytenant Fətəli Soltan oğlu Mənəfov "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

## Mərdanov Ruslan Yavər oğlu
## (1991)



Ruslan Yavər oğlu Mərdanov 13 noyabr 1991-ci ildə Quba rayonunun Susayqışlaq kəndində anadan olmuşdur. 2009-cu ildə A.Babayev adına Susay kənd tam orta məktəbini bitirmişdir.

2010-cu ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialının) “tarix və coğrafiya müəllimliyi” ixtisasına qəbul olunmuşdur.

2013/2014-cü tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək ali təhsilini tamamlamışdır.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir.

Ümumrayon və filialdaxili tədbirlərdə, ictimai işlərdə fəal olmuşdur.

Ruslan 44 günlük Vətən müharibəsində iştirak edərək torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir.



# Mərdanov Səfa Hafiz oğlu (1997)

Səfa Hafiz oğlu Mərdanov 13 sentyabr 1997-cı ildə Quba rayonunun Üçkün kəndində anadan olmuşdur. 2015-ci ildə Quba rayonu Dağlı kənd tam orta məktəbini əla qiymətlərlə bitirmişdir.

2019-ci ildə qəbul imtahanlarında iştirak edərək Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının "tarix və coğrafiya müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

Hal-hazırda III tədris ilinin tələbəsidir. Nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənir. Ümumrayon və filialdaxili tədbirlərdə, ictimai işlərdə fəaldır.

Vətənpərvər bir gənc olan Səfa 44 günlük Vətən müharibəsində əzmlə düşmənə qarşı vuruşmuşdur.

# Möhbalıyev Mahmud Məhəmməd oğlu (1991)



Baş leytenant Mahmud Məhəmməd oğlu Möhbalıyev 1991-ci ilin sentyabr ayının 2-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Qıvraq kəndində anadan olub.

1998-ci ildə Qıvraq kənd 2 nömrəli tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. 2009-cu ildə Sumqayıt şəhər Nizami Gəncəvi adına Texniki və Təbiət Elmləri liseyini bitirib.

2009-cu ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya (Kimya və biologiya) fakültəsinə qəbul olunmuşdur.

2011-ci ilin noyabr ayından 2013-cü ilin iyun ayına qədər Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tələbə Gənclər Təşkilatının sədri olub. Universitetdə ictimai fəaliyyəti illərində Səbail rayon İcra Hakimiyyəti tərəfindən "İlin Aktiv Gənci" və "Ən Yaxşı Təşkilatçı" mükafatlarına layiq görülüb.

2013-2014-cü illərdə Əlahiddə Ümumqoşun Ordu sıralarında müddətli həqiqi hərbi xidmətdə olub.

2016-cı ilin noyabr ayının 10-da Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzində keçirilən Ehtiyyat Zabit Hazırlığı Kursuna qəbul olunub.

2017-ci ilin fevral ayının 14-dən leytenant hərbi rütbəsi ilə Müdafiə Nazirliyinin rəsmi orqanı olan "Azərbaycan Ordusu" qəzetinin redaksiyasında hərbi müxbir vəzifəsində xidmət edir.

Vətən müharibəsi başlayarkən döyüş bölgəsinə ezam olunaraq cəbhədə "Azərbaycan Ordusu" qəzetinin xüsusi buraxılışı olan "Qələbə Uğrunda" cəbhə qəzetini çap etdirib. Döyüşlər zamanı Azərbaycan əsgərinin qəhrəmanlıqları haqqında məqalələr, işğaldan azad olunan ərazilərimizin şəkilləri və digər məlumatlar cəbhə qəzetinin səhifələrində öz əksini tapmışdır.

Baş leytenant Mahmud Məhəmməd oğlu Möhbalıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiyinə gorə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir.



# Muradov İbrahim Rəhman oğlu (1992)

İbrahim Rəhman oğlu Muradov 19 dekabr 1992-ci ildə Bakı şəhərində anadan olmuşdur. 2011-ci ildə Bakı şəhərində yerləşən 192 nömrəli tam orta məktəbi bitirmişdir.

2011-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialının) "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2014/2015-ci tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək ali məktəbdən məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filial daxili tədbirlərdə, ictimai işlərdə fəal olmuşdur.

İbrahim Rəhman oğlu Muradov 44 günlük Vətən müharibəsində mərdliklə və cəsarətlə döyüşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif olunmuşdur.

## Musabəyov Azad Rəhim oğlu
## (1996)



Azad Rəhim oğlu Musabəyov 11 dekabr 1996-cı il tarixində Şabran rayonunun Gəndov kəndində anadan olmuşdur.

2003-cü ildə Gəndov kənd tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur.

2014-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin (Tarix və coğrafiya) "tarix müəllimliyi" ixtisasına qəbul olunmuşdur. 2018-ci ildə universitetdən məzun olmuşdur.

2018-2019-cu illərdə həqiqi hərbi xidmətdə olmuşdur.

Vətən müharibəsi zamanı 27 sentyabr 2020-ci il tarixindən etibarən Füzuli rayonunun Horadiz qəsəbəsi istiqamətində gedən hərbi əməliyyatlarda aktiv iştirak etmiş, cəsarətlə savaşmışdır.



## Musayev İlkin Tahir oğlu
## (1997)

İlkin Tahir oğlu Musayev 17 aprel 1997-ci ildə Quba rayonunun Zizik kəndində anadan olmuşdur. 2015-ci ildə Quba şəhər Texniki təmayüllü liseyini bitirmişdir.

2015-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialının) “riyaziyyat və informatika müəllimliyi” ixtisasına qəbul olunmuşdur.

Hal-hazırda müddətli həqiqi hərbi xidmətdə olduğu üçün akademik məzuniyyətdədir.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə fəal olmuşdur.

İlkin Tahir oğlu Musayev 44 günlük Vətən müharibəsində mərdliklə vuruşmuş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə “Xocavəndin azad olunmasına görə” və “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunmuşdur.

# Musayev Nadir Dəmir oğlu (1976)



Polkovnik-leytenant Nadir Dəmir oğlu Musayev 27 fevral 1976-cı ildə Gədəbəy rayonunun Şahdağ (Şurakənd) kəndində anadan olmuşdur.

Nadir 1983-cü ildə Maarif Əsgərov adına Şahdağ kənd tam orta məktəbinin birinci sinifinə daxil olmuş və 1994-cü ildə məktəbi yüksək qiymətlərlə bitirərək Nəsirəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai hərbi hazırlıq və fiziki tərbiyə (İncəsənət və fiziki tərbiyə) fakültəsinə daxil olmuş və 1998-ci ildə universitetdən məzun olmuşdur.

Nadir Musayev 1998-1999-cu illərdə Gədəbəy rayonunun Hacıalılar kənd tam orta məktəbində gənclərin çağırışaqədərki hazırlığı müəllimi kimi pedaqoji fəaliyyət göstərmişdir.

2000-2001-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə xidmət edib. 2002-ci ildən etibarən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında xidmət edir.

Nadir xidməti dövründə daxili işlər nazirinin 14.01.2005-ci il tarixli 58 nömrəli əmri ilə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illik yubileyi", Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 06.05.2005-ci il tarixli 836 nömrəli Sərəncamı ilə "Hərbi xidmətlərinə görə" medalı, daxili işlər nazirinin 14.08.2008-ci il tarixli 1719 nömrəli əmri ilə "Silahlı Qüvvələrin 90 illiyi" yubiley medalı, 29.11.2012-ci tarixli 2522 nömrəli əmri ilə "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı, 05.11.2013-cü il tarixli 248 nömrəli əmri ilə "Silahlı Qüvvələrin 95 illiyi" yubiley medalı, 29.06.2017-ci il tarixli 1899 nömrəli əmri ilə "Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medalı, 31.12.2013-cü il tarixli 307 nömrəli əmri ilə "Xidmətdə fərqləndiyinə görə" döş nişanı, 25.05.2004-cü il tarixli 1120 nömrəli əmri ilə mükafat qaydasında vaxtından əvvəl kapitan hərbi rütbəsi və dəfələrlə Fəxri Fərman, Təşəkkürnamə, qiymətli hədiyyələr və s. İlə təltif edilmişdir.

2003-cü ildə Türkiyədə komando – xüsusi təyinatlılar üçün kursu, 2007-ci ildə Macarıstanda ictimai asayişin mühafızəsi üzrə kursu, 2013-cü ildə Türkiyədə "kimyəvi, baktereoloji, radiasiya və nüvə müdafiə zabiti kursu"nu bitirmişdir.

2014-cü ildə Türkiyə Cümhuriyyəti Hərbi Akademiyasında təhsil almışdır.

44 günlük Vətən müharibəsində arxa cəbhədə xidmət göstərmiş və xidməti zərurətlə əlaqədar Bərdə rayonuna ezam olunmuşdur.

Nadir hazırda Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsində xidmət edir.

# Mustafayev Əmrah Tərlan oğlu (1998)



Kiçik çavuş Əmrah Tərlan oğlu Mustafayev 23 fevral 1998-ci il tarixində Qəbələ rayonunun Abrıx kəndində anadan olub.

2004-2015-ci ildə Abrıx kənd tam orta məktəbində təhsil alıb.

2015-2020-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı Filialında "riyaziyyat və informatika müəllimliyi" ixtisası üzrə ali təhsil alıb.

2020-ci ildə həqiqi hərbi xidmətə yollanan Əmrah xidmətini Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində icra edib.

Vətən müharibəsi dövründə xidmətini Cəbrayılda, zəfərdən sonra isə Yardımlıda davam etdirib.

Xidmətdə qazandığı nailiyyətlərə görə Əmrah Tərlan oğlu Mustafayev kiçik çavuş rütbəsi alıb.

2021-ci ilin iyul ayında ordu sıralarından tərxis olunub.



# Mustafayev İsmayıl Qasım oğlu (1995)

Leytenant İsmayıl Qasım oğlu Mustafayev 18 dekabr 1995-ci ildə Bakı şəhərində anadan olmuşdur.

2002-ci ildə 249 nömrəli tam orta məktəbin birinci sinifinə daxil olmuşdur.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin (Tarix və coğrafiya) "tarix müəllimliyi" ixtisasına qəbul olunan İsmayıl 2017-ci ildə ali təhsilini müvəffəqiyyətlə başa çatdırmışdır.

2018-ci ildə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Təlim-Tədris Mərkəzinin ehtiyat zabit hazırlığı kursunu bitirmiş və leytenant rütbəsi almışdır.

2019-cu ilin fevralından təmas xəttində zabit kimi xidmət etmişdir.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsinin başladığı andan Murov-Talış-Suqovuşan istiqamətində döyüşlərdə aktiv iştirak etmişdir.

1 oktyabr 2020-ci il tarixində Suqovuşan istiqamətində gedən döyüşlərdə yaralanmışdır.

Döyüşlərdə xüsusi fərqləndiyinə görə İsmayıl Qasım oğlu Mustafayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.

## Mustafayev Nəimi Fizuli oğlu (1995)



Nəimi Fizuli oğlu Mustafayev 4 dekabr 1995-ci il tarixində Gəncə şəhərində dünyaya gəlib. 2001-ci ildə Gəncə şəhər Mirzə Abbaszadə adına 20 nömrəli tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin (indiki Tarix və coğrafiya fakültəsi) "tarix müəllimliyi" ixtisasına qəbul olmunan Nəimi 2016-cı ildə ali təhsilini uğurla başa vurmuşdur.

2016-2017-ci illərdə həqiqi hərbi xidmətini yerinə yetirmişdir.

2020-ci ildə Vətən müharibəsi başlanan zaman könüllü olaraq döyüşlərə qoşularaq Füzuli-Xocavənd istiqamətində aktiv döyüş əməliyyatlarında iştirak etmiş, torpaqlarımızın işğaldan azad olunması uğrunda aparılan döyüşlərdə fərqlənmişdir.

13 oktyabr 2020-ci il tarixində gərgin döyüşlər zamanı baş qoruyucu dəbilqəsindən güllə yarası ilə travma almışdır. Lakin döyüşə davam edən Nəimi dekabrın 31-də ordudan tərxis olunmuşdur.

Azərbaycan Respublikasının işğal altında olan ərazilərinin azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Nəimi Fizuli oğlu Mustafayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



# Mürsəlov Qurban Şakir oğlu (1998)

Qurban Şakir oğlu Mürsəlov 1998-ci ilin avqust ayın 10-da anadan olub.

2004-cü ildə Qobustan rayonu Çuxanlı kənd tam orta məktəbinin birinci sinifinə daxil olub. Orta məktəbdə oxuduğu müddətdə rayon və respublika üzrə olimpiadalarda yerlər tutmuşdur.

2015-ci ildə orta məktəbi bitirərək Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı Filialına (indiki ADPU-nun Şamaxı Filialı) qəbul olunub. Universitetdə oxuduğu müddətdə Tələbə Gənclər Təşkilatında və Tələbə Həmkarlar İttifaqı Komitəsində müxtəlif vəzifələrdə könüllü fəaliyyət göstərib. Bir çox intellektual yarışlarda iştirak edərək uğurlu nəticələr əldə edib. Həmçinin bir çox ictimai təşkilatlarının fəaliyyətində (Regional İnkişaf İctimai Birliyi, BİR Tələbə Könüllü Proqramı və s.) iştirak etmişdir.

Universitetdən məzun olduqdan sonra həqiqi hərbi xidmətə yollanıb. 44 günlük Vətən müharibəsində Ağdam, Suqovuşan və Xocavəndin azad olunmasında iştirak edib. Suqovuşan uğrunda gedən döyüşlər zamanı yaralansa da, müalicə olunduqdan sonra yenidən savaşa qatılıb. Xidmət etdiyi hərbi hissədə 100 nəfərdən çox döyüş yoldaşı şəhid olmuşdur.

2021-ci ilin iyul ayında ordu sıralarından tərxis olunub.

Qurban Şakir oğlu Mürsəlov torpaqlarımızın azad olunması uğrundakı döyüşlərdə göstərdiyi qəhrəmanlığına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə “Ağdamın azad olunmasına görə” və “Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif olunub.

## Mürsəlov Rauf Həmid oğlu
## (1994)



Gizir Rauf Həmid oğlu Mürsəlov 16 yanvar 1994-cü ildə Ağsu rayonunun İlxıçılar kəndində anadan olmuşdur.

2000-ci ildə Şəhid Müşviq Musayev adına Ağsu rayonu İlxıçı kənd tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. 2011-ci ildə Bakı şəhəri Şəhid Dilavər Məmmədzadə adına 232 nömrəli tam orta məktəbi bitirmişdir.

Orta təhsilini tamamladıqdan sonra Azerbaycan Dövlət Pedaqoji Universtetinin Cografiya və GÇH fakültəsinin (Tarix və coğrafiya) "gənclərin çağıraşaqədərki hazırlığı və fiziki tərbiyəsi" ixtisasında ali təhsil almağa başlayıb.

Universitetdən məzun olduqdan sonra 2015-ci ilin oktyabr ayının 14-də Daxili Qoşunların "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmətə başlayıb, 2016-cı ilin oktyabrın 18-də xidmətini başa vuraraq ehtiyyata buraxılmışdır.

Rauf Mürsəlov 2017-ci ilin fevral ayının 3-dən Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzinin gizir hazırlığı kurslarında iştirak etmişdir. Bundan sonra 2017-ci ilin aprel ayının 14-dən etibarən Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində gizir kimi xidmətə başlamışdır.

2020-ci ilin sentyabrın 27-də başlayan Vətən müharibəsində arxa cəbhə təminatında iştirak etmişdir. Hal-hazırda həmin hərbi hissədə xidmətini davam etdirir.



## Nağıyev Namiq Duman oğlu (1975)

Baş leytenant Namiq Duman oğlu Nağıyev 9 may 1975-ci ildə Gədəbəy rayonunun Blankənd kəndində anadan olmuşdur. Orta təhsilini Gədəbəy rayonunun Zəhmət kənd tam orta məktəbində almışdır.

Namiq 1994-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai hərbi hazırlıq və fiziki tərbiyə fakültəsinə (İncəsənət və fiziki tərbiyə) daxil olmuşdur. 1998-ci ildə universitetdən məzun olmuşdur.

2004-2005-ci illərdə baş leytenant rütbəsində motoatıcı tağım komandiri vəzifəsində həqiqi hərbi xidmət etmişdir.

Namiq Nağıyev 2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsində motoatıcı tağım komandiri kimi iştirak etmişdir. O, Cəbrayıl, Qubadlı və Laçın rayonları istiqamətində gedən döyüşlərdə tabeliyindəki əsgərlərlə birgə mərdliklə savaşmış, qəhrəmanlıq və şücaət göstərmişdir.

Namiq müəllim hal-hazırda Qoşqar Əhmədov adına 1 nömrəli Slavyanka kənd tam orta məktəbində hərbi rəhbər vəzifəsində çalışır.

## Nəbiyev Əmirxan Rza oğlu
## (1991)



Əmirxan Rza oğlu Nəbiyev (ADPU-nun Şamaxı Filialının məzunu, Vətən müharibəsi şəhidi "qorxmaz leytenant" ləqəbli Orxan Nəbiyevin qardaşı) 12 avqust 1991-ci ildə Şamaxı rayonunun Qurdtəpə kəndində anadan olmuşdur.

1997-2008-ci illərdə Qurttəpə kənd tam orta məktəbində təhsil almışdır.

2008-2012-ci illərdə Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı Filialında (indiki ADPU-nun Şamaxı Filialı) "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisası üzrə bakalavr təhsili almışdır.

2013-cü ildən Şamaxı rayonu Zarxı kəndində, 2014-cu ildən isə Qurdtəpə kəndində müəllim olaraq fəaliyyət göstərir.

2020-ci ildə Vətənin müharibəsi başlanan andan Əmirxan müəllim də könüllü olaraq cəbhəyə yollanır. Talış, Suqovusan, Barabat meşəsi və digər ərazilərimizin düşməndən azad olunması uğrunda rəşadətlə döyüşüb.

Əmirxan Rza oğlu Nəbiyev göstərdiyi igidliyə və rəşadətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Laçının azad olunmasına görə" medalı ilə təltif edilmişdir.



## Nərimanov Mövlan Asim oğlu (1997)

Mövlan Asim oğlu Nərimanov 1997-ci ilin oktyabr ayının 29-da Şamaxı rayonunun Qurdtəpə kəndində anadan olub.

2002-ci ildə Şamaxı rayon Çağan kənd ümumi orta məktəbinin birinci sinifinə daxil olub. 2013-cü ildə Qurtəpə kənd tam orta məktəbinin XI sinifini bitirib.

2013-cü ildə Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı Filialının (indiki ADPU-nun Şamaxı Filialı) "tarix və coğrafiya müəllimliyi" ixtisasına qəbul olunub. 2017-ci ildə universitetdən məzun olub.

2017-2018-ci illərdə həqiqi hərbi xidmətdə olub.

2020-ci ilin sentyabr ayının 29-da Vətən müharibəsinə yollanan Mövlan müəllim "N" saylı hərbi hissənin tərkibində Suqovuşanın müdafiəsində iştirak edib.

2021-ci ilin yanvarın 9-da ordu sıralarından tərxis olunub.

## Nuriyev Murad Sənan oğlu
## (1997)



Murad Sənan oğlu Nuriyev 30 iyun 1997-ci ildə Gədəbəy rayonunun Soyuqbulaq kəndində anadan olub.

2004-cü ildə birinci sinifə gedən Murad 2015-ci ildə məktəbi bitirib.

2015-2019-cu illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat və informatika fakültəsində (Riyaziyyat) "riyaziyyat müəllimliyi" ixtisası üzrə ali təhsil almışdır.

Murad müəllim 2020-ci ilin sentyabrında könüllü olaraq hərbi təlimlərə qatılıb və 27 sentyabrdan etibarən Füzuli (Şükürbəyli, Alxanlı və Qərbənd kəndləri) və Şuşa ( Çanaqçı və Daşaltı kəndləri) istiqamətində gedən döyüşlərdə məharətlə iştirak edib.

Göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Murad Sənan oğlu Nuriyev "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Qeyd edək ki, Muradın dayısı Cəmaləddin İsmayılov 1992-ci ildə Daşaltı əməliyyatı zamanı qəhramancasına şəhid olmuşdur.

İgid döyüşçü savaşda olduğu halda anasına Şəmkirdə olduğunu və ailəsi narahat olmasın deyə ön cəbhədə olmadığını deyib. Zəfər günü isə anasına zəng vuraraq, - *"Ana, dayımın olduğu yerdəyəm, Şuşada hər şey yaxşıdır!"* – deyərək torpaqlarımızı azad etdiklərini və dayısı da daxil olmaqla bütün şəhidlərimizin qisasını aldıqlarını bildirmişdir.



# Nuriyev Ramiz Əliyar oğlu (1995)

Ramiz Əliyar oğlu Nuriyev 14 oktyabr 1995-ci ildə İsmayıllı rayonunun Qoşakənd kəndində anadan olmuşdur.

İsmayıllı şəhər 5 nömrəli tam orta məktəbdə təhsil alıb.

2013-cü ildə Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı Filialının (indiki ADPU-nun Şamaxı Filialı) "tarix və coğrafiya müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2017-ci ildə universitetdən məzun olduqdan sonra vətən qarşısında borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə yollanıb. Ramiz əvvəlcə Ağcabədi rayonunda, daha sonra isə Beyləqan və Füzuli rayonlarında xidmət edib.

Həqiqi hərbi xidmətini başa vurduqdan sonra İsmayıllı Rayon Tarix-Diyarşünaslıq Muzeyində bələdçi, daha sonra baş fond mühafizi və direktor vəzifələrini müvəqqəti icra edib.

Vətən müharibəsi başlanandan sonra səfərbərliklə döyüşlərdə iştirak edən Ramiz Cəbrayıl və Qubadlı rayonları istiqamətində gedən döyüşlərdə ön sıralarda savaşıb. Zəfərdən sonra xidmətini Daşaltı və Çanaqçı kəndlərinin mühafizəsində davam etdirib.

Ramiz Əliyar oğlu Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə torpaqlarımızın azad olunması uğrunda göstərdiyi şücaətə görə "Cəbrayılın azad olmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ramiz zəfərdən sonra evinə dönərək yenidən öz işinə davam edir, İsmayıllı Rayon Tarix-Diyarşünaslıq Muzeyində baş fond mühafizi və direktor vəzifələrini müvəqqəti icra edən şəxs kimi fəaliyyət göstərir.

## Lazımov Məhəmməd Elşən oğlu (2001)



Məhəmməd Elşən oğlu Lazımov 9 mart 2001-ci ildə Qaradağ rayonu, Ələt qəsəbəsində anadan olub.

2007-ci ilə Hacıqabul rayonu, Qızılburun kənd tam orta məktəbinin birinci sinifinə daxil olub.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinə qəbul olunub.

Məhəmməd 2019-cu ildə təhsilini yarımçıq qoyub həqiqi hərbi xidmətə yollanıb. Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsində xidmətə başlayıb. Bir müddət sonra xidmətini Xüsusi Təyinatlı Qüvvələrin sırasında davam etdirib.

2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsinə qatılan Məhəmməd Füzuli uğrunda gedən döyüşlərdə ayağından yaralanıb.

Məhəmməd Elşən oğlu Lazımov göstərdiyi cəsarətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.



## Orucov Məhəbbət Məhəmməd oğlu (1996)

Leytenant Məhəbbət Məhəmməd oğlu Orucov 14 iyun 1996-cı ildə Şamaxı rayonunun Sis kəndində anadan olub.

İlk təhsilini doğulduğu Sis kəndində alan Məhəbbət daha sonra Şamaxı rayonu Texniki, humanitar ve təbiət fənləri liseyində təhsilini davam etdirib.

2014-cü ildə liseydən məzun olaraq Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı Filialının (indiki ADPU-nun Şamaxı Filialı) "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunub.

2018-ci ildə ali təhsilini tamamlayaraq həqiqi hərbi xidmətə yollanıb. 2018-2019-cu illərdə Naxçıvan Muxtar Respublikasında xidmət keçib. Daha sonra zabit hazırlığı kursunu müvəffəqiyyətlə bitirərək leytenant rütbəsi ilə ehtiyyata buraxılıb.

Vətən müharibəsi başlanan andan könüllü olaraq ordu sıralarına qatılan Məhəbbət Talış-Suqovuşan istiqamətində gedən döyüş əməliyyatlarında iştirak edib.

# Oruczadə Tural Nazim oğlu (1992)



Tural Nazim oğlu Oruczadə 27 may 1992-ci ildə Yevlax şəhərində anadan olmuşdur. 2009-cu ildə Kəlbəcər rayonu 78 saylı tam orta məktəbini bitirmişdir.

2010-cu ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialının) "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2013/2014-cü tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək ali məktəbdən məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə, ictimai işlərdə fəal olmuşdur.

Tural müəllim 44 günlük Vətən müharibəsində cəsarətlə savaşaraq torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir.

Tural Nazim oğlu Oruczadə torpaqlarımızın azad olunması uğrundakı döyüşlərdə göstərdiyi cəsarətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunub.



# Paşayev Söhrab Sərxan oğlu (2000)

Söhrab Sərxan oğlu Paşayev 20 iyun 2000-ci ildə Gədəbəy rayonunun Miskinli kəndində anadan olmuşdur.

Orta təhsilini Şamət Tağıyev adına Miskinli kənd 2 nömrəli tam orta məktəbində almışdır. Söhrab məktəbdə müəllimləri və şagird yoldaşları tərəfindən sevilən şagird olmuşdur. Məktəb illərində bir çox fəxri fərmanlarla təltif olunub, həmçinin basketbol yarışında ikincilik, voleybol yarışında üçüncülük, fudzal üzrə üçüncülük və sair kimi uğurları var.

Söhrab 2017-ci ildə məktəbi bitirmiş və Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin “texnologiya müəllimliyi” ixtisasına qəbul olunmuşdur. Kollecin ictimai həyatında fəal iştirak etdiyinə görə dəfələrlə diplomla təltif edilmişdir.

07 aprel 2018-ci ildə təhsilini donduraraq həqiqi hərbi xidmətə yollanmış və xidmətinə Mingəçevirdə yerləşən “N” saylı hərbi hissədə başlamışdır.

2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsinə könüllü qatılan Söhrab Talış, Suqovuşan və Laçın rayonları istiqamətində gedən döyüşlərdə pulemyotçu kimi igidliklə savaşmışdır.

Söhrab Sərxan oğlu Paşayev döyüşlərdəki qəhrəmanlığına görə Azərbaycan Dövlət Pedaqoji Kolleci tərəfindən “Fəxri Fərman”la təltif edilmişdir.

## Ramizov Ramil Ramiz oğlu (1999)



Ramil Ramiz oğlu Ramizov 1999-cu ilin 3 oktyabr tarixində Ağstafa rayonunun Sadıqlı kəndində anadan olub. I-IX siniflərdə Ağstafa rayonu Məmməd Məmmədov adına Sadıqlı kənd tam orta məktəbində, X-XI siniflərdə isə Ağstafa rayonu Böyükkəsik kənd tam orta məktəbində təhsil alıb.

2016-cı ildə tam orta təhsilini tamamlayaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin "coğrafiya müəllimliyi" ixtisasına daxil olub.

Təhsil aldığı müddətdə ictimai fəallığı ilə seçilən Ramil universitetdə "Forever" komandasının aktiv üzvü kimi mütəmadi olaraq intellektual yarışlarda iştirak edib. O cümlədən ixtisasına aid çoxlu konfrans və yarışlara qatılıb. Azərbaycan Coğrafiya Cəmiyyətinin həqiqi üzvü olub.

2020-ci ildə universiteti müvəffəqiyyətlə bitirib və iyul ayında həqiqi hərbi xidmətə yollanıb. Vətən müharibəsi başlayana qədər Ağcabədi rayonunda xidmət edib.

Müharibə başlayan ilk gündən Zəfər gününə kimi Ağdam istiqamətindəki döyüşlərdə topçu kimi düşmənə qan uddurararaq cəsarətlə savaşıb.

Vətən müharibəsi bitdikdən sonra Ramil Ramiz oğlu Ramizov Ağdam şəhərinin azad edilməsindəki xidmətlərinə və şücaətinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Ağdamın azad olunmasına görə" medalı ilə təltif olunub.

2020-ci ilin 10 dekabrında Bakıdakı Azadlıq Meydanında keçirilən möhtəşəm "Zəfər paradı"nda iştirak edən cəsur döyüşçülərimiz arasında Ramil də var idi.



# Ramazanov Həzrət Şahin oğlu (1998)

Həzrət Şahin oğlu Ramazanov 28 iyul 1998-ci ildə Xaçmaz rayonunun Arzu kəndində anadan olmuşdur. 2016-cı ildə Xaçmaz rayonu Arzu qəsəbə tam orta məktəbini bitirmişdir.

2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının "təhsildə sosial-psixoloji xidmət" ixtisasına qəbul olunmuşdur.

2019/2020-ci tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək universitetdən məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə fəal olmuşdur.

2020-ci ildə həqiqi hərbi xidmətə yollanan Həzrət Şahin oğlu Ramazanov 44 günlük Vətən müharibəsində cəsarətlə savaşıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

## Rəcəbov Fuad Qaraxan oğlu (1998)



Fuad Qaraxan oğlu Rəcəbov 11 mart 1998-ci ildə Qobustan rayonunun Çalov kəndində anadan olub.

2004-cü ildə Qobustan rayonu Cəyirli kənd tam orta məktəbinin birinci sinifinə daxil olub. Orta məktəbdə oxuduğu müddətdə tarix fənni üzrə keçirilən olimpiadalarda iştirak etmiş, rayon üzrə "Xəmsə" milli intellektual yarışmasında I yer tutmuş, şair Rəsul Rzanın 100 illiyi münasibətilə təşkil olunmuş şeir müsabiqəsində "Fəxri Fərman"a layiq görülmüşdür.

2015-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı Filialının (indiki ADPU-nun Şamaxı Filialı) "tarix və coğrafiya müəllimliyi" ixtisasına qəbul olunub.

Universitetdə oxuduğu illərdə də bir çox intellektual oyunlarda iştirak etmiş, universitetlərarası bilik yarışmasında II yer tutmuş, "Azərbaycan Televiziyası"nda yayımlanan "Mən Azərbaycanlıyam" milli bilik yarışmasında dəfələrlə iştirak edərək yarımfinala vəsiqə qazanıb. Qobustan və Şamaxı rayonlarında keçirilən dövlət tədbirlərində fəal iştirak edib. Universitetdə Tələbə Elmi Cəmiyyətinin qrup üzrə sədri, fəal tədqiqatçı-tələbə olmuş, Tələbə Gənclər Təşkilatında könüllü kimi fəaliyyət göstərmişdir.

2020-ci ildə universitetdən məzun olmuş və Sərhəd Qoşunlarının tərkibində müddətli həqiqi hərbi xidmətə başlamışdır. 8 oktyabr 2020-ci il tarixindən etibarən xidmət etdiyi DSX-nin Xüsusi Təyinatlı Dəstələrinin Çevik Hərəkət Qüvvələrinin tərkibində rabitəçi əsgər vəzifəsində Vətən müharibəsinə qatılıb.

İran İslam Respublikası ilə Azərbaycan Respublikasının 132 km-lik dövlət sərhədlərinin bərpa edilməsində əhəmiyyətli əməliyyatlarda iştirak edib. Əsasən Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının azad edilməsi uğrunda gedən döyüş əməliyyatlarında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları ilə Fuad Qaraxan oğlu Rəcəbov torpaqlarımızın işğaldan azad edilməsində göstərdiyi rəşadətə görə "Cəbrayılın azad olunmasına görə" və "Zəngilanın azad olunmasına görə" medalları ilə təltif edilib. Medallar DSX-nın rəisi, general-polkovnik Elçin Quliyev tərəfindən təqdim edilib.

2021-ci ilin iyul ayında ordu sıralarından tərxis olunub.



# Rəhimli Pərvin Kamil oğlu
# (1997)

Pərvin Kamil oğlu Rəhimli 23 yanvar 1997-ci ildə Yardımlı rayonun Ostayır kəndində anadan olmuşdur.

2003-cü ildə M.A.İmanov adına Ostayır kənd tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. Pərvin məktəbdə nümunəvi bir şagird kimi özünü göstərib.

2012-ci ildə IX sinifi bitirərək Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "informatika müəllimliyi" ixtisasına qəbul olunmuş və 2016-cı ildə təhsilini tamamlamışdır.

Daha sonra həqiqi hərbi xidmətə yollanan Pərvin xidmətinə Goranboy rayonunda yerləşən "N" saylı hərbi hissədə başlamışdır. Hərbi xidməti dövründə hərb işini layiqincə yerinə yetirdiyi üçün dəfələrlə komandanlıq tərəfindən ailəsinə təşəkkür məktubu göndərilmişdir. 2018-ci ilin yanvar ayında xidmətini başa vurmuşdur.

2020-ci ilin sentyabr ayının 21-də döyüş hazırlığını artırmaq məqsədi ilə könüllü olaraq hərbi təlimlərə qatılmışdır.

Pərvin 44 günlük savaşda Füzuli rayonu istiqamətindən döyüşə başlayır, döyüş yolu Hadrutda, Xocavənd rayonunda və Şuşa şəhərində davam etdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Pərvin Kamil oğlu Rəhimli "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Pərvin hazırda Ədliyyə Nazirliyinin Yardımlı rayon İcra və Probasiya şöbəsində baş mütəxəssis vəzifəsində çalışır.

## Rəhimov Ələddin Əli oğlu (1995)



Ələddin Əli oğlu Rəhimov 18 noyabr 199-ci il tarixində Hacıqabul rayonunda anadan olmuşdur.

2002-ci ildə Şirvan Özəl Türk liseyinin birinci sinifinə daxil olmuşdur.

2013-cü ildə liseydə təhsilini tamamlayaraq Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin (Tarix və coğrafiya) "coğrafiya müəllimliyi" ixtisasına qəbul olunmuşdur.
Ali təhsilini tamamladıqdan sonra 2017-2018-ci illərdə hərbi xidmətdə olmuşdur.

21 sentyabr 2020-ci ildən etibarən təlimlərə qatılan Ələddin Füzuli, Cəbrayıl, Hadrut, Xocavənd və Şuşanın azad olunması uğrunda gedən döyüşlərdə xüsusi şücaət göstərmişdir.

44 günlük Vətən müharibəsində döyüşlərdə xüsusi fərqləndiyinə görə Ələddin Əli oğlu Rəhimov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



## Rəsulov Elvin Qubad oğlu (1998)

Elvin Qubad oğlu Rəsulov 1998-ci ilin 24 avqust tarixində İsmayıllı rayonunda anadan olub. 2005-ci ildə İsmayıllı rayonu İ.Həsənov adına 1 nömrəli tam orta məktəbin birinci sinifinə daxil olub. Məktəbdə ictimai fəallığı ilə seçilib.

2016-cı ildə həmin məktəbi bitirərək Azərbaycan Dövlət Pedaqoji Universitetinin İncəsənət və fiziki tərbiyə fakültəsinin "fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı müəllimliyi" ixtisasına daxil olub. Elvin universitetdə fəallığı ilə seçilən tələbə olub. Universitetin Tələbə Gənclər Təşkilatında (ADPU TGT) könüllülük fəaliyyəti göstərib. ADPU TGT-nin Şən və Hazırcavablar Klubunun rəhbəri olub. İctimai fəaliyyəti dövründə bir çox fəxri fərman və diplomlarla təltif olunmuşdur.

2020-ci ildə universitetdən məzun olaraq həqiqi hərbi xidmətə yollanmışdır. Milli Ordu sıralarında kəşfiyyatçı olaraq xidmətə başlayan Elvin sentyabrın 27-də Vətən müharibəsi başlayan zaman könüllü olaraq döyüşlərə qoşulur. Füzuli istiqamətində gedən döyüşlərdə iştirak edərək kəşfiyyatçı əsgər kimi öz döyüş hazırlığını ortaya qoyur. Düşmənin görünməz atəş məntəqələrinə sızaraq onların koordinatlarını Azərbaycan Silahlı Qüvvələrinin artilleriya bölmələrinə ötürərək düşmən mövqelərinin məhv edilməsində xüsusi rol oynamışdır. Cəbrayıl döyüşlərində fəal iştirak edən kəşfiyyatçı burada da öz yüksək döyüş keyfiyyətini göstərərək düşmənin canlı qüvvəsi və texnikasının məhv edilməsində xidmət göstərib.

Cəbrayıl rayonu ərazisində Daşkəsən kəndinin azad olunması zamanı düşmənin ağır artilleriya atəşi altında qalaraq kiçikçaplı qəlpə yarası almasına baxmayaraq Elvin döyüş yoldaşlarını tək qoymayaraq döyüşməyə davam edir.

Xocavənd–Şuşa istiqamətində gedən döyüşlər zamanı düşmənin ağır artilleriya atəşi altında xüsusi döyüş tapşırığını yerinə yetirən zaman yoldaşlarından biri şəhid olur, digəri isə ağır yaralanır. Özünü itirməyən cəsur döyüşçü ilk olaraq şəhid döyüş yoldaşını ərazidən uzaqlaşdırır. Daha sonra Elvin döyüş meydanına qayıdaraq yaralı döyüş yoldaşını belinə bağlayaraq ərazidən uzaqlaşdırmağa çalışdığı zaman mənfur düşmənin atdığı minaatan qəlpəsinə tuş gəlir və sol ayağının baldır nahiyəsindən ağır yaralanır. Yaralanmasına baxmayaraq sona qədər mübarizə aparıb belində daşıdığı yaralı yoldaşını da döyüş meydanından çıxarmağı bacaran qazimiz hal-hazırda müalicə olunur.

## Rəsulov Hüseyn Namiq oğlu (1995)



Hüseyn Namiq oğlu Rəsulov 23 yanvar 1995-ci ildə Bakı şəhərində anadan olmuşdur.

2001-ci ildə Bakı şəhəri 6 nömrəli tam orta məktəbin birinci sinifinə daxil olmuşdur.

2013-2015-ci illərdə həqiqi hərbi xidmətini yerinə yetirən Hüseyn 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin "tarix müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

Vətən müharibəsi başlayandan sonra, 28 sentyabr 2020-ci il tarixində Füzuli-Xocavənd istiqamətində gedən şiddətli döyüşlərə qoşulan Hüseyn, aktiv hərbi əməliyyatlarında iştirak etmişdir.

Döyüşlər zamanı minaatan partlayışı nəticəsində kəllə-beyin travması almışdır.

Torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda göstərdiyi şəxsi şücaətə görə Hüseyn Namiq oğlu Rəsulov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.



## Rəsulov Ümüd Etibar oğlu (1995)

Ümüd Etibar oğlu Rəsulov 9 sentyabr 1995-ci ildə Ağsu rayonunun İlxıçı kəndində anadan olub. 1997-ci ildə ailəsi Şamaxı rayonuna köçüb.

2003-cü ildə Şamaxı rayonu Mədrəsə qəsəbəsi Elxan Rzayev adına tam orta məktəbinin birinci sinifinə daxil olub, daha sonra təhsilini Bakı şəhəri Sabunçu rayonu Nardaran qəsəbə 295 nömrəli tam orta məktəbdə davam etdirib.

2014-cü ildə orta məktəbi bitirərək Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı Filialına (indiki ADPU-nun Şamaxı Filialı) qəbul olunub. Universitetdə təhsil aldığı dövrdə ictimai fəal gənc kimi Ümüd bir çox tədbirlərə qatılıb. ADPU-nun Bakıdakı əsas korpusunda filiallararası intellektual yarışda Ümüdün komandası II yer tutub. Həmçinin AFFA-da könüllülük fəaliyyəti göstərib.

Ali təhsilini tamamladıqdan sonra 2020-ci ilin yanvar ayında həqiqi hərbi xidmətə yollanan Ümüd Gəncədə ilkin hazırlıqlardan keçdikdən sonra Murovdağda xidmətə yollanıb. Təminat bölüyündə Şəhid mayor Rahib Babayevin taborunda xidmət edən gənc əsgər Vətən müharibəsi başlanan andan Murovdağ postlarında düşmənlə üzbəüz mövqelərdə döyüşə başlayıb. Ümüdlə birgə təminat bölüyündə xidmət edən yoldaşlarından bir nəfəri şəhid olur.

Döyüşlərdən sonra Kəlbəcərdə xidmətini davam etdirən Ümüd Etibar oğlu Rəsulov 2021-ci ilin iyulunda ordu sıralarından tərxis olunub.

Azərbaycan Respublikasının işğal altındakı ərazilərinin, xüsusən Kəlbəcər rayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Ümüd Etibar oğlu Rəsulov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə “Kəlbəcərin azad olunmasına görə” medalı ilə təltif edilib.

## Rzayev Sübhan Şahid oğlu
## (1999)




Sübhan Şahid oğlu Rzayev 28 yanvar 1999-cu ildə Qəbələ rayonunun Savalan kəndində anadan olmuşdur. Təhsilini Savalan kənd orta məktəbində və Zarağan kənd tam orta məktəbində almışdır. Savadı, tərbiyəsi, cəsarəti ilə seçilən şagirdlərdən olub.

2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

Ali təhsilini başa vurduqdan sonra 2020-ci ilin iyul ayının 9-da həqiqi hərbi xidmətə yollanan Sübhan Milli Orduda 275 saylı hərbi hissədə avtobölüyündə xidmətə başlayır.

Xidmətinin 79-cu günü Vətən müharibəsi başlayır. Bu zaman Sübhan Xüsusi Təyinatlı Qüvvələrin tərkibinə ezam olunur. Beləliklə, Vətən müharibəsi iştirakçısı olur.

Kəlbəcər və Murovdağ döyüşlərindən sonra Cəbrayıl, Hadrut, Füzuli, Xocavənd, Zəngilan, Şuşa və son olaraq Laçın dəhlizində Xüsusi Təyinatlı Qüvvələrin tərkibində döyüşlərdə olub.



## Sadıqov Əlyar Heydər oğlu (1999)

Əlyar Heydər oğlu Sadıqov 29 iyul 1999-cu ildə Şamaxı rayonunun Qaleybuğurd kəndində anadan olmuşdur. Orta məktəbi həmin kənddə bitirib.

2015-ci ildə Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı Filialının (indiki ADPU-nun Şamaxı Filialı) “tarix və coğrafiya müəllimliyi” ixtisasına qəbul olunmuşdur.

2020-ci ildə universitetdən məzun olduqdan sonra vətən qarşısında borcunu yerinə yetirmək üçün həqiqi hərbi xidmətə yollanır. Əlyar əvvəlcə Ağcabədi rayonunda, daha sonra isə Füzuli rayonunda xidmət edib.

Vətən müharibəsi başlanan andan döyüşlərdə iştirak edən Əlyar 28 oktyabr 2020-ci ildə Füzuli rayonu istiqamətində gedən döyüşlərdə yaralanmışdır. Müalicəsi bitdikdən sonra yenidən hərbi xidmətə qayıdıb və zəfərdən sonra xidmətini Şuşa şəhərində davam etdirib.

Əlyar Heydər oğlu Sadıqov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə torpaqlarımızın azad olunması uğrunda göstərdiyi şücaətə görə “Xocavəndin azad olunmasına görə” medalı ilə təltif edilmişdir.

# Sadıqzadə Savalan Nemət oğlu (1996)



Savalan Nemət oğlu Sadıqzadə 11 sentyabr 1996-cı ildə Sumqayt şəhərində anadan olmuşdur. 2013-ci ildə Sumqayıt şəhər 8 nömrəli tam orta məktəbini yaxşı qiymətlərlə bitirmişdir.

2013-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialı) "ibtidai sinif müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2019-cu ildə ali təhsilini müvəffəqiyyətlə tamamlamışdır.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filial daxili tədbirlərdə, ictimai işlərdə fəal olmuşdur.

Savalan müəllim 44 günlük Vətən müharibəsində cəsarətlə savaşaraq torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir.



# Salmanov Coşqun Yusif oğlu (1997)

Coşqun Yusif oğlu Salmanov 28 dekabr 1997-ci ildə Salyan rayonunda anadan olub. 2004-cü ildə birinci sinifə gedən Coşqun 2015-ci ildə Salyan rayonu Parça Xalaç kənd tam orta məktəbini bitirərək Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinə daxil olmuşdur.

2020-ci ilin sentyabrın 21-də könüllü olaraq təlimlərə qatılıb, daha sonra döyüşə yollanıb.

Coşqun sentyabrın 27-də Ali Baş Komandan cənab İlham Əliyev döyüş əmri verdikdə içində böyük bir qürur hissi olduğunu deyir. Vətən müharibəsinin iştirakçısı sevinib ki, onun da haqq yolunda payı olacaq, o da bu döyüşlərdə iştirak edərək adını şanlı tariximizə yazdıracaq.

Coşqunun könüllü olaraq savaşa qatılmasında əsas qayəsi də bütün igidlərimiz kimi müharibədə şəhid olan bütün qardaşlarımızın, həm dinc əhaliyə qarşı edilən kütləvi soyqırımılarının, həm əfsanəvi general Polad Həşimovun simasında bütün qəhramanlarımızın qisasını almaq, haqqı bərpa etmək olub.

Salmanov Xocavənd rayonu və onun kəndləri uğrunda gedən qanlı döyüşlərdə iştirak edib. Dəfələrlə ölümlə üz-üzə gəlsələr də, qələbə əzmi onu və yoldaşlarını sarsılmağa qoymayıb.

Bu gün Coşqunun ailəsi sevinir ki, övladları torpaq uğrunda döyüşərək qələbə çalıb, qəhramancasına vuruşub.

Döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə Coşqun Yusif oğlu Salmanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif olunub.

# Seyfəddinov Elvin Elsevər oğlu (1997)



Elvin Elsevər oğlu Seyfəddinov 5 iyun 1997-cı ildə Quba rayonunun Bağça-Əli kəndində anadan olmuşdur.

2014-cü ildə Quba rayonu Ə.Vəliyev adına Rustov kənd tam orta məktəbini bitirmiş və Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialı) “tarix və coğrafiya müəllimliyi” ixtisasına qəbul olunmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir.

Bundan əlavə Tələbə Gənclər Təşkilatının sədr müavini kimi aktiv ictimai fəaliyyət göstərmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə, ictimai işlərdə fəal olmuşdur.

Elvin 44 günlük Vətən müharibəsində cəsarətlə vuruşmuşdur. Onun olduğu tabor noyabr ayının 3-də düşmən mühasirəsinə düşür. Xeyli şəhid və yaralı verən tabor noyabrın 4-ü mühasirəni yararaq atəş altından çıxır. Bu ölüm-dirim savaşında Elvin Seyfəddinov də yaralanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə döyüşlərdə göstərdiyi igidlik və şücaətinə görə Elvin Elsevər oğlu Seyfəddinov “Xocavəndin azad olunmasına görə” medalı ilə təltif olunmuşdur.



# Səlimli Pünhan Məmmədkərim oğlu (1994)

Pünhan Məmmədkərim oğlu Səlimli 14 iyul 1994-cü il tarixində İsmayıllı şəhərində dünyaya gəlib. 2000-ci ildə İsmayıllı rayonu Ağa Hüseyn Aslanov adına 2 saylı tam orta məktəbin birinci sinifinə daxil olmuşdur.

Orta məktəbi bitirdikdən sonra 2011-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin (indiki Tarix və coğrafiya fakültəsi) "tarix müəllimliyi" ixtisasına qəbul olunmuş, 2015-ci ildə ali təhsilini müvəffəqiyyətlə tamamlamışdır.

2015-2016-cı illərdə həqiqi hərbi xidmət etmişdir.

Vətən müharibəsinin ilk günlərində, 29 sentyabr 2020-ci ildə Tərtər rayonunda könüllü kimi döyüşlərə qoşulmuş, ehtiyyat briqadada, postların mühafizəsində xidmət etmişdir.

# Səlimzadə Toğrul Ələkbər oğlu (1994)



Toğrul Ələkbər oğlu Səlimzadə 16 fevral 1994-cü il tarixində Abşeron rayonunun Xırdalan qəsəbəsində dünyaya gəlib.

2001-2012-ci illərdə Xırdalan şəhər 9 nömrəli tam orta məktəbdə təhsil alan Toğrul məktəbi bitirdikdən sonra Bakı İdarəetmə və Humanitar Kollecinin "texnoloji mühəndislik" ixtisasına qəbul olunub.

2014-cü ildə təhsilini donduraraq həqiqi hərbi xidmətə yollanıb. Hərbi xidmətdən qayıtdıqdan sonra anasının vəfatı və atasının da xəstə olmasına görə Toğrul təhsilini davam etdirə bilmir və ailəsinə dəstək üçün işləməyə başlayır. Bir müddət sonra təhsilinə davam etmək qərarı verir, lakin əvvəlcədən oxuduğu kollecdə təhsil aldığı ixtisas bağlandığından 2021-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "texnologiya müəllimliyi" ixtisasının IV tədris ilinə qəbul edilir və hazırda ADPK-nın IV tədris ili tələbəsidir.

Vətən müharibəsində cəsurluqla savaşan T.Səlimzadə Füzuli, Qubadlı, Hadrud və Daşaltının azad olunması əməliyyatlarında böyük şücaətlər göstərib.

Toğrul Ələkbər oğlu Səlimzadə torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda göstərdiyi igidliyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Cəsur döyüşçü", "Füzulinin azad olmasına görə" və "Xocavəndin azad olmasına görə" medalları ilə təltif edilib.



## Sərdarov Alı Şahin oğlu
## (1998)

Alı Şahin oğlu Sərdarov 18 avqust 1998-ci ildə İsmayıllı rayonunun Qurbanəfəndi kəndində anadan olub.

2003-cü ildə Qurbanəfəndi kənd tam orta məktəbinin hazırlıq sinifinə daxil olub və 2015-ci ildə həmin məktəbin XI sinifini bitirərək Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı Filialının (indiki ADPU-nun Şamaxı Filialı) "riyaziyyat və informatika müəllimliyi" ixtisasına qəbul olunub.

2020-ci ildə universitetdən məzun olan Alı müddətli həqiqi hərbi xidmətə yollanıb.

2020-ci ilin sentyabr ayında başlayan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının azad olunması uğrunda döyüşlərdə fəal iştirak edib.

Alı Şahin oğlu Sərdarov döyüşlərdə göstərdiyi rəşadətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən "Zəngilanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

## Surxayev Ruslan Faiq oğlu
## (1999)



Ruslan Faiq oğlu Surxayev 8 sentyabr 1999-cu il tarixində Xaçmaz rayonunun Xanoba kəndində dünyaya gəlib.

220 saylı liseydə orta təhsil alan Ruslan 2015-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin Peşə təlimi şöbəsinin "mühasibat uçotu" ixtisasına qəbul olunub. 2019-cu ildə həmin ixtisasdan məzun olub.

Kolleci bitirdikdən sonra 2019-cu ilin iyul ayında həqiqi hərbi xidmətə yollanıb. Əvvəlcə Gəncədə, daha sonra Daşkəsəndə xidmət edən Ruslan Vətən müharibəsində Kəlbəcər istiqamətində qəhrəmanlıqla savaşıb.

Ruslan Faiq oğlu Surxayev torpaqlarımızın azad olunmasında göstərdiyi igidliyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilib.

2021-ci ilin iyulunda ordu sıralarından ehtiyyata buraxılıb.



## Süleymanov Elvin Elşən oğlu (1999)

Elvin Elşən oğlu Süleymanov 19 oktyabr 1999-ci ildə Ağdam rayonunun Eyvazlı kəndində anadan olmuşdur.

2005-ci ildə Eyvazlı kənd tam orta məktəbinin birinci sinifə qəbul olunmuşdur.

Orta məktəbi bitirdiyi 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin "tarix müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

Ali təhsilini başa vurduqdan sonra 2020-ci ildə həqiqi hərbi xidmətə yollanmış, xidmətdə olduğu müddətdə Vətən müharibəsində iştirak etmişdir. Aktiv hərbi əməliyyatlarda xüsusi şücaət göstərmişdir.

Döyüşlərdə fərqləndiyinə görə Elvin Elşən oğlu Süleymanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilib.

# Şahverdiyev Elnur Ələkbər oğlu (1997)



Elnur Ələkbər oğlu Şahverdiyev 1 iyul 1997-ci il tarixində anadan olmuşdur. Elnurun ailəsi əslən Kəlbəcər rayonundandır.

2003-cü ildə Kəlbəcər rayonu 48 nömrəli tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. Orta məktəbdə oxuduğu illərdə fəal şagirdlərdən biri olmuşdur.

Orta məktəbi bitirdikdən sonra 2014-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix fakültəsinin (Tarix və coğrafiya) "tarix və coğrafiya müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

Ali təhsilini tamamladıqdan sonra Vətənə olan borcunu vermək üçün 2019-2020-ci illərdə həqiqi hərbi xidmət keçmişdir.

44 günlük Vətən müharibəsində aktiv döyüş əməliyyatlarında iştirak etmiş, xüsusi şücaət göstərmişdir.

Döyüşlərdə fərqləndiyinə görə Elnur Ələkbər oğlu Şahverdiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Ağdamın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Elnur Şahverdiyev 2021-ci ilin aprel ayında ordu sıralarından tərxis olunmuşdur.



## Şəfayətli Nurlan Rəhman oğlu (1997)

Nurlan Rəhman oğlu Şəfayətli 15 oktyabr 1997-ci ildə Şəki rayonunun Oxud kəndində anadan olmuşdur. 2015-ci ildə Şəki rayonu Oxud kənd tam orta məktəbini bitirmişdir.

2015-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialı) "riyaziyyat və informatika müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2019/2020-ci tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək universitetdən məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə fəal olmuşdur.

Nurlan 44 günlük Vətən müharibəsində cəsarətlə savaşaraq torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir.

Döyüşlərdə fərqləndiyinə görə Nurlan Rəhman oğlu Şəfayətli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilib.

## Şirəliyev Kamran Mirağa oğlu (1992)



Çavuş Kamran Mirağa oğlu Şirəliyev 10 noyabr 1992-ci ildə Ucar rayonunun Bərgüşad kəndində anadan olmuşdur. 1999-cu ildə Ağamusa Mustafayev adına Bərgüşad kənd 1 nömrəli tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. Kamran məktəbdə müəllimləri və şagird yoldaşları tərəfindən sevilən nümunəvi bir şagird olmuşdur.

2010-cu ildə orta məktəbi bitirmiş və həqiqi hərbi xidmətə yollanmışdır. Xidmətinə Gədəbəy rayonunda yerləşən "N" saylı hərbi hissədə başlayan Kamran baş əsgər, manqa komandiri (çavuş), snayperçi kimi vəzifələrdə xidmət etmişdir.

2012-ci ildə xidmətini başa vurmuş və 2013-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinə daxil olmuşdur.

Kamran 2017-ci ildə universitetdən məzun olduqdan sonra Ucar rayonunun M.H.Teymurov adına Boyat kənd tam orta məktəbində, 2019-cu ildən isə həm Boyat kənd tam orta məktəbində, həm də Sehran Salmanov adına Bağman kənd tam orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi pedaqoji fəaliyyət göstərir.

Kamran müəllim 2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsində də iştirak etmişdir. O, Ağdam rayonu istiqamətində gedən döyüşlərdə çavuş vəzifəsində ön cəbhədə müdafiə mövqeyində xidmət etmişdir.

Kamran Mirağa oğlu Şirəliyev göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Ağdamın azad olunmasına görə" medalı ilə təltif edilib.



# Şükürov Anar Aydın oğlu (1999)

Anar Aydın oğlu Şükürov 28 oktyabr 1999-cu ildə Qazaxıstan Respublikasında dünyaya gəlib. 2017-ci ildə Kürdəmir rayonu Karrar qəsəbə tam orta məktəbini bitirib.

2018-ci ilin aprel ayının 24-də həqiqi hərbi xidmətə çağırılıb və Sumqayıt şəhəri Hacı Zeynalabdin Tağıyev qəsəbəsində yerləşən "N" saylı hərbi hissədə xidmətə başlayıb. 2020-ci ilin iyul ayında xidmətini davam etmək üçün Qusar rayonunda yerləşən "N" saylı hərbi hissəyə göndərilib.

Hərbi xidməti başa vurduqdan sonra təhsilini davam etdirmək üçün hazırlıqlara başlamış və 2020-ci ildə keçirilən qəbul imtahanlarında qatılaraq ixtisas seçimini etdikdən sonra sentyabr ayının 21-i hərbi könüllü şəkildə təlimlərdə iştirak etmək üçün Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissədə 5 günlük təlimlərə cəlb olunub.

Sentyabr ayının 27-i başlayan Vətən müharibəsində "Dəmir yumruq" əməliyyatı çərçivəsində Ağdam rayonu istiqamətində gedən hücum əməliyyatlarında iştirak edib.

Hazırda Anar Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin "tarix və coğrafiya müəllimliyi" ixtisasında təhsilini davam etdirir.

## Talıbov Samir Məhərrəm oğlu (1997)



Samir Məhərrəm oğlu Talıbov 17 iyul 1997-ci ildə İsmayıllı rayonunun Minkə kəndində anadan olmuşdur. 2004-cü ildə Füzuli Hüdeyinov adına Minkə kənd tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur. Yeddinci sinifdən sonra Samir təhsilini İsmayıllı rayonu İ.Həsənov adına 1 nömrəli tam orta məktəbində davam etdirir. 2013-cü ildə İsmayıllı rayonu Peşə Liseyinə qəbul olunub. Samir məktəbdə həm müəllimləri, həm də şagird yoldaşları tərəfindən sevilən nümunəvi bir şagird olmuşdur.

2014-cü ildə liseyi əla qiymətlərlə bitirib, 2015-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "informasiya texnologiyaları və sistemləri" ixtisasına qəbul olmuş, amma təhsilini donduraraq həqiqi hərbi xidmətə yollanmışdır. Samir xidmətini Goranboy rayonunun Murovdağ istiqamətində "N" saylı hərbi hissədə yerinə yetirmişdir. Qısa müddətdə göstərdiyi nizam-intizama və fəallığına görə baş əsgər rütbəsi alan Samir xidmət dövründə Fəxri Fərmanla təltif edilmişdir.

2017-ci ildə hərbi xidmətini başa vurduqdan sonra təhsilini davam etdirməyə başlayıb.

Samir Vətən müharibəsi başlandıqdan 3 gün sonra təhsilini yarımçıq qoyub könüllü olaraq döyüşlərə qatılır. O, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdir.

Samir Məhərrəm oğlu Talıbov Cəbrayıl və Zəngilan rayonlarının işğaldan azad olunmasında göstərdiyi şücaətinə və qəhrəmanlığına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Zəngilanın azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları və "Fəxri Fərman"la təltif edilmişdir.



# Tahirov Ayaz Nizaməddin oğlu (1998)

Ayaz Nizaməddin oğlu Tahirov 1 yanvar 1998-ci ildə Quba rayonunun Cağacuğ kəndində anadan olmuşdur. 2015-ci ildə Paşaoba kənd M.Zöhrabov adına tam orta məktəbini bitirmişdir.

2018-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialı) “Azərbaycan dili və ədəbiyyatı müəllimliyi” ixtisasına qəbul olunmuşdur. Hal-hazırda IV tədris ilinin tələbəsidir.

Nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənir, vətəvpərvərdir. Ümumrayon və filialdaxili tədbirlərdə fəaldır.

Ayaz Nizammədin oğlu Tahirov 44 günlük Vətən müharibəsində mərdliklə vuruşmuşdur.

## Vəlizadə Vəli Vasif oğlu
## (1999)



Vəli Vasif oğlu Vəlizadə 10 fevral 1999-cu ildə Abşeron rayonunda anadan olmuşdur.

2005-ci ildə Xırdalan şəhəri 4 nömrəli tam orta məktəbinin birinci sinifinə daxil olmuşdur.

Orta məktəbi bitirdikdən sonra 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsinin “tarix müəllimliyi” ixtisasına qəbul olunmuşdur.

2020-ci ildə ali təhsilini müvəffəqiyyətlə başa vuraraq həqiqi hərbi xidmətə yollanmışdır.

44 günlük Vətən müharibəsi dövründə Tərtər-Suqovuşan-Ağdərə istiqamətində gedən aktiv hərbi döyüş əməliyyatlarında fəal iştirak etmişdir. Döyüşlər zamanı Suqovuşan artilleriya briqadası tərkibində fəaliyyət göstərmiş və xüsusi şücaət göstərmişdir.



## Yaqublu Anar Mirzə oğlu (2001)

Anar Mirzə oğlu Yaqublu 2001-ci ilin dekabr ayının 20-də Masallı rayonunun Köçəkli kəndində dünyaya gəlib.

2008-2019-cu illərdə Sədrəddin Rəhimov adına Köçəkli kənd tam orta məktəbində təhsil alıb.

Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "texnologiya müəllimliyi" ixtisasına qəbul olunub. Hazırda II tədris ili tələbəsidir.

2020-ci ilin yanvar ayında təhsilini donduraraq həqiqi hərbi xidmətə yollanan Anar 44 günlük şanlı Vətən müharibəsində Füzuli, Qubadlı, Cəbrayıl, Zəngilan rayonları və Şuşa və Xankəndi şəhərlərinin azad olunması uğrunda qəhrəmancasına savaşıb. 2021-ci ilin iyul ayında ordu sıralarından tərxis olunub.

Torpaqlarımızın düşməndən azad olunması uğrunda göstərdiyi şücaətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə Anar Mirzə oğlu Yaqublu "Zəngilanın azad olmasına görə" medalı ilə təltif edilib.

# Yusifzadə Yusif Cavanşir oğlu (1992)



Yusif Cavanşir oğlu Yusifzadə 11 iyun 1992-ci ildə Qəbələ rayonunun Kiçik Pirəli kəndində anadan olmuşdur.

2009-cu ildə Qəbələ rayonu Kiçik Pirəli kənd tam orta məktəbini əla və yaxşı qiymətlərlə bitirmişdir.

2009-cu ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba Filialının (keçmiş AMİ-nin Quba Filialı) "tarix və coğrafiya müəllimliyi" ixtisasına qəbul olunmuşdur.

2012/2013-cü tədris ilində həmin ixtisas üzrə tam kursu bitirərək universitetdən məzun olmuşdur.

Təhsil aldığı müddətdə nümunəvi davranışı və tədris göstəriciləri ilə tələbə yoldaşlarından fərqlənmişdir. Ümumrayon və filialdaxili tədbirlərdə, ictimai işlərdə fəal olmuşdur.

Yusif müəllim 44 günlük Vətən müharibəsində cəsarətlə savaşaraq torpaqlarımızın erməni quldurlarından azad edilməsi uğrunda gedən döyüşlərdə igidlik göstərmişdir.



## Zeynalov Babək Asəf oğlu
## (1998)

Babək Asəf oğlu Zeynalov 24 may 1998-ci ildə Sabirabad rayonunun Bulduq kəndində anadan olub.

2005-ci ildə Bulduq kənd məktəbinin birinci sinifinə daxil olub.

Orta məktəbi bitirdikdən sonra 2016-cı ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və Coğrafiya fakültəsinin "tarix müəllimliyi" ixtisasına qəbul olunan Babək 2020-ci ildə ali təhsilini müvəffəqiyyətlə tamamlayıb.

2020-ci ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sabirabad rayon bölməsindən həqiqi hərbi xidmətə çağırılıb. Babək 2 iyul 2020-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində xidmətə başlamışdır.

27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başladığı gün Ağdam rayonu istiqamətində aktiv döyüş əməliyyatlarına qatılıb və döyüşlərdə xüsusi şücaət göstərib.

Ağdamdan əsas cəbhənin yarılmağı mümkün olmadığından Babəkin olduğu tabor oktyabrın 1-dən Tərtər-Suqovuşan istiqamətində başqa birliklərlə bərabər hücum əməliyyatlarına başlayırlar. Oktyabrın 3-də tarixi Suqovuşan kəndi düşməndən azad edilir.

Oktyabrın 4-də Babəkin də daxil olduğu tabor düşmən tərəfdən pusquya salınır. Arasıkəsilməz düşmən hücumu nəticəsində tabor komandiri, qərargah rəisi və 18 nəfər əsgər şəhid olur. Babək də bu ağır döyüşlər zamanı xəsarət almış və bir neçə gün hospitalda qalmış, lakin sonra yenidən ordu sıralarına qatılmışdır.

Torpaqlarımızın azad olunmasında fərqləndiyinə görə Babək Asəf oğlu Zeynalov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif edilib.

# QAYNAQLAR


1. Universitetin şəhid tələbə və məzunlarının ailə üzvləri və yaxınları;
2. Universitetin qazi tələbə və məzunları, onların ailə üzvləri, yaxınları;
3. Universitetin müvafiq strukturlarının, o cümlədən filiallar və ADPK-nın təqdim etdiyi məlumatlar;
4. Tələbə təşkilatları və könüllü tələbələrin topladığı məlumatlar;
5. Anket-sorğu məlumatları;
6. Rüstəmov F.A. Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektorları. Bakı, "Elm və təhsil", 2019, 304 səh.
7. ADPU-nun arxivinin materialları;
8. www.president.az
9. www.mod.gov.az
10. www.dtx.gov.az
11. https://shexsiheyet.mia.gov.az/
12. https://seferberlik.gov.az/
13. www.science.gov.az
14. www.525.az
15. www.muallim.edu.az
16. www.bsu.edu.az
17. https://bsu-uni.edu.az/
18. https://adpuquba.edu.az/
19. www.anl.az
20. www.bakimektebleri.edu.az
21. www.afadgurbanov.az
22. https://az.wikipedia.org/
23. www.facebook.com
24. www.youtube.com
25. Google və Yandex kimi qlobal internet axtarış motorları
26. Digər internet resursları, xəbər portalları

# QEYDLƏR ÜÇÜN

# QEYDLƏR ÜÇÜN

# QEYDLƏR ÜÇÜN

# QEYDLƏR ÜÇÜN

# *QEYDLƏR ÜÇÜN*

# *QEYDLƏR ÜÇÜN*

# QEYDLƏR ÜÇÜN

## *QEYDLƏR ÜÇÜN*

# *QEYDLƏR ÜÇÜN*

# Pedaqoji Universitetin Qəhrəmanları

**(ensiklopedik toplu)**

## Taleh MİRZƏYEV

**Redaktor:**

*Günay BAĞIRLI*

**Korrektor:**

*Könül NƏZƏROVA*

**Dizayner:**

*Elvin VAHİDOV, Turan KƏRİMLİ*

**Fotoqraf:**

*Nurlan SƏMƏDOV*

Azərbaycan Dövlət
Pedaqoji Universiteti


## Universitetlə əlaqə

*AZ1000, Ü.Hacıbəyli 68*
*Tel.: (+994 12) 493 00 32*
*Fax.: (+994 12) 598 37 71*
*E-poçt.: office@adpu.edu.az*
*www.adpu.edu.az*
*adpu.eduaz*
*adpu_edu*
*adputv*

## Tərtibçi ilə əlaqə

*Tel.: ( ): (+994 51) 343 28 22*
*E-poçt: mirzayev.taleh@gmail.com*



| | |
|---|---|
| **Yığılmağa verilmişdir:** | 20.09.2021 |
| **Çapa imzalanmışdır:** | 10.11.2021 |
| **Fiziki çap vərəqi formatı:** | 70x100 1/32 |
| **Fiziki çap vərəqi sayı:** | 9.5 |
| **Tiraj:** | 500 |

**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**nəşriyyatında çapa hazırlanıb,**
**"İnci Group Companies" QSC mətbəəsində**
**hazır fayldan ofset üsulu ilə çap olunub.**